AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
FOLKLOR İNSTİTUTU

# BAKI FOLKLOR ÖRNƏKLƏRİ

## 2-ci kitab

- 18255 -

Azərbaycan Respublikası Prezidentinin
İşlər İdarəsi
PREZİDENT KİTABXANASI

BAKI – 2015

LAYİHƏ RƏHBƏRİ: AMEA-nın müxbir üzvü,
**Muxtar KAZIMOĞLU (İMANOV)**

TƏRTİBÇİLƏR: fil.ü.f.d. **Rza XƏLİLOV**
fil.ü.f.d. **Afaq RAMAZANOVA**

ELMİ REDAKTORU: t.ü.e.d. **Təvəkkül SƏLİMOV-ŞAĞANİ**

**Bakı folklor örnəkləri, 2-ci kitab,** Bakı, Elm və təhsil, 2015, 320 səh.

folklorinstitutu.com

B 4603000000 Qrifli nəşr
N-098-2015

© Folklor İnstitutu, 2015

# TƏRTİBÇİLƏRDƏN

"Bakı folklor örnəkləri" silsiləsindən olan birinci kitabda olduğu kimi, bu kitabın tərtibində də arxiv və fondlarda, jurnal və kitab səhifələrində yer almış materialların bir araya gətirilməsi və sistemləşdirilməsi prinsipi əsas götürülmüşdür.

Kitabın "Qeyd və izahlar" bölümünə nəzər salsaq, onun tərtibində istifadə edilmiş qaynaqlar arasında görkəmli dilçi - alim M.A.Şirəliyevin Bakı dialekti ilə bağlı topladığı materialların, Bakı-Abşeron folklorunun tanınmış toplayıcısı və tədqiqatçısı, tarix üzrə elmlər doktoru Təvəkkül Səlimov-Şağaninin toplama işlərinin əsas yer tutduğunu görə bilərik.

Kitabın daxili quruluşuna gəlincə isə, onun "Başlıqlar" adlı mündəricatından da göründüyü kimi, burada folklorumuzun bir çox janrları — atalar sözləri, tapmacalar, alqış və qarğışlar, bayatılar, nağıllar geniş yer almışdır.

Bakı-Abşeron folklorunun görkəmli və fədakar toplayıcısı O.H.Tahirovun topladığı nağıllar Azərbaycan nağıl fondunun ən gözəl və xarakterik örnəklərini təşkil etməkdədir.

Təqribən əsr yarım bundan əvvəl sənayeləşmə mərhələsinə daxil olan Bakı qısa bir zaman kəsimi ərzində neft sənayesinin sürətli inkişafı ilə Azərbaycanın sənaye, mədəniyyət, təhsil və maarif mərkəzinə çevrildi. Bu da, öz növbəsində, Bakının bir çox mədəniyyətlərin qaynayıb qarışdığı bir yer olmasına gətirib çıxardı. Azərbaycan xalqına əsrlərdən bəri xas olan tolerantlıq burada müxtəlif mədəniyyət və dinlərin dinc şəraitdə yaşamasına və inkişafına münbit şərait yaratdı.

Müxtəlif iqtisadi, sosial səbəblər nəticəsində Azərbaycanın müxtəlif yerlərindən bura yönələn daxili kütləvi köçlər, region əhalisinin özü ilə gətirdiyi yerli şifahi xalq ədəbiyyatı

örnəkləri Bakı folklorunu daha da zənginləşdirdi, öz milliliyini qoruyub saxlamaqda onun imkanlarını daha da artırdı.

Ümid edirik ki, Bakı folklorunun toplanması, sistemləşdirilməsi və nəşr edilməsi istiqamətində görülən işlər bu iki kitabla yekunlaşmayacaq və yeni kitablar hazırlanıb ortaya çıxarılacaqdır. AMEA Folklor İnstitutu bu istiqamətdə böyük və məsuliyyətli bir işin, layihənin yerinə yetirilməsinin başlanğıc mərhələsindədir. Qarşıda Bakı folklorunun canlı dövriyyədən toplanılması, Bakı folklorunun şəhər folkloru örnəyi olaraq araşdırılması kimi mühüm vəzifələr durur.

**Rza Xəlilov**
**Afaq Xürrəmqızı**



# ATALAR SÖZLƏRİ

**A**

Abad kənd yolundan bilinər.
Abır-həya olan yerdə bərəkət də olar.
Abırını yeyib, həyasını belinə bağlayıb.
Abırlı adam abırından qorxar, həyasız nədən qorxar?
Abırsızdan (həyasızdan) abırını saxla.
Aclıq bir il gedər, möhnət min il.
Adam öz evinin ağası da olar, nökəri də.
Ağ ayranı itə tökərlər, qara kişmişi cibə.
Ağ gün adamı ağardar, qara gün qaraldar.
Ağa ağ deyiblər, qaraya qara.
Ağa deyər – sür dərəyə – sür dərəyə!
Ağa dediyin nədir, bəyənmədiyin nədir?
Ağa durub, Ağacan durub.
Ağa gətirər navara, xanım tökər çuvala.
Ağa Nəzərəm, belə gəzərəm,
Hər yumruğa qırxın əzərəm.
Ağac acı, can şirin.
Ağac bar verdikcə, başını aşağı dikər.
Ağac kökündən su içər.
Ağacı qurd içindən yeyər.
Ağacın (şalbanın) iki başı var.
Ağzıəyri boynunun ardından tanınar.
Ağzı çörəyə çatıb (çatmayıb).
Ağzını açıb, gözünü yumur.
Ağzına su alıb (alır).
Ağzından qan iyi gəlir.
Ağzından süd iyi gəlir.
Ağzını qoyub Allah yoluna.

Ağzını həmişə xeyirliyə aç.
Ağız deyəni qulaq eşitmir.
Ağıl ağıldan üstündür.
Ağıl yaşda deyil, başdadır.
Ağıllı bizə rast gəlməz, dəli bacadan düşər.
Ağıllı neylər malı, ağılsız neylər malı?
Ağıllı olub başqalarının fikrini çəkincə, dəli olub qoy başqaları sənin fikrini çəksin.
Ağıllı fikirləşincə, dəli vurdu çayı keçdi.
Ağır otur batman gəl.
Ağlamayan uşağa süd verməzlər.
Ağlına keçə yamayım.
Ağrılarda göz ağrısı, hər kəsin öz ağrısı.
Ağrımayan başa dəsmal bağlamazlar.
Adam ayağını yorğanına görə uzadar.
Adımı sənə qoyum, səni yana-yana qoyum.
Adın nədir Daşdəmir, yumşalısan-yumşalı.
Adamın adamı.
Adamı üzünə tərifləməzlər.
Adamın yerə baxanı, suyun lal axanı.
Adamın gərək baxtı olsun.
Aqil adam xəbərçiyə inanmaz.
Az-az ye, həmişə ye.
Azar (dərd) gələndə batman-batman gələr, çıxanda misqal-misqal çıxar.
Azacıq aşım, ağrımaz başım.
Ay zamana, zamana,
Oxu qoydum kamana.
Eşşəklər arpa yeyir,
At həsrətdir samana.
Ayrılıqdan betər dərd olmaz.



Alıcı quş dimdiyindən bilinər.
Allah adamın ömründən kəsib baxtına calasın.
Allah dağına baxıb qar verər.
Allah sağ əli sol ələ möhtac eləməsin.
Allahsız yerdə otur, böyüksüz yürdə oturma.
Altı daş, üstü daş – yenə oğul çörəyi.
Ana haqqı – tanrı haqqı, – deyiblər.
Ana gəzən ağacı bala budaq-budaq gəzər.
Ana yetimi arsız olar, ata yetimi varsız olar.
Anasına bax, qızını al, qırağına bax, bezini al.
Arsız adam qocalmaz.
Ara söz-söhbəti ev yıxar.
Avazı yaxşı gəlir, oxuduğu Quran olsa.
Arvad iki olanda ev süpürülməmiş qalar.
Arvad yıxan evi fələk də yıxa bilməz.
Arvad papaq deyil ki, başdan-başa qoyula.
Arvadı ahıl gözü ilə, atı cahıl gözü ilə.
Arvadı əri saxlar, pendiri dəri.
Arvadı pis (deyingən) olanın saqqalı tez ağarar.
Arvadın hülqumu (xirtdəyi) olmaz.
Arı yeyib, namusu atıb belinə.
Armudun yaxşısını meşədə ayı yeyər.
Arpa yemiş at mənzilə tez yetişər.
Arxalı köpək qurd basar.
Aslanın nə erkəyi, nə dişisi?
Ata olmayan ata, ana olmayan ana qədrini bilməz.
Ata-anana necə baxarsan, övladın da sənə elə baxar.
Ata minəndə özünü, düşəndə atı unutma.
Atdan düşüb, eşşəyə minməzlər.
Axar su pak olar.
Axsaq atın kor da nalbəndi olar.

Axtaran tapar.
Axşam səbri xeyir olar.
Ayəndə düşər, şənbəyə Novruz.
Açıq qaba it dəyər.
Ac adamın allahı olmaz.
Ac qulağım, dinc qulağım.
Ac ol, kişi ol.
Ac toyuq yuxuda darı görər.
Acı sözü bir batman balnan da yemək olmaz.
Acıqlı (hirsli) başda ağıl olmaz.
Acılıqdan yemək olmur, şirinlikdən atmaq olmur (övlad haqqında).
Aşna-aşna, axırı çıxdı ocaq başına.

**B**

Bağ bağbansız olmaz, dəvə sarbansız.
Bağ salan barın yeyər.
Bağa baxarsan bağ olar, baxmazsan dağ olar.
Bağa çanağından çıxdı, çanağını bəyənmədi.
Bağanı ya öldür, ya da dalı üstə çevir.
Balıq başından iy verər.
Balıq sudan çıxdı, öldü.
Bar verməyən ağaca daş atmazlar.
Başa düşənə can qurban.
Başı əlhəd daşına dəyməyib.
Başını yarıb, ətəyinə qoz tökür.
Başına gələn başmaqçı olar.
Beş barmağın beşi də bir deyil.
Beşdə alacağı yox, üçdə verəcəyi.
Bəy verən atın dişinə baxmazlar.
Bəy dediyin nədir, bəyənmədiyin nədir?



Bəylə bostan əkənin tağı çiynində bitər.
Bəlasını mən çəkdim, səfasını ellər.
Bəlkəni əkiblər, bitməyib.
Bərəkət hərəkətdir.
Baxtun yatdı, sən də yat.
Bəxşiş var xalvarla, hesab var dinarla.
Bildirçinin bəyliyi darı qurtarana qədərdir.
Bilənə bir tikə.
Bir ağaca çıxıb, minbir budağı silkələmə.
Bir-birinin bəhsinə, qılınc olar tərsinə.
Bir dəli bir quyuya daş atdı, min ağıllı çıxara bilmədi.
Bir əldə iki qarpız tutmaq olmaz.
Bir "yeyirəm" deyəndən, bir də "yemirəm" deyəndən qorx.
Bir gül ilə bahar olmaz.
Bir gün yaranan bir gün öləcək.
Bir şeyi verib pis olunca, verməyib pis ol.
Biri od olanda, o biri su olar.
Biri ölməyincə, biri dirilməz.
Biri bağını qıydı, o biri salxımı qıymadı.
Birlik harada, dirilik orada.
Borclu borclunun sağlığını istər.
Böyüyü olmayanın dini, imanı olmaz.
Böyüyün ağlı, kamalı gərəkdir.
Böyüyün saymayanı, böyüyəndə saymazlar.
Böyük öz böyüklüyünü saxlamasa, el-obanın nə günahı.
Böyük olmaq üçün böyüklərlə oturub-durmaq azdır.
Böyük sənə nə deyir, cavab ver "bəli", "xeyir".
Böyük var ki, böyükdür, böyük var elə yükdür.
Böyük insafsızlıq edəndə kiçik söz qaytarar.
Böyüyə böyük deyiblər, kiçiyə kiçik.
Böyüksüz evdə xeyir-bərəkət olmaz.

Buğda çörəyin yoxdur, buğda dilin olsun.
Buynuzsuz qoçun qisası buynuzlu qoçda qalmaz.
Buyur-buyurla iş ötməz.
Burada ala qarğa bala çıxartmaz.
Burada vurar qılıncı, fələkdə oynayar ucu.
Burnun girməyən yerə başını soxma.

C

Can de, can eşit.
Cəfa çəkməyən səfa görməz.
Cidanı çuvalda gizlətmək olmaz.

Ç

Çağırılan yerə ar eləmə, çağırılmayan yeri dar eləmə.
Çıraq öz dibinə işıq salmaz.
Çıxan qan damarda qalmaz.
Çıxan ox geri qayıtmaz.

D

Dad yarımçıq əlindən.
Dağı dağ üstünə qoyub.
Dadananla quduran bir olur.
Dadımlıqdır, doyumluq deyil.
Daldan atılan daş topuğa dəyər.
Dama-dama göl olar, dada-dada heç.
Damara baxıb qan alarlar.
Daş atıb başını tutur.
Daşdan yumşaq nə versən, yeyər (yeyərəm).
Daşı ətəyindən tök (tökmür).
Demişəm, deməmiş olum.



Dedilər: – qardaşın necə adamdır? Dedi: – yoldaşlıq (dostluq) eləməmişəm.

Dedilər: – Əzrail uşaq paylayır. Dedi: – Özününkü özünə qalsın, mənimkinə dəyməsin.

Demək olmur ki, gözün üstə qaşın var.

Dəvə kinli olar.

Dəvə kimi kinlidir.

Dəvəni görmürsən? Heç qığını da görməmişəm.

Dəvə nalbəndə baxan kimi baxır.

Dəvə oynayanda qar olar.

Dəvədən böyük fil var.

Dəvədən düşsə də höt-hötündən əl çəkmir.

Dəvəyə dedilər, boynun əyridir, dedi ki, haram düzdür boynum da düz olsun.

Dəvəyə Allah qanad versəydi, uçurmamış dam qoymazdı.

Dəvəni eşşəyin quyruğuna bağlayır.

Dəvəni yükü ilə, sarbanı ipi ilə.

Dəvəni çömçə ilə suvarır.

Dəvənin quyruğu yerə dəyəndə.

Dəvəsi ölmuş ərəbdir (ərəbəm).

Dəvəçi ilə dost olanın darvazası gen gərək.

Dədəm mənə "kor" deyib, gəlib-gedəni "vur" deyib.

Dənizə getsə, dənizi qurudar.

Dəyirman bildiyini edər, çax-çax baş ağrıdar.

Dəyirman xoruzu kimi qırqırmızıdır (Dəyirman xoruzuna dönüb).

Dəyirmanın boğazına ölü salsan, diri çıxar.

Dəymə mənə, dəyməyim sənə.

Dəymədüşərdir.

Dəli qırmızı sevər, gic sarı.

Dəliyə hay ver, əlinə bel.

Dəli inəyin dəli buzovu olar.
Dəlidən doğru xəbər.
Dəliyə nə bayram.
Dəlinin yadına daş salma.
Dəlləkliyi mənim başımda öyrənir.
Dəmdəm halvası deyil ki.
Dəmiri isti-isti döyərlər.
Dəniz tufansız olmaz.
Dənizdə (suda) batan saman çöpündən yapışar.
Dərd-dərd üstündən gələr.
Dərziyə dedilər yığış köç, iynəsini sancdı yaxasına.
Dərya (dəniz) murdarlıq götürməz..
Dəryada balıq sövdası.
Dəryada bir damcı.
Divarı nəm, insanı qəm yıxar.
Dil çaşıb düzünü deyər.
Dilotu yeyib.
Dili varsa, dilçəyi də var.
Dili topuq çalır.
Dilim-dilim olasan, dilim.
Dinindən dönər, malından dönməz.
Dini olmayanın imanı da olmaz.
Dinsizin öhdəsindən imansız gələr.
Diriyə hay verməz, ölüyə pay.
Dovşana qaç deyir, tazıya tut.
Dovşanı araba ilə tutur.
Dozanqurdunun balası da özü üçün əzizdir.
Dolu dəryaya yağar.
Donuzdan bir tük də qənimətdir.
Dost arası pak gərək.
Dost başa baxar, düşmən ayağa.



Dost-düşmən dar gündə bilinər.
Dost-dosta tən gərək, tən olmasa gen gərək.
Dost dostu dar gündə sınayar.
Dost dostun eybini üzünə deyər.
Dost ilə, qohum ilə alver etmə.
Dost gəlişi bayram olar.
Dost min olsa, azdır, düşmən bir olsa, çoxdur.
Dövlətdə dəvə, övladda nəvə.
Düz-çörək – düz çörək.
Düz söz acı olar.
Düz söz daşdan keçər.
Düzəldi hər yarağımız, qaldı saqqal darağımız.
Dünən yumurtadan çıxıb, bu gün bizə cip-cip öyrədir.
Dünəndən danışma, bu gündən danış.
Dünya bir pəncərədir, hər gələn baxar gedər.
Dünya gör-götür dünyasıdır.
Dünya malı dünyada qalacaq.
Dünya xali deyil, dünyada hər şey alınıb-satılır, namusdan başqa.
Dünyada ən böyük nemət can sağlığıdır.
Dünyanın işini necə tutsan, elə də gedər.
Dünyaca gözəlliyin olunca, bir balaca (zərrəcə) bəxtin olsun.
Düşmənə bel bağlama.

## E

Ev bizim, sirr bizim.
Ev böyüksüz olmasın.
Ev sözsüz olmaz, gor əzabsız.
Evdə bişməyib, qonşudan gəlməyib.
Evi abad edən arvaddır.
Evin yaraşığı uşaqdır.

Eybi eylər eybəcər, soğanı yeyər dərdəcər.
Eyibsiz gözəl olmaz.
El ağzı faldır.
El atan daşa güc çatmaz.
El gücü – sel gücü.
El sevəni aləm sevər.
Elin sözü əvvəl-axır düz olar.
Elə söz deyərəm ki, dəymişin qalar, kalın tökülər.
Elm zəhmət ilə əmələ gəlir.
Elçiyə zaval yoxdur.
Erkək atın yəhəri yırtıq olar.
Ehtiyat igidin yaraşığıdır.
Ehtiyatlı oğlun anası ağlamaz.
Eşşək nə bilir zəfəran plov nədir.
Eşşək palçığa bir dəfə batar.
Eşşəyə min, ata çatınca.
Eşşəyə qızıl noxta taxsan da, yenə eşşəkdir.
Eşşəyə dedilər ki, mərifətini göstər, yıxılıb ağnadı.
Eşşəyə gücü çatmır, palanı döyür.
Eşşəyə minmək bir eyib, düşmək iki eyib.

**Ə**

Əvvəl düşün, fikirləş, sonra danış.
Əvvəl (birinci) evin içi, sonra bayırı.
Əvvəl yoldaş, sonra yol.
Ədəb (qanacaq, mərifət) bazarda satılmaz.
Ədəbi kimdən öyrəndin? – Ədəbsizdən.
Əyri oturub, düz danışaq.
Əgər varındır, aləm yarındır.
Əl-ələ verməklə dağı dağ üstünə qoymaq olar.
Əl yananda ağıza təpərlər (soxarlar).



Ələyi ələnib, xəlbiri göydə sovrulur.
Əlindən gəlsə, adamı bir qaşıq su ilə boğar.
Əlisi dəli, Vəlisi dəli, qırılmışın hamısı (gic) dəli.
Əmanət ata minən tez düşər.
Əmanətə xəyanət olmaz.
Ən böyük dərd nadanlıqdır (cahillikdir).
Ən böyük nemət cansağlığıdır.
Əgər ki, mari olmasa, yatmağa qaya kölgəsi.
Ər-arvadın savaşı, yaz günün yağışı.
Ərəb öldü, qan düşdü.
Ərlə arvadın torpağı bir yerdən götürülür.
Ərsiz arvad cilovsuz atdır.
Əslini danan namərddir.
Əti dırnaqdan ayırmaq olmaz.
Ətyeyən quş dimdiyindən bilinər.
Ətəyinə qoz töküb başına qapaz vurar.

**F**

Fürsəti fotə verən aqil deyil, divanədir.

**G**

Getdik kabab iyinə, gördük eşşək dağlayırlar.
Gecənin (axşamın) xeyrindən gündüzün şəri yaxşıdır.
Gedən ayağa daş dəyər.
Gədadan bəy olmaz.
Gəldi əcəl, verməz macal.
Gəlin ocağa çəkər.
Gəmidə oturub gəmiçi ilə dava eləməzlər.
Göz gördüyündən qorxar.
Göz görməsə, ürək bulanmaz.
Gözəl eyibsiz olmaz.

Gözəllik ondur, doqquzu dondur.
Gözdən pərdə asır.
Görəndə xalam-xalam.
Görməyəndə... xalam.
Görünən kəndə nə bələdçi.
Gülmə qonşuna, gələr başına.
Gündüz gəzər obanı, axşam ağrar dobanı.
Güc birlikdədir.
Gücün çatmayan işə girişmə.
Gücüvə bax, şələvü tut.

**H**

Haqq incələr, amma üzülməz.
Haynan gələn vaynan gedər.
Haram vurub halalı da aparar.
Harda hərəkət, orda bərəkət.
Halva-halva deməklə ağız şirin olmaz.
Halvaçı qızı daha şirin.
Heç kəs arxasız ( köməksiz ) olmasın.
Heç kəs öz ayranına turş deməz.
Həyasızdan həyanı saxla.
Hənək-hənək axırı dəyənək.
Hər arvad (adam) öz evinin həm xanımı, həm də qulluqçusu olmalıdır.
Hər aşiqin bir dövranı var.
Hər kəsin balası öz gözündə gözəldir.
Hər gülün-çiçəyin bir ətri var.
Hər saatın bir hökmü var.
Hər saqqalı ağarmışa "ağsaqqal" deməzlər.
Hər sözün öz yeri var.
Hər şeyə ortaq ol, mala yox.



18255

Hər cəfanın bir səfası var.
Hər şey öz vaxtında.
Hər şeyin təzəsi, dostun köhnəsi.
Hər şeyin xiridarı gərəkdir.
Hirsin (acığın) cana ziyanı var.

**X**

Xain xoflu olar.
Xalqa it hürər, bizə çaqqal.
Xalqın ağzını bağlamaq olmaz.
Xeyirlə şər qardaşdır.
Xeyir işi yubatmazlar.
Xəncər yarası sağalar, dil yarası sağalmaz.
Xəstə ( naxoş ) tələsər, ancaq armud vaxtında yetişər.

**İ**

İynə batırana çuvalduz batırar.
İynə ilə gor qazır.
İki ayağını bir başmağa soxur.
İki arvadlı ev süpürülməmiş qalar.
İki qoçun başı bir qazanda qaynamaz.
İki eşşəyin arpasını bölə bilmir.
İgid basdığını kəsməz.
İgid ölər, adı qalar, müxənnətin nəyi qalar?
İgidə dar ayaqda sözü arxa olar.
İgidin başı qalda görək.
İlan vuran ala çatıdan qorxar.
İlan vuran yatar, ac yatmaz.
İlan ulduz görməsə, ölməz.
İlanı Seyid Əhməd əli ilə tutur.
İlanın ağına da lənət, qarasına da.



PREZİDENT KİTABXANASI

İlanı görənə lənət, görüb öldürməyənə lənət, öldürüb basdırmayana lənət.
İlanı basmasan, sancmaz.
İnsan (adam) dost-düşmənin tanımalıdır.
İnsan çiy süd əmib.
İnsaf da dinin yarısıdır.
İslanmışın yağışdan nə arı.
İstədiyi yar idi, yetirdi pərvərdigar.
İstəyənin bir üzü qara, verməyənin iki üzü.
İsti çörək təndirdən, minnəti yox pendirdən.
İt əqrəb kölgəsində yatar, elə bilər öz kölgəsidir.
İt qulaq kəsəndən qorxar.
İt qursağı yağ götürməz.
İt də getdi, ip də.
İt dəmirçi dükanından nə aparar?
İt əl çəkdi, motal əl çəkmədi.
İt-itin ayağını (quyruğunu) basmaz.
İt-pişik kimi yola gedirlər.
İt hürər, karvan keçər.
İtə hörmət edərlər, yiyəsi xatirinə.
İti öldürənə sürütdürərlər.
İtin axmağı qaysavadan pay umar.
İçim özümü yandırır, çölüm özgəni.
İş insanın cövhəridir.
İş (söz) danışıqdan keçər.
İş olan yerdə nöqsan da olar.
İş ziyana gedəndə yiyəsi şərik olar.
İşin düşdü arvada, ölən günü sal yada.
İşləyən dəmir pas atmaz.
İşləməyən dişləməz.
İştəha diş altındadır.



K

Kabab qanlı, igid canlı.
Kasıb pul tapdı, qoymağa yer tapmadı.
Kasıbın işi-gücü dövlətlinin pulunu saymaq olur.
Keçənə güzəşt deyərlər.
Keçi öldü, qoturu qurtardı.
Keçinin başı gicişəndə buynuzunu çobanın çomağına sürtər.
Kəlləpaça suyu üçün Hövsana gedər.
Kim dərs almaz böyükdən,
Fərqi azdır kötükdən.
Kim neyləsə, özünə edər.
Kim nə əkərsə, onu da biçər.
Kiminin əvvəli, kiminin axırı.
Kiçiyin kiçik dərdi var, böyüyün böyük dərdi.
Kiçiyin kiçik yeri var, böyüyün böyük yeri.
Kirimiş yağış çox yağar.
Kişi öz sözünün ağası (sahibi) olar.
Kişi sözü üzə deyər.
Kişi tüpürdüyünü yalamaz.
Kor kora kor deməsə, bağrı çatlar.
Kor gözündən qorxar, keçəl başından.
Kor nə istər – iki göz: biri əyri, biri düz.
Kor tutduğunu buraxmaz.
Könlü balıq istəyən quyruğunu suya vurmalıdır.
Könül sevən göyçək olar.
Köhnə kəndə təzə nırx qoyma!
Köhnə yurdun qədrini təzə yurdda bilərlər.
Köç qayıdanda keçinin axsağı qabağa düşər.
Küçük hürə-hürə köpək olar.

## Q

Qabağa gedirsən bic köpək oğlu, dala qalırsan gic köpək oğlu.

Qab qarası gedər, üzqarası getməz.

Qayış nə bilir öküz nə çəkir.

Qalalı atıdır, həm axurdan yeyər, həm torbadan.

Qanana can qurban

Qanı qan ilə yumazlar.

Qar yerin yorğanıdır.

Qarğa qarıldayanda qar yağar.

Qarı düşmən dost olmaz.

Qarnım üçün deyiləm, qədrim üçünəm.

Qatıq dağılsa yeri qalar, ayran dağılsa nəyi qalar?

Qaş düzəltdiyi yerdə, vurdu gözünü də çıxartdı.

Qaşıyıram qanım çıxır, qaşımıram canım çıxır.

Qaşınmayan yerdən qan çıxarır.

Qazancını çörəyə ver, artığını qırağa qoy.

Qəza bəd gələndə quymaq da diş çıxardar.

Qəlyan əkəni ilan vurmaz.

Çömçə tutan sənə sarıdır.

Qərib itin quyruğu paçasının arasında olar.

Qəriblik cənnət olsa, yenə vətən yaxşıdır.

Qismətdən artıq yemək olmaz.

Qız qapısı – şah qapısı.

Qız yükü – duz yükü.

Qız özgə çırağını yandırandır.

Qızı özbaşına qoysan, ya halvaçıya gedər, ya da zurnaçıya.

Qızım, sənə deyirəm, gəlinim, sən eşit.

Qırxında zurna öyrənən gorunda çalar.

Qoduq böyüdükcə çulu da böyüyür.

Qozbeli qəbir düzəldər.



Qoy şələni, gəl vuruşaq.

Qoyunu qoyun, keçini keçi ayağından asarlar.

Qoyunu qurda tapşırıb.

Qoltuğuna qarpız yerləşmir.

Qonaq süfrənin yaraşığıdır.

Qonaq Allah qonağıdır.

Qonağın ruzusi özündən qabaq gələr.

Qonşuda bişər, bizə də gələr.

Qonşu qonşuya tən gərək, tən olmasa gen gərək.

Qonşuda qız sevənin ürəyində yağ olmaz.

Qonşuya ümid olan şamsız qalar.

Qonşun pisdir, köç qurtar.

Qonşunu ikiinəkli istə ki, özün də birinəkli olasan.

Qorxan gözə çöp düşər.

Qohum-qohumun ətini də yesə, sümüyünü atmaz.

Qocaya gedən quyruq yeyər, cavana gedən yumruq.

Quyuya su tökməklə quyu sulu olmaz.

Quyruğunu kəsməklə tula köpək olmaz.

Qul vurdu özünü öldürdü ki, ağama zərər olsun.

Qulaq gündə təzə söz eşitməsə kar olar.

Qurd balası qurd olar.

Qurdu nə qədər bəsləsən də, bir gözü meşədə olar.

Qurd nə bilir ki, qatır bahadır.

Qurd ürəyi yeyib.

Qurd ağacı içindən yeyər.

Qurddan qorxan meşəyə getməz.

Qurunun oduna yaş da yanar.

Quru palçığı divara yaxır.

Quş dimdiyindən, insan dilindən tələyə düşər.

Quşu quş ilə tutarlar.

Qürbət yerdən vətən olmaz.

## L

Lalın dilini anası bilər.
Ləbləbi – el dəbi.
Lotunun dilini lotu bilər.

## M

Mal-dövləti yox oğru apara, imanı yox şeytan apara.
Malım mal olunca, bazarım bazar olsun.
Malını bəylər apardı, *camalına* nə oldu? (Malımızı bəylər aldı, camalımızı da almayacaqsız ki?)
Meşəyə gedən qurddan (canavardan) qorxmaz.
Məni sayanın quluyam, saymayanın ağası.
Mərdi qova-qova namərd eləməzlər (edərlər).
Mərdimazar axtarmaqla deyil, rast gəlməklədir.
Məsləhətli don gen olar.
Məscid tikilməmiş kor əsasını dayadı.
Məscidin qapısı açıq olar, itin həyasına nə gəlib?
Milçək bir şey deyil, ancaq ürək (könül) bulandırır.
Milçək şirəyə yığılar.
Minə dözən (yüzə dözən) min birə də (yüz birə də) dözər.
Mis ya sındı, ya cingildədi.

## N

Nağdı qoyub nisyə dalınca qaçma.
Namusu itə atdılar, it də yemədi.
Nahaq qan yerdə qalmaz.
Neyləyirəm qızıl teşti ki, içinə qan qusacağam.
Nə doğrarsan çanağına (nə tökərsən aşına), o da çıxar qaşığına.
Nə əkərsən, onu da biçərsən.
Nə it yiyəsidir, nə də gön yiyəsi.



Nə Allahdan qorxar, nə bəndədən utanar.
Nər yükünü nər çəkər.
Niyyətin hara, mənzilin ora.

## O

Ortada yeyib qıraqda gəzir.
Oğru elə bağırdı ki, doğrunun bağrı yarıldı.
Oğru elə bilər ki, hamı oğrudur.
Od yanmasa, tüstü çıxmaz.
Ot kökü üstə bitər.

## Ö

Övladda nəvə, dövlətdə dəvə.
Öz gözündə tiri görmür, başqasının gözündə qıl axtarır.
Özü yıxılan ağlamaz.
Özü üçün əriştə kəsə bilmir, başqasına umac ovur.
Özünə hörmət eləməyən, başqasına heç eləməz.
Ölmə eşşəyim, yonca bitincə.
Ölməz Xədicə, görər nəvə-nəticə.
Ölü eşşəyin nalı üçün gəzir.
Ölüm qaş ilə göz arasındadır.
Ölüm haqdan, kəfən Məmmədcəfər bəydən.
Ölüm haqdır.
Ölümdən başqa hər şeyə çarə var.
Ölənə hay verməz, diriyə pay.
Ölənin dalıyca danışmazlar.
Örkən nə qədər uzun olsa da, yenə doğanaqdan gəlib keçəcək.
Örtülü bazar dostluğu pozar.
Örüşdə otlayan dananın ağzına qanqal tikanı batmaz.

**P**

Palaza bürün, elnən sürün.
Papaq isti-soyuq üçün deyil, namus üçündür.
Pir mənimdir, kəramətini bilirəm (bələdəm).
Pişik balasını istədiyindən yeyər.
Pişiyin ağzı ətə çatmayanda, deyər "iy verir".

**S**

Saqqalım yoxdur, sözüm keçmir.
Sağ göz sol gözə möhtac olmasın (Allah sağ gözü sol möhtac etməsin).
Sağlamlıq (cansağlığı) ən böyük nemətdir (sərvətdir).
Salavat gücə bağlıdır.
Saman sənindir, samanlıq da sənin deyil ki?...
Saxla samanı, gələr zamanı.
Səbr elə, halva bişər ey qora səndən,
Bəsləsən atlaz olar tut yarpağından.
Səbr Allahın adıdır.
Sən duza gedəndə mən duzdan gəlirdim.
Sirkə nə qədər tünd olsa, öz qabını sındırar.
Sifariş ilə həcc qəbul olunmaz.
Soğan yeməmisənsə, için niyə göynəyir?
Soğan olsun, nəqd olsun.
Soyub-soyub quyruğunda qoymazlar.
Sonrakı peşmançılıq fayda verməz.
Söz var el içində, söz var ev içində.
Söz var gələr keçər, söz var dələr keçər.
Söz-sovsuz ev olmaz.
Sözü ağzında bişir, sonra danış.
Sözü at, sahibi götürəcək.
Sözü məqamında deyərlər.



Sözün düzünü zarafatla deyərlər.
Söhbət dananı qurda verər.
Su aydınlıqdır.
Su axıb çuxurun tapar.
Su qabı suda sınar.
Su girdi qaba oldu içməli.
Su gərək quyunun dibindən çıxsın.
Su murdarlıq götürməz.
Südlə gələn sümüklə çıxar.

**T**

Taylı tayını tapmasa, günü ah-vayla keçər.
Tamarzıdan al, dadanmışa ver.
Tamahı böyüklər böyüməsə yaxşıdır.
Tamahkarı yalançı aldadar.
Tanrı (Allah ) bir yandan bağlasa da, bir yandan açar.
Tək əldən səs çıxmaz.
Tələsən təndirə düşər.
Tikan əkən gül dərməz.
Tikə ilə dost olan illərlə küsülü qalar.
Toxun acdan nə xəbəri?
Tula itdən murdardır.

**U**

Uzaqdan baxana dava asan görünər.
Uzun adamın ağlı dabanında olar.
Ulu ( ağsaqqal ) sözünə baxmayan ulaya-ulaya qalar.
Uman yerdən küsərlər.
Ustadına gəc baxanın gözlərinə qan damar.
Ucuz ətin şorbası olmaz.
Uşaq adamı düşmən qapısına göndərər.

Uşaq vardı-yoxdu bilməz.
Uşaqlı evdə qiybət olmaz.
Uşağa buyur, dalınca yüyür.

Ü

Üz üzdən utanar.

V

Vay ölənin halına.
Varını verən utanmaz.
Varlığa nə darlıq?
Vaxtsız açılan gül tez solar.
Vaxtsız banlayan xoruzun başını kəsərlər.
Vaxtsız qonaq öz kisəsindən yeyər.

Y

Ya vəlvələdən, ya zəlzələdən.
Ya dalına min, ya da daluva mindir.
Ya dəvə ölər, ya da dəvəçi.
Ya əlimi kəs, ya ətəyimi.
Ya ağıl, ya mal, ya camal.
Yavan (ucuz) ətin şorbası olmaz.
Yağışdan çıxıb yağmura düşdük.
Yağmasa da guruldayır.
Yazda çalan qışda oynayar.
Yazıdan qaçmaq olmaz.
Yazılan pozulmaz.
Yalan ayaq tutar, ancaq yeriməz.
Yalan üz qızardar.
Yalanın ömrü az (40 gün) olar.
Yalançının yaddaşı olmaz.
Yaman günün ömrü az olar.



Yatmış ilanın quyruğunu tapdalamazlar.
Yaxşı at qabağı gözlər, yaxşı igid dalı.
Yaxşı oğul dayısına çəkər, xanım qız xalasına.
Yaxşı igidin adını eşit, üzünü görmə.
Yaxşı dost pis gündə bilinər.
Yaxşı mal yerdə qalmaz.
Yaxşı (fərli) oğul neylər ata malını.
Yaxşılığa yaxşılıq hər kişinin işidir.
Yamanlığa yaxşılıq nər kişinin işidir.
Yaxşılıq et at dəryaya, balıq bilməsə də xaliq bilər.
Yaxşılıq et, ancaq başa qaxınc etmə.
Yaşı çox olana böyük demirlər.
Yaşnan deyil, başnandır.
Yeməmisən qaz ətini, görməmisən ləzzətini.
Yeməklə doymayan, yalamaqla doymaz.
Yeməyin (xörəyin) dadı duzdadır, dünyanın dadı gözdədir.
Yetimə gəl-gəl deyən çox olar, çörək verən az.
Yıxılan ağaca balta vuran çox olar.
Yol böyüyündür, su kiçiyin.
Yorğanına görə ayağını uzat (uzadar).
Yuxarı tüpürürəm bığ, aşağı tüpürürəm saqqal.
Yüz eşitməkdən, bir görmək yaxşıdır.

Z

Zər qədrini zərgər bilər.
Zərərin yarısından qayıtmaq da xeyirdir.
Zirəyə getdin çörək götür,
Zirədən çıxdın ayaq götür.
Zirək (çoxbilmiş) quş dimdiyindən qələyə düşər.
Zora əyilməyən baş böyüklər qarşısında əyilər.
Zorən təbib olmaz.

## TAPMACALAR

Dağdan gələr duduğ sui,
Heş kes uni dada bilmez,
Cülfə toxar ənni bezi,
Heş kes uni giə bilmez.
**(Hörümçək)**

Şişədən qalə gördim,
Əfsun olmış unda ab.
Çıxar zərrin top kimi,
Fet eylər uni aftab.
**(Navalçadan asılmış buz yığını)**

Bir süri atdar çəməndə otdar,
Baxdi çatanda, çinədani patdar.
**(Pambıq)**

Ətinnən kabab olmaz,
Qanınnan kasa dolmaz
**(Nar)**

Dağdan gəlir dağ kimi,
Qollari budağ kimi,
Əgilir su içmegə,
Begirir ulağ kimi
**(Mancalağ)**

Bir balaca maddaşi,
Yandıru daği-daşi
**(İstiot)**

Bir balaca boi var,
Qırmızıdan doni var.
**(İnnab)**

Bir balaca boi var,
Hər gecədə toyi var.
**(Lampa)**

İgnə gözinnən baxaram,
Cümlə cahani yıxaram.
**(Tüfəng)**

Sarıdu, zəfəran dögür.
Yazılıdu, kitab dögür.
**(Qızıl)**

Bırdan vırram qılınci.
Fələkdə oynar uci.
**(İldırım)**

Atamun bir doni var,
qətdeməg olmaz,
Cibində puli var, sanamağ
olmaz.
**(Göy və ulduz)**



Uyani qaya, bıyani qaya,
İçində sari maya.
**(Yumurta)**

Yetmiş des paltar giyib,
Tikilmemiş, dügmesiz.
**(Kələm)**

Qaradu, qarğa dögü,
Qənəti var, quş dögü,
Özü də iy bilir,
Tula dögü.
**(Qaraqurd)**

Dövə dobani,
Gəzər obani,
Altı qıçı var,
İki dobani.
**(Tərəzi)**

Dilim-dilim nar,
Dizimecən qar,
Uşdu bir keklig,
Qondi bir dilbar.
**(Buğda)**

Gün çıxır laxdələnir,
Qapılar taxdələnir,
Bakiyə bir at gəlir,
Əlli yerdən noxdələnir.
**(Paravoz)**

O nədi ki, başın kəsməsön,
yeriməz.
**(Qələm)**

Yügri-yügri yımırtdar.
**(Cəhrə)**

Mən diyannam, o gidər.
**(Səs)**

Mən gidərəm, o qalu.
**(Ləpir, iz)**

Bacadan düşdü şap elədi,
Göhər oni happ elədi.
**(Siçan, pişik)**

Bir beləcik boyi var,
Al xaradan doni var.
**(İydə)**

Bir belə lil daşi,
Yandıru daği, daşi.
**(İstiot)**

Tat tati götürü.
Tat oğlın götürü.
Oğli yarpağ götürü.
Yarpağ torpağ götürü.
**(Taxta-şalban)**

Hap-hapi, kərki sapi,
Beş bıdaği, bir yarpaği.
**(Əl)**

Tati tatda gördim,
Əcəb suratda gördim,
İgirmi dörd ulduzi,
Dörd ayın altda gördim.
**(Nal-mıx)**

Bir arvad bir qız doğdi,
Nə başi oldi, nə əyaği.
O qız doğdi bir oğlan,
Həm başi oldi, həm əyaği.
**(Yumurta)**

Kol üstə düşər şıqqıldamaz.
**(Gül)**

Çil toyuq çilləmə toyuq,
Başını kəsdim, qanı yox.
**(Xalça)**

Dağda dəliman gördüm.
**(Ceyran)**

Suda Süleyman gördüm.
**(Balıq)**

Yatar gövşər daş gördüm.
**(Dəyirman)**

Bişmiş duzsuz aş gördüm.
**(Halva)**

Dağdan gəlir dağ kimi,
Qolları budaq kimi,
Əyilir su içməyə,
Bəyirir oğlaq kimi.
**(Araba)**

Suya batar millənər,
Sudan çıxar dillənər.
**(Zəncir)**



## ALQIŞLAR. QARĞIŞLAR

Ağbəxt olasan!
Ananın südü sənə halal olsun!
Atanın çörəyi sənə halal olsun!
Atovun oğlusan!(Atovun balasısan!)
Anovun qızısan!
Bərəkəllah!-Səd bərəkəllah!
Kişi oğlusan! (Kişi balasısan!)
Kişi qızısan!
Maşallah!
Halal olsun!
Halal olsun yediyün çörək!

* * *

Azar dəymiş.
Allahsız.
Allah divanını versin.
Allah qənim olsun.
Allah bəlasını versin.
Allah cəzasını versin.
Balasından xeyir görməsin.
Balası qan qussun.
Başına daş (düşsün).
Başını top aparsın.
Qapılar açıb girməyəsən.
Qarageymiş.
Qan qusasan (qan qusmuş).
Qaraduvaq olasan.
Qaragün canım.
Quran belindən vursun.

Quran qənim olsun.
Dünən öləydin, bu gün iki günün olaydı.
Dinsiz.
Dinsiz oğlu.
Dinsiz oğlu, dinsiz.
Düşmənin gözü çıxsın.
Dost söyünsün, düşmən yansın.
Evi dağılsın.
Evi yıxılsın.
Evi yansın.
Evini Allah yıxsın.
Əndamın açılsın.
Əndamın yansın.
Otağa qənim olsun.
İmam qənim olsun.
İt südü əmmiş.
Kül başuva.
Kül atovun (anovun) başına.
Kül təpövə.
Kor olasan.
Güllə dəymiş. Güllə dəysin.
Yaşın qara gəlsin.
Yediyin haram olsun.
Öləndə dilin kəlməyə gəlməsin.
Sabah səhərə çıxmayasan.
Saqqalı qana bulaşsın.
Salamat (səhər-salamat) yemiyəsən.
Çər dəymiş (heyvan haqqında).
Canı yanmış.
Canından xeyir görməsin.
Xeyir görməsin.



Xeyrata kəsiləsən (heyvan haqqında).
Şoğərib (heyvan haqqında).
Şoğəribə qalasan (heyvan və müəyyən əşya haqqında).
Öl!
Çor!
Zeg!
Ağu!
Ölüm!
Azar!
Dərd!
Boğma!
Əndami açılmış!
Zəhləm getmiş!
Cuvanəzən ölmüş!
Külbaş!
Meydüvi görüm!
Ölün qurusun!
Üzüvə lənət!
Gözün çıxsun!
Cigərün yansun!
Sərnigün olasan!
Tünbətün olasan!
Gorbagor olasan!
Kül olsun başua!
Qadam ağzua ağzuva!
Boyuvi yerə soxum!
Mürdəşir yusun üzüvi!
İti gülleyə gələsən!
Əndamun açılsun!
Boğazuvi qubar tutsun!
Yerə girəsən !

Balalarun ağlar qalsun!
Əldən-əyağdan olasan!
Səni görim çolağ olasan!
Səni görim qapılar açıb girmiyəsən!
Səni görim cuvanezən öləsən!
Səni görim bu günnən saba çıxmiyəsən!
Səni görim qapun bağlansun!
Səni görim qan qusasan!
Səni görim tikə-tikə olasan!
Boyun qarayerdə qalsun!
Qan qusasan!
Qarayer oğurrasun səni!
Boyuva ip ölçüm!
Qara yerə soxum səni!
Ölüm olsun sənçün!
Səni görüm çərriəsən!
Yedigün burnunnan gəlsün, bılığ-bılığ tökülsün!
Qan əndərəsən!
Səni görüm qızıl gülleyə gələsən!
Şoğəribə qalasan!
Nadra qalasan!
Yalançunun gözi çıxcun!
Yalansa, dilünnən olasan!
Çər dəysün!
Boğma tutsun boğazunnan!
Ürəyüə qərə çıxsun!
Üzüə qara yara çıxsun!
Qarayerə girəsən!
Əndamun ildız ayaz olsun!
Səni görüm heç uşaq görməyəsən!
Sonsuz gora gedəsən!



Ətəyüvə uşaq sidiyi dəyməsin!
Övlad həsrətində qalasan!
Kor qıza həsrət qalasan!
Məhrum olasan!
Tüstün gəlməsin!
Ocağın sönsün!
Allah dağına baxıb, qar verər!
Oğlumdan uzaq olasan!
Başuva daş düşsün!
Kül atavun başına!

# SALAMLAR, QARŞILAMALAR, SAĞOLLAŞMALAR, ANDİÇMƏLƏR, OXŞAMALAR, İDİOMLAR

Salam.
Salaməleykum.
Sabahun (sabahınız) xeyir.
Əleykuməssalam.
Hər vaxtun (hər vaxtınız) xeyir (əsasən gunortaa tərəfi və gunortadan bir-iki saat sonra verilən salam).
Axşamun (axşamuvuz) xeyir.
Xoş gördük. Hafizi-xoşkəlam. Əhvalı-şərif, damağı ləqif.
Xoş gəlmisən (gəlmisüz).
Həmişə sən (süz) gələsən (gələsüz).
Nə əcəb səndən (sizdən)? Cavab: Əcəb camalın.
Ayağının (ayaqlarının) altına dəmir atın.
Qədəmin (qədəmlərin) mübarək (olsun).
Gün hayandan çıxıb?
Səni də (sizi də) görmək olarmış...
Xoş gəldin//xoş getdin (yola salınan qonaq haqqında).
Sağlığnan qal.
Salamat qal.
Göz üstə yerün (yerüvüz) var (yene də yola salınan qonaq haqqında deyilir).
Səfərə geden haqqında: səhər-salamat gedib-gələsən, qayıdasan. (səh.38)

## Andiçmələr

Allah haqqı.
And olsun kəsdiyimiz duz-çörəyə.



Anamın goru haqqı.
Atamın goru haqqı.
Bərəkət (çörək) haqqı.
Quran haqqı.
Əbulfəzlabbas haqqı.
Ətağanın ceddi (Ətağa qəbri haqqı).
İmam Hüseyn haqqı.
Yalan deyən kişi deyil.
Yalan deyənin atasına lənət.
Namusuma and olsun.
Oğlumun canı üçün.
Özüm ölüm.
Peyğəmbər haqqı.
Pir haqqı.
Sən öləsən.

## Əzizləmələr, oxşamalar

Anan qadovu alsın.
Anamın anası (uşaq haqqında).
Atamın atası (uşaq haqqında).
Başuva dönüm.
Gözümün işığı (evimin yaraşığı).
Nə aş yeyər, nə əppək, yaxşı oynar bu köpək (uşaq haqqında).
Nə qovun yeyər, nə qarpız, yaxşı oynar bu donquz (uşaq haqqında).
Çörək yapar, yanın qapar, mən neylirəm dul arvadı (uşaq haqqında).
Qadov alım!
Qurbanun olum!

Ağruvi alım!
Dönüm gözüvə!
Boyuva qurban!
Dərdün mənə gəlsün!
Qurban olum sənə!
Qadon-balon ürəyimə!
Başuva dönüm!
Sənə mənim canım qurban!
Can!
Qadasi!
Atam-anam sənə qurban!

## Arzular, diləklər, istəklər

Allah xeyir versin.
Allah imanuvi kamil eləsin.
Allah mübarək eləsin.
Balandan görəsən.
Qızından görək.
Qızıvun gəlinlik hamamına gedək (çimək).
Mübarəkdir.
Mübarək olsun.
Ölmədik oğul (qız) toyu da gördük.
Ömrün uzun olsun (yaxşılıq edən adama minnətdarlıq əlaməti kimi deyilir).
Oğul (qız) toyuvi görək.
Oğluvun bəylik hamamını görək.
Həmişə təmizlikdə.
Cahullaruvuz üçün olsun.
Çox mübarək (mübarəkdir)



## İdiomlar

Dövlətin gəlhagəlidü.
Kələyin kəsdi.
Göz-qulağda ol.
Vərim əli yoxdı.
Məni cin atına mindirmə.
Qoz-qoz oyniyir.
Nəm-nüm eliyir.
Göni vərdün suya.
Aşının suyini vərdi.
Xəlçəni vərdün su aşağa.
Gözümçıxdıyə salıb.
Burnua şam iyi deymib.
Nə zəlzələdən, nə vəlvələdəndü.
Elə vurdım ki, mil durdı.
Cikini də bilir, bikini də.
Dobana tüpirdi.
Sürüşquliyə dəm vərdi.
Göz vərir, işığ vərmir.
Damağım yoxdı.
Üzümün suyi tökilüb.
Sən des biri, bir des biri.
Üzünə baxanda gereg kəffarə verəsən.
Üz-gözini turşıtdi.
Üzünnən nordbes tökülir.
Bir atım barıtı var.
Çöngə vaxdıdu, qoltığında qızıl balıq pişər.
Qurban olsun, vurma, daş qoy üssünə.

# ƏMƏK NƏĞMƏLƏRİ

## Holavarlar. Sayaçı sözləri

Qoşa gəlim boz, ala,
Tərlaya saldım yola.
Tay öküzlə iş aşmaz,
Öküz gərək cüt ola.

İşlək malı öyəllər,
Tənbəlini söyəllər.
Öküzüm şuma çıxmasan,
Becid tərpən döyəllər.

Qızıl öküzüm yeri,
Qoyma şum qala geri.
İti tərpən maralım,
Dargözlər baxır bəri.

Gün düşdü qar üstünə,
Bağçada bar üstünə,
Tənbəl yatan öküzün,
Quşlar qonar üstünə.
(səh.63)

Qoyunlu evlər gördüm
Qurulmuş yaya bənzər,
Qoyunsuz evlər gördüm
Qurumuş çaya bənzər.

Qoyunun oldu on,
Gey qırmızı don.
Qoyunun oldu əlli,
Adın oldu bəlli.

Qoyunun oldu yüz,
Gir içində üz,
Qoyunun oldu min,
Köhlənini min.

Nəyin ki var qoyuna,
Özünü sal oyuna.

Göy at, yalına qurban,
Tirmə şalına qurban.
Sən məni yara yetir,
Polad nalına qurban.



# BAYATILAR

Mən aşiq düzən yerdə,
Su durar düzən yerdə.
Sən getdin başın apardın
Mən qaldım düzən yerdə.

Köynəyindir mərmərdən.
Ona sallam ağ gərdən.
Can çəkdim. cəfa çəkdim
Axır qaldım sərgərdən.

Gəl məni dindirməginən.
Aləmə bildirməginən.
Mən ki tanrı yanğınıyam
Sən məni yandırmaginən.

Ağlaram el gəlincə,
Dağlara sel gəlincə.
Can vermənəm Əzrailə
Sən üstümə gəlincə.

Bu yola gedən gəlməz,
Bilmirəm nədən gəlməz.
Düzülüb qatarımız
Çıxıb cərgədən gəlməz.

Əzizim. bəxti qara,
Bəxti kəm. bəxti qara.
Tapmadım ana. bacı
Bir gedim ərzi-hala.

Əzrail üz görübdü,
Meydanı düz görübdü.
Gedər-gedər qayıdır
Məni yalqız görübdü.

Mən aşıq işun nədi,
Zərgərdə gümüşün nədi.
Sən degilən cavan dərdi,
Keçmişlə işun nədi.

Gəlmişəm görəm səni,
Dərmişəm hörəm səni,
Əlimdə açarım yox,
Bir açam görəm səni.

Dalımı dağa verrəm,
Dağdan da dağa verrəm.
Bilsəm, haçan gələrsən
Canımı sadağa verrəm.

Mən aşıq adı qardaş,
Ağzımın dadı qardaş.
Çağırram. hay verməzsən,
Tutaram yadı. qardaş.

Bağça-bağda gül ağlar,
Bülbül ağlar. gül ağlar.
Oğlu ölən analar
Başa tökər kül. ağlar.

Gül açmaz qara bağlar,
Göy bağlar, qara bağlar.
Balası ölən ana
Başına qara bağlar.

Durma gəl, talan canım,
Odlara yanan canım.
Bala deyir, yaş tökür
Balasız qalan canım.

Mən ölürəm çiçəkdən,
Ört üzümü milçəkdən.
Yad gələr yalan ağlar
Anam ağlar gerçəkdən.

Mən aşiqəm müşkə bax,
Əmbərə bax, müşkə bax.
Mən oxuram dərdimdən
Görən deyir eşqə bax.

Hin üstə qara toyuq,
İstədim yara yavuq.
Hamının yarı gəldi
Gəlmədi qanı soyuq.

Əzizinəm bu daşa,
Bu yaquta, bu daşa.
Zər qədrini bilən gərək
Qiymət verə bu daşa.

Araxçının ikidi,
Biri firəng çitidi.
Onu ki, sən deyirsən
Qapımızın itidi.

Eşqə düşüb ağlaram,
Ürəyimi dağlaram.
Örpəklərdən birini
Mən başıma bağlaram.

Sənə sözüm var mənim,
Ürəyimi yar mənim.
Toya heç nə gətirmə
Məhəbbətim var mənim.

Badam içi ovaram,
Qabığını yuvaram.
Yaxşı yarın eşqinə
Mən çarşavi qoyaram.

Pistə içi ovaram,
Qabığı yerə qoyaram.
Xatalı çaydan ötrü
Mosko corab qoyaram.

Éncil ətin ovaram,
Qabuğ yerə qoyaram.
Xatalı çaydan ötrü
Başmaqları qoyaram.



Narınc içi ovaram,
Qabuğu yerə qoyaram,
Xatalı çaydan ötrü,
Ev-eşigim qoyaram.

Qarpız içi ovaram,
Yarın yerə qoyaram,
Xatalı çaydan ötrü
Bir cüt balam qoyaram.

Mən elərəm ərk-nazı,
Altımda lay palazı,
Od salıb çay samavar
Samavar çalır sazı.

Tütünü tökdüm kisəyə,
Bu kisədən o kisəyə.
Yanasan, ay samavar
Qəndi verməzlər nisyə.

Samavarı alışdırdım,
Maşa salıb qarışdırdım.
İki küsülü gəzənləri
Mən istərəm barışdırım.

Köynəyim abi xara,
Ürəyim olub yara.
El bilir, aləm bilir
Yoxdur istəyə çara.

Daş üstə yatmamışam,
Qan-tərə batmamışam.
Adaxlım yanımdadır
Bixəbər yatmamışam.

Ay cəhrə, cəhrə, cəhrə,
Ayağım təndi cəhrə.
Vuraydım, sındıraydım
Gəzəydim kəndi cəhrə.

Bağımızda narım var,
Mənim gülüzarım var.
Gedin deyin məməyə
Lazım deyil, yarım var.

Bağçamızın bülbülü,
Ürəyimin sünbülü.
Çox istərəm yarımı
Evimizin bir gülü.

Alçalar, ay alçalar,
Bağda bitər alçalar,
Düşmənə əyilmərəm,
Düşmən özü alçalar.

Paxlanı tökdüm qazana,
Qurbanam tale yazana.
Mən quyuya düşmədim,
Qismət oldu qazana.

Ətəyi bəyaz dağlar,
Zirvəsi ayaz dağlar,
Eldən ayrı düşənə
Yer göynər, bulud ağlar.

Haça dağı aşarlar,
Adına söz qoşarlar,
Araz suyu içənlər,
Yüz illərlə yaşarlar.

Qırxayaq dərin olar,
Bol suyu sərin olar,
Bu kəhrizin suyundan,
Kim içsə dərin olar.

Əzizim Qırxayağa,
Gəl enək Qırxayağa,
Məlhəm suyundan içib
Yüyürək qırxayağa.

Bu bizim Qırxayağdır,
Məlhəm suyu dayaqdır.
Gəl enək, su götürək.
Dünya bu gün-sabahdır.

Arazı qəmli gördüm,
Daşların nəmli gördüm,
Yarı axtarıb tapdım,
Könlün sitəmli gördüm.

Bu gün ayın on üçü,
Həc deyərlər on üçü,
Deyiklim dünən axşam,
Haqlayıbdır on üçü.

Arpa çayı lal axar,
Araza arxalanar,
Dost əlindən bərk yapış,
Dar gündə arxan olar.

Gün batar, Ay durular,
Yazda Araz gur olar,
Yarın gəldiyi yollar,
Daş-qaş olar, dürr olar.

Araz dağlardan axar,
Zirvələr lal-lal baxar,
Mənim yaralı könlüm,
Gah ağlar, gah da sızlar.

Araz axar çağlayar,
Yağı bağrın dağlayar,
Yarım bu gün gəlməsə,
Könlüm qan-yaş aglayar.

Yollar burular gedər,
Araz durular gedər,
Lilli arxlar olmasa,
Suyu dürr olar olar gedər.



Araz qırağı daşdı,
Yaz gəldi, sular daşdı,
Ceyran-cüyür bu sabah,
Arandan dağa qaşdı.

Arazdan su gətirin,
Daş qoyub su götürün,
Duvaqqapmadan sonra,
Yarı evə ötürün.

Arazı ayırdılar,
Suyunu sovurdular,
Yarım gəlməyib deyə,
Yolunu yoğurdular.

Bu dağda bulaq çağlar,
Kipriyi, gözü ağlar,
Yara yetmək istəyən,
Araza pənah bağlar.

Araz qırağı lalə,
Daşları halə-halə,
Yara çələng bağlaram,
Kənarları piyalə.

Dəryada fanaram mən,
Alışıb yanaram mən,
Yar mənə göz eyləsə,
Arifəm qanaram mən.

Qızılgülü dərərlər,
Dərib yerə sərərlər,
Rəngimi yar qaçırıb,
Xəstəlikdən görərlər.

Qarabağda üzüm var,
Giləsində gözüm var,
Bir evdə iki bacı,
Kiçiyində gözüm var.

Qarabağda bir quş var,
Qanadında gümüş var,
Yar görüşə gecikir,
Əlbət burda bir iş var.

Dərya kimi bulannam,
Dağı-daşı dolannam,
Sağ gözüm sənə qurban,
Sol gözümlə dolannam.

Su gəlir lülə-lülə,
Yar gəlir gülə-gülə,
Əlində güllü yaylıq,
Qan-tərin silə-silə.

Əzizim düzən yerlər,
Düz yerlər, düzən yerlər,
Mənə yadigar qalsın,
Ayağın gəzən yerlər.

Əslim Qarabağlıdır,
Sinəm çarpaz dağlıdır,
Nə gedən var, nə gələn,
Bəlkə yollar bağlıdır ?

Tiflisin bürcü mənəm,
Dil bilməz gürcü mənəm,
Baş qoyub dizin üstə,
Can versəm incimərəm.

Göyərçinəm uçdum, gəl,
Dost bağına düşdüm, gəl.
Yaxşı günün dostuyduq,
Yaman günə düşdüm, gəl.

Dəyirman üstə çiçək,
Oraq gətir gəl, biçək,
Sən kəkil qoy, mən birçək,
Görək hansımız göyçək.

Sürü biyana gəlsin,
Yesin, buyana gəlsin,
Deyin o vəfasıza,
Dönsün bu yana gəlsin.

Eyvanım qəsir mənim,
Ürəyim əsir mənim,
Toyumu tez eyləyin,
Yarım tələsir mənim.

Palazda narıncı var
Abı var, narıncı var,
Hardasan ay biinsaf,
Dalınca zarıncı var.

Su götürdüm hovuzdan,
Xoşum gəlir tovuzdan,
Yar mənə pencək alıb,
Astarı qanovuzdan.

Bağırrıdı obamız,
Dovğaçıdı babamız,
Yara qurban olaydı
Bizim cədd-əqrabamız.

Küdrünün örüş yeri,
Ot yeri, örüş yeri,
Qışlağın zağaları,
Qızların görüş yeri.

Mələ, qoyunum, mələ,
Səsin daşları dələ,
Mən malədim gəlmədi,
Sən mələ, bəlkə gələ.

Arxac üstə boyana,
Getmə məndən o yana,
Çəkərəm pünhan-pünhan,
Vermərəm dərd boyana.



Xoruz ban qabağında,
Sübhün dan qabağında,
Yarım bir bizə gəlsə,
Verrəm can qabağında.

Dağları qar alıbdı,
Yağıbdı, qaralıbdı,
Qalın bir meşəlikdə,
Tək budaq saralıbdı.

Arxalığın narıncı,
Demədim ki, yar inci,
Özün yada yar oldun,
Məni qoydun zarıncı.

Samovar pıqqıldayır,
Qəndqıran şaqqıldayır,
Zəhləm gedir o yardan,
İş bilməz, nıqqıldayır.

Su gələr, bizə gələr,
Hündürdən düzə gələr,
Yarım çıxar gəzməyə,
Dolanıb bizə gələr.

Dağlardan bir ün gəldi,
Ay dolandı, gün gəldi,
Alım gözün qadasın,
Adın nə şirin gəldi.

Mən aşiq sarı qaldı,
Gün gedib, sarı qaldı,
Sən görüşə gəlmədin,
Gözüm yol sarı qaldı.

Dağ ayrı, duman ayrı,
Qaş ayrı, kaman ayrı,
Həmişə cüt gəzərdik,
Gəzdik bir zaman ayrı.

Nişanlıyam adına,
Heç düşmürəm yadına,
Əgər məni düşünsən,
Tanrı çatsın dadına.

Mən aşiq oyan dağlar,
Gey qara boyan dağlar,
Bura zülmətxanadı,
Necədi o yan dağlar?

Əlində ləngəri dur,
Sini dur, ləngəri dur,
Sənə gələn qadanı
Mən alım, sən geri dur.

Əldə bıçaqlar yenə,
Tutub bıçaqlar yenə,
Nə gözəl günlər idi,
Bildir bu çağlar yenə.

Aşıq haramı dağlar,
Təbib yaralı bağlar,
Əl çatmaz, ünüm yetməz,
Kəsib aranı dağlar.

Dağlar dağladı məni,
Bağlar bağladı məni,
Qərib ölkədə öldüm,
Yadlar ağladı məni.

Görünən yar diyarı,
Yar yurdu, yar diyarı,
Alçalsın qəlbidağlar
Görünsün yar diyarı.

Əzizim, buda məni,
Xəncər al, buda məni,
Gör necə yad olmuşam,
Tanımır bu da məni.

Bir yaralı qoçam mən,
Qovan yoxdu qaçam mən,
Sinəm qəm dəftəridir,
Oxuyan yox, açam mən.

Mən aşiq dağ başına,
Gün düşüb dağ başına,
Könlü şamama sevən,
Dolanar tağ başına.

Mən aşiq qəlbi yerdə
Su durmaz qəlbi yerdə,
Dedim gəl mənlə gedək,
Getmədin, qal bu yerdə.

Mən aşiq sarı yoldan,
Meh əsir sarı yoldan,
Fələkdə nə qaydadır,
Ayırır yarı yardan.

Mən aşiq nə qayıda,
Keçən gün nə qayıda,
Qəm çəkmə, dəli könlüm,
Nə gedmiş, nə qayıda?

Əzizim dağ ağzında,
Qızıl gül bağ ağzında
Xınalı kəklik gördüm,
Bir qara zağ ağzında.

Əzizinəm dərmanı,
Xəstə dillər dərmanı,
Təbibimsən gözəlim,
Özün gətir dərmanı.

Ördəyim var, gölüm var,
Ceyranım var, çölüm var,
Mənə qərib deməyin,
Mənim ağır elim var.



Çıxaram o yola mən,
Baxaram sağ-sola mən,
Görsəm ki, yarım gəlir,
Çəkərəm bir nala mən.

Mən aşiqəm almaqdı,
Zülfün yana salmaqdı,
Əslim qara tərlandı,
Peşəm kəklik almaqdı.

Əzizinəm mərd ata,
Mərd oğula, mərd ata,
Namərdlər süvar olub,
Minə bilməz mərd ata.

Mən aşiqəm qalasız,
Şəhər olmaz qalasız,
Mən ki gedəri oldum,
Siz salamat qalasız.

Bir dəstə boyağam mən,
Yatmaram oyağam mən,
Nə tökmüsən qaş-qabaq,
Gedəri qonağam mən.

Əzizim, sizə gəlləm,
Sürmə çək gözə, gəlləm.
Yüz il qazamat çəksəm,
Qurtarıb sizə gəlləm.

Mən aşiq tatar məni,
Qul eylər satar məni.
Yar ki, vəfalı oldu,
Axtarıb tapar məni.

Qara pul qutudadır,
Yar yatıb yuxudadır,
Tələsmə, cavan oğlan,
Mətləb verən Xudadır.

Mən aşiq əsmə külək,
Səbrimi kəsmə külək,
Yarım dəryada qalıb,
Qabağım kəsmə külək.

Dəryada çıraq yanar,
Sahildən uzaq yanar,
Doldurub qəm badəsin,
İçdikcə dodaq yanar.

# MƏRASİM FOLKLORU

## Məişət mərasimləri

Bakının öz toy və bayram ənənələri vardı. Oğlan evləndirmək və qız ərə verməyin çox dolamac yolları qədim zamandan məlumdur. Əvvəla, qızı oğlan özü seçməzdi. Bu iş adətən, ananın, bacının, bibinin və xalanın üstünə düşərdi. Hətta oğlan özü qız seçmək istəsə də, bu, mümkün deyildi. Çünki küçə və bazarda rastlarına çıxan qızlar üzlərini həmişə çadra ilə gizlədərdilər. Qız seçməkdə oğlan evinin köməyinə hamamlar çatırdı. Hamamda qız seçmək adət şəklini almışdı. Burada qızın boynuna, buxununa, əndamına, ayaqlarına, saçlarına yaxından tamaşa edərdilər. Bəzən xoşlarına gələn qızları başlarına su tökmək bəhanəsilə yanlarına çağıranda onların cəldliyini də yoxlayardılar.

Qız oğlan anasının xoşuna gələndən sonra qızı, ailəsini, əcdadını hərtərəfli öyrənərdilər. Bu məqsədlə yengə tutardılar. Yengə soraqlaşa-soraqlaşa qız evini axtarıb, qonum-qonşudan onların əsil-nəcabətini, varlı olub-olmadıqlarını ətraflı öyrənərdi.

Yengələrin baş soxmadıqları yer qalmazdı. Tanımadığı həyətlərə girib bir stəkan su içmək bəhanəsilə ev sahibini səslərdi. Ev sahibəsi suyu qızı ilə göndərirdisə yengənin kefi durulardı. Qızı diqqətlə süzərdi başdan ayağa. Gözlərini elə zillərdi ki, qız utandığından başını aşağı dikib durardı. Bu zaman su içmək yengənin yadından tamam çıxardı. Nigaran qalan qız anası yuxarı mərtəbədən səslərdi:

–Nə oldu, ay qız?

–Ana, hələ içməyib.



Bəzi hallarda qız anasının ürəyinə rəhm düşər, yengəni yuxarı çağırıb, ona çay təklif edərdi. Bu zaman yengənin baxtı alçı durardı. Qızın əsil-nəcabətini cikli-bikli öyrənərdi.

Şad xəbərlə oğlan evinə qayıdan yengə başlardı qızı, onun əsil-nəcabətini tərifləməyə. Yaxşı qız tapdığı üçün oğlan anasından xələt alardı.

Bundan sonra oğlan evi qız qapısına "həri" almağa gedərdi. Əvvəlcə arvadlar gedərdi. Onlardan sonra kişilər, "həri" cavabı alandan sonra nişan gedər, qızın barmağına üzük keçirərdilər.

Qız uzun müddət nişanlı qalardısa, oğlan evi borclu idi ki, hər bayramda, baharda və payızda qız evinə hədiyyələr göndərsin. Novruz bayramında noğul, nabat, şəkərbura, paxlava, şəkər çörəyi, qoz və fındıq ləpəsi, kişmiş və boyanmış yumurtaları üstü rəngli örtüklərlə örtülü padnoslara doldurub, bəzən on-on beş xonça düzəldib göndərərdilər. Qurban bayramında bayramlıq üçün boynuna qırmızı lent bağlanmış qoyun gedərdi. Bağ vaxtı padnoslara hər cür meyvə: armud, şaftalı, ərik, gilas, üzüm doldurub, qız evinə göndərilərdi. Belə hədiyyələrə vəzəurd deyərdilər.

Bakılıların ən çox sevdikləri və müqəddəs saydıqları bayramlardan biri də Orucluq bayramıdır. Orucluq Ramazan ayında başlayır və martın 13-dək davam edir. Bütün müsəlmanlar düz bir ay oruc saxladıqdan sonra bayram edirlər. Onlar səhər obaşdandan ta axşam şər qarışanadək heç bir şey yemir, içmir, papiros çəkmirlər. Ancaq axşam azanından sonra iftar açırlar. Ramazan ayı müsəlmanlar içərisində təmizlik, mehribanlıq, halallıq, səmimiyyət, istiqanlılıq ayı kimi məşhurdur. Ramazan ayında ağzı oruc yalan danışsan, orucun batil olur. Oruc tutmaq həddi-büluğa çatmış yeniyetmədən başlayaraq, hamıya vacibdir. Ramazan ayında fağır-füqəraya kömək əli

uzatmaq böyük savab hesab edilir. Orucluq bayramında da oğlan evindən qız evinə bayram sovqatı göndərilərdi. Sovqat əsasən bayram plovundan və şor qoğalından ibarət olurdu.

Toy mərasimi yaxınlaşdıqda ona böyük hazırlıq görülərdi. Əvvəlcə qız adamı toy eləyərdi. Buna görə həyət-baca süpürülüb təmizlənər, qapı-baca əhənglə ağappaq ağardılardı. Bundan sonra yengə qapı-qapı düşüb, lazım bildikləri arvad və qızları toya çağırardı. Arvad toyu çox dəbdəbəli keçərdi. Çağırılmış bütün arvad və qızlar ən bahalı zər-baftalı donlarını geyinər, kirşanla üzlərini ağardar, gözlərinə sürmə çəkərdilər. Evdə nə qədər qızıl bəzəkləri vardısa, taxıb gələrdilər. Növrəstə qızlar birçək qoyardılar. Çal-çalğı başlardı. Arvad və cavan qızlar bir-birini əvəz edir, toyxananın ortasına çıxıb, süzə-süzə rəqs edərdilər. Oynayanların başına pulu su kimi səpərdilər. Verilən şabaşları yengə əyilərək yığar və çalanlara verərdi.

Toya çağırılanlara xüsusi hazırlanmış şirniyyat verilərdi. Beləliklə, hava qaralanadək dünbək, qaval və qarmoşka səsləri bütün məhəlləyə yayılardı.

Qız evindən sonra oğlan evi toya hazırlaşardı. Şəhərdə böyük salonu olan evlərdən birində toyxana düzələrdi. Bəzən toyxanalar çox zaman küçədə, evin qapısında düzəlmiş çadırda keçirilərdi. Bu zaman toyxananın divarları və skamyaların üstü, toyxananın içərisi müxtəlif xalılarla bəzənərdi. Toyun başlanmasını qoşa qara zurna ilə xəbər verərdilər. Camaat toplaşandan sonra toy başlardı. Bəzi toylarda bir neçə dəstə musiqiçilər olurdu. Dərvişlə keçirilən toylar da vardı. Dərviş toyxananın enini-uzununu ölçə-ölçə qəribə rəvayətlər danışar və oxuyardı. Toyxanalarda bir qayda olaraq, mütrüblər olurdu. Bunlar yeniyetmə gözəl oğlanlardı. Onlar saçlarını qız saçları kimi uzadır, çətir qoyur və dar şalvar geyirdilər. Bəzi toylarda isə onları rus qızları əvəz edərdi. Bunlar, əlbəttə, toyxanaya



çoxlu adam cəlb etmək məqsədi güdürdü. Toydakılar arabir mütrübləri yanlarına çağırtdırıb oturdar, onunla şirin-şirin danışardılar. Çağıran adam mütrübün cibinə pul qoyardı. Mütrübləri tez-tez oynadar və bir-birinin acığına pulları onların başına səpələrdilər. Bakı kəndlərində keçirilən toylarda Lotu Cabbar tez-tez çıxış edərdi. Camaatı məzəli danışıqları və komik hərəkətləri ilə güldürərdi. Kənd yerində toylar adətən yay aylarında və payızın əvvəlində keçirilərdi. Məclisdə əyləşən cavanlar üçün evlərindən və nişanlılarından xonçalar gələrdi. Üstü püstə ilə dolu budaqlar, albalı budaqları, ərik, şaftalı və başqa nübar meyvələr bir-birinin dalınca cavanlara çatdırılardı. Onlar da bu meyvələri mütrüb vasitəsilə məclisin müxtəlif yerlərində oturan dostlarına göndərərdilər. Məclisdə şuluqluq salmağa cəhd edənlər də olurdu. Ancaq bu zaman toyun sərpayısı onun qarşısını dərhal alırdı. Buna görə toya sərpayı həmişə kəndin ən hörmətli adamlarından təyin olunardı.

Toya çağırılmış adamlar toyxanaya girməmişdən əvvəl toyxananın böyründə ayrılmış məxsusi otağa daxil olar, burada pul salandan sonra xörək yeyib, toyxanaya keçərdilər. Həmin otaqda pul yığan adam, pul salanların adlarını və nə qədər saldıqlarını qabağındakı uzun siyahıya qeyd edərdi.

Toy bir neçə gün və bəzən bir həftə uzanardı. Toy qurtarıb, camaat dağılışandan sonra bəyin yaxın adamları yığışıb meyxana deyərdilər. Dövrə vurub oturmuş adamlardan iki nəfər ortada oturub, meyxanaya başlardı. Meyxana deyənlər adətən bədahətən şeir deyən şair təbiətli adamlardı. Bəhsə girişir, bir-birlərini və habelə ayrı-ayrı adamların eyiblərini tənqid edərdilər. Onların deyişmələrində satira ilə yumor bir-birinə qarışardı. Şeirlərin nəqəratını dövrə vurub oturmuş adamlar təkrar edərdilər. Meyxana bəzi hallarda dünbəklə də

müşayiət olunardı. Bəzən toyxanaların axırında qumar oynamaq da adət şəklini almışdı. Ta səhərədək oturardılar.

Hər iki ev, yəni oğlan evi ilə qız evi toyları qurtarandan sonra qız evinə gəlini gətirmək üçün gedərdilər. Gecə məşəl işığında musiqi çala-çala faytonlar bir-birinin dalınca düzülərdi. Oğlan evindən gəlmiş yeniyetmə bir oğlan gəlinin belini qırmızı lentlə bağlardı. Sonra qızın atası öz övladına xeyir-dua verib, oğlan evinə yola salardı. Bu zaman qız evindən gizlincə bir şey oğurlamaq oğlan evi adamları arasında dəb düşmüşdü. Ancaq bunu elə etməli idilər ki, qız evindən heç kəs görməsin.

Gəlinin ardınca bəy özü də getməli idi. Faytonlar yenə məşəl yandıraraq, musiqi ilə geri döndükləri zaman yollarını şəhərin gur küçələrindən salardılar ki, bütün camaat görsün. Bu mərasimdə meydan qızışdıran qız evindən yengə, oğlan evindən xəlfə olardı. Yengənin işi zifaf gecəsindən ta ertəsi gün sübhədək davam edərdi. O da sübbhün gözünü oğlanın evində açardı. Sübh tezdən qız evinə xəbər aparardı ki, hər şey öz qaydasınca olmuşdur. O dəqiqə qız evindən gəlin üçün quymaq bişirib göndərərdilər.

Bəzən elə olurdu ki, bəy oğlan ancaq zifaf gecəsi qızın üzünü görərdi. İşdir, qız oğlanın ürəyincə olmasaydı, bu, onun üçün ömürlük bir dərd olaraq qalırdı.

* * *

**Nişan mərasimi.** Əvvəllər oğlu olan valideyn qızı özü görüb bəyənər, nişan aparar, sonra toyu edərdi. Cavanların görüşməsi qadağan idi. Onlar yalnız toy günü bir-biri ilə görüşərdilər. Əgər qohumdursa, deməli, bir-birilərini tanıyırlar.

Lakin bu adət tədricən məişətimizdə sıradan çıxmışdır. Bu gün nişan və toy adətlərimiz də müasirləşmiş və dövrün tələbləri ruhunda həyata keçirilir.



Maştağada nişanqoyma adəti Bakının başqa kəndlərində tətbiq olunan eyni adət-ənənələrdən çox az fərqlənir.

Nişanlanan qız və oğlan bir-birini görüb ailə qurmaq üçün öz razılıqlarını verməlidirlər. Bəzən oğlan və qız bu haqda öz aralarında heç danışmırlar. Oğlan qızı bəyənib qapısına elçi göndərir. Qızın valideynləri də öz növbəsində oğlanın əsil-nəcabətini öyrənir, qəti bir fikrə gəldikdən sonra "hə"sini almağa gələn oğlan evinə müsbət və ya yox cavabı verilir.

Maştağada bəzi məhəllələrdə əksər hallarda qohumdan qız almaq, qohuma qız vermək adəti geniş yayılmışdır. Qohumlar bir-birilərini yaxşı tanıdıqlarına görə öz övladlarının da talelərini qabaqcadan özləri həll edirlər. Qızın fikri nəzərə alınır, onu yaxın qohuma, yaxud tanıdığı, bəyəndiyi nəslin övladına verirlər.

Əvvəlcə qadınlar məsələləri həll edirlər, yəni qız tərəfin razılığını aldıqdan sonra oğlan tərəfin ağsaqqalları qız tərəfin ağsaqqalları ilə görüşür, "hə" cavabını almaq üçün qadınlar vaxt müəyyən edirlər.

Oğlan və qız tərəfi nişan günündəki mərasimdə iştirak edəcək insanların sayını müəyyənləşdirirlər. Əgər oğlan evi yalnız nişan üzüyü aparmağı nəzərdə tutursa, onda bu mərasimdə 3-4 nəfər kişi və bir neçə qadın ola bilər. Oğlan evi böyük nişan aparırsa, onda qız üçün nişan üzüyündən başqa xonçaya qaşlı üzük və digər zinət əşyaları, müxtəlif geyimlər, pal-paltar da əlavə edilir. Böyük nişanda oğlan evi aparacağı adamların onlar sayını qabaqcadan qız evinə bildirir ki, onlar öz hazırlıqlarını mərasimdə iştirak edənlərin və xonçaların sayına uyğun xələt hazırlığı görsünlər.

Oğlan tərəfi qız evinə nəslin ağsaqqallarını, münasib bildiyi şəxsləri aparır. Nişan üzüyü, eləcə də qaşlı üzük və digər zinət əşyaları (qızıl ləvazimatlar) oğlan tərəfin ağsaqqalına verilir. Əvvəlki qaydada olduğu kimi, böyük nişanda

kəllə qənd və mərasimə dəvət edilmiş adamların sayına görə şirniyyat xonçaları, digər xonçalar da aparılır.

Bəzən oğlan evi nişan mərasimini çalğı ilə keçirmək istəyir. Bu məsələ qız evi ilə mütləq razılaşdırılmalıdır. Əgər icazə verilərsə, onda nişan çalğı ilə keçirilir.

Bu məsələ ilə bir qədər ətraflı maraqlansaq, onda görərik ki, qədimdə belə mərasimlər çalğısız icra edilərdi. Dəbdəbə, şənlik ancaq son illərin məhsuludur.

Qız evi oğlan tərəfini mehribanlıqla qarşılayır, mərasimin yuxarı başında əyləşdirir. Sonra oğlan evinin adamları gəlişlərinin məqsədlərini açır və nişan üzüyünü, digər zinət əşyalarını çıxarıb "Allah mübarək eləsin" xeyir-duası ilə qız evinin ağsaqqalına verir. O da üzüyü və zinət əşyalarını alıb, eyni ilə öz münasibətini bildirir, xeyir-duasını verir.

Adətən, bundan sonra mərasimə dəvət olunmuş şəxslər öz xeyir-dualarını verirlər, sonra gətirilmiş qızıl-tənə qadınlara ötürülür. Mərasim iştirakçılarına şirin çay verilir.

Nişan üzüyünü qızın barmağına yalnız oğlan evinin əvvəlcədən təyin etdiyi şəxs taxır. Üzük taxan şəxsin ailəli, oğullu-qızlı, başıbütöv şəxs olması, xoşbəxt yaşaması əsas şərt kimi götürülür.

Mərasimə toplaşanlar hər iki tərəfi təbrik edir, xeyir-dualarını bildirirlər. Bəzən şirni süfrəsindən əlavə yemək süfrəsi də açılır. Bu xərclər qız evinin hesabına olur.

Qız evi oğlan üçün pay göndərir. Oğlanın və qızın valideynləri qarşıdakı bayramları necə qarşılamaları, yeni bayramlarda qız evinə bayramlıq paylarını gətirib-gətirməmələri barədə öz aralarında danışır, müəyyən bir fikrə gəlirlər.

Əgər qız tez köçürüləcəksə, toy ilə bağlı söhbət aparılır. Qızın köçürülməsi müəyyən səbəblərlə əlaqədar olaraq yubadılacaqsa, onda mütləq bayramların yola verilməsi barədə hər



iki tərəf danışıqlar aparmalı və bir fikrə gəlməlidirlər ki, bayramlıq göndərilsin, ya yox. Nişan vaxtı qız evinə neçə xonça aparılırsa, qız evi bir o qədər xələt verməlidir. Qayınana və qayınata ailə üzvləri üçün də ayrıca xələt qoyulur.

**Toy mərasimi.** Bakı kəndlərində, eləcə də Maştağada kişi toyu həmişə ayrıca olub. Əvvəllər bugünkü kimi toya dəvətnamə ilə çağırmazdılar. İndiki univermağın yerində, küllük hamam deyilən yerdə (Çirkab üstü – red.) qara zurna çalınardı. Bu, bütün kənd camaatına xəbərdarlıq idi. Toyun keçirildiyi günə bir gün qalmış qara zurna səsi bütün kəndə yayılardı. Hamı xəbər tutardı ki, sabah hansı məhəllədə kimin toyu olacaq. Çox vaxt qara zurna çalanlar toy yiyəsinin evinin damına çıxar, orada çalardılar. Sonralar bu qayda tədricən aradan çıxmışdır.

Adətən, bir müddət, nişan mərasimi keçəndən sonra oğlan və qız evi birlikdə məsləhətləşib, toy tədarükünə hazırlaşır, paltarkəsdi, qız və oğlan toyunun günlərini müəyyənləşdirirlər. Oğlan evi toy etməzdən bir neçə gün əvvəl qız evində **paltarkəsdi mərasimi** keçirilir. Bu mərasimdə gəlinə lazımi paltarlar biçilib tikilir.

Paltarkəsdi mərasiminin xərcini, adətən, oğlan evi çəkir. Əlbəttə, bu məsələ qabaqcadan danışılıb həll edilir. Oğlan evi xərci iki cür verə bilər: o, bu xərci pul şəklində, ya da toyda istifadə olunan bütün ərzaq məhsullarını (ət, düyü, yağ və s.) alıb qız evinə gətirə bilər.

Qız toyundan sonra oğlan evi toya hazırlaşır və toya adamlar çağırılır, qabaqcadan vəzifə bölgüləri aparılır. Adətdir ki, kişi toyuna iki-üç gün qalmış oğlan evi qız evində **xınayaxdı mərasimi** keçirir. Bu mərasim təntənəli şəkildə icra olunar. Xınayaxdı mərasimində məşşatə gəlinin başına, əllərinə və ayaqlarına, digər qız-qadınlar isə əllərinə xına qoyarlar. Cavanlar birlikdə şənlənərlər.

Əvvəllər Maştağa toylarında görkəmli xanəndələrdən Cabbar Qaryağdı, Zülfi Adığözəlov, Gülahməd Məmmədov, Əlibaba Məmmədov, Seyid Şuşinski, Xan Şuşinski, Əbülfət Əliyev, Məmmədbağır Bağırzadə kimi məşhur muğam ustadları və başqaları iştirak etmiş, gözəl toy mərasimləri aparmışlar.

Müharibədən sonrakı illərdə Maştağada aşıq toyları geniş yayılmışdı. Bu toylarda Aşıq Bəylər, Aşıq Pənah, Aşıq Qurbanxan, Aşıq Şakir iştirak edirdilər. Bir çox toylarda həm muğam ustaları, həm də aşıqlar toyu birgə aparar, əhaliyə yüksək zövq verərdilər.

Toylar adətən həyətlərdə olurdu. Qohum-əqrəbanın köməyi ilə toyxana qurulur, işıq çəkilir və içi bəzədilirdi. Elə toy olurdu ki, toyxanada bir neçə dəstə çalğıçı iştirak edirdi. Hər dəstənin də öz xanəndəsi olurdu.

Toy başlamazdan bir neçə saat əvvəl, adətən, bəy hamamdan gəlib həyətə zurna-balabanın çalğısının müşayiəti ilə gətirilərdi. Bu gün bəyin hamamdan qayıtması musiqisiz yerinə yetirilir. Kənddə bütün həyətlərdə hamam olduğundanmı, ya nədənmi, bu adət unudulub. Bəylə bərabər onun sağ-solduşu da hamama birgə gedir.

Bəy hamamdan çıxdıqdan sonra yaxın qohum-əqrəbası onu qucaqlayıb öpər, təbrik edər, qabağında oynayardılar. Bəzən bu mərasimdə çalğıdan da istifadə edərdilər.

Həmin mərasim bu gün də öz qüvvəsini saxlayır. Bəyin hamamdan qayıtması təntənə və şadyanalıqla həyata keçirilir.

Bəy hamamdan çıxdıqdan sonra qız evindən ona xələt göndərilir, oğlan evi isə bəyin sağ-solduşuna xələt verir.

Əvvəllər gəlinin avadanlığı toydan qabaq oğlan evinə gətirdilərdi. Qız evindən bir neçə nəfər qadın oğlan evinə gələr, ailə quran gənclərin evini bəzəməklə məşğul olardılar.

Bu adət bu gün də yaşamaqdadır.



Qabaqlar, elə indi də toy qurtarandan sonra gəlini bəy evinə gətirərdilər.

Əgər toy mərasimi müasir qaydada şadlıq evində keçirilirsə, bəy və gəlin bu mərasimdə iştirak edir.

Gəlin ər evinə köçməzdən əvvəl oğlanın atası yaxud oğlan tərəfindən müəyyən olunmuş ağsaqqal hər ikisinin, yəni bəy və gəlinin kəbin kağızını qız evinin ağsaqqalına yaxud qızın atasına verir, sonra qızı aparmağa razılıq əldə edirlər. Oğlanın atası qızın belini bağlayır.

Maştağada adətən, bəy və gəlinin kəbini toydan bir neçə gün əvvəl ilk dəfə axund yanında kəsilir. Bu mərasimdə hər iki tərəfdən vəkil seçilmiş şəxslər din xadiminin yanına qız və oğlan tərəfindən iştirak etmək üçün göndərirlər. Yalnız bundan sonra dövlət qeydiyyatından keçirlər. Hamı ailə quran cavanları təbrik edər, öz xeyir-dualarını bildirərlər.

Odur ki, həm dövlət qeydiyyatında – VVAQ-da, həm də şəriət qaydalarına görə mütləq hər iki cavanın kəbini toy günündən bir neçə gün və ya həftəqabağı kəsilməlidir. Maştağada kəbinin bu növünə xüsusi diqqət yetirilir. Əgər şəriət kəbini olmasa, qızı verməzlər.

Toyun bir çox adətləri aradan çıxmışdır. Vaxtilə gəlini apararkən 2 nəfər süvari qırmızı xələt (yaylıq, şarf və s.) alıb oğlan evinə xəbər çatdırmaq üçün yarışarmışlar. Onlardan hansı biri həmin xələti oğlan evinə tez çatdırsaydı, oğlan evi ona xələt verərdi.

Əvvəllər bəy və sağ-solduşu toyda oturardılar, xanəndə bəyi tərif etdikcə onun qohum-əqrəbası, dostları xanəndəyə imkanı daxilində pul və ya bəxşiş verərdilər. Sonra bəyi toyun sonunda, sağ-solduşi ilə birlikdə oynadardılar, hamı bəyin başına şabaş səpərdi.

Oğlan toyunda qız evindən gəlmiş qonaqlar iştirak edərdilər. Onlara xüsusi qulluq olunardı. Əgər toy pulludursa, qız evi də həmçinin toya gəlmiş başqaları kimi pul salardı.

Bu adət bu gün də saxlanmaqdadır. Qız evi toyda iştirak edir, şənlənir və toy siyahısına adını yazdırır.

Toy qurtardıqdan sonra mağarada pəhləvanlar güləşər, yaxud meyxana ustaları meyxana deyərdilər.

Bu gün kənd toylarında yalnız meyxana demək ənənəsi davam etdirilir.

Gəlin ər evinə köçürülərkən, o özü ilə müxtəlif şirniyyat məmulatları, yəni paxlava, şəkərbura və s. aparardı. Həmin şirniyyatlardan noğul, yaxud konfet gəlinin qabağında oynayanlara və yaxın adamlara yengə tərəfdən paylanardı.

Adətə görə, oğlan toydan sonra 3 gün ortaya çıxmazdı, öz böyüklərinin gözünə görünməzdi. Bu müddət tamam olandan sonra yaxın qohumlar oğlanı aşkara çıxarar, onu evli olduğu üçün təbrik edərmişlər.

Oğlan evə gələrkən mütləq gəlin üçün hədiyyə alıb gətirməli idi.

Gəlinin həftə hamamı keçdikdən bir qədər sonra üzəçıxdı edərdilər, onun qayınatası, yəni oğlanın atası bir hədiyyə alıb gəlinin görüşünə gedərdi, yeni ailə qurması münasibətilə onu təbrik edərdi. Bu adət bu gün də yaşamaqdadır. Bəzi ailələrdə bu adətə ciddi riayət olunur.

Müəyyən vaxtdan sonra isə oğlan evi qızın valideynlərini qonaq edərdi. Bu mərasim eyni ilə qızın valideynləri tərəfindən də təkrar olunardı. Yalnız bundan sonra qohumlar təzə ailə quranları qonaq çağırardılar. Bu da təbii ki, hədiyyəsiz keçməzdi.



Maştağada dərviş toyları da həmişə maraqla keçərdi. Əvvəlki illərə nisbətən kənddə dərviş toylarının keçirilməsi bir qədər azalıb.

Dərviş toyu çalğısız keçirilir. Belə toyda yalnız kişilər iştirak edirlər. Toyu adətən bir neçə dərviş aparır. Onlar toyda dini şeirlər və rəvayətlər, hədislər söyləyir, tərbiyəvi fikirlərlə məclis iştirakçılarının zövqünü oxşayırlar.

Yeri gəlmişkən qeyd edək ki, əvvəllər toylarımızda spirtli içki verilməyib. Hamıya şərbət paylanardı. Spirtli içki sonralar toylarda ayaq açıb və bəzən ənənəyə çevrilib.

**Adqoyma mərasimi.** Ailədə uşaq böyük sevincdir. Onun dünyaya gəlməsi qohumların, valideynlərin bir-birinə münasibətini daha da möhkəmləndirir.

Əvvəllər ananın qayınatanın qabağında uşağı qucağına alması ona hörmətsizlik sayılarmış. Elə oğulun da öz atası yanında uşağı qucağına götürməsi, onu əzizləməsi qəbahət sayılıb. Mərasimi keçirmək üçün oğlan və qız evindən müəyyən yaxın adamlar çağırılır. Onu da qeyd edək ki, uşağın qırxı çıxdıqdan sonra bu mərasim keçirilməlidir.

Adqoydu mərasimində mollanın iştirakı vacib deyil. Bir nəfər yaşlı qadın uşağın adını qulağına deyir. Uşağın qulaqlarına kəlmeyi-şəhadət, sağ qulağına əzan, sol qulağına isə iqamə deyilir.

Adqoydu mərasimində süfrə açılır, dəvət olunanların hamısı uşağın qohumlarını təbrik edir, öz xeyir-dualarını verib yemək yeyirlər.

Uşağa ad qoyan şəxsə xələt verilir.

**Yas mərasimi.** Vəfat etmiş şəxsin meyiti həkim tərəfindən müayinə olunduqdan sonra, bəzi hallarda isə hüquq-mühafizə orqanları tərəfindən (əgər mərhum bədbəxt hadisə

nəticəsində vəfat etmişsə) icazə verildikdən sonra meyit yuyulur, kəfənlənir.

Əvvəllər meyit həyətlərdə, yəni hər kəsin öz həyətində yuyulardı, kəfənlənərdi. Bu işlə xüsusi məşğul olan yerlər açıldıqdan sonra meyit ora aparılır və orada yuyularaq kəfənlənir.

Mərhum və ya mərhumə kişilər oturan otağa qoyulur, burada Quran oxunur. Adətən meyit qoyulmuş otaqda ağsaqqallar əyləşir. Bu otaqda çay içmək və çörək yemək olmaz. Kənar söhbətlər etməyə də icazə verilmir.

Dəfndə iştirak edən şəxslər başqa otaqlarda, yaxud həyətdə məclis üçün ayrılmış yerlərdə yerləşdirilir.

Meyit evdə ayaqları şərqə və üzü qibləyə tərəf uzadılmalıdır. Onun dəfni üçün tədarük görülməli, yəni məzarı qazdırılmalı, dəfn mərasimində rəhbərlik etmək, yola vermək üçün molla çağırılmalıdır.

Qəbrin dərinliyi ortaboylu adamın boyu hündürlüyündə, yaxud onun çiyninə qədər olmalıdır.

Dəfn mərasimi gün batmamış keçirilməlidir.

Cənazə evdən çıxarılmazdan əvvəl kişilər evdən çıxmalı və qadınların öz əzizləri ilə görüşməsinə şərait yaradılmalıdır.

Meyit üçün 3 dəfə salat verilir. Birinci salatda meyid sudan çıxandan (qüsl verildikdən) sonra, həmin şəxsin vəfatı xəbərini çatdırmaq məqsədilə, ikinci salat günortadan keçmiş mərhumun (mərhumənin) yerdən qaldırılmasına (dəfn mərasiminə) hazırlıq vaxtı, üçüncü salat isə vidalaşma ilə bağlı olub dəfn olunmağa getməzdən bir qədər əvvəl yerinə yetirilir.

Qadınlar dünyasını dəyişmiş öz əzizləri ilə bir neçə dəqiqə "görüşdükdən" sonra, mollanın iştirakilə yaxın qohumlar, cavanlar cənazəni qaldırıb evdən çıxarırlar. Təbiidir ki, bu zaman mollanın dediklərinə ciddi əməl olunmalıdır. Cənazə "Ər-rəhman" surəsi oxuna-oxuna qəbiristana aparılır.



Əgər yol uzaqdırsa, bir qədər çiyində aparıldıqdan sonra mafə maşına qoyulur və hamı maşınlara minib dəfn üçün yola düşür.

Cənazə qəbiristanlığa gətirilir. Bəzən meyit namazı məsciddə, evdə, yaxuda da qəbiristanlıqda qılınır.

Ölmüş adamın yaxın qohumları onun dəfni ilə məşğul olur. Bir nəfər şəxs ayaqqabılarını çıxarıb qəbrə girməli, meyit qəbrə qoyulduqdan sonra kəfənin bəndlərini açmalıdır. Meyit sağ çiyni üstündə üzü qibləyə tərəf uzadılmalı, sağ üzü torpağa dəyməlidir. Molla dini ayinləri oxuduqca, qəbrə düşən şəxs meyitin çiynini tərpətməlidir.

Molla icazə verdikdən sonra qəbrə düşən şəxs oradan çıxmalı və qəbrin üstü örtülməlidir. Adətə görə, ölünün üstünün örtülməsində iştirak edən şəxslər yorulduqda beli yerə atmalıdır. Çünki torpaq tökmək savab sayılır, hamı bu işi yerinə yetirməyə çalışır. Bu müddət ərzində molla və ona kömək edən din xadimləri "Yasin" oxuyurlar. Meyit dəfn olunduqdan sonra molla fatehə verdirir, salavat çevirtdirir. Dəfndə iştirak edənlər dünyasını dəyişənin vəfatı ilə bağlı ümumi şəkildə başsağlığı verir. Mərhumun və ya mərhumənin övladları, yaxud ağsaqqalı dəfndə iştirak edənlərə öz razılığını bildirir, ölənlərinə rəhmət diləyirlər.

Bəzən uzaq yoldan gəlmiş şəxslər elə qəbiristanlıqda başsağlığı verir, hüzr yerinə getmədiyinə görə üzrxahlıq edir.

Dəfndən sonra mərhumun ailə üzvləri tərəfindən qəbiristanlıqda halva-çörək paylanır. Dəfndə iştirak edənlərdən kim istəyirsə halva-çörəyi qəbul edir.

Dəfn iştirakçıları geri qayıtdıqdan sonra xəlifə dəfn sahibinin hamıdan razılıq etdiyini iştirakçıların nəzərinə çatdırır. Həm də mərhumun yolunda kim nə əziyyət çəkibsə, halallığını alır. Hamı "halaldır", dedikdən sonra iştirakçılara mərhumun 3,7

və 40-nın veriləcəyi, yaxud hər cümə axşamının saxlanacağı elan edilir. Gülab paylanır, fatehə verilir. Sonra dəfn iştirakçılarına, mərhumun ailə üzvlərinə, qohumlarına başsağlığı verib məclisi davam etdirmək üçün içəri keçmələrini bildirilir. Hamı növbə ilə evin, ailənin və nəslin ağsaqqalına başsağlığı verir, kimi üzrxahlıq edib gedir, kimi də içəri keçir, evdə davam etdirilən yas mərasiminə qatılaraq, mərhumun ruhuna və müqəddəslərin şərəfinə Qurandan oxunan surə və ayələrin zikr olunmasında iştirak edir. Ehsan veriləndən sonra məclis xətm olunur.

Əvvəllər vəfat edən şəxsin evində ev sahibi 3 gün xörək bişirməzdi. Qonşular, yaxud qohumlar bu əziyyətə qatlaşar, ev sahibini od-ocağa yaxın gəlməyə qoymazdılar.

Mərhumənin üçü günü ehsan verilir, Quran tapşırılır, sonra məclis tamamlanır. Ehsan verildiyi zaman məclisə təzə gələnlər üçün ayrı bir yerdə süfrə salınmalıdır ki, onlar əvvəl ehsan yeməyə başlayanları yubandırmasınlar. Çünki hüzr məclisinin öz qayda-qanunu var. Süfrəyə əyləşənlər eyni vaxtda da qurtarmalıdırlar ki, molla fatehə verə bilsin.

Bəzi yerlərdə bu qayda-qanuna riayət olunmur. Bu da əlavə vaxt itkisinə, narazılığa səbəb olur. Xüsusilə Azərbaycanın müxtəlif rayonlarından çıxmış cavanlar hüzr məclisləri zamanı tətbiq olunan qaydalardan çox vaxt xəbərsiz olurlar. Hətta ehsan yeyildikdən sonra daha heç kimi gözləmədən ev yiyəsinə başsağlığı verib gedənlərə də təsadüf edilir.

Əlbəttə, bu mərhumun məclisinə, hüzrdə iştirak edənlərə qarşı hörmətsizlikdir.

Bakının kəndlərində, eləcə də Maştağada belə hallara rast gəlmək olmaz. Çünki dəfn və hüzr saxlama mərasimləri Bakı kəndlərində dinin, şəriətin tələb etdiyi səviyyədə həyata keçirilir.

Məclislərdə ehsan verilərkən hamı bir nəfər kimi əyləşib xörək yeyir. Bu iş başa çatdıqda xəlifənin, yaxud məclisə



diqqət yetirən şəxsin göstərişinə əsasən molla süfrənin duasını oxuyur, fatihə verir. Məclis iştirakçıları ehsanın qəbul olunması ilə bağlı dua oxuyur, fatihə verir.

Məclis iştirakçıları yalnız bu fatihədən sonra ayağa qalxıb ev sahibinə, məclisin ağsaqqalına başsağlığı verib gedirlər.

Kim çay içmək istəyirsə, o qalır. Məclisin gedişatında iştirak edir.

Eyni qayda mərhumun bütün keçirilən məclislərində tətbiq olunur.

Maştağada heç vaxt mərhumun məclisini yola vermək məqsədilə əza (pul) yığılmayıb. Bakı kəndlərində, eləcə də Maştağada əza yığılması adəti yoxdur. Amma mərhumun yaxın qohumları ölü sahibinə müəyyən kömək göstərə bilərlər. Çox vaxt bu kömək qənd, düyü, yağ, diri heyvan gətirməklə olur. Deyilənə görə, əvvəllər bu da yox idi.

Azərbaycanın başqa rayon və kəndlərinə nisbətən Maştağada mərhumun qəbri ilinə yaxın tikilir. Həmin müddətdə torpaq çökür, meyitdə çürümə prosesi qurtarır. Bunu nəzərə alaraq qəbrin tikilməsi mərhumun ilinin verilməsi ərəfəsində yerinə yetirilr. Amma onu da qeyd edək ki, qəbrin tikilməsi vacib deyil.

## Mövsüm mərasimləri

**Novruz bayramı.** Maştağada bu bayramın gəlməsinə xeyli qalmış onu qarşılamaq üçün hazırlıq görülür. Çərşənbə axşamında tonqal yandırmaq üçün hazırlıq görülür. Çərşənbə axşamlarında tonqal yandırmaq üçün çır-çırpı qalanar, əskilər topalanıb bağlanar, üskü düzəldilərdi. Bütün evlərdə bayram əhval-ruhiyyəsi hökm sürərdi.

Hər çərşənbə axşamında qapılara uşaqlar gedərdi. Qaçıb gizlənərdilər. Ev sahibi papağa, ya torbaya bayram hədiyyəsi qoyardı. Bu, adətən axırıncı çərşənbədə olardı. Əvvəllər ol-

duğu kimi, bayram novrağı və şirniyyatının hazırlanmasında qohum-əqrəba, qonşular bir-birinə yaxından kömək göstərirdilər. Belə ki, onlar şəkərbura, paxlava, şor qoğalı və s. bayram novrağları bişirmək üçün bir-birlərinin evinə toplaşardılar. Bunun çox böyük əhəmiyyəti var. Belə tədbirlər zamanı kiçik qız uşaqları şəkərburaya naxış vurmağı, şəkərburanın qırağını bükməyi, ümumiyyətlə, bayram növraqlarının bişirilmə, hazırlanma qaydalarıyla bilavasitə tanış olurlar. Bundan əlavə, bayram biş-düşü zamanı yaşlı, təcrübəli nəsil bayramla bağlı müxtəlif rəvayətlər danışır, milli adət və ənənələrdən söhbət açır, mehribanlıq yaradır, ünsiyyət artırır.

Bayramqabağı hazırlıq işləri növbə ilə evlərdə aparılır.

Novruz bayramı çox mütərəqqi bayramdır. Bütün evlərdə təmizlik işləri aparılır, hər tərəf ağardılır, rənglənir. Ailə başçısı isə borclu qalmır, uşaqlarını və həyat yoldaşına yeni paltar alır, onları bayramın gəlişi münasibətilə təbrik edir.

Novruz bayramının ən mütərəqqi cəhətlərindən biri budur ki, küsülülər barışır, cavanlar ağsaqqalların yanına bayramlaşmağa gedir.

Novruz bayramının axşamı hamı dünyasını dəyişmiş əzizlərinin qəbri üstünə getməli, onlara "Yasin" oxutdurmalıdır.

Bayramqabağı yumurtalar qırmızı rənglə boyadılır. Məhəllələrdən uşaqlar yumurta döyüşdürürlər, cavanlar bəzən bir tabaq yumurtanı "qatar" qoyub (yəni sıraya düzüb) növbə ilə döyüşürlər.

Uşaqlar mərc qoşub fırfıra fırladırlar, kimin fırfırası çox fırlansa idi, o aparardı, mərci udardı. Təəssüf ki, əvvəlki illərə nisbətən bu oyunlar kənddə hazırda az, zəif keçirilir.

Bayram ərəfəsində insanlara sanki yeni ruh yüksəkliyi gələrdi, bazarlarda yumurta satanların işi çox yaxşı gedərdi. Onların satdıqları yumurtaları çox vaxt döyüşdürərdilər, bir-birinə



vurulardı. Qatar oynayan axırıncı yumurta ilə udan şəxs sonda qalib hesab edilərdi. Bütün yumurtaların pulunu isə uduzmuş şəxs verərdi. Hər oyunçunun udduğu yumurta oyunçunun özünə qalardı. Həmin şəxslər udduqları yumurtaları əhaliyə daha ucuz qiymətə satardılar, yaxud uşaqlara bağışlayardılar.

Novruz bayramı qabağı oğlan evi nişan taxdıqları qıza bayram sovqatları aparardı. Bu gözəl adət indi də öz qüvvəsini saxlamaqdadır. Xonçalar bəzədilər, oğlan evinin müəyyən etdiyi şəxslər böyük sevinc-şadyanalıqla qız evinə gedər, gələcək gəlinləri ilə bu münasibətlə təbrik edirdilər.

Bayramqabağı hazırlanan səmənilər stolun, süfrənin bəzəyi hesab olunurdu. Müəyyən vaxtdan sonra səmənidən halva bişirilərdi. Elə bu günün özündə də kənddə səmənidən halva bişirilir. Onun bişirilmə qaydası bir qədər mürəkkəb olduğuna görə haqqında ətraflı məlumat vermirik.

Bayramın səhərisi günü qohum-əqrəba nəslin, ailənin ağsaqqalının yanına gedər, bu əziz bayram münasibətilə sevincini bölüşər, gətirdiyi almanı və ya limonu ona hədiyyə verərdi.

Bu ənənə bu gün də davam etdirilməkdədir. Çərşənbə axşamları, bayram axşamı evdə ən əziz xörək hesab olunan plov bişirilirdi. Qonşulara, qohumlara aş paylamaq adət idi. Bəzən aş aparan adam getdiyi evdən özü ilə aş da gətirirdi.

Süfrə bəzədilər, bayram şamları yandırılar, bütün ailə bayram süfrəsinin ətrafına toplaşardı, bayram sovqatlarından dadılardı. Hamı mehribanlıq, şadyanalıqla həmin günü başa vurardı.

Novruz bayramının bir çox gözəl adətləri bu gün də kənddə saxlanılır. Əhali qədim dövrlərdən bu günə kimi xalqın keçirdiyi bu əziz bayramı hər il böyük şadyanalıqla keçirir, bayram ənənələrini layiqincə yaşadır.

Bu bayram bir neçə gün davam edir.

# LİRİK PARÇALAR, MƏRASİM NƏĞMƏLƏRİ, QAYINANA-GƏLİN SÖZLƏRİ

Nəmçilər ay nəmçilər,
Qapını kəsib elçilər.
Anam deyir: – verməm,
Atam deyir: – dur görək.
Ağzına qurban, dayı,
Sən də bir danış barı.

Taxçada çoxdur çörək,
Araqçının dar-darı.
Ağzuva qurban, dayı,
Sən də bir danış barı.

Qızıl üzük laxladı,
Verdim anam saxladı,
Anama qurban olum.
Tez məni adaxladı.

Yaxşını özgəyə vermək hayıfdı,
Yamanı özgəyə vermək ayıbdı.

Get ay batandan sonra gəl,
Ellər yatandan sonra gəl,
Anam bilsə, eyb eləməz,
Anam yatandan sonra gəl.

Corabuvun altı puta,
Saldun məni yanar oda,
Mənim ahım səni tuta,
Get, ay batandan sonra gəl,
Ellər yatandan sonra gəl.



Çaxmağı çax, çırağı yandır,
İşıq olsun sənə,
Gəlsin adaxlın, aşıq olsun sənə.

Evlərinin yanı bulaq,
Suyunu çəkib uzunqulaq,
Şirazı çıraq, ipək dolaq,
Al çit tuman, gəndi balaq.

Mən aşiqəm bir birçək,
Bir qaş gözdü, bir birçək,
Canım alan üç şeydi,
Bir qaş-gözdü, bir birçək.

Ay taləzar bu gecə,
Tükək bazarda bu gecə.
Gəlinə xına qoyun,
Bəy intizarda bu gecə.

Verdim bir dana,
Aldım bir sona.
Ay qız anası,
Qal yana-yana.

Dərya kənarında bir sürü,
Tutdular əlinnən getdilər evə.
Başuva saldılar zərri yək şavə,
Gəlin sənin toyun mübarək olsun.

Gəlin, sənin saçlaruvı hörərlər,
Başundakı al duvağı görərlər,
Sabah gecə bəyi sənə verərlər,

Gəlin, sənin toyun mübarək olsun,
Geydiyin xələtlər qoy dövlət olsun.

Qızılgülü dəstə-dəstə dərərlər,
Hər dərəndə sinən üstə sərərlər,
Bu gecə gəlini bəyə verərlər,
Getdiyin xələtlər mübarək olsun.

Qızılgül açılar yarpaq içində,
Şamama bəslənər tağlar içində.
Yerüvi salarlar otlar içində,
Qoyduğun qədəmlər qoy dövlət olsun.

Sənə qurban olum, oğlan anası,
Bir gəlin almısan ceyran balası.

Qurban olum qaynanamın üzünə,
Oynasın toyumda baxım sözünə.

Sənə qurban olum, ay qız anası,
Silinsin aynası qalmasın pası.
Qızın olsun yeddi oğul anası,
Sağdışın, soldışın, elin şad olsun.

Qayçını atdın taxçaya,
Cingildəsin yar-yar,
Çağırın oğlan bacısın,
Dingildəsin yar-yar.

Adətən, gəlinapardı zamanı bəyin kiçik qardaşı qurşağını açıb gəlininin belinə bağlayar, öz araqçınını (papağını) isə götürüb onun başına qoyaraq aşağıdakı "sehrli" sözləri deyərdi:



Anam, bacım qız gəlin,
Dili, əli düz gəlin,
On iki oğul istərəm,
Bircə dənə qız gəlin.

Bundan sonra qız evi oğlana təzə bir araqçın bağışlayardı.

Bəyin belbağısı mina düyməli,
Gəlinin əlləri polad iynəli,
Bəylə gəlin bir-birini görməli,
A bəy, sənin toyun mübarək olsun,
Elin, oban hamı birdən şad olsun.

Cibinə tökmüsən noğulla badam,
Toyuvu elərəm, ürəkdən şadam,
Qoy sağ olsun bura yığılan adam,
A bəy, sənin toyun mübarək olsun.

Gözün aydın olsun, oğul anası,
İyirmi yaşına çatıb onun balası,
Oğlum olsun yeddi oğul atası,
Əziz oğlum, toyun mübarək olsun.

Ata-ana çəkər oğul cəfasın,
Qocalanda görər onun səfasın,
Əziz oğlum, toyun mübarək olsun.

Həştərxana getcək alırsan ciyər,
Yığılar kanpulad kababın yeyər,
Vaxt başa gələndə muzdur zəng döyər,
Əs gilavar, gəl qadasın aldığım.

Əyninə geyibdir humayın ağı,
Belinə bağlayıb gümüş belbağı,

Belbağıya dəyər saatın bağı,
Bir gözümün sağı, gül Məmmədtağı.

Qız idim soltan oldum,
Adaxlandım xan oldum,
Evlərə getdim,
Yer ilə yeksan oldum.

Həyəti süpürüb səpmişəm badam,
Qaynatam yaxşıdır, qaynanam yaman,
Qaynanamı çalsın bir gürzə ilan,
"Xanım"qaynanamın uzunboy oğlu.

Qaynatam hacıdır, qaynanam "xanım",
Oğlunun yanında qalıbdır canım,
Yanımdan gedibdir dinim, imanım,
"Xanım"qaynanamın bir gözəl oğlu.

Doğdun oğul, qaynana,
Nabat, noğul, qaynana,
Oğlun aldım əlindən,
Çatda, boğul, qaynana.

Damda dirək tərpənir,
Küncdə kürək tərpənir,
Oğlu evə gələndə,
Köpək zirək tərpənir.

Başına örtübdür zərri dügürdü,
Oğlu evə gəldi köpək yügürdü,
Məni çuğulladı, özü dögüldü,
Oğlu onun sözünə baxan dögüldü.



Qurban olum ərəbövün səsinə,
Midalyon düzülür yan dörəsinə,
Bağlanmışam varlığımla mən sənə,
Sağ-salamat get, sağ-salamat gəl.

Baldızım, çuvalduzum,
Hərdən gələr sancar gedər.
Qaynanam ala köpək.
Hərdən gələr baxar gedər.

Əlində fətir,
Alnında çətir,
Oğlum evində,
Bir qərə (qara) qətir.

Çıxmış idim bir qalaya,
Dərd əlindən mən haraya.
Gün dolanır ömür gedir,
Həsrət qaldım bir balaya.

İnək, kəli mən sağaram,
Gümüş kəli mən qovaram.
Bu il mən bir qız doğaram,
Adını Nərgiz qoyaram.
Gələn il oğlan doğaram,
Adını Cəfər qoyaram.

Oğlun oldu adını qoy Nəzərəli,
Xeyri də olmasa, onun nə zərəri.

Çıxdım divar üstünə,
Divar endi üstümə,

Mən yara neyləmişdim,
Günü aldı üstümə.

Nəlbəki, boşqab, çini dərdi çəkim,
Evdə oturub günü dərdi çəkim.

Ölkənin üstünü edərəm bərbad,
Yar mənim üstümə almasın arvad.
Allah mənə verər bir dənə övlad,
Yalvara-yalvara ağlaram, Allah.

Üzərriksən havasan,
Hər dərdlərə davasan.
Hər yerdəki sən varsan,
Qada, bala sovarsan.

Üzərrik dana-dana,
Dağılıb hərəsi bir yana,
Qohum olsun, yad olsun,
Gözü bu odda yana.

Fəslün yayadur, üzərrik,
Gülün ağdur, üzərrik,
Müşkül günüm düşəndə
Yetiş dada, üzərrik.

Həzrət Süleyman eşqinə,
Cin qızı Mərcan hökmünə.
Bəni-adəmdən, bəni-heyvandan,
Cindən, şeytandan, axar sudan.

Köklü ağacdan,dibli qayadan,
Yeddi yolun ayrıcından,



Hər kəsin çilləsinə düşmüsənsə,
Çilləni kəsdim.

Bəzən belə vəziyyətdə olan uşaqları Buzovnadakı Əliayağı pirinə aparardılar ki, burada o, "əl-ayaq tapsın". Hərgah uşaq yenə gəzməzdisə, şənbə, yaxud da çərşənbə günü onu zənbilin içinə qoyaraq yeddi evə aparardılar. Uşağın anası, ya da digər yaxın bir qohumu ev yiyəsinə müraciətlə deyərdi:

Ay şil bir ayaq istə,
Allahdan dayaq istə.
Verin şilin payını,
Şil dursun ayaq üstə.

Bu sözlərlədən sonra ev yiyəsi də uşağa bir pay verərək deyərdi ki, mən payımı verdim, şil dursun ayaq üstə.

Hacıhəsən kəndinin xəzri əlindəki yamaclığında vaxtilə bir pir – Əsədulla piri olmuşdur. İl yağmursuz keçəndə, yağıntıya böyük ehtiyac duyulanda bu pirdə məxsusi mərasim keçirilərdi. Bu məqsədlə kəndin yaşlı, hörmətli, necə deyərlər, ağzıdualı bir ağbirçəyi kənd uşaqlarını çağırıb pirin ətrafında yığardı. Sonra hamı göyə üz tutaraq birlikdə aşağıdakı mərasimi nəğməni oxuyardılar:

Tanrım bir yağış tökə,
Həleykə, hüleykə.
Yağış yağa, yer çökə,
Atası (tanrı) buğda tökə,
Həleykə, hüleykə...

Yaxud:

Çax daşı, çaxmaq daşı,
Allah versin yağışı.

* * *

Qoyun bulaq üstə dolanı,
Oğlan asta dolanı.
Get, ay batandan sonra gəl
Asta aç qapını, atam oyanı.

Çaxmağı çal yandır,
İşıq olsun sənə.
Gəlsin adaxlın
Aşıq olsun sənə.

Həvəs eyləyib bica gəlmisən,
Gündüzü qoyub gecə gəlmisən.
Ayın qaranlığı, gözün yuxulu,
Türkanın yolunu necə gəlmisən?

Qurban olum arabovun səsinə,
Medalyon düzülüb yan dövrəsinə.
Salamat gedibsən, salamat da gəl,
Bağlanmışam lap ürəkdən mən sənə.

Evlərinin yolu hamam yoludu,
Çıxdım yarı görəm adam doludu.
Nə deyim ki, dərdimi bilsin yarım.
Özgəsi deyildi, əmimoğludu.

Evlərinin yolu hamam yoludu,
Çıxdım yarı görəm, adam doludu.
Nə deyim ki, dərdimi bilsin yarım.
Özgəsi deyidi, əmimoğludu.



Bazarda atlas,
Heç iynə batmaz,
Nişanlı qızlar,
Səhərəcən yatmaz.

Əlimdə lalə,
Getməz xəyalə,
Sırğa al mənə,
İri piyalə.

Əlimdə ağı
Çəkmərəm ahı,
Güllü vağvağı,
Tuman al mənə.

Əlimdə iynə,
Telimdə düymə,
Milmili tirmə,
Tuman al mənə.

Paltar al mənə,
Vurulum sənə,
Geyim sallanım,
Sən də bax mənə,

Gedirəm bağ arası,
Tapdım məxmər parası,
Yaylıq göndər, gül göndər,
Xəlvətdir bağ arası.

Nişanlı qız oynamaz,
Oyninə geyər naz-naz,

Adı onun Qərənfil,
Yengəsi olub Gülnaz.

Üzərrik danə-danə,
Dağılıb hərə bir yanə.
Qohum olsun, yad olsun
Gözü bu odda yanə.

Şabaş verin oynayana,
Dur ayağa, ay qaynana.
Qıt-qılıdi, qıt-qılı
Gəlmişik biz Şağana.

Su götürüb hovuzdan.
Saraldım təknəvuzdan,
Gündə bir xəbər gəlir,
Xərabə məhləmizdən.

Budu, gəlin-qaynana,
Çadrası yellənənə,
Qurban olum gələnə,
Qardaşın gəlininə.

Qız idim soltan idim,
Adaxlandım oldum xan.
Elə ki, ərə getdim,
Yerlə oldum yeksan

Əlində fətir,
Alnında çətir,
Oğlum evində,
Bir qara qətir.



Xeyir deyin, şər gəlməsin,
Üstümə günü gəlməsin,
Dərdimi anam bilməsin
Qıt-qılıdi, qıt-qılıdi.

Ağlayan göz yaş gətirər,
Gülən ağız aş gətirər,
Oynayan şabaş gətirər,
Qıt-qılıdi, qıt-qılıdi.

Dərdimi dərd əhli bilər,
Ağlasam, gözümü silər,
Görəndə üzümə gülər,
Qıt-qılıdi, qıt-qılıdi.

Yarı sevdim bağında,
Gözüm qaldı yanaqda,
Qadan mənə, nə dedim,
Danışan dilində, gül darağında.

Mən oxuyuram yar yuxudan oyansın,
Məndə olan məhəbbətə inansın.
Leyli kimi baş qoyuram daş üstə,
Qeyrəti var, tutsun məni dayansın.

Adımdır Sərvinaz, ləblərim şəkər.
Üzümdəki xallar Əsliyə bənzər,
Çətinlik cavanın qəddini əyər.

Çıxdım divar üstünə,
Divar endi üstümə,

Mən yara neyləmişəm,
Günü aldı üstümə.

On dörd yaşında evdarlığa oturdum,
Özüm gün görmədim, günülü oturdum,
Hanı o mina gülün al yanaqları,
Hamını istərdim, bəs gül kimi soldum.

İnəyi çöldən qovaram,
Camışı göldən qovaram,
Bu il bir oğlan doğaram,
Adını Mövlan qoyaram.

Gəlmişəm aparmağa,
Qiyamət qoparmağa,
Gəlsin oğlan bacısı,
Qoymasın aparmağa.

Çıxmışdım mən qalaya,
Dərd əlindən haraya,
Gün dolanıb, ömür keçir.
Həsrət qaldım balaya.

Ərə getdim peşiman,
Nəyə lazım toy-nişan,
Qalaydım ata evində,
Olsa da günüm pərişan.

Günüm hədərə getdi,
Hədər yox, kədərə getdi,



Hamının balası var,
Mənimki hədərə getdi.

Anam bilir yaşımı,
Qardaş atdı daşımı,
Səni deyə bilmərəm,
Cəllad kəssə başımı.

Yarım mənə saz alsın,
Çalım dərdim azalsın.

Hayana getsən yükün ələndi,
Başın üstündə çərxi-fələkdi.
Özün bilirsən, qızım mələkdi,
Getmə, gəl, başuva gül dolandırım.

Kabab bişirib çəkdim nimçəyə,
Çıxdım küçəyə.
Yarım gəlsin mən yetincəyə,
Getmə gəl, başuva gül dolandırım.

Damda dirək tərpənir,
Küncdə kürək tərpənir,
Oğlu evə gələndə,
Köpək zirək tərpənir.

Yağış yağar nəm çilər,
Qaçan atın qəmçilər.
Bu oğlumun toyunda.
Bəzənər qulluqçular.

## MAHNILAR

### Qız ilə oğlanın söhbəti

- Mən bir qoz ağaci olsam, çöllərdə bitsəm, neynərsən?
- Mən bir alaqarğa olsam, qubloyi yesəm, neynərsən?
- Bir gülə dari olsam, yerə səpilsəm, neynərsən?
- Bir cücəlig touğ olsam, darıni yığsam, neynərsən?
- Bir ala tülkü olsam, cücöi yesəm, neynərsən?
- Mən bir qızıl ilan olsam, səni çalsam, neynərsən?
- Mən bir iti xəncəl olsam, səni doğrasam, neynərsən?
- Mən bir qızıl alma olsam, sandığa girsəm, neynərsən?
- Mən bir gümüş açar olsam, sandığı açsam, neynərsən?
- Mən bir qızıl uşğun olsam, dəryada gəssəm, neynərsən?
- Mən bir göyçeg gəlin olsam, pərdiyə girsəm neynərsən?
- Sən bir göyçeg gəlin olson, pərdiyə girəcek olson, mən də bir cavan oğlan ollam, yanuva gəlsəm neynərsən?



## ŞİKƏSTƏLƏR

Əziz avçı bəni
Qoy vursun avçı bəni
Mələrəm, mələrəm taparam,
Ya qoy vursun avçı bəni

Əzizim dalda yeri
Mey vurar dalda yeri
İki ürək bir olsa,
Tez tapar dalda yeri

Əzizim bəni
Qul eyləyib yoldaşım olsa,
Vəfalı yoldaşım olsa,
Axtarıb tapar bəni

Əzizim gedər qalmaz,
Axar su gedər qalmaz
Vəfalıya can qurban,
Bivəfa gedər qalmaz

Əzizim gecədən gedər,
Karvan gecədən gedər.
Gecə uzun, həmdəm yox,
Zəhləm gecədən gedir.

Əzizim gülə naz,
Bülbül eylər gülə naz.
Zamana pis əsirdir,
Ağlayan çox, gülən az.

Əzizim nə bağlar,
Dost dosta nə bağışlar?
Başım cəllad əlində,
Nə kəsər, nə bağışlar.

Əzizim bu vətəndə
Gözüm yoldan ötəndə,
Qəribə təsir eylər,
Tənəli söz yetəndə.

Əzizim üzmə barı,
Nimçəyə düzmə barı
Aşnalığı üzmüsən,
Dostluğu üzmə barı.

Əzizim hər zülmə,
Ərzəm var Ərzuruma
Dözərəm hər zülümə.

Xoruz ban verəndə gəl
Sinəm qan verəndə gəl.
Sağlığımda gəlmədin,
Barı can verəndə gəl

Arazam, Kürə bəndəm,
Bülbüləm. gülə bəndəm
Dindirməyin ağlaram,
Yanıqlı dilə bəndəm.

Şirvanın yastı yolu,
Su gəldi basdı yolu
Gedirdim dost sevməgə,
Zalımlar kəsdi yolu.

Kür qırağını dolannam,
Dərya kibi bulannam,
Sağ gözüm sənə qurban,
Sol gözümlə dolannam.

Əzizim üzə düşdü,
Sürmələr gözə düşdü
Hər kəs öz keyfində,
Ayrılıq bizə düşdü.

Qaynadım daşdım,
Hicran dəftərin açdım,
Hicran güclü, mən gücsüz,
Götürdüm başımı qaçdım.

Qızıl gül olmıyaydı,
Saralıb solmıyaydı
Bir ölüm, bir ayrılıq,
Heç biri olmayaydı.

Əzizim yaz göndər,
Payız göndər, yaz göndər
Bağda kağız olmasa,
Yapraq üstə yaz göndər.

Gögərcinəm uçdum, gəl,
Dost bağına düşdüm, gəl,
Bir gününə dözməzdim,
Yaman günə düşdüm. gəl.

Bağa girdim bağbansız.
Dəvə gördüm sarbansız.
Aləmə dərman oldu,
Mən ölürəm dərmansız.

Əzizim bu dağından,
Gül bitər budağından.
Mərdin töyləsi yaxşıdır,
Namərdin otağından.

Gök yüzü damar-damar,
Gökdən yerə nur damar.
Yürək ki var şişədir,
Sındırarsan kim yamar.

Aq alma, qızıl alma,
Nimcəyə düzül alma.
Alırsan, çirkin al,
Bədəsil gözəl alma.



# MƏRSİYƏLƏR

## Əli Əkbərin Şümirə müraciəti

Kəsmə yolum, qoy gedim, ey bihəya,
Rəhm elə zalim, mən Əli Əkbərəm.
Qoğeyi-bağı-çəməni Heydərə,
Yetmə (Qıyma?) Nəbi varisi peyğəmbər
Bircə imaməm, şahi-gövhərəm,
Rəhm elə zalım, mən Əli Əkbərəm.
Mən atamın şəbi gülüstanıyəm,
Ali Əlinin guli bostanıyəm,
Mən Hüseynin həminki bostaniyəm,
Rəhm elə zalim, mən Əli Əkbərəm.
Mən bu cahanın gülünü dərmədim,
Ali səfa ləzzətini görmədim.
Kamə çatıb mətləbimə yetmədim,
Rəhm elə zalım, mən Əli Əkbərəm.
Ahu kimi çoxlu yaram vurmayın,
Rəhm eləyin, siz məni incitməyin,
Tazə cavanəm, başımı kəsməyin,
Rəhm elə zalım, mən Əli Əkbərəm
Var idi anam, gözləri yolda qalıb,
İndi bacım başına qara salıb,
Əsqərimiz teşnə susuz oxlanıb,
Rəhm elə zalım, mən Əli Əkbərəm.

# UŞAQ FOLKLORU

## Laylalar

Laylay, balam, laylay,
Əziz balam, laylay,
Balaca balam, laylay,
Göyçək balam, laylay.

Laylay dedim, yatasan.
Gül yastığa batasan.
Gül dərdim xərmən salım,
--------------------------------

Laylası gəli ellərdən,
Ətəyi dolu güllərdən,
Balamı Allah saxlasın,
Yaman-yaxşı dillərdən,

Atası gedib yemişə,
Balam laylay, balam laylay,
Yorğanında gul bitib,
Yastığında bənövşə.
Anası dönüb gomuşa,
Balam laylay.

## Nazlamalar

Qızım-qızım şamama,
Atnan gedər hamama,
Ciq-ciyə başmağınan,
Güləbətin yaşmağınan.

Bu balam hannan olubdu,
Kekili şannan olubdu.
Anası heyva yeyibdir,
Sarısı onnan olubdur.

Çəməndə otlar,
Atlar goy otlar,
Ərsiz arvadlar,
Oğluma qurban.

Mənim oğlum xandır xan,
Bu dağlarda quş qovan.
Misri qılınc əlində,
Hamıya qılınc qovan.

Beşiyi xanalı qızım,
Burnu tanalı qızım.
Kələntərdən elçi gəlib,
Axır xan alan qızım.

Qızıma qurban muğannı,
Sarımsaqlı, soğannı
Yol üstə kürdəxanlı,
Nöütçü balaxannı.



## Oyunlar

**Gizlənpaç** /gizlənqaç/. Oğlan uşaqları arasında geniş yayılan oyunlardan biri "gizlənpaç"dır. Həmin oyun əsasən ilin yaz və yay aylarında oynanılır. Oyunda əsasən dörd-beş iştirakçı olur. Oyunu keçirmək üçün elə yer seçilir ki, orada gizlənməyə şərait olsun.

Oyuna başlamaq üçün ya çöp gizlətmə / çöp atma / püşkündən, ya da sanamalardan ( məsələn, "bir-iki", "əkil-bəkil", "şabalıd" və s.) istifadə edilir. Püşkatmada axıra qalan oyunçu əlləri ilə gözlərini örtərək üzü divara, yaxud arxası gizlənənlərə tərəf dayanır (yumur). Əvvəldən şərtləşməyə görə, yuman oyunçu müəyyən say həddinə qədər sayır ( tutaq ki, 30, 40, 50 və s.), həmin müddətdə digər oyunçular qaçıb gizlənirlər. Başqa bir qaydaya görə isə saymadan istifadə olunmur. Belə ki, oyunçu yumub gözləyir. Hamı gizlənəndən sonra oyunçulardan biri öz yerini bəlli etmədən qışqırır: "gəl"

Beləliklə, axtarış başlayır. Yuman oyunçu kimi görsə, dərhal onun adını və gizləndiyi yeri deməklə qaçıb yumduğu yerə (bu məqsədlə divarda, yerdə, yaxud ağacda təbaşir, kömür, daş, ümümiyyətlə hər hansı bir digər əşya ilə diametri təqribən 20-30 sm. olan bir dairə çəkilir), ya tüpürür, ya da əlini vurur. Tapılan oyunçu isə öz növbəsində çalışır ki, yumandan tez qaçıb gələrək qeyd olunan yerə tüpürsün, yaxud da əlini vursun. Buna nail olan qalib sayılır.

Yuman oyunçu gizlənənləri axtararkən çalışır ki, yumduğu yerdən çox uzaqlaşmasın, əks halda, onun bu uzaqlaşmasından istifadə edərək digərləri qaçıb gəlib tüpürə bilər. Tüpürən oyunçu isə yummaq cəzasından yaxasını qurtarmış olur. Bütün gizlənən oyunçular "zərərsizləşdiriləndən" sonra

oyun zamanı birinci tapılıb "zərərsizləşdirilən" yumur və oyun yenidən əvvəlki qayda ilə davam edir.

Məlumdur ki, oyunun gedişində hər hansı bir oyunçu "zərərsizləşdiriləndən sonra o birilər artıq yummaq "cəzasından"azad olurlar. Lakin buna baxmayaraq, qalan gizlənənlər öz yerlərini qətiyyən büruzə vermir və yuman oyunçu gizlənənlərin heç birini "zərərsizləşdirə" bilmir və nəticədə yenidən yummalı olur.

Oyunun digər şərtinə görə "çıxartdı" tətbiq oluna bilər. Bu zaman gizlənmiş oyunçulardan hər hansı biri yumanı qabaqlayıb müəyyən olunmuş yerə tüpürərsə, onda tapılmış birinci oyunçunu /və oyunçuları / "çıxardır". Nəticədə yuman bir daha yummalı olur.

Oyun zamanı başqa bir qayda da tətbiq edilə bilər. Oyunçular şərtləşə bilərlər ki, oyun, tutaq ki, iki, yaxud üç "əmcəkdəndir" bu zaman püşkatmada axıra qalan oyunçu bütün gizlənənləri tapıb "zərərsizləşdirəndən" sonra yenidən bir, ya da iki dəfə həmin qayda ilə yummalıdır. Axırıncı dəfə yumandan sonra tapılan və "zərərsizləşdirilən" birinci oyunçu da həmin qayda ilə iki, yaxud üç "əmcək" yummağa borcludur.

**Fırfıra.** Bu oyun oğlan uşaqları arasında keçirilir. Oyunun iki və daha çox iştirakçısı ola bilər.

Hər iştirakçının öz qamçısı olur. Oyunçular yoğunluğu təqribən 3, uzunluğu isə 8-10 santimetr olan bir ədəd taxtanın bir, yaxud hər iki ucunu itiuclu konus formasına salırlar. Bəzən sınmasın deyə, taxtanın uclarına yarıya qədər mıx da vurulur. Fırfıranın hərəkətini daha dəqiq izləmək üçün onun üzərində müxtəlif formalı naxışlar da açılır.

Bundan sonra oyunçulardan biri fırfıranı fırladır. Digər iştirakçılar / fırfıranı fırladan da daxil olmaqla / növbə ilə hərəyə bir dəfə qamçılarının gön (hazırda qamçılar daha çox rezindən düzəldilir) hissəsinin uc tərəfi ilə çox cəld bir surətdə fırfıraya o vaxt zərbə endirə bilər ki, artıq o dayanmaq üzrə olsun. Fırlanma müddəti say ilə müəyyən olunur. Fırfıranın uzun müddət fırlanmasına nail olan oyunçu (yaxud oyunçular) qalib hesab edilir: fırlada bilməyən, yaxud müddətcə az fırladan oyunçu qalibin (və yaxud qaliblərin) hər hansı bir arzusuna (məsələn 50 metr məsafəni bir ayağı üstə getmək, gedib qayıtmaq və s.) əməl etməyə borcludur. Bəzən elə olur ki, oyunun bir növbəsi ərzində iki, üç uşaq fırfıranı fırlada bilmir. Belə olan surətdə onlar növbə ilə qaliblərin arzusunu yerinə yetirməli olurlar.



**Dirədöymə / "**qayışqaldı", "qayışqapdı" /. Bu oyun daha çox ilin yaz fəslində keçirilir. Oyunçuların sayı 3-4 və daha çox ola bilər. Oyuna başlamaq üçün ya çöp gizlədilir (çöp atılır), ya da sanamalardan istifadə olunur.

Təqribən 2, 2.5 metr diametrində dairə çəkilir. Püşkatmada axıra qalan oyunçu dairənin içərisində dayanır. Digər oyunçular isə dairənin müxtəlif səmtlərində dayanmaqla hərə öz kəməri ilə (yaxud ucu düyünlənmiş ip, şarf ilə) onu vururlar. Qaydaya görə, dairənin ətrafındakılar zərbə endirərkən nə dairənin içərisinə girməli, nə də dairə xəttini tapdalamalıdır; əks halda həmin oyunçu dairədə dayananı əvəz etməlidir.

Ortada qalan oyunçu ona vurulan zərbələrdən yayınmağa çalışaraq, həmin kəmərlərdən birini tutmağa səy göstərir. Kəməri tutduqdan sonra çəkişmə (dartışma) başlayır. Hər iki tərəf kəməri əldə möhkəm saxlamağa çalışır. Ortadakı oyunçu kəməri ələ keçən oyunçunu dartıb dairəyə salarsa və yaxud heç olmasa onun ayağının dairə xəttinə toxunmasına nail olarsa, o zaman qalib sayılır və məğlub oyunçu dairəyə girməli olur. Hərgah

kəməri əldən buraxarsa və yaxud çəkişmədə özü dairədən kənara çıxarsa (yaxud təkcə bir ayağı xəttin üstünə, dairədən kənara dəyərsə) onda o, yenidən dairənin içində qalmalı olur.

Onu da qeyd etmək lazımdır ki, zərbələrin həddindən artıq möhkəm və bədən üçün təhlükəli sayılan yerlərdən vurulmasına yol verilmir.

**Pula tutdu.** Bu oyunda dörd-beş və daha çox iştirakçı ola bilər. Hər iştirakçının uzunluğu təqribən bir metr başı haçavari ağacı olur. Oyun zamanı ya yumruq boyda möhkəm sıxılmış əski, ya da yarıboşalmış rezin topdan istifadə olunur.

Yerdə təqribən 1.5, 2 metr məsafəliklərdə oyunçuların sayından bir ədəd az düz xətt boyunca dərinliyi 10-15, diametri isə 10-12 santimetr olan çuxurlar ("pula") qazılır. Bundan sonra oyunçular kimin ortada qalmasını müəyyənləşdirmək üçün on, on iki addımlıq məsafədə topu düz bir yerə qoyub növbə ilə əllərindəki ağacı "tolazlayıb" ona doğru ataraq vurmağa səy edirlər. Topu vurmağa müvəffəq olan oyunçular bir-bir keçib ağaclarını pulalara salıb gözləyirlər. Topu vura bilməyib axıra qalan oyunçu ortada qalıb "işləməli" olur. Oyunun ədalətli gedişinə nəzarət üçün adətən oyunçulardan biri başçı ("molla") seçilir (adlanır). Beləliklə, oyun başlayır.

"İşləyən" oyunçu pulalardakı oyunçulardan mərkəz istiqamətə doğru on iki, on beş addım aralıda dayanır. Bundan sonra əlindəki topu onlara doğru ( istədiyi cinaha, yaxud mərkəzə) atır və sürətlə də onun ardınca qaçır ki, pulalardakı oyunçular topa endirməmiş yenidən onu ələ keçirsin. Bu zaman pulalardakı oyunçulardan biri (top kimin pulasına yaxın düşübsə) öz ağacı ilə topu vurub özündən uzaqlaşdırmalıdır (topu havada ikən də vurmaq olar). Buna nail olandan sonra dərhal ağacını pulasına salıb gözləyir. Hərgah işləyən oyunçu topa



zərbə vurulmamışdan (qeyd etmək lazımdır ki, işləyən oyunçu topu elə atmalıdır ki, hər hansı bir pulanın lap yaxınlığına düşsün; əks halda hesaba alınmır və topun yenidən əvvəlki yerindən atılması hadisəsi təkrar edilməli olur) onu ələ keçirə bilərsə, o zaman topu düşdüyü yerdən yenidən pulalara doğru ata bilər, əks halda zərbədən sonra top harada ələ keçirilibsə oradan da atılmalıdır. İşləyən oyunçu hər dəfə səy edir ki, pulalardakı oyunçulardan hansı birinəsə daha çox yaxınlaşsın. Nəhayət, işləyən oyunçu pula oyunçusunun birinə yaxınlaşıb topu və öz ağacını eyni vaxtda onun pulasına salmağa cəhd göstərir. Buna nail olarsa, o zaman deyir: " Pula mənim". Bundan sonra pulasını itirmiş oyunçu işləməli olur.

Oyun zamanı belə bir qaydaya da əməl edilir: puladakı oyunçu topu vurub özündən uzaqlaşdırırarkən digər pulalardakı oyunçulardan hər hansı biri istəsə cəld tərpənib öz ağacını boşalmış pulaya salaraq "Pula mənim"deyə bilər.

Ona görə də topu özündən uzaqlaşdırarkən oyunçu son dərəcə diqqətli və cəld hərəkət etməlidir ki, öz pulasını itirərsə, digər boşalmış pulanı tuta bilsin. Belə ki, işləyən oyunçu bu vəziyyətdən istifadə edib müvəqqəti boşalmış pulaya "sahib" ola bilər.

**Künc / künc tutdu / oyunu.** Bu oyun qoyun-quzu otaran, yaxud qoyun qabağına çıxan uşaqlar arasında daha çox yayılmışdır. Oyunda dörd və daha çox iştirakçı ola bilər. Oyunun keçirilməsi üçün qoyun-quzu yatağı (qərəb), yaxud başqa bir müvafiq tikili seçilir. Belə yelər olmadıqda bir-birindən 5-6 metrlik məsafədə olmaqla oyunçuların sayından bir ədəd az nisbətən iri daşlar qoyulur.

Çöp atılır. Bundan sonra oyunçular künclərdə (yaxud daşların yanında) öz yerlərini tuturlar. Çöpü tuta bilməyən

oyunçu isə ortada qalır. Bundan sonra künclərdəki oyunçular bir küncdən digərinə qaçmaqla öz yerlərini dəyişməyə başlayırlar. Künclərdəkilər öz yerlərini dəyişərkən ortadakı oyunçu cəld tərpənərək künclərdən hər hansı birini tutmağa səy etməlidir. Buna müvəffəq olarsa, onda küncünü itirmiş oyunçu ortada qalır. Qeyd etmək lazımdır ki, oyun ərzində ortadakı oyunçu gedib hər hansı bir küncün yaxınlığında dayana bilməz.

Oyunun bir dövrəsi ərzində (yəni oyunçular hərə bir dəfə öz yerini dəyişməklə) küncünü dəyişə bilməyən oyunçu cərimə olunur və o, ortada duranı əvəz etməli olur. Oyun bu qayda ilə davam edir.

**Çilədi.** Maraqlı uşaq oyunlarından biri də "çilədi"dir. Həmin oyun daha çox ilin yaz aylarında oynanılır. Oyun zamanı kollu it olan quramutdan (bəzən isə cığ-cığa otundan) istifadə olunur. Özü də oyun əsasən iki nəfərin arasında keçirilir.

Başlamaq üçün çöp gizlədilir. Bundan sonra sayca neçədən oynamaq (məsələn, oyunçular şərtləşirlər ki, kim 50, yaxud 100 sayına daha tez çatsa o da qalib sayılacaq) qərarlaşdırılır.

Püşkatmada qalib çıxan oyunçu öz çilədisi ("çilək") ilə oynamağa-çiləməyə başlayır. "Çiləmək", çilədinin ayağın pəncə hissəsinin üstü ilə təqribən 20-25 santimetr hündürlük arasında arası kəsilmədən atılıb-tutulması hərəkətidir. Çiləməyə başlayan oyunçu müəyyən say həddinə çatıb (tutaq ki, 7-ə) çilədini yerə salarsa, o zaman həmin oyunçu müvəqqəti olaraq oyunu dayandırır (yəni "qalır"). Bundan sonra oyundaşı öz çilədisi ilə çiləməyə başlayır. Bu qayda ilə oyunçular müəyyən olunmuş say həddinə çatana qədər növbələşirlər. Onu demək lazımdır ki, bəzi mahir oyunçular çilədini yerə salmadan müəyyən olunmuş say həddinə qədər çiləyə bilirlər.



Oyunda belə bir qayda var: hərgah oyunçu təsadüfən müəyyən olunmuş saydan artıq çiləyərsə, o zaman neçə sayda çilənməsindən asılı olmayaraq o, oyuna "I" başlamalıdır. Belə bir hal demək olar ki, rəqibin qələbəsini təmin edir. Başqa bir qaydaya görə isə, müəyyən olunmuş həddə birinci olaraq çatıb və onu keçən oyunçunun çiləməyi say üstünlüyü kimi yenidən başlanacaq oyun zamanı nəzərə alınır.

Uduzmuş oyunçu qalibdən 3-4 addım aralıda dayanaraq, çilədini onun ayağı istiqamətində qarşısına atır. Bu zaman qalib oyunçu pəncəsinin üstü ilə çilədiyə zərbə endirir. Çiləyə zərbə dəymədikdə məğlub oyunçu yenidən həmin hərəkəti təkrar etməlidir. Qalib oyunçu çiləyi müxtəlif istiqamətlərə vurmaqla bu cür hərəkəti bir neçə dəfə, yəni zərbə endiriləndən sonra havada ikən məğlub oyunçunun çiləyi tutmasına qədər davam etdirir. Məğlub oyunçunun bu cür "cəzalandırılmasınına" "işləmək" deyilir. Bəzən oyundan qabaq belə şərt kəsilir ki, çiləyi iki, yaxud üç dəfə tutandan sonra oyun bitmiş hesab edilsin.

Oyunda iştirakçıların sayı iki nəfərdən çox da ola bilər. Belə halda oyunçular arasında yenə növbələşmə qaydasına riayət olunur. Bu zaman müəyyən olunmuş say həddinə çata bilməyib axıra qalan oyunçu növbə ilə çiləyi qalib oyunçuların ayağına ataraq "işləyir"

İlin soyuq aylarında da çilədi oynanılır. Belə vaxtlarda çilədi üçün yararlı ot olmadığından onu qoyun dərisindən düzəldirlər. Bunun üçün yunu üstündə olmaq şərtilə 2-3 santimetr diametrində dəri götürülür. Əlverişli və nisbətən ağır olsun deyə qalınlığı 1-2 millimetr, böyüklüyü isə həmin dəri boyda olan qurğuşun parçasını götürüb iki yerdən deşir (həmçinin dərini də eyni qayda ilə), sonra isə nazik məftil, yaxud qalın sap ilə onu dəriyə kip qaydada bənd edirlər. Qəşəng

görünsün deyə, hər kəs öz çiləyinin yununu tez-tez didir ki, (didişdirir) yun pırpız qalsın.

Oyun zamanı ayağın zədələnməsinin qarşısını almaqdan ötrü ot ilə oyundan fərqli olaraq, ayağa hökmən ayaqqabı geyilir. Oyunçular dəri çiləyi ya pəncə ilə, ya da ayağın pəncə ilə daban arasındakı boşluq hissəsi ilə çiləyirlər. İkinci halda hərəkət vəziyyəti hər dəfə ayağın qarına doğru bucaq altda yığılaraq qalxması və yenidən yerə enməsi qaydası ilə təkrarlanır.

**Daşbadaş.** (daşbadaş gəlmək) Daşbadaş əsasən ilin yaz və yay aylarında oğlan uşaqları arasında keçirilən nisbətən təhlükəli əyləncələrdəndir. Əyləncəyə başlamaq üçün hər tərəfdə iki-üç nəfər olmaqla (bəzən təkbətək də keçirilir) iki dəstə düzəlir. Dəstələr bir-birindən təqribən 70-80 metr məsafədə dayanırlar. Dəstənin uşaqları hərəyə beş-altı "əl-daşı" (diametri təqribən 4-5santimetr olan kiçik daşlar) götürüb gözləyir.

Dəstə başçılarından hər hansı birinin "başladıq" deyə verdiyi işarədən sonra rəqiblər bir-birlərini daşa basırlar. Uşaqlar cəhd edirlər ki, atılan daşlardan yayınsınlar; belə ki, daş dəyən oyunçu qaydaya görə kənarda dayanmalıdır. Əyləncə bir rəqib dəstə üzvlərinin tamamilə "sıradan çıxmasına" (kənarda qalmasına) qədər davam edir.

Deməк lazımdır ki, bu əyləncə zamanı bəzən uşaqlar bədən xəsarəti də ala bilərlər. Buna görə də şumlanmış sahədə, yaxud kəsək olan yerdə həmin əyləncə ilə məşğul olmaq daha əlverişli hesab olunur.

**"Çomur-çomur".** Bu oyun əsasən Novruz bayramı zamanı oynanılır. Oyuna başlamaq üçün kiçik ölçüdə yer (quyu) qazılır. Sonra oyunda iştirak edən oyunçular hərəsi öz qazdığı yerə müəyyən qədər qoz-fındıq tökür. Say zamanı



kimin qazıdığı çuxurda qoz-fındığın sayı çox olardısa, o, qalib sayılardı. Cərimə olunanların başına həmin qoz-fındığın sayı qədər çırtma vurulardı.

**"Piti-piti".** Bu oyuna başlamaq üçün böyük bir dairə çəkilir. Uşaqlar dairənin içinə girirlər. Bir nəfər parçadan düzəldilmiş top ilə dairədə olan uşaqlardan hansınısa vurmalıdır. Top dəyən uşaq isə dərhal onu götürüb yenidən top atana vurmağa cəhd göstərməlidir. Bu cəhd baş tutarsa, o zaman əvvəlinci uşaq yenə dairədən kənar qalıb öz hərəkətini təkrar etməlidir. Cəhd baş tutmazsa, onda top dəymiş uşaq dairə kənarında qalır. Oyun bu qayda ilə davam edir.

# ƏFSANƏ VƏ RƏVAYƏTLƏR

## Bibiheybət

Deyildiyinə görə, İrandan iki qız Heybət adlı bir adamın gəmisi ilə Şıx kəndinə gəlir. Heybət bu qızlara bibi deyərmiş. Az sonra Heybətin gəmisi ilə İrandan bibilərin yanına qırx qız da gəlir. Bu qızlara hamı hörmət edir, onlara ziyarətə gəlirlərmiş.

Bir müddət keçir, qızların hamısı ölür. Heybət bunların qəbirlərinin üstündə günbəz tikdirir. Heybət öləndə də qızların qəbirlərinin yanında dəfn edilir. Beləliklə, bura Bibiheybət adlanır.

## Qız qalası

Belə nəql eləyirlər ki, bir zaman ərəblər atəşpərəstlərin məbədgahını dağıdıb, ocaqlarını söndürüb, onlara islam dinini qəbul etdirirlər. O vaxtlar atəşpərəstlər ərəblərin əlindən qaçıb başqa ölkələrə gedirlərmiş.

Atəşpərəstlər ocaq axtara-axtara gəlib gözəl bir yerə çıxırlar. Görürlər ki, bu yerlərin ab-havası çox yaxşıdır. Özü də burada yerdən od çıxır. Bunu görən atəşpərəstlər gedib öz moltanı xanlarına xəbər verirlər.

Moltanı xanı bu yeri bəyənir. Gəlib dəniz qırağında yeddi mərtəbə hündürlüyündə iki qapılı, üstü də açıq bir qala tikirlər.

Bunların adətlərinə görə, varlı adamlar yeddi ilin azuqəsini götürüb gələrmiş həmin qalaya, alt mərtəbədən başlayıb, ildə qalanın bir mərtəbəsində oturub, ibadət edərmiş. Yeddi mərtəbəni qurtarandan sonra moltanı adını alarmış.



Bir müddətdən sonra ərəblər gəlib buralara çıxırlar. Atəşpərəstlərlə ərəblərin arasında dava düşür. Atəşpərəstlərin bir hissəsi qaçıb başqa ölkələrə, bir hissəsi isə Şüvəlana gedib orda yaşamağa başlayır. Burada özlərinə məbədgah tikirlər.

İllər, aylar keçir, Səməd adında bir xan peyda olur. Səməd xanın Sona adında gözəl bir qızı varmış. Səməd xan bu gözəlliyi öz qızında görəndə min könüldən bir könülə öz qızı Sonaya aşiq olur. Sonanın Həsən adında bir sevgilisi var imiş, hər gün onunla görüşürmüş.

Bir gün Səməd xan öz qızını yanına çağırtdırıb, ürəyindəkini açıb söyləyir. Sona atasının bu təklifini rədd eləyib ağlaya-ağlaya anasının yanına gəlir, əhvalatı ona danışır. Sonanın anası Ceyran xanım gözünün yaşını tökə-tökə əri Səməd xana deyir:

– Gəl sən bizi el içində biabır eləmə, ata da öz qızını alarmı?

– Ay arvad, heç elə iş olar? Qızımı sınayırdım ki, görəm təmiz qızdımı?

Ceyran xanım ərinin sözünə inanır, gedib qızını da başa salır.

Bir müddət gəlib keçir. Gecəynən Səməd xan arvadını öldürür. Yenə bir müddət gəlib keçir. Səməd xan durub gəlir öz qızının yanına, fikrini ona deyir.

Sonanın əlacı kəsilir, atasından yeddi gün möhlət istəyir. Atası razılıq verir. Sona sevgilisinin yanına gedir; əhvalatı ona söyləyir.

Sevgilisi Həsən deyir:

– İndi ki belədi, get atana deginən ki, filan yerdə atəşpərəstlərdən qalma bir qala var, yeddi mərtəbəyə kimi tikilibdi, amma üstü örtülməyib. Bir mərtəbə də onun üstündə tikdirib səkkiz mərtəbə elə, ondan sonra sənə gəlim.

O vaxtacan atanın başı qarışar, mən də səni götürüb qaçaram.

Sona razı olur. Atasının yanına gəlib necə ki, Həsən demişdi, onun təklifini atasına söyləyir. Ata qızının təklifini qəbul eləyib, həmin gün moltanıların yeddimərtəbə qalasının üstündən bir mərtəbə də tikdirməyə başlayır. Bir neçə gündən sonra qalanın səkkizinci mərtəbəsi hazır olur.

Sona qalanı görüb ağlaya-ağlaya gedir Həsənin yanına:

– Bu gün axşam atam məni qalanın səkkizinci mərtəbəsinə aparır. Sən də əlinə bir xəncər alıb gəlib dayanarsan pilləkanların birində, atam gələn kimi onu vurub öldürərsən.

Həsən əlinə xəncər alıb, gəlib dayanır qalanın üst pilləkanında. Səməd xan gələn kimi Həsən ona bir xəncər vurub cəhənnəmə vasil eləyir. Bu dəmdə Sona xanım yuxarıdan baxırmış. Görür ki, Həsən Səməd xanı vurub öldürdü, sevindiyindən heç bilmir nə etsin. Qalanın üstündən boylanıb əliynən Həsəni salamladıqda ayağı büdrəyir, qaladan aşağı yuvarlanır.

Bu mənzərəni görən Həsən Sonanın meyiti üstünə gəlir, əlindəki xəncəri ürəyinə soxub, sevgilisinin yanına yıxılır.

Camaat yığılır, Sona ilə Həsənin meyidini qalada dəfn edirlər. O vaxtdan qalanın adı olur "Qız qalası".





## Əlibaba piri

Abşeronun orta əsr pirlərindən biri də "Əlibaba piri"dir. Bakının 50 kilometrliyində, Xəzərin şərq sahillərində, Türkan qəsəbəsində köhnə qəbiristanlıqdakı bu pir iki otaqdan ibarət idi. Pir hazırda əvvəlki görkəmində qalmamışdır.

Dəfn olunan şəxsin fəaliyyətinin XIII əsrə aid etmək olar. Mərkəzdə iş sonra şeyxin müridləri tərəfindən davam etdirilmişdir. Şübhəsiz, mərkəz sufiliklə əlaqədar fəaliyyət göstərmişdir.

Epitafiyada adı qalmayan, lakin əsrlərdən bəri ağızdan-ağıza keçərək xalq arasında bu günə kimi yaşamış Pir Əlibabanın adıyla bağlı olan mərkəz, xalq işi uğrunda mübarizədə şəhid olduğu üçün onun məzarını bu günə kimi xalq tərəfindən müqəddəsləşdirilib ziyarətgaha çevrilməsi, vaxtilə həmin mərkəzin Abşeronda mühüm siyasi-sosial obyektlərdən olduğunu bir daha sübut edir.

## Qara paltar piri

Əhali arasında "Qara paltar piri" adıyla məşhur olan abidə Buzovna qəsəbəsinin "Nazranlı" məhəlləsindədir. Həmin abidənin oxşarı Abşeronun Yeni Suraxanı və Şağan kəndlərində də var.

Məzmun və forma cəhətdən orta əsr Azərbaycan memarlıq və epiqrafika abidələrindən fərqlənən bu üç oxşar türbə binaları, onların üzərindəki ərəbdilli kitabələr və türbələrin içərisindəki qoşa qəbirlərin baş tərəfində divara hörülmüş xaç daşlar-başdaşları öz orijinallığı ilə diqqəti cəlb edir.

Abidələrin qapılarının üzərində olan kitabələrdəki yazılar illərdən bəri sürtülüb pozulduğu üçün çətin oxunurdu. Dəfn olunanların adları da digər kitabələrimizdəki müsəlman adlarından fərqlənirdi.

İkinci oxşar türbə Yeni Suraxanı qəsəbəsində, neft buruqları arasındadır. Türbənin qapısı üzərində qoyulmuş əhəng daşına ərəbcə nəsx xəttilə iki sətrdə həkk olunmuş yazının birinci sətrinin əvvəli xarab olmuşdur.

Üçüncü türbə Şağan kəndindədir. Qapının üzərində hörülmüş əhəng daşına iki sətrlik nəsx xəttilə ərəbcə yazı həkk olunmuşdur.

## Nardaran piri (I)

Nardaran qəsəbəsindəki "Nardaran piri" memarlıq abidələri və bədii daşyonma əsərləri kompleksində bir neçə məscid, məqbərə, başdaşı, sənduqə formalı tarixi mədəniyyət abidələri cəmləşmişdir.

Rəvayətə görə, məqbərədə şiə imamlarının qadın qohumu dəfn olunmuşdur. Məqbərə və qəbir üzərində kitabə yoxdur, lakin bəzi mənbələrdə imam övladlarının təqib olunarkən bu tərəflərə mühacirət etmələri haqqında ara-sıra qısa məlumatlara rast gəlmək mümkündür.

## Nardaran piri (II)

Nardaran piri bakılıların və Abşeron əhlinin əsrlərlə iman gətirdikləri bir inanc yeridir. Türbə binası memarlıq-konstruktiv quruluşuna görə XIII-XIV əsrlərə aid edilir.

Kitabədə qeyd olunan Xacə Hacı Həmzə Şirvanşahlar dövlətində baş sədr vəzifəsində işləmişdir. Bu sərdabədə VII



imam-Museyi-Kazımın qızı, VIII imam Rzanın bacısı xanım Rəhimə dəfn olunub.

"Nardaran piri" memarlıq abidələri və bədii daşyonma əsərləri kompleksində bir neçə məscid, məqbərə, başdaşı, sənduqə formalı tarixi mədəniyyət abidələri cəmləşmişdir.

## Pirşağı piri

Abşeronda əhali tərəfindən pir deyə ziyarət olunan yerlərdən biri də Pirşağı qəsəbəsindədir. Maraqlı burasıdır ki, pirşağılılar hələ indiyə kimi kəndlərinin adının həmin yerdə fəaliyyət göstərərək, ölümündən sonra dəfn olunmuş şəxs ilə əlaqədar meydana çıxdığını da bilmirlər.

## Pir Həsən Türbəsi (I)

Abşeronun Mərdəkan qəsəbəsində olan "Pir Həsən" türbəsinin planı daxildən və xaricdən düzbucaqlı şəklindədir. Binanın üstü günbəzlə örtülmüşdür. Türbənin əsas fasadında, portaldakı qapı yerinin üstündə ikisətirlik ərəbcə kitabə yerləşdirilmişdir.

## Pirhəsən türbəsi (II)

Mərdəkan qəsəbəsində yerləşən bu türbə XVII əsrə aid edilir. Düzbucaqlı formasında olan türbənin giriş hissəsindəki kitabədə yazılıb: "Bu mübarək məqbərə ən kamil insanların nümunəsi Pirhəsənindir. Əzəmətli xaqan Şah Abbas (Allah onun hökmranlığını əbədiləşdirsin) vaxtında Dərviş əl-Hüseyni tikdirmişdir. 1021-ci il" (1612-1613-cü illər). Ustası Nadirəli Yarəli oğludur.

Əsrlərlə bu türbə insanların pənah gətirdiyi ziyarətgahlardan olub. Bu da onu göstərir ki, Pirhəsən müqəddəs bir şəxsiyyət olaraq hələ qədim zamanlarda da camaatın inanc yeri idi. Sonralar türbənin yanında bir məqbərə də tikilib. Yerli əhalinin, yaşlı adamların dediklərinə görə, burada 7-ci imamın Museyi-Kazımın qızlarından biri-xanım Xədicə dəfn edilib. Məqbərədəki sinə daşı olduqca uzaq keşmişimizdən xəbər verir. Çox güman ki, Pirhəsən türbəsinin yerləşdiyi ərazidə qədim qəbirstanlıq olub.

## "Bibi Heybət" məqbərələri (I)

Müqəddəs "Bibi Heybət" piri kompleksi Bakı şəhərinin yaxınlığında – Şıx kəndində olmuşdur. Rəvayətə görə, kompleks şiələrin səkkizinci imamı Rzanın orada dəfn olunmuş bacısının məqbərəsi ətrafında meydana gəlmişdir. Burada Şirvan-Abşeron memarlığının ən görkəmli nümunələri-minarələr, gümbəz örtüklərinə malik geniş salonlu came, ikinci kiçik məscid, yardımçı binalar, məqbərə, sərdabələr və s.olmuşdur.

## Bibi-Heybət məscidi (II)

Bibi-heybət məscidi Bakıdan 4-5 km aralı, Xəzər dənizinin 0,5 kilometrliyində, yamacda XIII əsrdə Şirvanşah II Fərruxzad tərəfindən inşa edilmişdir. Məscidin divarındakı kitabədən A. Bakıxanov, P.İ. Berezin, B. Dorn, N.O. Xanıkov bəhs etmişlər. Həmin kitabədə məscidin 1281-1282-ci illərdə II Fərruxzad ibn Aksitan ibn III Fəribürzün tərəfindən memar Mahmud ibn Sədin tikdiyi bildirilir.

Bu əzəmətli türbədə VII imam museyi-Kazımın qızı Həzrət Həkimə və imamın daha üç-iki oğlan və bir qız nəvəsi uyuyur.



Bəzi tarixi rəvayətlərdə onların Azərbaycana gəlişi islam dininin təbliği və islamın Azərbaycana yayılması ilə bağlıdır.

Digər bir tarixi rəvayətdə isə deyilir ki, imam Rza Bağdad xəlifəsi Harun Ər-Rəşidin oğlu Xəlifə Məmun tərəfindən Xorasan şəhərində zəhərləndirildikdən sonra, imam övladlarının peyğəmbərin dəfn olunduğu Mədinə şəhərinə buraxılması yasaq edildi.

Sevimli qardaşının ölümündən sonra imam Museyi-Kazımın 3 nəvəsi ilə Həzrət Həkimə xanım İranın Ənzəli şəhərinə zəvvar olur. Ənzəlidən isə xeyirxahı Baba Sucədin vasitəsilə Bakı limanına gəlir. Baba sucəd Bakını Həzrət Həkimə üçün təhlükəsiz bildiyindən, xanımı hacı Bədir adlı imkanlı bir dostuna tapşırır.

Hacı Bədir varlı, ədəbli, sadiq bir insan olduğundan bütün ömrü boyu Həzrət Həkimə xanımın xidmətkarı olmuşdur. Düşmənlərinə xəbər çatmasın deyə, Həzrətin əsl adını gizlədib, ona "Bibi" – deyə müraciət etmişdir.

"Əlifba" sözü bildiyimiz kimi ərəb əlifbasının birinci "Əlif" və ikinci "Bə" hərflərinin adlarından götürülmüşdür. Hacı Bədir də "Hacı" sözünün birinci hərfi "Hey" və "Bədir" sözünün birinci "Bə" adlarından istifadə edərək "Heybət"gizli adını əbul etmişdir.

İmam Museyi-Kazımın 3 nəvəsini və onun sevimli qızı Həzrət Həkiməni himayə edən Hacı Bədir onları bütün qalmaqal və dedi-qodulardan, təqib və zülmlərdən hifz etmişdir.

1257-ci ildə dünyasını dəyişən xanım ərə getməmiş, ömrünü qardaş və bacı balalarına həsr etmişdir.

Hacı Bədir öz arzusuyla xanımın ayaq tərəfində dəfn edilmişdir. Bu, azərbaycanlı Hacı Bədirin xanım həzrətlərinə və ümumən islam dünyasına olan sədaqət və məhəbbətinin təzahürü idi.

XIX əsrin ən görkəmli şəxsiyyətlərindən olan, Azərbaycan xalqının şairə qızı Xurşidbanu Natəvan ərə gedəndən bir neçə il keçdikdən sonra övladı olmamış və həzrət Həkimə xanımın ziyarətinə gələrək Allahdan övlad diləmişdir. Oğlu dünyaya gələndən sonra balasını qolları üstə alıb Həzrət Həkimə xanımın ziyarətinə gəldiyini söyləyirlər. Niyyəti həyata keçən Xan qızı Şıx yolunu saldırmışdır.

Həzrət Həkimə xanımın türbəsini Quba xanı Fətəli xan da tez-tez ziyarət edərmiş. Bu ziyarətlərin birində dünyasını dəyişən Fətəli xan elə müqəddəslərin dəfn olunduğu məzarlıqda öz arzusuyla torpağa tapşırılır.

## Keşlə Şah Abbas məscidi

Keşlə Şah Abbas məscidi digər məscidlərimizdən əsaslı surətdə fərqlənir. 12 metr uzunluğunda olan məscid kvadrat formasındadır. Tikintisi XVII əsrə aid edilir. Kəndin yaşlı ağsaqqallarının dediklərinə görə, keçmişdə məscidin arxa tərəfində divarda güclə hiss edilən bir şəkil həkk edilmişdi. Günorta günəş məscidin arxa divarına düşdüyü zaman kəndin camaatı gözəl bir mənzərənin şahidi olurmuş. Divarda Şiri-Xurşud nişanı bütün əzəməti ilə nəzərə çarparmış. Məlum olduğu kimi bu nişan Şah Abbasın bayrağında əks olunmuşdu. Sonralar məscid yaxınlığında enerji stansiyası tikildiyinə, həmin yer kölgədə qaldığına görə nişanı görmək mümkün olmamışdır.

## Təzə Pir məscidi

Bakıda yaşayan Nabat xanım Xocabəy qızı Aşurbəyli ərindən və atasından ona miras qalmış varidatla bu qoşa minarəli məscidi tikdirdi. Zivər bəy Əhmədbəyovun nəfis layihəsi ilə inşa edilən bu ibadətgahın əsası 1905-ci ildə qoyulmuş, inşası 1914-cü ildə sona yetmişdir. Şahidi olanlar söyləyirdilər ki, məscidin inşası tamam olub axırıncı daşı qalanda bənna əl saxlayır ki, gərək bütün bənnaların başçısı Hacı Zeynalabdin Tağıyev gəlib binanı tamamlasın, bünövrəsini o qoyub, axırıncı daşı da o qoymalıdır. Hacının dalınca adam göndərirlər. Gəlir və axırıncı daşı hörür. Bənnaya və usta köməkçilərinə bir el ağsaqqalı kimi şirinlik paylayır.

Məscidin tikintisini həyacan və təlaşla gözləyən Nabat xanıma çox təəssüf ki, ömür vəfa etmir. Səbirsizliklə gözlədiyi gün ona qismət olmur. 1912-ci ildə, yəni məscid tikilməmişdən iki il əvvəl dünyasını dəyişən Nabat xanım məscidin eyvanında, baş qapısının sağ tərəfində dəfn edilir.

## Əjdər Bəy Məscidi (Göy Məscid)

Məscid əsrin əvvəllərində "İttifaq" məscidinin yerində inşa edilib. 1906-cı ildə Sabunçu kəndindən olan Əjdər bəy Aşurbəyzadə 30 kq qızıla bu yeri pristavdan satın alıbmış.

Tarixi sənədlərdən məlum olur ki, məscidin inşası 1912-ci ildə başa çatıb. Gümbəzində "Cümə" surəsi nəqş edilib. Çöldə, qapının üstündə Meras ayəsi kitabəyə salınıb. "Sübhanə əlləzi əsra biəbdib leylən min əl məscidül-həram 1321". Sətri tərcüməsi belədir: Pak olan Allah Həzrəti peyğəmbəri gecə vaxtı Məscidül-həramdan meraca göndərdi.

Əjdər bəyin özü məscidin girişində dəfn edilib.

## Hacı Soltanəli məscidi

1904-cü ildə Bakının tanınmış axundlarından biri bu məscidin bünövrəsini qoyub. Bu gün "Axund hamamı" kimi tanınan, "Nizami" metrosunun arxasında yerləşən hamamı da o tikdirib. Axund məscidin bünövrəsini tökdürəndən sonra

xəstələndiyinə görə tikilini davam etdirə bilmir. Hacı Soltanəli Haşımov həmin tikilini satın alır və məscidin inşasına başlayır. Hacı Soltanəli dövrünün xeyirxah, imanlı hacılarından idi. Hələ bu məsciddən əvvəl Balaxanıda, Lahıc bağlarında da məscidlər inşa etdirmişdi.

Məscidin inşası 1910-cu ildə başa çatdırılıb. Tikintidə Şərq memarlıq üslubunun formalarından yüksək məharətlə istifadə edilib. Kümbəzi və divarlarındakı arkalarda 14 məsumun adları həkk olunub.

Hacı Soltanəli məscidi Sovet hakimiyyəti illərində müxtəlif təyinatlar üzrə istifadə olunub. Uzun müddət burada hərbi yataqxana, dərzixana, musiqi məktəbi yerləşib.

1922-ci ildə məscid yenidən müsəlman bacı-qardaşlarımıza qaytarılıb.

Əvvəllər məscidin 10 metr hündürlüyündə minarəsi olub. Lakin sonralar həmin minarə 8 yerdən çatlamış, uçmaq təhlükəsi ilə üzləşmişdi. Moskvada yaşayan iş adamı, xalqımızın nəcib, xeyirxah oğlu Hacı Arif Həmid oğlu 1995-ci ildə öz şəxsi vəsaiti hesabına məscidi əsaslı təmir etdirdi, köhnə minarə sökülüb yenisi, daha möhtəşəmi ilə əvəz olundu.

Hacı Arif həmin tikinti işlərində çalışan 24 nəfər usta və fəhləni öz hesabına Kərbəlaya, Suriyaya ziyarətə göndərdi. Məscidin axundu Hacı Mirənnağı Hacı Mirqədir oğlunu və memarını isə Məkkə ziyarətinə yola saldı.

## “Əli Ayağı” Qədəmgahı

Bir çox qədim tarixi mənbələrdə Buzovna ilə bağlı məlumatlara rast gəlinir. Buradakı tarixi-memarlıq abidələri, türbələr, (seyid Qasım, Şeyx Cavad, seyid Gülşan), “Qara paltar” piri (1306), “Xəlifə Əli və Məhəmməd mömin” türbəsinin qalıqları dediklərimizə əyani sübutdur. Bu cür abidələr göstərir ki, Buzovna İslamın erkən təşəkkül tapdığı, yüksək mənsəbli din xadimlərinin, imamlarımızın və onların övladlarının mehr saldığı bir müqəddəs məkan olmuşdur.



Qəsəbədəki “Əli ayağı” qədəmgahı isə imam Həzrət Əli ə.s.-nın adı ilə bağlıdır. Bəzi tarixçilərimiz Həzrət Əlinin bura necə gəlib çıxdığını əsaslandırmağa çətinlik çəkirlər. Elə isə peyğəmbər salavatullahın Məscidül-həramdan meraca qalxmasını necə izah edə bilərlər? Hər gün yüz minlərlə insan dara düşəndə Allahın sevimli imamı Həzrət Əlini köməyə çağırır və nicat tapılarsa, Əli ə.s. onların hayına necə yetişir?!

1919-cu ildə Bakı Dövlət Darülfünunda müəllim işləmiş görkəmli alim Mirzə Məmmədağa yazırdı:

“Deyilənlərə və əsrimizə gəlib çatan rəvayətlərə görə, Hicrətin 13-cü ilində naməlum bir dəstə Abşerona gəlib, hər yeri gəzib və heç kimlə əlaqə saxlamayıb.

Məkkə və Mədinədən tez-tez Bakıya ticarət etməyə gələn və imamı tanıyan iki qardaşdan biri dəniz kənarında bu atlı dəstəsini görür və məətəl qalır. O, diz çökərək dəstə başçısından soruşur:

– Ya Əli, siz burda neyləyirsiniz?!

Həzrət onu tanıdıqları üçün hirslə bir ayağı üzəngidə, bir ayağı yerdə ata qalxır. Soruşur ki, onu haradan tanıyır?

O, tacir olduğunu, tez-tez Məkkə-Mədinədən Bakıya gəldiyini və Həzrəti oradan tanıdığını bildirir.

Həzrət Əli ə.s. ata minərək o yerdən uzaqlaşır. Tacir dəstə getdikdən sonra qayanın üstündə imamın ata qalxdığı anda ləpirinin və atın dırnaqlarının yerinin qaldığını görüb ətrafdakı insanları bu möcüzəyə baxmağa dəvət etmişdir.

O vaxtdan həmin yer müqəddəs hesab edilmiş və insanların ziyarətgahına çevrilmişdir. Hətta çar canişinliyi bu-

rada baş verən möcüzələri eşidərək 10 nəfər ruhaninin şahidliyi ilə 1861-ci ildə 12647 saylı nömrə siyahısı ilə qədəmgahı rəsmi qeydiyyata almış və Şeyx Kərbəlayı Əliyarın oğlu Şeyx Hacı Hüseynəlini qədəmgaha nəzarətçi təyin etmişdi.

## Pirhəftəxar piri

Deyilənlərə və dövrümüzə gəlib çatan rəvayətlərə əsasən, Bilgəh qəsəbəsində Pirhəftəxar pirində imam Museyi-Kazımın başqa bir qızı – Leyla xanım dəfn edilmişdir. Xanımın dəfn edildiyi məkan əvvəllər qədim qəbiristanlıq olmuşdur. Pirhəftəxar-həftənin gəlini mənasını verir. Deyilənə görə, Leyla xanım ailə həyatı qurandan bir həftə sonra vəfat edib. Hələ lap qədim vaxtlardan bu yer yerli əhalinin, ətraf bölgələrdən gələnlərin ziyarətgahı olub. Lakin sovet hakimiyyəti illərində pir baxımsızlıq ucbatından acınacaqlı vəziyyətə düşmüşdü. 90-cı illərdə pir abadlaşdırılmağa başlanıldı. 2002-ci ildə ilahi vergili, xeyirxah insan, ocağından çoxlarının şəfa tapdığı Hacı Etibar Misir oğlu Nəsibovun şəxsi vəsaiti hesabına burada təmir işləri görülmüşdü. 2004-cü ildə isə adının açıqlanmasını istəməyən çox nəcib bir xanım pirdə əsaslı surətdə təmir işləri gördürməyə başlamışdır.

## Aqil Baba, Yeddi Qapı ziyarətgahı

Maştağa qəsəbəsindəki ulu, nəcib seyidlərimizdən biri də 425 il bundan əvvəl yaşamış seyid Mirkamil ağadır. Keçmiş zamanlarda onun qəbrinin üstündə seyid Pənah seyid Şahmar oğlu tərəfindən məqbərə tikilmişdir.

Seyid Mirkamil ağa uzunömürlü olub. Rəvayətə görə, 125 il ömür yaşayıb. O, dövrünün müdrik, aqil, sınaqlı,



kəramətli seyidi idi. Elə ona görə də el arasında ona çox vaxt "Aqil baba" deyə müraciət edərdilər.

Şah Abbas öz hakimiyyəti illərində göstəriş vermişdi ki, Azərbaycanın bütün bölgələrində məscidlər tikilsin. Fərmandan müəyyən bir vaxt keçəndən sonra yerinə yetirilməsinin nəticələrini öyrənmək üçün Şah Abbas səfərə yollanır. Gəzə-gəzə gəlib Maştağa qəsəbəsinə çıxır. Burada ilahi vergili, imam Hüseyn.ə.s. nəslindən olan seyid Mirkamil adlı bir seyidin kəramətləri barəsində xəbər tutur. Şah Abbas seyid Mirkamil ağanı sınamaq istəyir. Təxti-libas olub dərviş paltarında ağanın Güladizidəki bağına yollanır. Soraqlayıb ağanın bağını tapır. Bərk istilər keçirmiş. Şah Abbas ağanın bağının qapısını döyür. Görür ki, ağa yayın istisində ləklərdən alaq otlarını təmizləyir. Yaxınlaşıb salam verir.

Seyid Mirkamil ağa:

– Xoş gəlmisən, şahım, – deyə salamı alır.

Şah Abbas onu necə tanıdığına məəttəl qalır. Deyir ki, madam ki, sən belə qüdrətli, kəramətlisən, niyə bir dua etmirsən ki, otlar-alaq özü təmizlənsin?

Seyid Mirkamil ağa ixtisarə edir. Ləkdə olan alaq otları kənara tökülür.

Yenə dua oxuyur. Otlar yenə öz yerinə qayıdır. Ağa Şah Abbasa öz möcüzəsini göstərəndən sonra deyir ki, bu, mənim zəhmətimdi. Onu çəkməliyəm.

Şah Abbas seyid Mirkamil ağanın özü ilə aparmaq istəsə də o razılaşmır....

Seyid Mirkamil ağanın dəfn edildiyi qəbirstanlıq "Seyidlər qəbirstanlığı" adlanır. Onun buradakı qəbri üstündə Hacı seyid Muxtar ağa gözəl bir kümbəz ucaldıb, tikinti işləri görüb, su çəkdirib. O, rəhmətə gedəndən sonra onun xeyirxah əməllərini oğlu seyid Əkbər ağa davam etdirib. Seyid Əkbər burada məscid

tikdirib, yollar salıb, ziyarətgahın həyətində gül-çiçək əkdirib, bir çox xeyirxah işlərin təşəbbüskeşi və icraçısı olub.

Onu da xatırladaq ki, seyid Mirkamil ağanın kümbəzinin içərisində Ağamir Əbdülqəni ağa və iki oğlu, o cümlədən axund Mircavad, axund seyid Məhəmməd də dəfn ediliblər.

Ağanın kümbəzinin yanında daha iki kümbəz ucaldılıb.

Birinci kümbəz onun nəslinin davamçısı, özü kimi kəramətli, sınaqlı seyid İbad ağa (1900-1972) və bacısı Xədicə xanımınkıdır.

Seyid İbad Kərbəlayi seyid Hadı oğlu Maştağada doğulmuşdur. Qardaşları seyid Miryəhya və Mirmöhsün müharibəyə getmiş və onların qara kağızları gəlmişdir.

Seyid İbad ağa dünya malında gözü olmayan, xeyirxah əməllər carçısı idi. Minlərlə insan onun yanına pənah gətirər, dərdlərinə şəfa tapardılar. Böyük Vətən müharibəsi illərində ağaya çoxlu sayda gətirilən nəzir-niyazı o fağırlara, xəstəxanalara paylayırdı. Bəzən ona "Tərki dünya" da deyirdilər. Çünki onu nə vaxt çağırsan, həmişə haya çatandı. Onun yaşadığı ev bu gün ziyarətgaha çevrilib. Ocaqdan 300 nəfərə yaxın imkansıza maddi yardım göstərilir.

Seyid İbad ağanın ocağında Hacı seyid Məhəmməd ağanın bacısı oğlanları, seyid Əkbər, Məşədi Adil və Məşədi Qasıməli ziyarətə gələnlərə xidmət göstərir, insanlara dua edirlər.

Seyid Mirkamil və seyid İbad ağanın kümbəzlərindən bir az aralıda dövrünün oxumuş, dərin savadlı, neçə-neçə alim yetişdirmiş axund Mir Həbib ağa oğlu Mir Mustafa ilə dəfn ediliblər. Onların üstündə də xeyirxah eloğullarımız kümbəz ucaldıblar.



## Seyid Mirmövsüm Ağa

Mirmövsüm ağanın nəsil şəcərəsi ulu, müqəddəsdir. Atası Mirabutalıbın soy-kökü 7-ci imamımız Museyi Kazıma bağlanır. Ulu babaları Kərbəlada doğulmuş, bu müqəddəs məkanda-imam Hüseyn ə.s. qanı ilə yoğrulmuş torpaqda böyüyüb ərsəyə çatmışdır. Mirabutalıb ağa dövrünün oxumuş din xadimlərindən, sınaqlı seyidlərindən idi. XIX əsrin axırlarında Abutalıb ağa Azərbaycana köçür. O vaxt Bakı sürətlə inkişaf edir, şəhər dünyanın qabaqcıl neft mərkəzlərindən birinə çevrilirdi.

Seyid Abutalıb ağanın üç oğlu və üç qızı var idi. Seyid Hüseyn, seyid Mirkazım, seyid Mirmövsüm, qızları Qönçə-Səkinə, Fatmanisə və Zeynəb.

Ailənin böyüyü seyid Hüseyn ağa Kərbəlada təhsil almışdı. Dövrünün qabaqcıl elm, din xadimləri ilə bir sırada addımlayar, mütərəqqi fikirli ziyalılarla oturub durardı. Seyid Hüseyn ağa müdrik, əqidəli imam-peyğəmbər övladı idi. Nəvəsi Rüfət Mahmudov danışır ki, seyid Hüseyn ağa ilahi vergili olsa da qardaşı Mirmövsüm ağanı Böyük ağa kimi qəbul edirdi.

Mirmövsüm ağanın 3-cü qardaşı seyid Mirkazım ağa 1886-cı ildə İçərişəhərdəki 3 saylı evdə anadan olub. O, dövrünün tanınmış ziyalısı idi. Fransada ali təhsil almış, ərəb, fars, ingilis dillərini mükəmməl öyrənmişdi.

Bu nəslin 4 nümayəndəsi: Mir Abutalıb, onun həyat yoldaşı Xədicə xanım, seyid Hüseyn ağa və Mirzeynəb xanım Kərbəlada rəhmətə gediblər. Seyid Mirkazım ağa və Səkinə xanım Şüvəlan qəbirstanlığında, Fatmanisə xanım isə Buzovnada dəfn olunublar.

## QARAVƏLLİLƏR

Bağa köçirdüg, yatağda bir axsağ fərəmiz qaldi bizim. Bu biri il köşdüg qışdağa; gördig ki, yatağ dolıb yımırteynən, at-leteg gətirdig, yımırtalari çəkdik qırağa. Vəl gəzdirdig üssə, sourduğ.

Fərəsi bir yanə ayrıldi, xorızi bir yanə.

Bir axsağ xorız ayrıldı olardan. Kəsdim xorızi, qanınnan bir ağac gögərdi, başında bir qarpuz, qarpuzi dərdim, kəsim, pıçağ düşdi içinə, soyundum girdim içinə, axtarırdım, gördim: bir kişi rast gəldi mənə, dedim yeddi qatar dövə itib axtarıram, tapa bilmirəm.

Ağakişi dayi diyir: – qışdağdan gəlirdim, gördim ağ çadır var, ati çəkdim bağladım çadırın atda, odın yığdım ot basdım; başdadım əlimi qızdırmağa.

Gördim yuxardan su tökilir, gördim göbəlegdü.

* * *

Səlli əla saxsağan, yağlı fətir, gög soğan, nallı doşan, çulli qurt, bizou qoan bildirçin, kərtənkələ mal satır, sərçə tərəzi tutur, gomış başın qırxdırır, dövə fəlleglig edir.

Nərgüz xatın yonca bekim, pegni saldığ gəlinin kəbinnə.



## LƏTİFƏLƏR
## MƏZƏLİ ƏHVALATLAR

Vaxtilə Aydəmir adlı bir xiləli (Əmirhacıyan) bərk ağacvuran olubmuş. Qoca vaxtı arvadı ilə birlikdə ağacı qoltuğunda uzunqulağın belində Binədən keçirmiş. Ağac vurmaqda ad çıxarmış Daşdəmir bir kürkətdi də bu zaman küçə qapılarında oturubmuş. Qocanın kimliyini tanımayan Daşdəmir onun ağacını əlindən almaq istəyir. Aydəmir kişi cavanın qanacaqsızlığını görüb deyir: "Oğul, qoy yolumuzu gedək, biz qoca adamlarıq, sənin bizimlə işin olmasın". Kürkətdi əl çəkmir ki, ağacı verməlisən, gözüm tutub onu. Qoca çarəsiz qalıb deyir: "Oğul, heç olmasa gəl mənə bir-iki ağac vur, sonra onu al məndən. Belə versəm, arvad deyər nə biqeyrət, qorxaq ərim varmış. Döyüləndən sonra ağacı versəm, bəhanəm olar ki, o cavan, mən qoca, gücüm çatmadı, aldı". Razılaşırlar. Ağaclaşırlar. Aydəmir kişi bəlgə bağlanmış qolunu qabağa verərək əsasən müdafiə olunur. Nəhayət, sərrast bir zərbə ilə kürkətdi cavanı yerə sərir. Zərbədən bihal olan gənc uzanmış halda qocanın adını soruşur və deyir: "Sənin adın Aydəmirdir, mənimki də Daşdəmir. Daşdəmir Aydəmirin yanında xəmirdir, xəmir".

* * *

Bir dəfə bir qalalı (şüvəlanlı) şağanlı Yədullagilə qoyun almağa gəlir. Bu vaxt Yədulla su sulayırmış. Qalalı Yədullanı səsləyir. O, içəridən cavab verir ki, bəs gir həyətə. Qonaq küçədə ikən bildirir ki, bayıra çıx, sözüm var. Yədulla suyu başlı-başına buraxa bilmədiyindən bir daha qonağın içəri gəlməsini israr edir. O isə: "Əşşi, ayıbdır, içəridə adam-zad olar (yəni arvad-uşaq mənasında)". Hazırcavab Yədulla isə: "A kişi, sənə dedim gir içəri. Evdə, həyətdə adam olar da, təki evə gələn adam olsun".

* * *

Yədullagilin ailəsi Şağanda nisbətən kasıb yaşayan ailələrdən olmuşdur. Ailə həyətyanı sahədə əkib-biçər, az sayda qoyun saxlayarmış. Bir qisim digər ailələr kimi onlar da çöldən tikan vuraraq daraq edər və satardılar. Bu cür məqsədlər üçün həyətdə uzunqulaq saxlanılarmış. Yədulla isə bərk atbaz olub. Ömrünün son on, on beş ili ərzində bir at alıbmış.

Bir gün qonşu kənddən keçərkən bir neçə nəfər kişi xeylağı ələ salıb, lağ etmək məqsədilə onu saxlayıb deyirlər: "Yədulla, eşitmişik at almısan, mübarəkdir. Ancaq sənə bir işimiz düşüb. Bilmirik razı olarsan, yainki yox". Yədulla deyir: "Buyurun, mümkün olan şeyə göz üstə, əməl edərəm". Qayıdırlar ki, bəs istəyirik sənin atından tum (döl) götürək, gərək yox deməyəsən. Yədulla başa düşür ki, onu ələ salırlar. Bir qədər fikrə gedib belə bir cavab verir. "Mənim sözüm yoxdur. Ancaq biz ata-babadan eşitmişik ki, atdan at üçün tum (döl) götürərlər, daha eşşək üçün yox". Bu sözdən bərk pərt olan qonşu kəndlilər heç bir söz deməyib gedirlər.

* * *

İki nəfər heyvanxanaya gedibmiş. Bir heyvanlara baxandan sonra gəlib zebr olan qəfəsin yanına çıxırlar. Hə baxırlar, kəsdirə bilmirlər ki, bu hansı heyvandır; at belə olmaz, qatıra oxşamır, eşşək isə zolaqlı olmur. Xeyli fikirləşirlər. Nəhayət, biri o birinə qayıdır ki, bəs tapdım nə heyvandır.

– Nədir?

– Əşşi, bu marskoyların (dənizçi) eşşəyidir.

* * *

Sahə müvəkkili çayxana qarşısında bağlanmış eşşəyə yaxınlaşaraq hirslə soruşur:



– Bu eşşəyin böyüyü kimdir?

Bir nəfər çayxanadan tələsik çıxıb gəlir eşşəyin yaxınlığına və: "Nəçənnik, mənəm," – deyib əmrə müntəzir boynunu bükür.

* * *

Bir dəfə bir məclisdə cavanlar oturub hərə özündən deyib, basıb-kəsirlərmiş. Ağsaqqal, əməlisaleh bir kişi də kənarda oturub bunlara qulaq asırmış. Xeyli söz-söhbətdən sonra məclisdəkilərdən biri qayıdır ki, ay dayı, bir-iki kəlmə də sən söhbət elə də... Kişi qayıdır ki, metrəm evdə qalıb. Sual verən gülüb deyir ki, a kişi, metrənin söhbətə nə dəxli var? Kişi cavab verir ki, bala, siz özüvüzə baxmayın, ağzın bozuna baxmadan nə gəldi döşüyürsüz. Mən sözümü ölçübbiçmədən danışa bilmərəm.

* * *

Üç nəfər Məkkə ziyarətinə gedibmiş. Ziyarətdən qabaq aralarında belə bir söhbət olur ki, indiyə kimi kimin nə günahı, pis əməli olubsa, and içsin ki, daha həmin işləri yerə qoyacaq. Biri qayıdır ki, mən elə bir pis əməlin sahibi deyiləm. İkincisi, deyir ki, mən bu vaxta qədər söyüş söyən olmuşam, ziyarətdən sonra birdəfəlik bu əməldən əl çəkməyəcəm. Üçüncü zəvvar danışır ki, bəs vaxtilə bizim Xəşxunə tərəfdə böyük bağımız vardı. Anam doşab bişirərdi. Mən bardağı yarıdan yuxarı daş-torpaq ilə doldurar, sonra isə doşabı üstündən töküb ağzını bağlardım. Qış vaxtı isə onları şəhərə, Sabunçuya, Suraxanıya aparıb bardağı ilə bir yerdə satardım. İndi bir növ o əməlimə peşiman olmuşam. İkinci zəvvar qayıdır ki, mən sözümü geri götürürəm, söyüşdən əl çəkməyəcəm. Elə bir pis əməl tutmamışam. Zəvvar soruşur ki, bəs belə

ıiyə? Deyir: "Əşşi, bu cür köpək oğlunun atasının gorunu söyməyəsən, nə edəsən? Bunun lap atasının kəlləsini..."

* * *

Əsrimizin 30-40-cı illərinin söhbətidir. Ruhulla adlı bir nəfər türkanlının şəhərdə dükanı varmış. Türkandan şəhərə kim mal satmağa gedərmişsə, Ruhullanın yanına düşərmiş. Bir dəfə türkanlı Ağəmi də şəhərə satmağa qovun aparıbmış, Ruhullanın dükanından bir qədər aralı qovunu töküb satmağa başlayır. Bu arada bir uşaq gəlib qovunlardan birini oğurlayıb qaçır. Ağami əhəmiyyət vermir ki, yəqin yetimdir. Bir az keçir, uşaq aranı xəlvətə salıb daha bir qovun oğurlayır. Ağəmi başa düşür ki, bu uşaq oğurluğa qurşanıb. Qovun sata-sata ətrafa göz qoyur ki, uşaq yenə gəlsə, onun dərsini versin. Bir qədərdən sonra uşaq qayıdıb yenə qovun oğurlamaq istəyərkən Ağəmi buna möhkəm bir şapalaq çəkir. Uşaq ağlaya-ağlaya çıxıb gedir. Azca keçəndən sonra tindən üç-dörd bığıburma çıxıb Ağəminin üstünə cumur. İşin yaxşı qurtarmayacağını duyan Ağəmi qaçıb Ruhullanın dükanına girir. Bığıburmalar dükana soxulmaq istəyərkən Ruhulla çıxır bunların qabağına ki, nədir, nə olub? Qayıdırlar ki, bu dəqiqə sənin kəndçini öldürməliyik. Bizim bütün zəhmətimizi heçə vurdu. Ruhulla qayıdır ki, ay qardaşlar, o, sakit, kasıb adamdır, uşaq oğurluq edib, ona görə də onu vurub. Deyirlər, əşşi, sən nə danışırsan, biz o uşağa elə təzə-təzə oğurluq öyrədirdik ki, vurub gözünü qorxutdu. Bu isə nə kişiliyə, nə də cayıllığa yaraşan iş deyil.

* * *

*Qonşu kəndlərin birində olan söhbətdir. Biri qayıdır öz* həmkəndlisinə:

– Nə oldu, bu il məsi (məhsul) üçün təzə peyin aldın?

– Yox, qədeş, hələ nükbar (nübar) eləməmişəm.



* * *

Uzun müddət Mərdəkanda çayxanada işləmiş çayçı danışır ki, kənd camaatı içərisində Əmoğlu adı ilə çağırılan bir nəfər, demək olar ki, hər gün çayxanaya çay içməyə gələrdi. O zamanlar (söhbət 60-ci illərin sonu, 70-ci illərin əvvəllərindən gedir) çayxanada çay armudu stəkanda verilərdi. Əmoğlu deyilən şəxs həmişə 9 stəkan çay içib, pulunu ödəyərkən deyərdim: – Əmoğlu, bunu elə bir stəkan da iç, 10 olsun, pulu da bütöv çıxdım də. Qayıdardı ki, məni nə hesab edirsən, inək-zadam sənin üçün bəyəm?!

* * *

Əsrimizin 40-cı illərinin olmuş əhvalatıdır. Bir gün Dörəli adlı bir zirəli öz həmkəndlisi ilə şəhərə bazarlığa gedibmiş. Geri dönərkən ət dükanından 5 kq ət almaq istəyir. Məlum olduğu kimi, qarın piyi həmişə ətdən ucuz olub. Lakin buna baxmayaraq, çox vaxt qəssablar müştəriyə ət çəkərkən üstünə azca qarın piyi də qoyurlar.

Dörəli qəssaba deyir ki, 5 kq ət çək, amma piy qoyma, evdə heç kəs piy yeməyir. Qəssab isə Dörəlinin sözünə heç məhəl də qoymayır, əksinə, ətin yarıdan çoxunu piy çəkir. Dörəli qayıdır ki, mən sənə axı söz dedim, belə isə, bu əti aparmayacağam. Qəssab gözünə döndüyüm də zırının biri olubmuş. Baltanı yuxarı qaldırıb qayıdır ki: "Köpək oğlu, köpək aparacaqsan! Yoxsa sənin də qarnının piyini çıxarıb ətə qataram". Dörəli qorxudan bir söz deməyib, əti də götürüb düzəlir yola. Gəlir çatır Zirə kəndinin qırağına. Əti qoyur yerə və: "Köpək oğlu da varsan, it oğlu da!" Dedim sənə aparmayacağam, aparmayacağam da!" – deyib əti qoyur durduğu yerə, əliboş evə qayıdır. Arvadı niyə ət almadığını soruşduqda,

Dörəli cavab verir ki, qəssabın verdiyi əti bəyənməyib əvvəl söydüm onu, sonra da malı başına çırpdım.

* * *

Noxani kəndində bir nalbənd olur. Bir nəfər Saray kəndinnən atı gətirir nallatmağa. At bədnal olur. Bu hərçi bağlıyır, at diyammır; sora bu atı gətirir dilinnən bağlıyır; sora atı nalıyyır. Mıxı vıranda, at çapalıyir, dili qırılır. Bir neçə vaxt keçir mınun üssünən. Oğlan taza toy eliyibmiş. Qaynatasi xəbər göndərir onçun, gəlsün, mənə kömeg eləsün, taxılı piçeg. Bu oğlan da gəlir. Daha bu kişünün yanna gəlmir, başdiyir bir tərəfdən piçmegə. Kişi çağırır ki, gəl çöreg yiyeg. Oğlan da gəlir eyləşir, hindi isdir ki, qeynatasi ilə söbet edə bir qədər açıla, kişidən xəbər alır:

– Ay əmi!

Dir: – Qado alım, nə diəsən?

Oğlan dir:

– Nə meyvədü güli yox, nə heyvandu dili yox?

Kişi cavab vərir:

– Qado alım, əncil ağacıdu güli yox, saraylınun atıdu dili yox.

Oğlan mını eşidən kimi, acığ elir, çıxır gedir.

## Həciynən lotunun söbeti

Bir Həciynən bir loti yoldaş olullar. Loti dir Həciyə ki, ay Həcəmi, könə kişisən, bir ez söbet eləginən. Həci dir ki, baş üssə, oğlım. – Həştərxana gedirdim, yolda proxotda gördim ki, dəzdən bir balığ atıldi, ağzında dörd yüz qırx diş saydım.

Loti baxır görür ki, Həmcinün didigi təmiz yalandu. Başdir: – Ay Həcəmi, atam remetdig bir gün məni göndərdi ki, ged, bağı bellə. Həci, bağmız da Şüvəlandeydi. Mən də gedib başdadım bağı işdəmegə. Birdən əlimi cibimə saldım, gördim cibimdə üş-dörd dənə qorulmuş kudi tumi var. Öz-özümə didim ki, əşi mını çıtdamağdan noleceg, yaxşısi budı ki, bulari ek. Həci, mən də bir çala qazıdım, tumlari saldım ura. Qəydib gələnnən sora, gördim tum gögərib, bir qəriş də qol vərib. Bir vədrə də su vərdim. Axşam oldi, çıxdım, gəldim. Bu birsi gün getdim, gördim ki, tağ hasardan aşıb, düşib yolın içinə, gördim ki, yoldan keçən ərəbələr tağı əzib korriceglər, getirdim, altını payaladım. Həyfim gəldi, Həci, bir vədrə də su vərdim. Üçümci gün gəldim gördim ki, Həci, tağ çatıb Binə bağlarına. Bir vədrə də su vərdim, Həci, Binə bağlarını eşidən kimi, qəydir lotiyə:

– Ay oğıl, bərkəm səf elirsən, o uzunnuğunda tağ olmaz ki?!

Loti dir ki, Həcəmi, işüə bax, səncegez öləsən, balığun dişin azaldırsan, azald, azaldmason, gedib bir vədrə də su vərecəgəm.



## İki yalançi

İki yalan danışan olır, dillər: gedeg yalan danışağ, ancaq bir-birimizin yalanni təsdiğ eliyəg. Yoldaşi dir, əybi yoxdu, gedeg.

Gəllər çıxıllar bir kəndə. Biri başdir ki, mən eşitdim ki, gögdə küçig zınqıldir. Camat yığılır qınıyillər oni ki, pa atonnan yalan yesi! A balam, küçig gögə necə çıxdi. Yoldaşi baxır görir ki, iş şuluğdu, olari dögegeglər. Dir: Əşi, nöşün qınıyirsuz oni, olar də, çalağan vurar caynağına aparar gögə, zınqıldiyəndə o da sesini eşidər. Sora ikinci dir ki, siz ona nə dirsüz ki, mənim atamın bir töləsi var, atı tölənün bu başında cütdəşdirirsən, o başına gedəncə doğur.

Birinci dir ki, mənim atamın da bir şüli var, hələ ki qurağlığ olur, bulutdari aralir, yağış başdir yağmağa.

Ikinci dir ki, pa atonnan yalan yesi, pes oni harda saxlir.

Birinci cavab vərir ki, sənün atoun töləsində.

İki adam bir-birinən söbet başdiyillər ki, bu alayi-alayi yerrərün danışığlarıni necə başa çıxağ. Dillər ki, bekili cüt danışır, u bir nəfər dir ki, şamaxlı eyhamla danışır, dərbətdi kəllə danışır. Oni neynən bileg.

Didilər ki, olari bir-bir gətirün, dindirün.

Şamaxlıni çağırdılar, gəldi, içəri girəndə qaş-köz elədi, nə var? Onda bildilər ki, o şamaxılıdu. Bekilini gətirdilər, onnan xəbər aldılar ki, dillər süz cüt danışırsuz. O didi ki, biz danuşmanuğ, kətdi-kütdi danışar. Dərbətdini çağırdılar, gəldi; didilər ona süz kəllə danışırsuz. U idi ki, hasi quduğ oğli diədü uni!



# NAĞILLAR

## Qaraqaşın nağılı

Biri var idi biri yox idi, Allahdan başqa heç kəs yox idi. Bu odunçunun oğlu, uşağı yox idi. Bir gün evdə ər-arvad oturub söhbət edirdilər. Söhbət vaxtı arvad ərinə dedi:

– A kişi nə olaydı, bu evimizdə oğul adı çəkiləydi. Qorxuram düşüm ölüm, ürəyimdə oğul dağı qalsın.

Odunçu dedi:

– Ay arvad, nə səfeh-səfeh danışırsan? Cavanlıqda doğub törəmədin, yetmişində balalamaq istəyirsən?

Arvad kişinin bu sözünün üstündən heç bir söz deməddi. Gecəni yatdılar. Səhər tezdən arvad səhəngi götürüb ovdana suya getdi. Səhəngin ovdandan doldurub evə gəlirdi, yorulub yolda oturdu. Gördü ki, dizinin üstə bir göy yarpaq düşdü. Amma ətrindən doymaq olmur. Arvad yarpağı dilinin altına qoyub, səhəngi alıb çiyninə yollandı evə tərəf.

Arvad qanov qırağı ilə gedirdi, birdən səbir gətirdi. Yarpaq ağzından düşdü qanova. Su yarpağı apardı. Arvad səhəngi qoyub yerə, yüyürdü yarpağın dalıncan. Ha burda, ha orda yarpağı tuta bilmədi. Bir xeyli yol gəlib çatdı bir qalaçaya. Gördü ki, burada bir dərviş qabağına bir manqal qoyub, kitabdan oxuyub, manqala üfürür. Dərviş birdən qalxıb odunçunun arvadına dedi:

– Xoş gəlmisən!

Bir qaşıq ağzının suyundan damızdırıb qaşığa, odunçunun arvadına verdi. Odunçunun arvadı əvvəl qorxdu, istmədi alıb içə. Sonra özünə ürək verib, dərvişin tüpürcəyini alıb içdi. İçən kimi dərviş qalxıb ayağa, arvada bir sillə çəkdi, götürüb saldı otaqların birinə.

Odunçunun arvadı haçandan-haçana özünə gəlib, gözlərini açdı, gördü ki, balaca bir otaqdı. Amma burada heç kəs yoxdu. Tez durdu ayağa qaçsın, gördü ki, burada bir qapı var. Sındırıb qapını girdi içəri, gördü ki, burada o qədər arvad var ki, gəl görəsən. Saçından asılan saçından asılıb, daşa dönən daşa dönüb. Odunçunun arvadı yapışıb qızların birinin saçından açıb qoydu yerə. Xəbər aldı:

– Ey biçarələr, sizi saçınızdan kim, nə səbəbə asıb?

Qız dedi:

– Mən padşah qızıyam. Bir gün atamın bağında gəzirdim. Gördüm ki, yerdə bir yarpaq var. Götürüb əlimdə oynadırdım, birdən yarpaq əlimdən sürüşüb düşdü qanova, başladı axıb getməyə. Mən də düşdüm yarpağın dalıncan ki, tutam. Gəlib çıxdım qalaçaya. Qabağıma bir dərviş çıxdı, tüpürcəyindən bir qaşıq verdi ki, içəm. Mən də iyrənib atdım. Acığı tutub, məni bu otağa salıb, saçımdan asdı.

Odunçunun arvadı o biri arvadları da saçından açıb xəbər aldı ki:

– Bu nə əhvalatdı?

Necə ki, padşah qızı danışdı, o biriləri də elə danışanda odunçu arvadı dedi:

– Ey qızlar, bilin və agah olun! Mən də sizin gününüzdəyəm. Qızlar, gəlin qaçaq! Yoxsa bu dərviş bizi qırar.

Odunçunun arvadı arvadları qatıb qabağına, iki qapı keçdilər, üçüncüyə çatanda gördülər ki, qapının ağzında əjdaha var. Qızlar qorxub geri qaçanda odunçunun arvadı dedi:

– Qaçmayın! Bu saat mən əjdahanı öldürərəm.

Odunçunun arvadı yeriyib irəli, yapışdı sağ əli ilə əjdahanın alt çənəsindən, sol əli ilə üst çənəsindən çəkib-dartıb iki bölüb, atdı bir yana. Qapı açıldı. Keçdilər ikinciyə, gördülər ki, burada bir pələng var. Odunçunun arvadı pələngi də belə



öldürüb, keçdilər. Bir qapıda gördülər bir tülkü var. Odunçunun arvadı tülkünü öldürmək istədi. Tülkü dil açıb dedi:

– Məni öldürməyin. Sizə yaxşılıq eləyim.

Odunçunun arvadı əl saxladı.

Tülkü dedi:

– Dərviş qırx günün yuxusuna gedib. Bu gün qırx günü tamamdı. Ayılsa vayınızdı. Bax, bu qapıdan çıxıb qaçın!

Odunçunun arvadı tülkünü öldürmədi, tülkü də bunlara yol göstərdi, qaçıb getdilər. Bir xeyli gedəndən sonra hərə öz evinə dağıldı, odunçunun arvadı da çatdı, səhəngini qoyduğu yerə. Gördü ki, səhəngi sağ-salamatdı. Alıb səhəngi, gəldi evinə.

Odunçu, arvadı gedəndən sonra bikef idi. Ürəyindən min bir xəyalət keçirdi. Bir də onu gördü ki, arvad budu səhəng çiyninə gəlib çıxdı.

Odunçu yerindən qalxıb, əl atıb kösövə dedi:

– Ay itin qızı, hardaydın?

Arvad dedi:

– Kişi, bir səbir elə, başıma gələni sənə danışım, sonra neyləyirsən elə!

Odunçu kösövü yerə qoyub dedi:

– Danış görək!

Arvad başına gələn müsibəti ərinə danışdı. Odunçu arvadını çox istəyirdi. Əlacı kəsilib arvadına dinmədi. Birdən baxıb gördü ki, arvadı hamilədi. Kişini hirsindən od götürdü, əl atdı dəyənəyə. Dəyənəyi qoyub, yapışdı kösövdən. Kösövü qoyub, yapışdı baltadan ki:

– İtin qızı, sən hamiləsən, gərək səni öldürəm.

Arvad dedi:

– Ay kişi, ağzımda sənə bir Quran söz danışmışam. Bu olsa, dərvişin tüpürcəyindən olacaq. Qoy görək başımıza nə gələcək.

Odunçu əl saxladı. Amma dərviş hərdən gözünün qabağında duranda kişini od götürürdü, yenə şeytana lənət deyib, hirsin alırdı əlinə.

Doqquz ay başa gəldi, arvad yükünü qoydu yerə, bir qəribə uşaq doğdu. Bu uşağın nə qolu var idi, nə qıçı, nə başı, nə də gözü. Amma bir cüt çatma qara qaş gözə görünürdü.

Odunçu düşdü qorxuya. Arvad qorxusundan qaçdı. Kişi yapışıb baltadan dedi:

– Arvad, dur kəlmeyi-şəhadətini de, səni öldürəcəyəm. sənin doğduğun təpənə dəysin.

Arvad dedi:

– A kişi, bura qədər səbir eləmisən, bir az da səbir elə, görək bu işin axırı necə olacaq.

Kişi dedi:

– Axmaq oğlunun qızı, nə səbirbazlıqdı? Doğduğunu gördük də. Odur, çıxıb oturub yükün üstə. Bədən yox, baş yox, göz yox, qıç yox, qol yox, bir cüt qara qaş. Dur, dur köpək oğlunun qızı! Məni rüsvay elədin. Səni gərək öldürəm.

Arvad yalvarıb-yaxarıb, bir təhərlə canını kişinin əlindən qurtardı.

İndi al xəbəri al Qaraqaşdan. Qaraqaş bu qalmaqla bir həftə yük üstundə qaldı. Bir gün arvad xörək bişirirdi. Kişi də evdə oturmuşdu. Qaraqaş birdən atılıb yükün üstundən yerə, dedi:

– Mənə pəpə!

Arvad bir nimçə sıyıq çəkib qoydu ortalığa. Bir də onu gördü bir nimçə sıyıq qurtardı. Qaraqaş dedi:

– Mənə pəpə!

Arvad bir nimçə də xörək çəkdi. Qaraqaş bu nimçə xörəyi də yedi. Qaraqaş belə-belə bir qazan xörəyi yeyib, düzəldi yola. Kişinin dili-ağzı quruyub, dedi:

– Arvad, bircə qapıları bağla, gəlməsin.



Arvad durub qapıları bağladı. Oturub təzədən xörək bişirməkdə olsun, al xəbəri dərvişdən.

Dərviş ayılıb, gördü ki, odunçunun arvadı yoxdu. Durub gəldi o olan şəhərə. Bir də gördü ki, Qaraqaş budu evdən çıxıb gedir. Tez əlini atıb Qaraqaşı tutdu. Bir tilsim oxuyub Qaraqaşı elədi bəni insan. Dedi:

– Ey oğul, səni dünyaya mən gətirmişəm. İndi sənə elə bir su verim ki, dünyada heç bir pəhləvanın gücü sənə çatmasın. Amma gərək mənim dediklərimi yerinə yetirəsən.

Dərviş Qaraqaşa and verdi. Qaraqaş andı qəbul eliyəndən sonra, dərviş cibindən bir şüşə çıxarıb verdi Qaraqaşa. Qaraqaş şüşəni alıb çəkdi başına.

Dərviş dedi:

– İndi mən yatıram. Nə badə mənim bu şeylərimə dəyəsən. Mənim qarovulumu çək!

Dərviş bir tilsim oxudu. Qaraqaş oldu həminki Qaraqaş. Özü də yıxılıb yatdı. Haçandan-haçana dərviş ayılıb Qaraqaşa dedi:

– Ey oğlan! Buradan gedərsən, padşahın evinə. Padşahın qızını götürüb gələrsən. Amma qorxma səni tuta bilməzlər.

Qaraqaş dərvişdən ayrılıb, birbaş gəldi padşahın imarətinə. Açıb qapını, girdi içəri, gördü ki, padşah xörək yeyir. Qaraqaş əlini atıb padşahın xörəyini yeyib qurtardı. Padşah baxıb gördü ki, bu xörəkdən heç doymadı. Aşpazı çağırıb xəbər aldı:

– Ey, vələdəzna, bugünkü xörəyin niyə azdı?

Aşpaz dedi:

– Padşah sağ olsun, həmişəki qaydaynan sənə xörək çəkmişəm.

Qaraqaş vəzirin vəkilin, padşahın arvadının başına da bu oyunu gətirdi. Padşah bir də baxıb gördü ki, vəzir, vəkil, pad-

şahın öz arvadı da gəlib çıxdı. Başladılar aşpazdan şikayət eləməyə ki, bugünkü xörəyimiz az düşüb.

Padşah dedi:

– İndi ki, belədi,vurun aşpazın boynunu!

Cəllad gəldi. Aşpazın qolunu bağladılar. Cəllad əl qaldırıb istədi aşpazın boynunu vura, Qaraqaş əlini atıb, tutdu cəlladın biləyindən. Cəllad ha istədi əlin endirə aşağı, baxıb gördü ki, əli qalıb göydə. Padşah bir-iki kərə qışqırdı:

– Vur deyirəm sənə!

Cəllad dedi:

– Qibleyi-aləm, əlimi tutublar, qolum işləmir.

Padşahın acığı tutub, durub düşüb taxtdan, alıb qılıncı cəlladın əlindən, istədi ki, aşpazın boynunu vura, Qaraqaş əl atıb tutdu padşahın biləyindən, elə sıxdı ki, qılınc əlindən düşdü. Padşah iki saat özünə gələ bilmədi. Vəzir, vəkil padşahı ayıldıb taxta çıxardılar. Padşah dedi:

– Vəzir, burada bir sirr var. Aşpazlıq iş yoxdu.

Padşah aşpazı buraxdı. Qaraqaş yapışıb padşahın tacından qoydu yerə. Çıxıb getdi. Padşah bu işə lap məəttəl qaldı.

Al xəbəri Qaraqaşdan. Qaraqaş özünü yetirdi padşahın xəzinəsinə. Bir böyük çəngə qızıl götürüb, üz qoydu evlərinə. Gördü ki, qapıları bağlıdı. Bir təpik qapıya çəkdi, qapı taybatay açıldı. Qaraqaş girdi içəri, qızılları anasının ətəyinə töküb, çıxıb getdi. Odunçunun arvadı qızılı görən kimi gözləri çıxdı kəlləsinə. Kişi dedi:

– Arvad, dur uşağı qaytar!

Arvad durub çıxdı bayıra, gördü ki, Qaraqaş burada neyləyir. Qayıtdı evə. Kişi xəbər aldı:

– Necə oldu?

Arvad dedi:

– Bayırda adam nə gəzir?!



Kişi dedi:

– Arvad, ta qapıları bağlama! Qoy tez-tez gəlsin!

Ər-arvad, bu pulla qapı-bacalarını qayırtdırıb, özlərinə ev azuqəsi, üst-baş alıb, şad gün keçirməyə başladılar.

Al xəbəri Qaraqaşdan. Qaraqaş bu səfər özünü verdi padşahın qızının otağına. Birtəhərlə özünü saldı içəriyə. Gördü ki, padşahın qızı xörək yeyir. Qaraqaş oturub qızla xörək yedi. Padşahın qızı baxıb gördü ki, bu gün xörəkdən heç doymadı. Sabahısı günün də xörəyi gəldi. Yenə də doymadı. Birdən başını qaldırıb gördü ki, başının üstündə bir cüt çatma qaş var. Qız barmağını dişləyib, dedi:

– Ey dili-qafil, bu filan cadükünün tüpürcəyindən əmələ gələn oğlandı.

Çünki padşah qızı hər bir tilsimi bilirdi, dinməyib gecəni rahat yatdı. Günorta araya xörək gəldi. Qız başlayıb yeyəndə Qaraqaş da oturub xörəkdən yedi. Padşah qızı Pəri əlini uzadıb tutdu Qaraqaşın biləyindən, bir ismi-əzəb oxuyub Qaraqaşın biləyindən elə sıxdı ki, Qaraqaş çığırıb, oldu 15 yaşında gözəl bir oğlan. Pəri xanım bu gözəlliyi Qaraqaşda görən kimi könül verib dedi:

– Allah mənim istəyimi yetirib.

Tez durub bir dəst mərdanə paltar çıxarıb geyindirdi Qaraqaşa. Hər ikisi sarmaşıq kimi bir-birinə sarılıb, yatdılar. Qaraqaş haçandan-haçana ayrılıb Pəri xanıma dedi:

– Ey qız, dərviş məni gözləyir. Mən çox da sənin yanındayam, amma səni gərək dərvişə yetirəm.

Pəri dedi:

– Ey cavan, dərviş çox-çox sənin kimi oğlanlar dünyaya gətirib, mənim kimi qızları həmin oğlanların vasitəsilə apartdırıb, qızla oğlanı həlak edib. Gəl bu xam xəyaldan daşın! Bir aynaya bax!

Qaraqaş aynaya baxanda özünü aynada gördü.

Pəri qəfildən Qaraqaşa bir sillə çəkdi. Qaraqaş öyüyüb ağzından bir qurd saldı. Pəri qurdu maşaynan tutub, Qaraqaşa görsədib, dedi:

– Bu qurdu görürsən?

Dedi:

– Görürəm.

Dedi:

– Məni burdan aparıb dərvişə yetirincə bu qurd qarnında ilan olub, səni həlak edəcəkdi.

Pəri bu sözü deyəndən sonra qurdu öldürüb atdı. Qaraqaş işləri bu halda görəndə Pəriyə ürəkdən inanıb dedi:

– Dərviş lap göyə çıxsa da, səni əldən verməyəcəm.

İndi al xəbəri sənə verim dərvişdən. Dərviş Qaraqaşı çox gözlədi, baxıb gördü ki, Qaraqaş gəlib çıxmadı. Bir vürd oxuyub oldu göyərçin, qanad çalıb gəldi oturdu padşahın qızı Pərinin pəncərəsində. Baxıb gördü ki, Qaraqaş Pəri xanımla bir kefdə-damaqdadı ki, gəl görəsən. Dərviş bir başına, bir döşünə vurub dedi:

– Qız əlimdən çıxdı.

Pəri xanım bütün tilsimlərin açarını bilirdi. Yalnız bir tilsimdən başqa. Dərviş nə ki tilsim bilirdi oxudu ki, Qaraqaşı qara daş eləsin, Pəri xanımı da daşa döndərsin, gücü çatmadı. Pəri xanım ona baxıb bir qaqqanaq çəkdi. Qaqqanaq çəkəndə ağzından bir qurtum alov çıxıb, düşdü dərvişin üstünə. dərviş od tutub yanmağa başlayanda tez özünü atdı padşahın çarhovuzuna. Suya baş vurub odunu söndürdü, qalxıb göyə qışqırdı:

– Ey Pəri xanım, səninlə mənim aramda bir tilsim qalıb. O tilsimi öyrəndim vay halına!

Dərviş üz qoydu İsfahan şəhərinə. Gəzib, qoca bir cindar tapıb, bir-bir tilsimləri öyrənməyə başladı.



Xəbər verim sənə kimdən, vəzirdən. Vəzir bir gün səhər namazından qabaq əl qabına çıxmışdı. Gördü ki, padşahın qızı Pəri xanımın otağından işıq gəlir. Tez özünü yetirdi bağa. Gördü hasar çox hündürdü. Birtəhərlə dırmaşıb hasara, həyətə atıldı. Amma vəzirin üz-gözü, əl-ayağı cırmaq-cırmaq olmuşdu. Özünü birtəhər yetirdi Pərinin otağının pəncərələrinə. Pəncərədən baxıb gördü ki, qız 15 yaşında cavan bir oğlanı oturdub dizinin üstə, bir kefdədi ki, gəl görəsən. Vəzirin ürəyi gedib tappadan gəldi yerə. Vəzir axsaq qatır kimi ombasını çəkə-çəkə durub getdi, birtəhər özünü salıb yorğan-döşəyə, arvadına da tapşırdi ki, kim məni xəbər alsa, deyərsən ki, vəzir bərk naxoşdu. Vəzirin arvadı "bəli" – deyib öz işinə getdi.

Sənə xəbər verim Firəng padşahından. Firəng padşahı elçi göndərdi bu padşahın üstünə ki, ya yeddi ilin bac-xəracını versin, ya da ki, qızı Pəri xanımı. Əgər verməsə, davamız davadı.

Firəng elçisi gəlib oturdu elçi daşının üstündə. Padşaha xəbər getdi ki, Firəng padşahı elçi göndəribdi. Padşah əmr verdi ki, buraxsınlar gəlsin, görək nə üçün gəlibdi. Firəng elçisi durub gəldi, ədəb salamını yerinə yetirib oturdu. Padşah xəbər:

– Nə üçün gəlmisən?

Firəng elçisi dedi:

– Firəng padşahı deyir ki, yeddi ilin bac-xəracını versin. Əgər xərac vermir, qızından əl çəksin. Yox qızından əl çəkmir. davamız davadı.

Padşah dedi:

– Firəng padşahına deyinən, on gün mənə vaxt versin.

Elçi durub Firəng torpağına getdi.

Padşah vəzir üçün adam göndərdi ki, Firəng bizdən bac-xərac istəyir, durub tədbirə gəlsin.

Vəzir padşaha xəbər göndərdi ki, bərk naxoşam. gələ bilmərəm.

Axırda paşahın əlacı kəsilib durub gəldi vəzirin yanına. İçəri girib nə gördü. Vəzir baş-gözünü sarıyıb, əl-qolunda da sağ islahat yoxdu. Xəbər aldı:

– Vəzir, bu nə gündü düşübsən?

Vəzir dedi:

– Pişik cırmaqlayıb.

Padşah dedi:

– Aşna, bu pişik işi deyil. Səndə sirr var, gəl düzün de! Əgər düzünü deməsən, boynunu vurdurtduracam.

Vəzirin canına qorxu titrəməsi düşüb dedi:

– Padşah sağ olsun, and iç qəzəblənməyəcəksən, arada qan xatası olmayacaq, deyim.

Padşah əlacsız qalıb, öz ana südünə and içdi. Vəzir necə görmüşdü, əhvalatı padşaha nəql elədi.

Padşah yerindən qalxıb dedi:

– Vəzir, qızıma böhtan demə!

Vəzir and içib özünü öldürdü.

Padşah dedi:

– İndi ki belədi, dur məni apar oraya, görüm bu necə olan işdi. O nə nakəsdi ki, mənim qızım ilə eyş-işrətdə ola. Dur məni oraya apar!

Vəzir durub ayağa, düşüb padşahın qabağına, gəldilər Pəri xanım olan imarətin qabağına. Qaş qaralan kimi vəzir padşaha dedi:

– Padşah sağ olsun, çıx pəncərədən bax, gör nə görərsən.

Padşah çıxıb pəncərədən baxıb gördü ki, həqiqətən də, qızının yanında bir oğlan var, bəeyni Rüstəmzal. Padşah tez düşdü pəncərədən, dedi:

– Vəzir, cəlladı çağır gəlsin.

Vəzir dedi:



– Padşah, özünə toxtaq ver! Burada cəllad iş görə bilməz. Gəl gedək gecəni rahat ol, səhər bu işə əncam çəkərik.

Vəzirlə padşah evlərinə gəldilər. Padşah gecəni səhərə kimi yata bilmədi. Çünki xof almışdı onu. Səhərnən durub vəzirdən məsləhətsiz Bəlğ pəhləvanı çağırtdırıb dedi:

– Qızımın yanında bir oğlan var. Əgər o oğlanı öldürsən, qızımı sənə verərəm.

Bəlğ pəhləvan çox güclü pəhləvandı. Belə ki, bütün pəhləvanlar Bəlğin əlindən zağ-zağ əsirdilər. Bəlğ pəhləvan durub pəhləvanlibas oldu, özün yetirdi Pərinin imarətinin qabağına.

Padşah da çıxıb eyvanından tamaşa edirdi. Bəlğ pəhləvan bir-iki meydan gəzib elə bir nərə çəkirdi ki, dağ-daş titrədi. Pəri xanım pəncərədən boylanıb baxıb gördü ki, Bəlğ pəhləvandı. İşi duyub, gözlərindən qanlı yaş axıtdı. Qaraqaş Pərini ağlayan görüb xəbər aldı:

– Ey nazənin, nə üçün ağlayırsan?

Pəri dedi:

– Bir çıx pəncərədən bax, gör!

Qaraqaş pəncərədən boylanıb, Bəlğ pəhləvanı görüb Pəriyə dedi:

– Ey nazənin, elə bunun üçün qorxub ağlayırsan? Bu saat düşüb onun atasına od vuraram.

Pəri dedi:

– Oğlan, ona Bəlğ pəhləvan deyərlər, səni iki barmağıyla boğar. Hara gedirsən?

Qaraqaş dedi:

– Mən gərək öz gücümü sınayam.

Pəri çox dedi, Qaraqaş az eşidib özünü tez atdı həyətə, dedi:

– Ey Bəlğ pəhləvan, məndə qaydadır yolu düşmənə verərəm.

Bəlğ bu sözü Qaraqaşdan eşidən kimi, əl atdı Qaraqaşın kəmərinə ki, vursun yerə. Gördü ki, xeyir, bu bir qarış boy elə ağır şeydi ki, bunu yerindən tərpətmək mümkün deyil.

Qaraqaş dedi:

– İndi ver növbəni mənə!

Bəlğ növbəni Qaraqaşa verəndə, Qaraqaş əlini atıb Bəlğin kəmərindən yapışıb bir nərə çəkdi, Bəlği qaldırıb göyün üzünə, elə vurdu yerə ki, heç tikəsi də ələ keçmədi.

Padşah Bəlğ pəhləvanın öldürülməsini görəndə, ili əli ilə başına vuraraq "sancılandım" deyib, düşdü yorğan-döşəyə. Vəzir durub gəldi padşahın yanına ki:

– Sənə demədim, səbir elə.

Padşah dedi:

– Vəzir, buna tədbir!

Vəzir dedi:

– Tədbir odur ki, onu göndər Firəng qoşununun qabağına, canın qurtarsın.

Padşah razı olub Firəngə kağız yazdı ki, davamız davadı. Bu tərəfdən də Qaraqaş üçün adam göndərdi ki, hüzuruna çağırsınlar.

Pəri xanımla Qaraqaş bağda gəzirdilər. Bir də gördülər ki, budu, yasovulların biri gəlib kəsdirdi bunların başının üstünü.

Pəri xanım dönüb yasovula acıqlandı.

– Ey çəpəldən əmələ gəlmiş, sən nə hədlə bura gəldin?

Yasovul dedi:

– Xanım, bil və agah ol, padşah çox xahiş elədi ki, Qaraqaşı onun yanına göndərəsən.

Pəri xanım qorxuya düşdü. Qaraqaş dedi:

– Ey nazənin, izin ver gedim.

Pəri dedi:

– Qorxuram atam səni öldürtdürə.



Qaraqaş dedi:

– Nazənin, mən üç aylığam ki, mənim üçün qorxursan? Bədə-bəddə atanı da göndərərəm Bəlğ pəhləvanın yanına. Sən izn ver, mən gedim, görüm nə deyir. Bəlkə bir vacib sözü var.

Pəri izn verdi. Qaraqaş izn alıb düşdü yasovulun qabağına. Padşaha xəbər getdi ki, Qaraqaş gəlir. Padşah qorxa-qorxa Qaraqaşın qabağına çıxıb, yanında oturub dedi:

– Ey oğlan, bizlərdə adətdi ki, şəhərimizə gələn qərib pəhləvanı birinci dəfə düşmən qabağına göndəririk. Əgər salamat qayıtsa, özümüzə dost bilərik. İndi səni Firəng qoşununun qabağına göndərirəm.

Qaraqaş dedi:

– Nə deyirəm ki... Göndərirsən, gedərəm.

Padşah dedi:

– Bizdən nə umursan?

Qaraqaş dedi:

– Bir dəst dəmir paltar, poladdan qayrılmış Misri qılınc, otuz pud ağırlığında qalxan, bir yeyin at, dava günündə də beş pud düyünün xörəyin.

Padşah razı olub, əmr verdi bu şeyləri hazırlamağa.

Qaraqaş durub gəldi qızın yanına.

Pəri xanım gördü ki, Qaraqaş sağ və salamat gəlir. Qulac qolun səridi Qaraqaşın boynuna, xəbər aldı ki:

– Sevgilim, necə oldu? Atam niyə səni çağırtdırmışdı?

Qaraqaş əhvalatı nəql elədi Pəriyə.

Pəri dedi:

– İndi ki belə oldu, atam sənə nə at versə, nəbadə minəsən. Deyərsən ki, bu atlar mənim altımda davam gətirə bilməz. Onda atam sənə deyəcək, bəs hansı at xoşuna gəlir. Deyərsən ki, qulaqsız boz at. Alıb minərsən.

Pəri Qaraqaşın dərsini verib sözünü tamamladı. Vaxt başa gəldi. Firəng qoşunu gəlib yetişdi şəhərə. Qaraqaş üçün adam gəldi ki, padşah hazırlığını görübdü. Qaraqaş Pəri xanımla halallaşıb, özünü yetirdi padşahın hüzuruna. Beş pud düyünün xörəyini sümüksüz ətlə yeyib tamam elədi. Dəmir paltarı geyib üstündən qılıncını bağladı. Padşah əmr elədi ki, at gəlsin. Mehtərlər at gətirdilər. Qaraqaş bir barmağını qoyub atın belinə, elə basdı ki, atın beli sındı, dedi:

– Padşah, bu at çox davamsızdı.

Padşah əmr verdi ki, at gəlsin.

Mehtərlər yüzə kimi at gətirdilər Qaraqaşın qabağına.

Qaraqaş atlara baxıb dedi:

– Padşah sağ olsun, bu atlar mənim altımda davam gətirə bilməz.

Padşah dedi:

– Bəs hansı atı istəyirsən?

Qaraqaş dedi:

– Qulağı kəsik boz atı.

Padşah əlacsız qalıb əmr verdi ki, qulağı kəsik boz atı götürüb gəlsinlər. Qaraqaş minib ata, üz qoydu meydana. Firəng qoşunu baxıb gördü ki, qoşun-moşun göndərmədi. Amma haçandan-haçana bir nəfər pəhləvan gəldi. Firəng qoşunu hazırlıq gördü. Qaraqaş da bu tərəfdən qılıncın sıyırıb həmlə elədi qoşuna. Bir gün, bir günorta Firəng qoşunu ilə dava eləyib, Firəng qoşununu qırıb qaytardı dala.

Padşah bu gücü Qaraqaşda görüb adına təbil vurdurdu. Qaraqaş dava meydanından qayıdıb əl-üzünü yuyub, özünü yetirdi Pərinin yanına. Pəri Qaraqaşın sağ-salamat qayıtmasında çox şad olub, o günü fəqir-füqəralara aş payladı.

Bunlar burada qalsın, xəbər verim sənə kimdən, dərvişdən.



Dərviş bir çox şəhər gəzib bütün dünyada nə ki tilsim vardı öyrənəndən sonra, bir neçə müddət özünü sınaqdan keçirib, üz qoydu Pəri olan şəhərə gəlməyə.

Sənə xəbər verim padşahdan.

Padşah bir gün oturub öz-özünə fikir elədi ki, bu nə işdi mən tuturam. Gədənin birini salmışam qızımın yanına. Sabah camaat mənə nə deyər? Yaxşısı budur ki, vəziri çağırtdırım, bəlkə bir tədbir gördü.

Padşah vəziri çağırtdırıb dedi:

– Vəzir, Qaraqaş davadan sağ çıxdı. Bir tədbir gör!

Vəzir dedi:

– Necə ki, demisən elə də elə!

Padşah dedi:

– Vəzir, mən onun ata-anasını tanımıram, heç bilmirəm nə məkanın adamıdı. Gül kimi qızı necə ona verim? Bir tədbir gör!

Vəzir dedi:

– Belə sənin gücün ona çatmaz. Yaxşısı budur ki, qonaqlıq elə, xörəyin içinə zəhər tök, ölsün getsin.

Padşah razı oldu, tədarük görüb Qaraqaşı qonaq çağırdı. Məclis rast olub, xörəklər çəkilib araya gələndə, Qaraqaşın xörəyinə zəhər tökdürdü. Qaraqaş xörəyi yeyib, üstündən də bir qab şərbət içdi. Padşah baxıb gördü ki, heç bunun halına təfavüt eləmədi. Məclis dağıldı. Bu da durub getdi.

Padşah dedi:

– Vəzir bəs niyə ölmədi? Zəhəri ki lap öz əlimnən tökmüşdüm.

Padşah fikir aparmaqda olsun, sən xəbər al Pəri xanımdan... Pəri gördü ki, Qaraqaş gəlir. Bildi ki, Qaraqaşa zəhər veriblər. Tez bir sillə Qaraqaşın üzünə çəkdi. Qaraqaş bütün yediyini sifraq elədi. Bir qab turş qatıq içib rəngə-rufa gəldi. Xəbər aldı ki:

– Bu nə olan əhvalatdı?

Pəri xanım dedi:

– Nə işinə? Soruşma!

Qaraqaş dinmədi. Hər ikisi qol-qola verib gül bağına seyrə çıxdılar. Bir xeyli macal gəzib dolandılar. Pəri xanım dedi:

– Ey sevgilim, mən çox yorğunam. Gəlsənə bu çəmənlikdə bir qədər uzanaq.

Qaraqaş razı olub, otdan döşək düzəldib, güllərdən yastıq, dodaq-dodağa verib uzandılar. Bu uzanmaqla hər ikisini yuxu apardı.

Al xəbəri dərvişdən. Dərviş şəhəri gəzə-gəzə gəlib çıxdı gül bağına. Girib bağa, bir xeyli gəzib-dolandı, gördü ki, bağın bir güşəsində Qaraqaşla Pəri xanım yatıblar. Dərviş Qaraqaşı görən kimi nə ki tilsimlər vardı oxudu, Qaraqaşı tilsimə salsın. Heç bir tilsim Qaraqaşa kar edə bilmədi. Çünki məqsədi Qaraqaşı aparıb, sonra Pərini apartdırmaq idi, işi belə görəndə birdən Pəri xanım yadına düşdü. Bir vürd oxuyub Pərini daha da gözəl elədi. Belə ki, baxan Pərini tanıya bilməzdi. Bir vürd də oxuyub Pəri xanımı yuxulu-yuxulu atdı bir quyuya. Özü də çıxıb getdi.

Al xəbəri Qaraqaşdan.

Qaraqaş ayılıb gördü ki, Pəri xanım yoxdu. Durub hər yanı gəzdi. Pəri xanımı tapa bılmədi. Tez pəhləvan paltarını geyib, minib atını, düşdü dəryayi-bidadə. Gəzhagəz gəlib çıxdı qaranlıq bir meşəyə. Gördü ki, qabaqda bir koma görünür. Qaraqaş atın sürüb çatdı komaya. Gördü ki, burada qoca pirani bir kişi oturub qabağında manqal, əlində batman kitab. Kişi Qaraqaşı görən kimi başın qaldırıb dedi:

– Ey Qaraqaş, xoş gəlmisən! Buyur otur! Neçə vaxtdı ki, sənin yolunu gözləyirdim.

Qaraqaş düşüb atdan, atını yancidar eyləyib oturdu.



– Bilirəm Pərini axtarırsan. – deyib, kişi kitabı açdı:

– Ey Qaraqaş, sən iki zalım padşah, bir də dərviş öldürəcəksən.

Durub ayağa sandığı açıb, Qaraqaşa bir qılınc verib dedi:

– Bu qılınc səni bütün tilsimlərdən qurtaracaq. Amma eşit və agah ol! Dərviş Pərini Günbatan tərəfdə iki dağın arasında bir quyu var, salıbdı haman quyuya. Gərək gedib girəsən həmin quyuya. Qabağına dörd bir qız çıxacaq. Deyəcəklər ki, mən Pəriyəm. Onları vurub öldürərsən. Sonra üç qarıya rast gələcəksən, onlarda deyəcəklər mən ananam. Qabağına dərya, meşə, nə çıxdı bu qılıncla vurub qırarasan. Lap axırda qabağına bir qoca kişi çıxacaq. Deyəcək mən atanam. O haman dərvişdi, bacar onu öldür! Elə ki öldürdün, Pəriyə oxşar bir qız görəcəksən. O sənin Pərindi. Al götür gəl!

Qoca abid sözünü deyib vəfat elədi.

Qaraqaş qocanı dəfn eləyib, getdi. Neçə gün, neçə gecə yol gedib özünü yetirdi iki dağın arasına, gördü ki, burada bir quyu var. Dedi, olsa-olsa bu quyu olacaq. Qaraqaş kəməndlə quyuya düşüb, bir o yana baxıb, bir bu yana baxıb, gördü ki, burada bir qapı var. Girib qapıdan içəri, gördü ki, eynən Pəriyə oxşar bir qız çıxdı, dedi:

– Ey Qaraqaş, amandı məni qurtar!

Qaraqaş çəkib qılıncı, qızı iki yerə böldü. Qız ölən kimi tilsim qırıldı, qabağına bir tilsim çıxdı. Qaraqaş gedib gördü ki, bu səfər də Pəriyə oxşar bir qız çıxdı. Amma bu qızın əlində bir məşəl vardı. Qaraqaş qıza bir qılınc vurdu, tisimi qırıb irəlilədi. Hə, yavaş-yavaş dörd qızı öldürüb qurtarandan sonra, qabağına dərya çıxdı. Bu dəryanın içərisindən əjdaha, şir, pələng, bəbir, gürzə, ilan çıxmağa başladı. Qaraqaş bunların hamısını qırıb qurtardı. Lap axırda bir qoca kişi çıxıb dedi:

– Ey oğul, neçə vaxtdı sən haradasan?

Qaraqaş istədi çəkib qılıncı, qocanı öldürə, qılınc qocanı tutmadı. Qoca qaçıb oldu bir əjdaha. Qaraqaş tilsimli qılıncla əjdahanı quyruğundan yaraladı. Əjdaha dönüb sarıldı Qaraqaşa. Qaraqaş əl atıb əjdahanın ağzına, salıb qılıncı boğazının yoluna, burdu. Əjdaha qışqırdı:

– Vay yandım!

Qaraqaş "vay yandım"a baxmayıb, əjdahanı öldürdü. Özünü yetirib Pəriyə, can deyib, qucaqlaşdılar. Qaraqaş minib atına, Pəri xanımı götürüb gəldi öz vilayətinə.

Al xəbəri padşahdan.

İndi padşaha xəbər getmişdi ki, qızın Pəri xanımla Qaraqaş yoxa çıxıblar. Padşah çox qəmli olub, qara geyib oturmuşdu. Elə ki xəbər çatdı padşaha ki, Qaraqaş gəlir, padşah çox şad olub çıxdı qızının pişvazına. Gördü ki, yox, bu, qızı Pəri xanım deyil. Qaraqaşdan xəbər aldı:

– Hanı mənim qızım?

Qaraqaş dedi:

– Budu sənin qızın.

Padşah təəccüb elədi, dedi:

– Vəzir, bu nə olan işdi?

Vəzir dedi:

– Padşah sağ olsun, bu sənin qızın deyil.

Onlar bir-birləri ilə çəkişmədə olsunlar, Pəri xanım Qaraqaşa dedi:

– Mən hələ də tilsimdən qurtarmamışam. Gərək mənim üçün İlanlar padşahının qızının ətindən gətirəsən ki, mən ətini üzümə çəkəm sağalam.

Qaraqaş dedi:

– O qızı necə ələ gətirmək olar?

Pəri xanım dedi:



– Gedərsən Sarı dağa. Həmin qız bir ilandır. Səni görən kimi cildindən çıxıb gələcək sənə tərəf. Sənə deyəcək: Oğlan al məni! Sən də razı olarsan. Gecə hər ikiniz bir yerdə yatan məqamda onun sağ əlinin çeçələ barmağını kəsərsən. Kəsən kimi qız öləcək. Onda ətindən kəsib gətirərəsən. Amma nə badə başını kəsəsən. O qızın canı sağ əlinin çeçələ barmağıdadır. Əgər o qızın ətindən götürüb gəlməsən, mən bir aydan artıq qalmayıb öləcəyəm.

Pəri sözünü tamam elədi. Qaraqaş ata minib üz qoydu getməyə. Al xəbəri padşahdan.

Padşah xəbər tutdu ki, Qaraqaş yoxdu, dedi:

– Yaxşı oldu ki, Qaraqaş getdi. Qızı əlindən aldım.

Padşah bir də vəziri çağırtdırıb dedi:

– Vəzir, bir yaxşı-yaxşı bax, gör bu mənim qızımdı, ya yox?

Vəzir dedi:

– Padşah sağ olsun, sənin qızın deyil.

Padşah bu sözdən sonra gəldi Pəri xanımın yanına, dedi:

– Ey qız, gərək mənə gedəsən!

Pəri xanım dedi:

– Ata, mən sənin qızınam.

Padşah dedi:

– Yalan deyirsən, çəpəl! Sən mənim qızım hardan oldun?

Pəri xanım atasına çox yalvardı ki, mən sənin qızınam, padşah az eşidib dedi:

– Yalan deyirsən.

Pəri xanım baxıb gördü ki, atası bundan əl çəkməyəcək, əlacı kəsilib atasını itələyib atdı bayıra. Padşahın başı-gözü əzilib, bir neçə gün yorğan-döşəkdə yatdı, sağalandan sonra durub yenə gəldi qızının yanına, dedi:

– Ey qız, mənə gedirsən, ya yox?

Pəri xanım atasının təklifini rədd edəndən sonra, padşah durub gəldi, taxtına çıxıb, cəllad göndərdi ki, Pərini tutub salsınlar zindana. Cəlladlar gedib Pərini tutub saldılar zindana. Pəri xanım zindanda qalmaqda olsun, xəbər verim sənə kimdən, Qaraqaşdan.

Qaraqaş gedib həmin yerə çatdı. Bir də gördü ki, qabağına bir qız çıxdı.

Qız dedi:

– Oğlan, gəl al məni!

Qaraqaş razı oldu. Yatmaq məqamı gələndə Qaraqaş qızın çeçələ barmağını kəsib, ilanlar padşahının qızını cəhənnəmə vasil etdi. Qızın ətindən götürüb mindi atına, gəldi Pəri xanımın yanına. Gördü ki, Pəri xanım yoxdu, amma bağban qara geyib oturub. Xəbər aldı:

– Ey bağban, niyə qara geymisən?

Bağban dedi:

– Padşah öz qızı Pəri xanımı salıbdı zindana, bu gün boynunu vurduracaq.

Qaraqaş bu sözü eşidən kimi, çəkib atını padşahın imarətinin qabağına, elə bir nərə çəkdi ki, gəl görəsən. Sonra üzünü tutub padşaha dedi:

– Ey zalım padşah, Pəri xanımı səndən istəyirəm.

Çəkib qılıncı, padşaha aman verməyib, özünü vurdu dəryayi-ləşkərə. Qırıb-çatdı qoşunu, yetirdi özünü padşahnan vəzirə. Hər ikisini cəhənnəmə vasil elədi. Çatıb zindana qapıları sındırıb Pəri xanımı azad elədi.

Pəri xanım dedi:

– Atam məni almaq istəyirdi.

Qaraqaş gülə-gülə dedi:

– Atanı çoxdan cəhənnəmə vasil elədim.



Pəri xanım qucaqlayıb Qaraqaşı öpəndən sonra, ilanlar padşahının qızının ətini Qaraqaşdan alıb, çəkdi üzünə. Elə orada tilsimdən çıxıb oldu əvvəlki Pəri xanım.

Qaraqaş Pəri xanımı götürüb gəldi, yeddi gün, yeddi gecə toy eləyib aldı. Sonra camaat Qaraqaşı padşah tikdi. Bir müddət padşahlıq eləyəndən sonra birdən anası yadına düşdü. Adam göndərib ata-anasını çağırtdırdı. Özünü onlara tanış verəndən sonra, başına gələni ata-anasına danışıb dedi:

– Ata, bu taxt-tac sənin, mən də sənin pəhləvanın.

Qaraqaş tacı atasının başına qoyub, özü də oldu atasına pəhləvan. Təzədən toy eyləyib başladılar şadlıqla gün keçirməyə.

## Simanın nağılı

Biri var imiş, biri yox imiş, günlərin bir günündə, belə deyirlər, bir vilayətdə Dəşküvar adında bir padşah var imiş. Amma çox zalım padşah imiş. Bu padşahın oğlu olmazmış. Bir gün Dəşküvar öz rəmmalını yanına çağırıb deyir:

– Rəmmal, dünyanın bütün ləzzətini dadmışam. Amma qorxuram düşüb öləm, ürəyimdəki həsrət mənimlə qəbrə gedə. Bir rəml at, görüm.

Rəmmal rəml atıb gördü ki, rəml bəd gəlir.

Bir də atıb gördü ki, həmindi ki həmin.

Rəmmal dedi:

– Rəml bəd gəldi. İzn ver sabah gəlim.

Dəşküvar izn verdi rəmmala, rəmmal durub getdi. Sabahısı gün rəmmal padşahın yanına gəlib ədəb salamını yerinə yetirib oturdu. Rəmmal rəml atıb gördü ki, həmindi ki həmin.

Dedi:

– Rəml bəd gəldi. İzn ver sabah gəlim.

Dəşküvar izn verdi rəmmala, rəmmal durub getdi. Sabahısı gün rəmmal padşahın yanına gəlib ədəb salamını yerinə yetirib oturdu. Rəmmal rəml atıb gördü ki, həmindi ki həmin.

Dedi:

– Padşah sağ olsun, acığın tutmasın.

Padşah dedi:

– De görək!

Rəmmal dedi:

– Tez-gec sənin öz rəiyyətinin bir oğlu olacaq, sən onun əlində öləcəksən.

Padşahı fikir apardı ki, o necə rəiyyətdi ki, bir oğlu olacaq, mən də onun əlində öləcəyəm. Dəşküvar səhərə kimi yatmadı. Fikir fikir üstündən, səhər tezdən rəmmalı çağırtdırıb dedi:

– Rəmmal, eşidəm, biləm, bu sirri bir adama demisən, vay halına.

Rəmmaldan sirri saxlamaq barədə söz aldı. Tədbir istədi.

Rəmmal dedi:

– Tədbiri bu cürdü. Gərək şəhərdə təzə anadan olan oğlan uşaqlarını oğurlayıb öldürəsiz. Amma nəbadə camaat bilə!

Padşah öz adamlarını çağırtdırıb, tapşırıq verdi və onların dilindən kağız alıb yola saldı.

Dəşküvarın adamları öz işlərinə getsinlər, eşidin Dəşküvardan.

Dəşküvar durub çıxmışdı bağa. Gördü ki, bir quş öz balasını dimdiyində götürüb gəldi çərhovuzun üstünə, üç kərəm balasını suya basıb, alıb təzədən dimdiyinə apardı. Dəşküvarın ürəyinin başına od düşüb elə bil alışdı, dedi: mənim də oğlum olaydı!..

Bu dəmdə Dəşküvarın bağbanı bağı gəzirdi, gördü ki, padşah oturub çərhovuzun üstə, çox fikirdədi. Bağban ağacdan bir alma dərib, götürüb gəldi Dəşküvar üçün. Baş əyib, ədəb salamını yerinə yetirdi. Almanı Dəşküvara uzatdı. Dəşküvar almanı bağbandan alıb iylədi, dərdi bir idisə, oldu iki. Bir ah çəkib dedi:

– Yaxşı alma saxlayırsan, amma...

Bağban dedi:

– Necə ki amma?

– Saqqalıma dən düşüb, sabah düşüb ölsəm, görəsən bu bağa kim sahib olacaq.

Bağban başını aşağı salıb dinmədi. Dəşküvar çox fikrə gedib, bağbana dedi:

– Gəl Allah əmrilə bir əhd-peyman edək!

Bağban dedi:

– Padşah sağ olsun nə əhd-peyman?

Dəşküvar padşah dedi:

– Qızın olsa, qızlığa, oğlun olsa oğulluğa mənə ver!

Dəşküvar çox böyük padşahdı. Bağban Dəşküvarın sözündən çıxa bilmədi, razılıq verdi. Dəşküvar da bağbanın dilindən kağız alıb çıxıb getdi.

Eşit Dəşküvarın adamlarından. Pişik ət üçün gəzən kimi, bunlar da evbəev gəzirdilər. Gündə bir, iki təzə doğulan oğlan uşaqlarını oğurlayıb atırdılar çaya. Şəhərdə bilmirdilər. Gəlib neçə kərə Dəşküvara şikayət elədilər. Dəşküvar qulaq asmayıb, gələnləri qovdurdu.

Xəbər verim sənə kimdən, bağbanın arvadından. Nağıllarda vaxt çox tez başa gəlir. Doqquz ay, doqquz gün, doqquz saat, doqquz dəqiqə keçdi, bağbanın arvadı bir oğlan doğdu. Xəbər gedib çatdı bağbana ki, arvadının bir oğlu olub, Bağban sevinə-sevinə özünü yetirdi arvadının yanına, gəlib nə gördü, arvadının doğduğu oğlanın başında, qaşında, kipriyində tük yoxdu, özü də ət kimidi. Başı, qolu, qıçı sağ-salamat, amma ki elə bil ətdi. Bağban gəlib uşağa baxdı, gördü ki, bu uşaq araya

çıxmalı uşaq deyil. Getdi fikrə. Bilmədi ki, padşaha nə cavab versin. İstədi uşağı tullaya, amma ürəyindən gəlmədi.

Bu burda qalsın, eşit Dəşküvar padşahdan. Şah Dəşküvar eşitdi ki, bağbanın oğlu oub, sevindiyindən dayana bilmədi. Durub gəldi, özünü tez yetirdi bağbanın evinə. Bağban oturub ağlayırdı, bilirdi ki, padşahın yanında xəcalətli olub. Bir də başını yuxarı qaldırıb gördü ki, Şah Dəşküvar gəlir. gözlərini silib, ikiqat olub, padşahın qabağında ədəb salamını yerinə yetirib dayandı. Şah Dəşküvar dedi:

– Oğlun olub, bəs nə üçün mənə bu vaxtacan xəbər verməmisən?

Bağban bu sözdən başını aşağı salıb dedi:

– Padşah sağ olsun, üzüm yanında qaradı.

Padşah soruşdu:

– Nə üçün qaradı? Olmaya oğlan ömrünü bağışlayıb?

Bağban dedi:

– Kaş ömrünü bağışlayaydı sənə, amma dünyaya gəlməyəydi.

Şah Dəşküvar bu sözdən çox pərişan olub xəbər aldı ki:

– Nə olubdu?

Bağban əhvalatdan Şah Dəşküvarı xəbərdar elədi.

Dəşküvar çox qəmgin oldu, amma inanmadı. Öz-özlüyündə dedi: Yəqin ki, bunlar uşağı məndən gizlədirlər. Üzünü bağbana tutub dedi:

– Gərək uşağı özüm görəm.

Bağban Şah Dəşküvarı apardı evinə, uşağı göstərdi. Şah Dəşküvar uşağı görüb acığı tutdu, birbaş bağbanın evindən çıxıb gəldi, əyləşdi taxta, rəmmal çağırtdırıb dedi:

– Rəml at görək, o uşaq ki, deyirdin, dünyaya gəlib, ya yox?



Rəmmal dəstəmaz alıb, gəlib rəmlin atdı. Baxıb Şah Dəşküvara dedi:

– Bəli, dünyaya gəlib.

Şah Dəşküvar qapıları bağlatdırıb, rəmmalı otağından bayıra buraxmadı. Adam göndərdi, öz yaxın adamlarının bir neçəsini çağırıb dedi:

– Rəmmal tədbir tök!

Rəmmal dedi:

– Gərək şəhərdə nə ki, təzə doğulan uşaq var, hamısının boynu vurula.

Şah Dəşküvar üzünü tutub öz adamlarına dedi:

– Sizin üçün filan qədər maaş ayırıram, nə ki şəhərimdə oğlan uşağı var, hamısının boynunu vurarsız, amma bu sirri heç kim bilməməlidi.

Padşah öz adamlarının dilindən kağız alıb, dedi:

İndi gedərsiz, bağbanın beşikdəki uşağın götürüb atarsız çaya, arvadını da öldürərsiz.

Padşahın adamları gedib bağbanın arvadını və oğlunu götürüb, istədilər öldürərlər, yazıqları gəlib arvadı buraxdılar çölə, uşağı da bir dağın döşündə böyük bir ağac vardı, qoydular ağacın altına, çıxıb gəldilər. Bağbanın arvadı qaldı çöllü-bərri-biyabanda, uşağı da ağacın altında. Ana baladan, bala anadan ayrılıb, belə qalsınlar, eşit Simurqdan.

Simurq göylə uçub gedirdi, gördü ki, yerdə bir şey ağarır. Tez göyün qatından enib yer qatına, gördü ki, ağac dibində bir uşaq var, amma yanında adam yoxdu. Simurq elə bir quşdu ki, yerin altını da, üstünü də bilir. Görən kimi bildi ki, bu, bağbanın oğludu, özü də təzə gəlib dünyaya. Uşaq Şah Dəşküvarın qəzəbinə gəlibdi. Simurq uşağı götürüb caynağına, qalxdı havaya, qanad çalıb uşağı götürdü, gəldi öz balalarının yanına. Simurq elə quşdu ki, fəqirləri çox sevər. Qal-

xıb göyə, başladı bağbanın arvadını axtarmağa. Bir müddət gəzib dolandı, bir soraq tapa bimədi.

Simurq getməkdə olsun, eşit bağbanın arvadından. Bağbanın arvadı Şah Dəşküvarın şəhərindən çıxıb üz qoydu çöllü-bərri-biyabana.

Eşit Simurqdan. Simurq göylə süzürdü. Gördü ki, çöllü-bərri-biyabanda bir arvad xeylağı gəzir. Simurq üç-dörd qat göydən enib gördü ki, bağbanın arvadıdı. Simurq qanadını açıb, aldı bağbanın arvadını qanadının altına. Bağbanın arvadı ayılıb gördü ki, Simurq qanadını yorğan eləyib salıb üstünə. Bağbanın arvadı qorxub istədi qaça. Simurq tez dilə gəlib dedi:

– Qorxma, gəl min dalıma, səni balanın yanına aparıram.

Bağbanın arvadı gördü ki, bu Simurq quşudur. Tez qanadından öpüb, mindi Simurqun dalına. Simurq qanad çalıb qalxdı havaya, özünü yetirdi yuvasına, düşüb yerə bağbanın arvadına dedi:

– Aç gözünü!

Bağbanın arvadı gözlərini açıb gördü ki, elə gözəl meşədi ki, daha nə təhər. Bağbanın arvadı bir o yana baxıb, bir bu yana baxıb, gördü ki, Simurq yoxdu. Bir az keçdi, Simurq caynağına bir uşaq göydən yerə endi. Bağbanın arvadı xəbər aldı Simurqdan:

– Bu uşaq kimindi?

Simurq dil açıb bağbanın arvadını başa saldı ki:

– Bu uşaq sənindi.

Arvad baxıb gördü ki, həmin uşaqdı ki, ət parçası kimi idi, əndamında tük yox idi, indi bir oğlan olub ki, dünyada misli yoxdu. İstədi uşağı götürə qucağına, üz gözündən öpə, baxıb gördü ki, uşaq elə ağırdı ki, yerindən tərpədə bilmir. Xəbər aldı Simurqdan:

– Bu nə əhvalatdı?



Simurq dedi:

– Göylə gedirdim, gördüm bir çöllü-bərri-biyabanda qoca bir ağac bir yanı üstə yıxılıb. Ağacın altında bir şey ağarır. Yerə endim gördüm ki, bu uşaqdı. Tez götürüb apardım, Nil dəryasında çimdirdim, Qaradağ daşından bir parça götürüb əzdim, tük gələn yerlərinə çəkdim. O vaxtdan bu uşağa balalarımla bir yerdə saxlayıram.

Bağbanın arvadı Simurqun qanadından öpüb həmin saat öz oğluna Siman adını verdi. Simurq Simanın anası üçün ağac başında yuva tikdi. Ana-bala bir neçə müddət burada qalmaqda olsunlar, eşit Simurqdan.

Simurq hər gün ov ovlardı, yarısını öz balalarına, yarısını da bağbanın arvadı ilə Simana verərdi. Bir müddət aradan keçdi. Bir gün bir əjdaha gəlib Simurqun balalarını yemək istəyirdi. Siman onu görən kimi tez bu ağacdan atlandı o biri ağaca, uzun bir çinar ağacından yapışıb bir nərə çəkdi ki, meşə titrədi, çinarı yerindən çəkib çıxartdı. Əjdaha Simanı görən kimi Simurqun balalarını buraxıb, gəldi Simanın üstünə. Siman çinarın qalın tərəfini əjdahanın ağzına salıb həmlə elədi irəli, ucunu sancıb boğazının yoluna, dayadı torpağa, əjdaha bir az çapalayıb cəhənnəmə vasil oldu. Siman bir nərə də çəkdi. Bu dəmdə Simurq göylə gedirdi, eşitdi ki, meşədən nərə səsi gəlir. Enib meşəyə gördü ki, bağbanın arvadı qorxusundan çıxıb lap ağacın başına. Xəbər aldı ki, nə olub? Bağbanın arvadı ilə Simurqun balaları Simurqu əhvalatdan xəbərdar elədilər. Simurq tez özünü yetirdi Simana, gördü ki, Siman əjdahanı öldürüb dayanıb başının üstündə. Simurq üç dimdik əjdahaya vurub, ətinin yaxşı yerindən balalarına, ürəyini də Simana verib qalanını tulladı. Simurq Simanla anasını mindirib dalına dedi:

– Yumun gözünüzü!

Bunlar gözlərini yumdular. Simurq qanad çalıb göylə bir neçə mənzil yol getdi, gəlib bir yerdə düşüb dedi:

– Açın gözlərinizi!..

Bunlar gözlərini açıb gördülər ki, bir evin qabağındadılar. Simurq bunları qoyub, qapını döydü. Bir az keçmədi ki, bir çoban çıxdı. Çoban gördü ki, gələn Simurqdu. Çoban Simurqun qanadından öpdü, Simurq dil açıb dedi:

– Simanla bu arvadı sənə tapşırıram.

Çoban baş əydi, Simanı götürdü oğulluğa.

Simurq getmişdi, amma arabir gəlib Simana baş çəkərdi.

Nağıllarda vaxt tez başa gəlir. Siman on beş yaşına çatmışdı. Amma elə cürətli bir pəhləvan olmuşdu ki, Qaf dağına güc eləsəydi, yerindən tərpədərdi. Bir gün Siman çobana dedi:

– At istəyirəm, qılınc istəyirəm.

Çoban tez Simurqun tükünü yandırdı, Simurq özünü yetirib çobana, xəbər aldı:

– Bəs nə var?

Çoban dedi:

– Siman at istəyir, pəhləvan paltarı istəyir.

Simurq: "gözüm üstə" – deyib qalxdı göyə. Simurq göydə pər vurub, nər kimi nərildəyirdi. Qanad çalıb gah enirdi, gah qalxırdı göyə. Özünü yetirdi Dəşküvar padşahın şəhərinə. Göydə süzürdü, gördü ki, Şah Dəşküvar imarətindən çıxıb gəldi bağa. Çıxıb çarhovuz üstdə canamazı açıb, üzüyünü möhür elədi, başladı dəstəmaz almağa. Simurq göydən baxırdı, gördü ki, Şah Dəşküvarın bir üzüyü var ki, heç padşah xəzinəsində yoxdu. Dedi: Bu üzük Simana bəsdi. Yerə enib, üzüyü vurdu caynağına, qalxdı göyə. Şah Dəşküvar Simurqun dalınca ox atdı, amma ox Simurqa dəymədi. Şah Dəşküvar bu sirri saxlayıb özündə, başladı namazını qılmağa. Simurq özünü yetirdi çobana, üzüyü verib, dedi:



– Min dalıma!

Çoban mindi Simurqun dalına, özünü yetirdi başqa bir şəhərə. Şəhərin yarım ağaclığından çobanı düşürüb dedi:

– Gedərsən bu şəhərə. Bu üzüyü verərsən filan tacirə, deyərsən ki, bu üzüyü Xəyyam tacir verdi, dedi ki, pul eləyib versin.

Çoban şəhərə gedib taciri tapdı, üzüyü tacirə verib necə ki, Simurq demişdi, elə də tacirə dedi. Tacir üzüyü pul elədi, verdi çobana. Çoban pulu götürüb, özün yetirdi Simurqa. Simurq pulun dörddə birini çobana verib dedi:

– Apar bu pulu, bu şəhərdə Yəmən vəzirə ver, deginən Dəşküvar deyir ki, atımın xərcini verib, atımı istəyirəm. Xəbər alsa ki, at nə rəngdədi? Deyərsən ki, ağ atdı, yalının altı qırmızı. Amma atı məbadə minəsən. Tez götür gəl bura!

Çoban şəhərə gəlib, getdi Yəmən vəzirin yanına. Simurq necə demişdi, eləcə də Yəmənə dedi.

Çoban pulu verib atı aldı, özünü tez yetirdi Simurqa. Simurq öz tükündən çəkib bağladı atın yalına, atın yalından çəkib verdi çobana. Atı buraxdı. Çobanı mindirib dalına, qalxdı göyə. Gəlib çatdı bir qalaçaya, çobana dedi:

– Bu qapını sındır!

Çoban qapını sındırdı, içəri girdilər. Bir dəst pəhləvan paltarı, on arşın uzunluğunda bir qılınc, yeddi dəyirman daşı ağırlığında bir gürz seçdilər. Simurq bunları aldı caynağına, çobanı da mindirib dalına, götürüb gəldi. Gördü ki, Siman başını qoyub anasının dizi üstdə yatıbdı. Simurq Simanı durquzdu. Siman pəhləvan paltarını başdan geyinib, ayaqdan qıfıllandı, ayaqdan geyinib başdan qıfıllandı, qılıncın belinə bağlayıb, gürzü əlinə aldı, bir nəAllahrə çəkib gürzü göydə fırlatdı.

Simurq tez atın tükünü bir-birinə çəkdi. Bir də gördü ki, ağ at, yalının altı qırmızı, budu gəlib dayandı Simanın qaba-

ğında. Siman ata minib, başladı at çapıb, qılınc vurmağa, gürz oynatmağa. Ta bir müddət pəhləvanlığın hər yolunu öyrəndi. Bir gün anasına dedi:

– Ana, mən gedirəm yeddi günün səfərinə.

Anası dedi:

– Gəl getmə!

Dedi:

– Yox, gərək gedəm.

Siman at minib, çıxdı çölə, düz iki gün yol getdi. Gəlib çıxdı çöllü-bərri-biyabana. Bərk acmışdı. Bir quş vurub, kabab bişirib, oturub yedi, uzandı bir ağacın sərinliyində rahat olsun, gördü ki, iki atlı gəlir. Atlılar Şah Dəşküvarın pəhləvanlarıydı. Siman bunları görən kimi, durdu ayağa. Əl atıb xurcuna, atına bir ovuc kişmiş verib, özünü söykədi qılınca. Pəhləvanlar gəlib çatdı Simanın bərabərinə, xəbər aldılar:

– Kimsən? Burada neyləyirsən?

Siman dedi:

– Siz kimsiz?

Pəhləvanlar dedilər:

– Dəşküvarın pəhləvanlarıyıq.

Siman dedi:

– Mən də bu yerlərin pəhləvanıyam.

Bu söz onlara acıq gəldi, əl atdılar qılınca. Siman da tez əlini atıb gürzə, bir nərə çəkdi ki, nərəsindən göydə quş qanad saldı. Gürzü atıb yerə, əl elədi qılınca. Qılıncı çəkib pəhləvanın birini cəhənnəmə vasil elədi. Əl atıb o biri pəhləvanın kəmərindən yerə elə vurdu ki, ombası çıxdı. Pəhləvan sürünə-sürünə üz qoydu qaçmağa, birbaş gəlib Şah Dəşküvarın yanına dedi:

– Taxtın dağılmasın, nə durmusan?! Çöllü-bərri-biyabanda bir nəfər pəhləvan peyda olub, kim gəlir qabağına, vurub öldürür. Özü də deyir ki, Şah Dəşküvar kimdi, mən onu



tanımıram. İstədik tutub gətirək hüzuruna, kiçik pəhləvanı vurub öldürdü, məni də elə vurdu ki, ombam çıxdı.

Şah Dəşküvar bu sözdən çox qəzəblənib əmr elədi ki, vəziri çağırsınlar. Adam gedib vəziri çağırdı. Vəzir gəldi Şah Dəşküvarın hüzuruna, dedi:

– Buyur qibleyi-aləm!

Şah Dəşküvar dedi:

– Bəs filan yerdə bir pəhləvan peyda olub pəhləvanlarımdan birini öldürüb. Qoşun götür gedək görək, bu nə cür pəhləvandı.

Vəzir gedib qoşun hazırlığı gördü, gəlib Şah Dəşküvara xəbər verdi ki, qoşun hazırdı.

Şah Dəşküvar ata minib düşdü qoşunun qabağına. Başladılar yol getməyə. Şəhərdən çıxıb üz qoydular Simana tərəf. Eşit Siman pəhləvandan.

Siman pəhləvanı öldürəndən sonra ata minib gəlirdi şəhərə tərəf ki, ombası çıxan pəhləvanı tutub öldürsün, bu dəmdə gördü qabaqda bir toz qopdu. Siman atını saxladı. Toz sakit olan kimi tozun içindən bir qoşun peyda oldu. Siman bir dağın döşünü özünə səngər eləyib, çəkib atını dayandı. Şah Dəşküvar özünü yetirdi, durbinini qoyub gözünə bir o yana, bir bu yana baxıb gördü ki, burada bir pəhləvan var ki, Şah Dəşküvar anadan olandan bu günə kimi istər şücaətdə, istər gözəllikdə belə bir pəhləvan görməmişdi.

Şah Dəşküvar vəzirə dedi:

– Olsa, bu oğlan olar. Tez bir adam göndər, onu çağırsınlar.

Vəzir bir nəfər pəhləvan göndərdi Simanın hüzuruna. Pəhləvan gedib, Simana çatıb dedi:

– Ey oğlan, Şah Dəşküvar səni çağırır.

Simanın bu sözdən acığı tutdu, əl atıb pəhləvanın kəmərinə, elə tulladı ki, yazıq pəhləvan gedib birbaş düşdü Şah Dəşküvarın ayağına. Şah Dəşküvar baxırdı, gördü ki, bu pəhləvan elə zırpı pəhləvandı ki, qabağında dağ dayanmaz. Özü minib atına, istədi gedə, öz-özünə dedi: qoy vəziri göndərim.

Vəzirə dedi. Vəzir boyun qaçırdı. Axırda Şah Dəşküvar atını sürdü birbaş özünü yetirdi Simanın bərabərinə. Şah Dəşküvar çatıb salam verdi, amma gözaltı oğlana baxıb gördü ki, Misiri, Şamı, Rumu gəzsən belə gözəl tapmazsan. Şah Dəşküvar ta bayaq ürəyi gedib yıxıldı yerə. Siman Şah Dəşküvarın saqqalından yapışıb qalxızıb oturdu. Su vurub üzünə, Şah Dəşküvar ayıltdı.

Şah Dəşküvar dedi:

– Mən bu şəhərin padşahıyam. Sənin bu tərəflərə gəlməyini eşidib gəlmişəm. Mənim oğlum yoxdu, gəl səni götürüm oğulluğa.

Siman dedi:

– Mən istəmirəm. Hələ mən özüm bu yerlərin pəhləvanıyam. Atam da çobandı. Mən hara, sən hara? Məndən əl çək! Məndən sənə oğul olmaz.

Şah Dəşküvar çox yalvardı, Siman az eşitdi. Siman baxıb gördü ki, Şah Dəşküvar bundan əl çəkməyəcək, öz-özünə dedi: – gedərəm, pənah Allaha. Razı oldu, qoşuldu Şah Dəşküvara. Şah Dəşküvar sevindiyindən heç bilmədi ki, nə eləsin. Tez çatdı qoşuna, əmr elədi ki, şadlıq etsinlər. Qoşun əhli şadlıq eləyib sevindi. Şah Dəşküvar Simanı alıb yanına, birbaş gəldilər şəhərə. Bir neçə müddət Siman burada qalıb, baxıb gördü ki, ürəyi çox darıxır. Çünki Siman göz açıb özünü meşə içində, çoban yanında görmüşdü. Şah Dəşküvarın yanında qalmaq ona birtəhər gəlirdi. Odur ki, başladı darıxmağa. Bir gün aynaya baxıb gördü ki, çox geriyə gedib, sınıxıb. Dedi ki, gərək çıxam gedəm.



Xəbəri sənə verim kimdən, xəbəri sənə verim Şah Dəşküvardan. Şah Dəşküvar rəmmalın sözündə sonra əmr vermişdi ki, təzə doğulan uşaqları tutub öldürsünlər. Padşahın bu əmrindən sonra hər gün üç-dörd uşaq ölürdü. Odur ki, bir dəstə camaat yığılıb, Şah Dəşküvara şikayətə gəldilər ki, bəs uşaqlarımız itir. Bizə bir əlac elə. Şah Dəşküvar şikayətə baxmayıb onları qovdu. Siman pəhləvan da bir yanda durub baxırdı. Gördü ki, Şah Dəşküvar çox ədalətsiz iş görür. Özüün verib Şah Dəşküvarın qabağına, baş əyib dedi:

– Padşah sağ olsun, gərək bu itən uşaqların oğrusunu tapasan, yoxsa mən şəhəri alt-üst edərəm.

Padşah qorxusundan "bəli-bəli" – dedi, amma tədbirini dəyişmədi. Elə yenə də hər gün bir-iki uşaq yox olurdu. Şəhərdə rəiyyət arasında narazılıq artırdı. Axırda şikayət elədilər Simana.

Siman durub gəldi Şah Dəşküvarın yanına, dedi:

– Mən daha səbr eləyə bilmirəm. Gərək gedəm uşaq oğrularını tapam.

Şah Dəşküvar gördü ki, iş şuluqdu. Əgər Siman işə başlasa, işin üstü açılacaq. Neynim, neynim, axırda Siman dedi:

– Oğlum, mən qocalmışam. Sabah, biri gün düşüb öləcəyəm. Gəl mənə vəliəhd ol. Mən öləndən sonra, padşahlıq sənindi.

Siman razı olmayıb dedi:

– Mən gedirəm, gərək bu oğruları tapam.

Siman şəhər tərəfə getməkdə olsun, eşit vəzirdən. Vəzir gördü ki, Şah Dəşküvar Simandan o qədər qorxur ki, axırda padşahlığını da ona verəcək. Tez özünü yetirdi oğlunun yanına. Vəzirin Qəvvas adında bir oğlu var idi, oğluna dedi:

– Qəvvas, çörəyimi sənə halal eləmərəm, əgər Siman pəhləvanı sağ buraxsan. Gərək onu öldürəsən.

Qəvvas dedi:

– Nə yolla?

Vəzir dedi:

– Siman pəhləvan bu günləri şəhərdən çıxacaq. Mən də səni ona qoşaram. Elə ki, qoşuldun ona yolda bir məqam tapıb öldürərsən.

Qəvvas razı oldu. Siman da elə bu tərəfdən atını minirdi, gördü ki, vəzirin oğlu Qəvvas gəlir, xəbər aldı ki,

– Haraya gedirsən?

Vəzirin oğlu dedi:

– Çox darıxıram, istəyirəm səninlə gedəm.

Siman elə özünə bir yoldaş axtarırdı. Razı olub, vəzirin oğlu Qəvvası da özü ilə götürdü. Hər ikisi ata minib şəhərdən çıxdılar. At başı saldılar, başladılar sürməyə. Qəvvas atını bir neçə tazıyana vurub, sürdü qabağa. Simanın atını bir qədər keçib, gözdən itdi. Amma Siman atını asta-asta sürürdü. Qəvvas qılıncını əlinə alıb, niqabını çəkdi üzünə. Yetmiş yeddi yerdən özünü sərrast edib, qayıtdı, at başı saldı Simanın üstünə. Sürüb atını az qalmışdı ki, gəlib çatsın Simana. Siman gördü ki, gələn Qəvvasdı. Tez əlini uzadıb yapışdı Qəvvasın kəmərindən. Qalxızıb göyə, istədi vura yerə, Qəvvas səsləndi ki:

– Siman, and olsun cavan canına, mən səninlə zarafat eləyirdim.

Siman Qəvvası yavaş-yavaş qoydu yerə. Başladılar yol getməyə. Dərə-təpə gedib, çatdılar bir düzə. Qəvvas yenə də at başı salıb, atın başını qaytardı, çəkib niqabını üzünə, sürdü düz Simana tərəf.

Qəvvasın atı güllə kimi gəlib yetişincə Qəvvas çəkib qılıncını, istədi ki, endirə Simanın təpəsinə, Siman əlini qaldırıb, yapışdı Qəvvasın biləyindən, qanırıb qılıncını aldı, qalxızıb Qəvvası yuxarı, elə vurdu yerə ki, heç tikəsi ələ gəlmədi. Siman Qəvvası vasil eyləyib cəhənnəmə, minib atına başladı getməyə. Az gedib, çox dayandı, çox gedib az dayandı, gəlib çatdı bir şəhərin qırağına. Gördü ki, bura bir qalaçadı. Amma qalaçada adam-zad görünməyir. Düşüb atından, yumşaq bir otun üstündə atına bir az kişmiş töküb, özü də uzandı ki, dincliyini ala.



Siman burada yatmaqda olsun: xəbər verim kimdən, xəbər verim sizə Dəzivar padşahdan. Dəzivar padşah əlində durbin, qaladan baxırdı ki, onun torpağına gələn kimlərdi. Çünki Dəzivar torpağına hələm-hələm adam sağ gəlsəydi, salamat qayıtmazdı. Dəzivar padşah gördü ki, onun otlağına bir at buraxıblar, pəhləvan da yatıbdır. Dəzivar öz divlərindən bir neçəsini göndərdi ki, gedib görsünlər o bəni-adəm kimdi, götürüb gəlsinlər hüzuruna. Divlər tez qalaçadan çıxıb, özlərini yetirdilər Simana.

Siman uzanıb yatmışdı. At gördü ki, divlər gəlir, başladı kişnəməyə. Siman səsə ayılıb gördü ki, divlər gəlir, tez minib atına dayandı. Divlər gəlib çatdılar. Siman çəkib qılıncın bir nərə çəkdi ki, quş göydə qorxusundan qanad saldı. Divlər özlərini itirdi. Siman çəkib qalxanı başına, elə bir qılınc çaldı ki, divin biri yeddi parça oldu. Başladı o biri divlərlə davaya.

Dəzivar qalaçadan baxırdı, gördü ki, bu heç bəni-adəmə oxşamır. Tez qoşun göndərdi. Siman gələn-gələni qırıb, Siman cəhənnəmə vasil eləyib, özünü yetirdi Dəzivarın şəhərinə. Nə ki divlər var idi, qırıb çatdı. Axırda Dəzivar özünü yetirdi meydana. Yeddi dəyiman daşından qayrılmış gürz, əlində gəlib durdu Simanın bərabərində. Siman bir nərə çəkib, gürzü aldı əlinə, üç dəfə göydə fırlatdı. İkinci nərədə gürzü Dəzivar təpəsinə elə endirdi ki, Dəzivar xamır kimi yerə yayıldı. Siman Dəzivarı doğradı. Girib şəhərə, qalan divləri də qırdı, gördü ki, bir kiçik div qalıb. İstədi vurub öldürə, div dedi:

– Məni öldürmə, özünə qulam götür.

Siman razı olub, balaca divi özünə qulam götürdü, adını da Adamzad qoydu. Siman minib atına, Adamzadı da ayrı bir ata mindirib, başladılar şəhərdən çıxmağa. Üz qoydular Şah Dəşküvarın vilayətinə. Bir neçə müddət yol gedib, axırda özlərini yetirdilər Şah Dəşküvarın vilayətinə. Şah Dəşküvara xəbər getdi ki, Siman gəlir, yanında da bir div gətirir. Vəzir bayıra çıxıb gördü ki, amma Qəvvas yoxdu. Vəzirin kürkünə birə düşdü. Bildi ki, Qəvvası Siman öldürübdü. Qorxusundan bir söz demədi. Şah Dəşküvar xəbəri səhih bilib qorxusundan adam göndərdi pişvaz elədilər, Simanı götürüb gəldilər. Şah Dəşküvar üzdən sevinirdi, amma ürəkdə Allah bilir ki, nələr çəkirdi. Siman bir neçə müddət burada qaldı. Bir gün xəbər gəldi ki, Firəng padşahı Şah Dəşküvardan yeddi ilin bac-xəracını istəyir. Ya gərək bac-xəracı verə, ya da gərək davaya hazır ola. Şah Dəşküvar vəziri çağırıb dedi:

– Vəzir tədbir gör! Ya yeddi ilin bac-xəracını verməliyik, ya da dava etməliyik.

Vəzir istəyirdi ki, Simanı aradan yox eləsin, dedi:

– Sənin Siman kimi pəhləvanın var. Göndər Firəng padşahının qabağına, yarım saatın içində qırıb çatsın.

Şah Dəşküvar bu işə razı olub xəbər verdi ki, Simanı çağırsınlar hüzuruna. Adam getdi, Simanı tapdılar, götürüb gəldilər, padşahın hüzuruna. Siman ədəb-salamını yerinə yetirib durdu Şah Dəşküvarın əmrində. Siman müntəzirdi. Şah Dəşküvar dedi:

– Oğul, Firəng padşahı bizdən yeddi ili bac-xəracını istəyir. Ya verməliyik, ya da dava etməliyik. Gəl mən sənə on min qoşun verim, çıx Firəng padşahının qabağına.

Siman razı oldu. Şah Dəşküvar qoşun verdi. Səhər tezdən xəbər gəldi ki, Firəng qoşunu gəlib, şəhərin bir ağachındadı. Siman tez durub, libasını geyinib, yetmiş yeddi yerdən özünü möhkəm bağladı, sonra niqabı çəkib üzünə, qılıncını alıb əlinə, bir nərə çəkib, özünü vurdu dəryayi-ləşkərə. Birinci nərədə başladı at oynatmağa, ikinci nərədə on arşın qılıncını qınından çəkib, üçüncüdə elə bir nərə çəkdi ki, göydə quş qorxusundan qanad saldı. Özünü vurdu ləşkərə. Sağdan vurub, soldan çıxdı, soldan vurub, sağdan çıxdı, başladı qoşunu taxıl kimi biçməyə. Firəng qoşununu qırıb qurtardı. Göz gəzdirib o yan-bu yana gördü ki, qoşunun öləni ölüb, qaçanı qaçıbdı. Amma iki pəhləvan qalıb. Tez pəhləvanın biri ilə başladı cəngə. Qılınc çəkib pəhləvanı cəhənnəmə vasil etdi. Bundan sonra o biri pəhləvan durub gəldi Simanın bərabərinə. İki pəhləvan qılınc çəkdilər, endirdilər bir-birinin təpələrinə. Baxıb gördülər, qılıncdan bir şey çıxmır, qılıncları atıb yerə, əl atdılar gürzə, başladılar bir-birini gürz atmağa. Siman gördü ki, gürzdən də bir şey çıxmadı: atıb gürzü yerə, bir nərə çəkdi ki, daha nə təhər. Şah Dəşküvar da bu dəmdə çıxıb yuxarıda tamaşa edirdi. Simanın nərəsinin zərbəsindən Şah Dəşküvar özünü bir boy atdı, gördü ki, Simanın gözləri qızıb, özünü-sözünü bilmir. Siman əl atıb pəhləvanın bel kəmərinə, qalxızıb göyə, bir də nərə çəkib göydə fırlatdı, bir qulacla elə atdı ki, Firəng padşahının pəhləvanı düşdü Şah Dəşküvarın ayağının altına. Şah Dəşküvar gördü ki, Siman Firəng qoşununu qırıb tamam elədi, sevindiyindən aşağı düşüb Simanın adına təbil vurdurdu. Vəzir eşitdi ki, Siman sağ-salamat davadan qayıdıb, başladı yanıb tökülməyə. Siman gəlib əlini-üzünü yudu, təmizlənib, neçə gün, neçə gecə dincəlməyə başladı. Bir gün durub gəldi Şah Dəşküvar yanına, dedi:

– Gəlmişəm sənin yanına bir xahişə.

Şah Dəşküvar dedi:

– Buyur!

Siman dedi:

– Gərək vəzirin qızını verəsən mənim div Adamzadəmə.

Padşah başını aşağı salıb, getdi fikrə. Vəzir də bu yandan yana-yana durub baxırdı. Siman dedi:

– Nə deyirsən? Razı olmasan, yerlə göyü bir eləyərəm.

Şah Dəşküvarın əlacı kəsilib, dedi:

– Razıyam.

Yeddi gün, yeddi gecə toy eləyib, Siman vəzirin qızını zor-güc alıb, verdi Adamzada, özü də Şah Dəşküvara tapşırdı ki, əgər mənim bu div Adamzadəmin başından bir tük əksik olsa, yerlə göyü bir eləyəcəyəm. Bundan sonra atını minib üz qoydu çöllü-biyabana.

Bu gün getməkdə olsun, Şah Dəşküvarla vəzir oturub öz günlərinə ağlayırdılar. Eşit Simandan.

Siman at başı salıb, Simandərələrdən yel kimi, təpələrdən sel kimi, badeyi-sərsər kimi, ayaq üzəngidə, diz qabırğada, özünü yetirdi bir çəmənə. Gördü ki, bir ceyran kolun dibindən üz qoydu qaçmağa. Siman at başı saldı ceyranın dalısıncan. İstədi ha burda, ha orda ceyranı tuta. Gördü ki, ceyranı tuta bilməyəcək, kəmənd atdı. Üçüncü kəmənddə ceyranı tutdu. Siman ceyranı tutub, istədi kəsə başını, ceyran cildindən çıxıb, oldu bir qarı. Siman gördü ki, bu, tilsimmiş. Tez tutub qarının biləngindən, istədi öldürə, qarı başladı yalvarmağa ki, gəl məni öldürmə, mən sənə bir şey verim ki, dünyalara dəyər.

Qarı tez əlini atıb cibindən bir qız şəkli çıxartdı, elə biləsən Allah-taala bu qızı gözəllər içində birinci xəlq eləyibdir. Qaşları qara, kiprikləri ox, dodaqları qaymaq, yanaqlarına elə bil ki, qan çilənibdir. Siman xeylaq qızın şəkillərinə baxıb qarıya dedi:

– Qarı, de görüm bu kimin şəklidir?

Qarı dedi:



– Bu Xan-xani-Çinin qızı Pərdux xanımın şəklidir. Bunun kiçik bacısı da divlər şəhərində əsirdi.

Bunu deyən kimi, qarı yel olub gözdən itdi.

Siman gördü ki, qarı yox oldu. Peşman oldu ki, gərək qarını əldən buraxmayaydım. Amma el deyər ki, "daldan atılan daş topuğa dəyər". Siman ata minib başladı divlər şəhərinə getməyə. Az gedib, çox dayandı, çox gedib, az dayandı, gəlib çatdı bir düzəngaha. Gördü ki, burada bir quyu var, ağzında da bir çöl xoruzu oturub. İstədi çöl xoruzunu tuta, bu dəmdə Simanın qulağına bir səs gəldi. Siman tez dala dönüb gördü ki, bir ağacdı, quyudan neçə addım uzaqda. Amma bu ağacın qollarına haça vurulub, qoca yaşlı bir kişi xeylağı oturubdu onun ortasında. Siman tez özünü yetirib xəbər aldı ki:

– Burda neynirsən?

Qoca dedi:

– Mənim qardaşım tilsimdədi.

Siman dedi:

– Hansı tilsimdədi? Sənin qardaşın kimdi?

Qoca dedi:

– Bu çöl xoruzunu görürsən? Bu bir qarıdı ki, hər bir heyvanat cildinə girir. Bir gün ceyran cildinə girib, çıxıb qardaşımın qabağına. Qardaşım bu qarını ceyran bilib istəyir ki, tuta, amma qarı qardaşımı salır tilsimə. İndi neçə ildi ki, mənim qardaşım tilsimdədi, mən də avara-sərgərdan gəzirəm. Amma bir abiddən eşitmişəm ki, Siman adında bir pəhləvan olacaq, neçə zalım padşahları öldürüb, bu tilsimləri də qıracaq. Odur ki, gəlib oturmuşam burada, gözləyirəm Simanın yolunu.

Siman özünü kişiyə tanış verdi, kişi durub ayağa, istədi Simanın ayağından öpə, Siman kişinin adını xəbər aldı bildi ki, Məlikdi.

Dedi:

– İndi ki, mənə pənah gətiribsən, razıyam gəl gedək! Mən gedirəm Xan-xani-Çinin vilayətinə.

Məlik razı olub, qoşuldu Simana, başladılar yol getməyə. Siman atın minib, Məlik aldı tərkinə, yol elədi günçıxan tərəfə. Az gedib, çox dayandılar, çox gedib, az dayandılar, axırda gəlib çatdılar bir şəhərə. Siman atdan düşüb, atın çəkdi karvansaraya, özləri də gedib girdilər aşpazxanaya.

Siman bir qoyun alıb bişirtdi. Məliklə yeyib gecəni qaldılar orada. Səhər Siman durub Məliklə bir at tapdı. Hər ikisi ata minib düşdülər yola. Bəli, belə deyirlər: dərələrdən yel kimi, badeyi-sərsər kimi, əlində tazıyana, baxır o yan bu yana, belində qılıncı, əlində gürzü, ayaq üzəngidə, diz qabırğada, düz bir il sərasər yol gedib axırda çatdılar bir dağın döşünə. Siman gördü ki, qabağına iki yol çıxdı. Yolun sağını qoyub, üz qoydular soluna. On gün, on gecə yol getdilər. Siman bərk yorulmuşdu, çatıb bir bulaq başına, düşüb atından, atların sulayıb, əl-üzlərini yudular, oturub çörək yedilər, günü batırıb, gecəni növbə ilə yatıb, səhər tezdən durub, minib atlarına, üz qoydular getməyə. Az gedib, çox dayandılar, çox gedib, az dayandılar, gəlib çatdılar bir şəhərə. Siman xəbər aldı:

– Bu kimin şəhəridi?

Məlik dedi:

– Bu şəhər o gördüyün qarının ortancıl oğlunun şəhəridir. Adına da Şah Div Firuz deyirlər.

Siman dedi:

– Gərək gedəm görəm Div Firuz necə padşahdı ki, bütün padşahlar ondan qorxur.

Məlik çox dil-ağız elədi ki, gəl getmə; Siman dedi: yox, gərək gedəm. Siman at salıb qabağa, Məlik də onun dalısınca gəlib çatdılar şəhərin darvazasına. Elə ki, çatdı, Siman elə bir nərə çəkdi ki, yer göy nərəsinin zərbindən lərzəyə gəldi.



Bu dəmdə Div Firuz kefdə idi. Simanın nərəsini eşidən kimi Div Firuz diksinib, bir boy atıldı. Tez adam göndərdi ki, gedib görsünlər bayırda bu nə səsdi. Divlər gəlib şəhərdən qırağa, gördülər ki, şəhərin darvazasının qabağında iki atlı dayanıb. Özü də atlıların biri qoca, biri cavandı. Gəlib irəli dedilər ki: kimsiz, nəçisiz? Simanın bu sözdən acığı tutub, yapışıb boyunlarının ardında iki divi elə vurdu kəllə-kəlləyə ki, canları elə orada çıxdı. Div Firuz göndərdiyi admların gəlib çıxmadığını görəndə iki div də göndərdi ki, xəbər gətirsinlər. Siman dayanmışdı, gördü ki, iki dənə də div gəlir. Divlər gəlib çatdılar Simana, Siman bu divləri də cəhənnəmə vasil elədi. Div Firuz bir qədər gözlədi, gördü ki, bu divlərdən də bir xəbər çıxmadı. Axırda özü çıxıb qalaçaya, alıb durbinin əlinə, qaçadan durdu baxmağa. Gördü ki, göndərdiyi divlərin canı yerdədi. Amma darvazanın qabağında bir pəhləvan dayanıb ki, şücaətdə tayı yoxdu. Div Firuz nə ki, divlər vardı, yığıb göndərdi Simanın qabağına. Siman gördü ki, qoşunun qabağı açıldı. Tez bir nərə çəkdi ki, əl atdı on arşın qılıncına, özünü vurdu dəryayi-ləşkərə. Başladı bu divləri taxıl kimi biçməyə. Div Firuza xəbər gətirdilər ki, nə ki qoşunu var Siman qırıb-çatdı. Bu xəbəri Div Firuz eşidən kimi özünü itirdi, uşaq kimi ağlamağa başladı. Bu tərəfdən də Siman Firuzun qoşunlarını qırıb qurtarmışdı. Gördü ki, Div Firuz gəlmir. Div Firuz, istədi girə şəhərə. Xəbər getdi Div Firuza ki, Siman girib şəhərin içinə. Div Firuz dava paltarını getdi, başdan geyinib ayaqdan qıfıllandı, ayaqdan geyinib başdan qıfıllandı, gürzü alıb əlinə, çıxdı şəhərdən qırağa. Siman da Firuzu gözləyirdi. Gördü ki, gələn Div Firuz özüdü. Əl atıb qılınca, başladılar davaya. İki gün, iki gecə dava eləyib, elə ki, qılıncdan, gürzdən çıxdılar, başladılar kəmər yapışmağa. Siman yapışırdı Div Firuzun kəmərindən, istəyirdi qaldırıb

göyə çırpsın yerə, gücü çatmırdı. Siman gücünü verirdi yerə, Div Firuz əl atırdı Simanın kəmərinə başlayırdı dartmağa. Beləliklə, bunlar düz üç gün vuruşdular. Nəhayət, Siman özünü irəli verib, yapışdı Div Firuzun kəmərindən, sol dizini verdi yerə, sağ əli ilə Div Firuzu qalxızıb göyə, elə vurdu yerə ki, cəmdəyi yetmiş yeddi tikə olub, səpələndi çölün düzünə. Siman durub ayağa, əl-üzünü yuyub Məliki götürüb, özü ilə bərabər girdi qalaçaya. Başladı qalaçadakı otlaqları bir-bir gəzməyə. Gördü ki, iki bağlı otaq var. Açıb otaqların birini, o yana, bu yana baxıb, gördü ki, burada bir qız var, gəl görəsən... Qız Simanı görən kimi aşiq olub, dedi:

– Heyif cavan səndən, gəlib çıxıbsan buraya. Div Firuz xəbər tutsa səni öldürər. Tez ol qaç burdan!

Siman iki barmağını qatlayıb, üç barmağı ilə qızın ağzına iki sillə vurdu, qızın ağzı doldu qanla, dedi:

– Div Firuz çoxdan cəhənnəmə vasil olub, nə səfeh-səfeh danışırsan? De görüm sən kimsən, burda neyləyirsən?

Qız dedi:

– Mən Xan-xani-Çinin kiçik qızıyam. Bir ildi ki, divlər gətirib məni salıblar bura. Atam bilsə ki, sən Div Firuzu öldürübsən məni verər sənə.

Siman yapışıb, qızın qolundan çıxartdı şəhərdən kənara, dedi:

– Azadsan, gedə bilərsən atanın yanına.

Qız dedi:

– Sən dayan burada, mən gedim atama xəbər verim ki, bir pəhləvan gəlib Div Firuz öldürüb, məni azad etdi. Atam sənin qabağına qoşun çıxartsın.

Siman dedi:

– Lazım deyil. Get deyirəm sənə, get!



Qız qulaq asmayıb, tez özünü yetirdi atasının torpağına. Eşit Simandan! Siman üz qoydu Xan-xani-Çinin şəhərinə tərəf getməyə. Gəlib şəhərə çatmışdı, amma bu tərəfdən də şəhərdə bir qəza üz vermişdi. Xan-xani-Çinin dargasını öldürmüşdülər. Xan-xani-Çin də darganı öldürənləri tutdurub əmr vermişdi ki, dar ağacından assınlar. Darçı dəmbədəm idi ki, həmin adamları tutub çəkə dara, Siman özünü yetirib gördü ki, dar ağacı qurulub. Xəbər aldı camaatdan ki:

– Burda nə olub?

Camaat Simanı başa saldı. Siman düşdü atdan, adamları darçının əlindən alıb azad elədi. Darçı çox atlanıb düşdü. Simanın acığı tutub bunların yerinə darçını çəkdi dara.

Xan-xani-Çin istədi qoşun göndərə, bu vaxt Xan-xani-Çinin kiçik qızı özünü yetirdi. Xan-xani-Çin qızını görən kimi sevindi xəbər aldı ki:

– Səni kim qurtardı?

Qız dedi:

– Odu, Siman adında bir pəhləvan gəlib şəhərdədir. Div Firuzu öldürüb məni azad elədi.

Xan-xani-Çin gördü ki, əgər qoşun göndərsə, Siman qırıb çatacaq. Həm də Div Firuz Xan-xani-Çinə korluq vermişdi. Odur ki, bəxatir danışmadı, qoşun göndərməyib, özü durub çıxdı Simanın qabağına.

Siman Məlikdən xəbər aldı ki:

– Bu kimdi?

Məlik dedi:

– Xan-xani-Çindi, gəlir.

Xan-xani-Çin gəlib yetişdi Simanın müqabilinə, dedi:

– İndi ki, qızımı Div Firuzun pəncəsindən qurtarmısan, qızım da sənin, gəl gedək bizə!

Siman Məliki verdi qabağa, Xan-xani-Çinin dalısınca getdilər.

Xan-xani-Çin onları qəbul elədi. Eşit Xan-xani-Çinin kiçik qızından. Xan-xani-Çinin kiçik qızı gedib böyük bacısı ilə görüşdü. Böyük bacı kiçik bacıdan xəbər aldı ki:

– Necə oldu divin əlindən qurtardın?

Kiçik bacı başına gələni danışıb, axırda dedi:

– Məni Siman pəhləvan qurtardı.

Qız o qədər Simanı tərif elədi ki, Xan-xani-Çinin böyük qızı Pəridux xanım görməmiş Simana aşiq oldu. Siman bu qalmaqla bir neçə gün burada qaldı. Eşit Xan-xani-Çindən. Xan-xani-Çin Div Firuzun qorxusundan neçə illər olardı ki, şəhərdən bayıra çıxmırdı. Bir gün vəziri çağırtdırıb dedi ki:

– Vəzir, neçə ildir ki, mən Div Firuzun qorxusundan heç səyahətə çıxmamışam. İstəyirəm ki, Simanı da götürüb, iyirmi günün səyahətinə gedəm, qoşun hazırla!

Vəzir baş əyib Xan-xani-Çindən ayrıldı. Qoşun hazırladı. Tədarük görülüb, şeypur çalındı. Xan-xani-Çin Simanə çağırtdırdı, Siman gəldi hüzuruna. Simana dedi:

– At min, mənimlə şikara gedirik.

Siman dedi:

– Qoy səninlə mənim əmim getsin, mən qoşunla getməyə adət eləməmişəm.

Xan-xani-Çin razı olub, Məliki alıb yanına, at minib, düşdülər qoşunun qabağına. Təbil vurulub şəhərdən çıxdılar kənara. Siman da atı minib, qoşun da bir az dalda gedirdi.

Qoşun dərə-təpələri keçib, çıxdı bir yola. Xan-xani-Çinin qabağında pəhləvanlar at oynadırdılar, qılınc oynadırdılar, gürz fırladırdılar, ta gəlib çatdılar bir çayın kənarına. Başladılar çayı başı yuxarı getməyə, ta bir müddət yol gedib çatdılar bir meşənin kənarına. İstədilər ki, meşə ağzında çadır



qursunlar. Bu dəmdə qəflətən bir əjdaha Xan-xani-Çinin qabağına çıxıb, ağzını mağara kimi açdı; istədi Xan-xani-Çinlə Məliki uda. Xan-xani-Çin haray elədi, qoşunu köməyə çağırdı. Amma qoşun qorxusundan yaxın durmayıb başladı qaçmağa. Siman gördü ki, qoşun qaçır, Məlik də bu saat əjdaha yeyəcək. Tez özünü yetirdi əjdahaya. Durub əjdahanın bərabərində, çəkib qılıncı ta bayaq əjdahanı iki bölüb cəhənnəmə vasil elədi. Bunu görən Xan-xani-Çin çox sevindi, amma yan yörəsinə diqqət edib, on min qoşundan, bircə Simandan başqa, heç bir əsər görmədi. Əmr verdi ki, on min qoşunun gözünü çıxartsınlar. Siman bu sözü eşidən kimi, gəlib Xan-xani-Çinin bərabərinə, qoymadı ki, on min qoşun gözsüz qalsın. Bunu eşidən qoşun əhli Simandan çox razı qaldı. Təbil vuruldu Simanın adına. Təbil saxlanılıb başladılar çadır qurmağa. Çadır qurulub qurtardıqdan sonra o günü səhərdə axşamacan keyf çəkib, gecəni yatdılar. Səhər açıldı. Xan-xani-Çin yuxudan oyanıb, Məliklə meşəni bir qədər gəzib-dolandı. Qayıdıb gəlib gördü ki, Siman yoxdu. Xəbər aldı:

– Siman hanı?

Simandan soraq verən olmamışdı. Sənə xəbər verim kimdən, xəbər verim sənə Simandan. Siman ata minib üz qoydu şəhərə tərəf.

Siman yolla gəlirdi. Az gedib çox dayandı, çox gedib az dayandı, gedib çatdı bir dərəyə. Bu dəmdə Simanın qabağına bir dovşan çıxdı.

Siman dovşanı görən kimi, atını sürdü dovşanı tuta. Dovşan başladı qaçmağa. Tez əlini atıb kəməndə bir neçə kəmənd atdı, kəməndi boşa çıxdı. Dovşan qabaqda, Siman dalda güllə kimi gedirdilər. Dovşan özünü saldı Xan-xani-Çinin nar bağına. Siman bağın içində başladı atın sürməyə. Nə ki, Xan-xani-Çinin gülləri, çiçəkləri vardı, atın ayağının

altında qoyub tələf elədi. Amma dovşan toz olub gözdən itdi. Siman çox axtardı, dovşanı tapa bilmədi, axırda yorulub əl çəkdi dovşandan, gəlib bir böyük çarhovuzun yanında atın açıb, yancidar elədi, qabağına qaysı, kişmiş töküb, çıxdı çarhovuz üstünə. Əl-üzünü yuyub bir qədər sərinləşib, qalxanını yastıq eləyib qoydu başının altına, uzanıb yatmaqda olsun, xəbər verim sənə kimdən, xəbər verim sənə Xan-xani-Çinin böyük qızı Pəridux xanımdan.

Pəridux xanımı çox padşahlar istəyirdi. Amma Xan-xani-Çin Pəridux xanımı verməyirdi. Pəridux xanım öz kiçik bacısından Simanın bir neçə nişanələrini öyrənmişdi. Görməmiş Simana aşiq olub, hər gün intizarla onun sorağında gəzirdi. Pəridux xanım evdən bayıra çıxıb, özünü yetirdi nar bağına. Gəzirdi, gördü ki, bağın içində at ləpiri var. Atın ləpirinin izini tutub, birbaşa gəlib çıxdı çarhovuzun qırağına, gördü ki, burada bir oğlan yatıb ki, şücaətdə, gözəllikdə, qəddi qamətdə tayı heç bir yerdə yoxdur. Tez kiçik bacısının dediyi nişanələri gözünün qabağına gətirib, öz-özünə dedi: olsa-olsa Siman bu olacaq. Pəridux xanım təzədən aşiq olub, məhəbbəti ürəyində neçə qat artdı. Oturub Simanın başı üstündə. əl atdı qalxanını götürdü, dizini yastıq eyləyb qoydu başının altına, başladı üzünü yelləməyə. Siman yatmışdı, gördü ki. başı çox yumşaq yerdədir, üzünə də elə sərin ətirli yel dəyir ki, elə bil behiştdədi. Açıb gözlərini gördü ki, başı üstə bir qız var ki, Misiri, Rumu axtarsan, belə gözəl qız tapmazsan.

Siman qızdan xəbər aldı ki:

– Kimsən?

Pəridux xanım dedi:

– Xan-xani-Çinin qızı Pəridux xanımam. Sən kimsən? Siman özünü tanış verdi, sonra əlini atıb qoltuq cibinə, şəkli götürüb bir şəklə baxdı, bir qıza, gördü ki, qarı deyən qızdır.



Oturub başladılar söhbətə. Pəriduxun ürəyində o qədər Simanın məhəbbəti vardı ki, istədi iki busə verə Simana. Siman busələri almadı. Axırda Pəridux başladı ağlamağa. Siman gördü ki, Pəriduxun gözləri yaşla dolub, yaş damlası al yanağının üstündə almaz kimi parlayır. Siman özünü saxlaya bilməyib, başladı Pəriduxa ürək verməyə, sonra da ondan iki busə aldı. Hər ikisi əl-ələ, qol-qola verib, çarhovuzun üstündən düşüb gəldilər nar ağacının altına. Uzanıb yatmaqda olsunlar, eşit Xan-xani-Çindən.

Xan-xani-Çin Simandan çox nigaran qalıb, əmr verdi ki, çadırlar yığılsın, qatırlar yüklənsin. Gedib qoşun əhli çadırları yığıb yüklədilər qatırlara, Xan-xani-Çinlə Məlik düşdü qabağa, atların başını qaytarıb birbaş gəlib çıxdılar nar bağına. Xan-xani-Çin çox yorulmuşdu, öz-özlüyündə dedi ki, gedib bir az nar bağında meyvə yeyim. Qoşunları bayırda saxlayıb Xan-xani-Çin bir az meyvə yeyib, baxıb gördü ki, bağda at ləpirləri var. Tutub at ləpirini çıxdı birbaş həmin nar ağacının altına. Gördü ki, qızı Pəriduxla Siman qucaqlaşıb yatıblar. Xan-xani-Çinin ovqatı təlx olub, tez qayıtdı dala. Əmr verdi ki, qoşun getsin şəhərə. Qoşun yola düşdü, özü də atı minib gəlib çıxdı taxtına, vəziri çağırtdırdı. Vəzir gəldi, baş əyib Xan-xani-Çinə, dayandı əmrində. Xan-xani-Çin dedi:

– Vəzir, bundan qabaq qorxum Div Firuzdandı. Siman pəhləvan güc göstərib Div Firuzu öldürdü. Amma indi qorxum Siman pəhləvandandı.

Vəzir xəbər aldı:

– Nə olub? Niyə ovqatın belə təlxdi? Niyə belə qorxursan?

Xan-xani-Çin nar bağının hekayətini vəzirə danışdı. Amma vəzirin dilindən bir kağız aldı ki, bu sirri heç kəsə deməsin. Vəzirdən məsləhət istədi. Vəzir belə bir məsləhət gördü ki, qonaqlıq çağırıb, həmin qonaqlığa Simanı da çağır-

sınlar. Şərab məclisi qurulub, şərab içində bihuşdarı verib Simanı bihuş edəndən sonra, öldürsünlər. Xan-xani-Çin vəzirin bu hiyləsindın razı olub dedi:

– Əgər bu iş baş tutsa, qızım Pəriduxu sənin kiçik oğluna verəcəyəm.

Xan-xani-Çin ertəsi gün qonaqlıq çağırtdırıb, günortaya xörək bişirtdirib, Simanı da həmin məclisə qonaq çağırdı. Məclis başlamışdı keyfə, şərabın içinə bihuşdarı töküb içirtdilər Simana. Siman bihuş olub bir yana yıxıldı.

Vəzir Simanın əl-qolunu bağlayıb, atdı otağın birinə ki, səhər tezdən öldürüb meyidini atsınlar çaya. O biri tərəfdən Simanın əmiliyi Məlikin əl-qolunu bağlayıb atdılar çaya.

Siman da o biri otaqda qalmışdı. Bihuş idi, özündə xəbəri yox idi.

Eşit Simurqdan! Simurq Firuzun qorxusundan bu tərəflərə gələ biməzdi. Eşitmişdi ki, Div Firuzu Siman öldürübdü, özü də dardadı. Qanad çalıb özünü yetirdi Xan-xani-Çinin torpağına. Gəzib Simanı tapdı, gördü ki, qabağında böyük bir pəncərə var. Vurub qanadı ilə şüşəni sındırıb, saldı özünü içəri, gördü ki, Siman bihuş yıxılıb evin küncünə. Tez Simurq dava-dərman eləyib, Simanı ayıltdı. Siman haçandan-haçana özünə gəlib, gördü ki, Simurq başının üstündə dayanıb. Durub öpdü Simurqun qanadından, xəbər Simurq aldı.

– Nə olub, niyə gəlmisən? Simurq dil açıb Simanı başa saldı, mindirib dalına aparıb qoydu nar bağına.

Dedi:

– Siman, al bu tükü, darlığa düşsən bu tükləri bir birinə çəkərsən, mən harda olsam gəlib harayına çataram. Amma qorxma, sənə qorxu yoxdu.

Siman Pəriduxu tapıb haman saat başladılar keyfə. Xəbər getdi Xan-xani-Çinə ki, bəs Siman ayılıb qaçıb, özü də



nar bağında qızın Pəridux xanımla eyş-işrətdədi. Xan-xani-Çin bu işdən çox qəzəblənib, bir tərəfdən də qorxuya düşüb vəziri çağırtdırdı. Vəzir Xan-xani-Çinin yanına gəldi, ədəb salamını yerinə yetirib, dedi:

– Əmrin nədi?

Xan-xani-Çin dedi:

– Vəzir, tədbir! Yoxsa qız əldən çıxar, özüm də padşahların yanında xəcil olaram.

Vəzir xəbər aldı ki:

– Nə olub?

– Simana bihuşdarı əsər eləməyib. Gecə vaxtı, ayılıb, özünü salıb nar bağına. Pəriduxu tapıb, onunla kefdədi. Vəzir, tədbir tök!

– Ocıbınıx padşahı yer üzündə çox möhkəm padşahdı. Özü də sənin qızını istəyir. Gəl Simanı göndər onunla davaya. Siman Ocıbınıx padşahın torpağından sağ-salamat gəlib çıxa bilməz. Yəqin ki, Ocıbınıx padşah onu öldürəcək. Xan-xani-Çin vəzirin bu məsləhətinə afərin deyib, adam göndərdi ki, Simanı çağırtdırsınlar.

Adam gəlib nar bağında Simana xəbər verdi ki, Xan-xani-Çin səni çağırır.

Siman bunu eşidib, Pərідux xanımdan ayrılıb, durub gəldi Xan-xani-Çinin hüzuruna.

Xan-xani-Çin dedi:

– Siman, Ocıbınıx padşah mənim qızım Pəridux xanımı istəyir, əgər qızımı verməsəm, biznən dava edəcək. Bilmirəm qızı verim, ya dava edim.

Siman gördü ki, Pəridux xanım əldən çıxacaq, razı olub dedi:

– Qoşun ver mənə!

Qoşun alıb Xan-xani-Çindən, üz qoydu Ocıbınıx padşahın torpaqlarına. Siman gəmi ilə gedirdi, amma vəzir quru ilə özünü yetirdi Ocıbınıx padşahının yanına dedi:

– Siman adlı bir pəhləvan peyda olub, Xan-xani-Çindən Pəridux xanımı istəyir. Xan-xani-Çin də verməyib belə cavab verdi ki, guya qızı Ocıbınıx padşahına adaxlıdı. Odur ki, Siman səninlə davaya gəlir, hazır ol!

Ocıbınıx padşahı şəhərin qırağına qoşun qoyub, özü də qalaçadan durbinlə baxırdı, bir də gördü ki, bir gəmi sahilə yanaşdı, gəmidən Siman öz qoşunu ilə düşüb, Siman üz qoydu şəhərə. Ocıbınıx dava şeypurunu çaldırıb, Simana aman verməyib qoşun göndərdi qabağına. Siman gördü ki, qoşunun ardı kəsilməyir. Hər tərəfdən onu alıblar dövrəyə. Qılıncını çəkib bir nərə çəkdi ki, dağ-daş titrəməyə başladı. Ocıbınığın qoşunu qorxudan meydanı qoyub qaçdı. Siman qılıncı çəkib başladı davaya. Vurub özünü dəryayi-ləşkərə, bu tərəfdən girib qıra-qıra o tərəfdən çıxdı.

Ocıbınığa xəbər getdi: evini Allah yıxsın, diş qurdalamağa bir dənə adamın qalmayıb, belə pəhləvandı ki, qabağında qoşun davam eyləyə bilmir. Ocıbınığın qoca pəhləvanı vardı, tez həmin pəhləvanı çağırtdırıb, göndərdi Simanın müqabilinə. Siman pəhləvanla başladı qılınc davasına, bir neçə gün qılınc çalıb gördülər ki, qılıncdan heç bir şey çıxmadı, əl atdılar gürzə, başladılar gürz davasına. Ocıbınıx da qalaçadan durbinlə baxırdı. Siman gürzü atıb yerə, əl atdı qoca pəhləvanın kəmərinə. Başladılar kəmər yapışmağa. Siman nərə çəkib dizin vurdu yerə, yapışdı pəhləvanın kəmərindən, başladı xış kimi yerlə sürüməyə. Pəhləvan yapışdı Simanın kəmərindən istədi yerindən tərpətsin, gücü çatmadı. Hər iki pəhləvan yorulub dayandılar.

Siman yorğunluğunu alandan sonra, başladılar əl-ələ verib meydanı gəzməyə. Siman bir nərə çəkdi ki, qoca pəhləvan yetmiş yeddi parça olub, səpələndi yerə. Ocıbınıx bunu görüb kürkünə birə düşdü. Siman tez minib atına, üz qoydu Ocıbınığın yanına. Gördü ki, Ocıbınıx elə bir hündür adamdı ki, Siman onun heç yarısıycan yoxdu. Başladılar Ocıbınıxla qılınc davasına. Siman peydər-pey üç qılınc endirdi Ocıbınığa. Axırıncı qılıncını da var gücünü yığıb elə zərb ilə vurdu ki, Ocıbınıx cəhənnəmə vasil oldu. Siman Ocıbınığın başını kəsib qoydu xurcuna, girib şəhərə, Xan-xani-Çinin vəzirini burada gördü. Tutub vəziri, başını sərçə başı kimi üzüb qoydu xurcuna, götürüb düşdü yola.

Siman özünü yetirdi Xan-xani-Çinin yanına. Vəzirlə Ocıbınığın başını atdı Xan-xani-Çinin qabağına. Xan-xani-Çinin gözləri çıxdı kəlləsinə. Qorxudan danışmayıb, vəzirlə Ocıbınığın başını gizlicə tullatdırıb, Simana bir otaq verdi ki, orada rahat olsun. Xəbəri sənə kimdən verim, xəbəri sənə verim Xan-xani-Çinin qızı Pəridux xanımdan.

Pəridux çox gözlədi, gördü ki, Siman gəlib çıxmadı, tez öz paltarını dəyişib bir dəst pəhləvan paltarı geyib, çıxdı bayıra ki, Simanı tapıb gətirə. Eşit Simandan, Siman dincəlib çıxmışdı çölə, Xan-xani-Çin də xəbər vermişdi ki, kim Simanın başını kəsib gətirsə ona bir qatır yükü qızıl verəcək. Siman atla gedirdi, gördü ki, qabaqda bir pəhləvan dayanıb. At sürüb tez gəlib çatdı pəhləvana. Pəridux xanım da Simanı görən kimi tanıyıb, qılıncını sıyırdı, uzaqdan bir nərə çəkib şığıdı Simanın üstünə. Hər iki pəhləvan əl atdılar qılınca. Elə ki, qılınclar göydə par-par parıldayırdı, atların nalından od çıxırdı, Qılınc davası kara gəlmədi, əl atdılar kəmərə. Üç gün, üç gecə qurşaq yapışıb, üç günü tamam elədilər. Səhər tezdən Siman yenə durub meydanı gəzdi. Qollarına elə bil qüvvət gəldi ki, əl atsaydı Qaf dağına, Qaf dağını yerindən tərpədərdi. Əl atıb Pəridux xanımın kəmərinə, qaldırıb göyə, istədi vura yerə, Pəridux xanım dedi:

– Siman amanın günüdü, əl saxla!

Bu səs Simana tanış gəldi. Siman Pəridux xanımı yavaşca yerə qoydu. Pəridux xanım üzündən niqabı götürəndə, saçları töküldü topuğuna.

Siman gördü ki, onunla üç gün, üç gecə dava edən Pəridux xanımdı, dedi:

– Bu nə işdi?

Pəridux xanım əhvalatdan Simanı xəbərdar elədi, təzədən hər ikisi qucaqlaşıb, öpüşdülər.

Pəridux xanımla Siman at minib, hər ikisi üz qoydular gəlməyə.

Az gəlib çox dayandılar, çox gəlib az dayandılar, gəlib çatdılar bir qalaçaya. Siman çox yorulmuşdu. Qalaçaya girib gördülər ki, burada hər şey var, ipək yorğanından tutmuş düyüyə kimi.

Siman dedi:

– Pəridux xanım, gözləmək vaxtı deyil. Mən yorulmuşam, bir az yatım, sən dur xörək bişir!

Hər ikisi əl-üzlərini yudular. Siman uzandı ki, dincəlsin. Pəridux xanım xörək bişirməyə başladı. Bunlar burada qalsınlar, xəbəri kimdən verim, Dəşküvar padşahdan. Şah Dəşküvar Simanı çox gözlədi, gördü ki, Siman gəlib çıxmadı. Vəzirin qızını da Adamzaddan alıb, şəhərdən qovdu. Adamzad şəhərdən çıxıb, başladı Simanı axtarmağa. Neçə gün, neçə gecə yol gəlib, axırda çatdı uca bir qalaçaya. Gördü ki, bu qalaçadan tüstü çıxır. Girdi içəri, gördü ki, Siman burdadı.

Siman gördü ki, gələn div Adamzaddı. Tez çağırıb içəri xəbər aldı:

– Niyə gəlmisən?

Div Adamzad dedi:

– Şah Dəşküvar məni qovub. Adaxlımı da əlimdən alıb.



Siman dedi:

– Qorxma, bir neçə gündən sonra, öz adaxlını sənə yetirərəm. Amma yaxşı oldu ki, sən gəlib özünü mənə yetirdin. İndi bir az qarovul çək, mən da bir neçə gecədi ki, yatmamışam, bir az yatım.

Qərəz, Pəridux xanım xörəyi hazır elədi, hər üçü oturub xörəklərini yedilər. Div Adamzad qarovul çəkdi. Simanla Pəridux xanım qol-boyun olub yatdılar.

Eşit Xan-xani-Çindən. Xan-xani-Çin gördü ki, arxasız qalıb, çarəsi kəsilib istədi ki, Pəridux xanımı verə öz qardaşı oğluna. Bu tərəfdən də xəbər gəlib çatdı ki, Siman Pəridux xanımı götürüb qaçıb. Xan-xani-Çin qəzəblənib bir kağız yazdı qardaşı oğluna ki, adaxlını Siman götürüb qaçıb, gəl köməyə! Xan-xani-Çinin öz oğluna güclü qoşun verib göndərdi. Xan-xani-Çini də öz qoşununu qatıb qardaşının qoşununa, göndərdi Simanın dalısınca.

Bunlar qalaçaya tərəf gəlməkdə olsun, div Adamzad baxırdı. Gördü ki, böyük bir qoşun dəstəsi peyda oldu. Div Adamzad tez gəlib Simana xəbər verdi ki, düşmən qoşunu gəlir. Siman durub gördü ki, Xan-xani-Çinin qoşunudu. Pəriduxa xəbər elədi. Başladı geyinməyə, yetmiş yeddi yerdən üst-başın bərkidib geyindi, qılıncın belinə bağladı. Qalxanını əlinə aldı, bir vaxt gördü ki, Pəridux xanım Simandan qabaq geyinib hazır oldu. Hər iki pəhləvan çıxıb qoşunun qabağına, pəhləvan nərə çəkib, özlərini vurdular davayi-ləşkərə. Qırhaqır... başladılar qırmağa.

Qan su yerinə axmağa başladı. Cəmdək cəmdəyə söykəndi, dağ əmələ gəldi. Qoşun davam gətirə bilmədi. Qoşunun qaçanı qaçdı, qaçmayanı tələf oldu. Pəridux Simandan qabaq öz əmisi oğlunu öldürdü, üz qoydular Xan-xani-Çinin torpağına.

Siman gəlib çatdı Xan-xani-Çinə. Çəkib qılıncını Xan-xani-Çini öldürüb cəhənnəmə vasil etdi. Alt-alt, üst-üst qoyub düzəldilər Şah Dəşküvarın torpağına. Az gedib çox dayandılar, çox gedib az dayandılar, gəlib çatdılar bir çöllü-bərri-biyabana. Siman bərk yorulmuşdu. Div Adamzadı göndərdi suya. Amma eşit ceyran cildinə girən qarıdan. Qarı Simanın sorağında idi ki, tutub salsın tilsimə. Eşitdi ki, gəlir, hər tərəfdən suları qurudub, tilsimdən bir ovdan düzəltdi. Siman gördü ki, div Adamzad gedib gəlmədi. Bir o yana Adamzad, bir bu yana baxıb gördü ki, lap yanlarında bir ovdan var. Pəridux xanıma dedi:

– Sən burada dayan, mən gedim ovdandan su götürüm.

Siman durub getdi ovdana ki, su götürə, düşüb qaldı tilsimdə. Pəridux xanım gözətdədi, Siman gəlib çıxmadı. Bu tərəfdən də Adamzad gəlib çıxdı, xəbər aldı:

– Niyə ağlayırsan?

Pəridux dedi:

– Siman girdi bu ovdana çıxmadı.

Div Adamzad baxıb ovdana gördü ki, tilsimdi. Yaxın getmədi. Pəridux xanıma dedi:

– Siman düşüb tilsimə. Gəl, mən səni götürüm aparım Şah Dəşküvarın torpağına. Sən orada qal, mən də Simurqu tapım.

Pəridux razı oldu. Div Adamzad Pəriduxu mindirib dalına, qaldırdı göyə, apardı Şah Dəşküvarın torpağına. Şəhərin bir ağaclığında bir qalaça vardı, div Adamzad buranı silib, süpürüb, Pəridux xanımı qoydu orada, özü də getdi Şah Dəşküvarın imarətinə. Xalçadan, ipək yorğan-döşəkdən oğurlayıb, götürüb gəldi. Pəridux xanımın yerini düzəldib, yeməyini qoyub, qapıları bağlayıb, birbaş getdi Simurqun dalınca, gəzib Simurqu tapıb, dedi:

– Siman tilsimdədi, nə durmusan?

Simurq dedi:



– Min dalıma!

Div Adamzadı Simurq mindirdi dalına, götürüb gəldi cinlər şəhərinə. Düşüb yerə dedi:

– Gedərsən o qalaçaya. Cinlər padşahının taxtının altında bir sandıq var, o sandığı götürüb gələrsən bura.

Div Adamzad Simurqa baş əyib özünü yetirdi cinlər taxtına. Taxtı söküb sandığı götürüb gəldi. Simurq sandığı açıb, qılıncı götürüb, gəldi birbaş ovdanın ağzına. İki ağız Siman çağırıb, üçüncü ağızda qalxdı göyə. Qılıncı tutub dedi:

– Siman, əgər qılıncı göydə tuta bildin, tutubsan, elə ki, tutdun qabağını, nə gəldi qır! Ta ki, tilsim qırılıb qurtardı susayacaqsan, məbadə su içəsən.

Bunu deyib qılıncı atdı. Siman qılıncı göydə tutdu, başladı tilsimləri qırmağa. Birinci qapıda içəri girib gördü ki, bura elə meşədi ki, içəri girmək mümkün deyil. Çəkib qılıncı qırıb, gördü ki, oldu çöllü-bərri-biyaban. Amma qabağına bir qapı çıxdı. Çəkib qılıncını, qapının qıfılına elə bir qılınc vurdu ki, qapı iki bölünüb, laybalay açıldı. Siman içəri girib gördü bir bağdı ki, Xan-xani-Çinin bağı bunun yanında heç nədi. Siman bir neçə qədəm irəli gedəndə, qabağına bir arvad çıxdı, "oğlum" – deyib istədi Simanı qucaqlaya. Siman tez qılıncı siyirib, istədi endirə arvadın təpəsindən, arvad toz olub gözdən itdi. Simurqun səsi gəldi:

– Siman, irəli get! Qabağına bir qapı çıxar. Qapıya iki qılınc çək! Elə ki, açıldı, qabağına on iki əncir ağacı çıxacaq. Əncir ağacının birini vurub, o birilərinin altından elə keç ki, yarpaqlar sənə dəyməsin. Elə ki, çıxdın ağacı qılıncla vur, tilsim qırılsın.

Siman bu sözləri yadında saxladı. Gəlib qapının bərabərinə, çəkdi qılıncı qapıya, qapı laybalay açıldı, gördü o qədər əncir ağacı var ki, saysız hesabsız. Çəkib qılıncı, ağacın birini vurub yıxdı. Ağac yıxılan kimi, toz olub qalxdı havaya. Keçib

əncir ağaclarının altından, axırıncı ağaca elə bir qılınc vurdu ki, ağac yerindən oynadı. Göy, yer titrədi. Amma eşit qarıdan. qarı çəkilmişdi tənurə. Görüb Simanı dedi:

– Ey anası matəmində oturan, gör sənə neyləyəcəyəm.

Siman qulaq asmadı, başladı yol getməyə. Siman getməyində olsun eşit qarıdan. Qarı bir uzun ilan olub, qaralıb uzandı yolda, Siman yola baxıb gördü yolda bir gürzə ilan var. Siman çəkib qılıncı başladı ilanı doğramağa, çatıb başına, istədi əzə, qarı tez yuva tapıb girdi, gözdən itdi. Siman başladı getməyə, qarı bir siçan olub istədi dolaşa Simanın ayağına. Siman çəkdi qılıncı, atdı, qılınc dəydi siçanın quyruğuna, siçan qaçdı. Qarı bu dəfə bütün suları qurudub, əlinə bir cam alıb durdu yolun ağzında. Simana bərk susuzluq üz verib, ələtəş olmuşdu. Gəlib çatdı bir bulağa. Gördü ki, bulaqda su yoxdu. Qarı da bir tərəfdən gəlib dedi:

– Ey oğlan, görürəm bərk susuzsan, al iç!

Siman çəkib qılıncı, qatdı qarını qabağına. Ha orda, ha burda qarını tuta bilmədi, axırda kəmənd atdı, kəmənd düşdü qarının boynuna. Siman kəməndi dartıb, endirdi qılıncı qarının təpəsindən, onu cəhənnəmə vasil elədi. Siman qarını cəhənnəmə vasil eləyəndən sonra gördü ki, bulaqların gözü açıldı. Tez verib özünü bulaq başına, əlin-üzün yudu. Neçə vaxt idi ki, gözünə yuxu getmirdi, uzanıb dincini almaqda olsun. eşit Simurqdan. Simurq göydən gördü ki, Siman bulaq başında yatıb. Tez endi aşağı, qanadın saldı Simanın üstünə, başladı qarovulunu çəkməyə.

Siman bu yatmaqla iki gün yatdı, ayılıb gördü ki, Simurq başının üstündə dayanıb. Tez durub Simurqun qanadından öpdü.

Simurq dedi:

– Siman, Pəridux xanım yolunu gözləyir. Min dalıma, aparım səni.



Siman mindi Simurqun dalına, Simurq qalxıb göyə, Simanı götürüb çıxartdı çobanın yanına. Siman anası ilə görüşürdü. Simurq dedi:

– Siman, bu sənin doğma anandı. Sənin atan da Dəşküvarın bağbanıdır ki rəhmətə getdi.

Simurq necə vardı, hamısını danışdı Simana. Siman Simurqun qanadından öpüb öz atını istədi. Simurq atın tükünü çəkdi bir-birinə, o saat Simanın atı gəlib hazır oldu.

Siman paltarını geyinməyə başladı, yetmiş yeddi qələm ziynət verib özünə, mindi ağ atın belinə, başladı sürməyə. Siman üz qoydu Şah Dəşküvarın şəhərinə tərəf.

Eşit Şah Dəşküvardan. Şah Dəşküvar rəml atırdı, rəmlinə çıxdı ki, Siman çox bərk darlıqdadı. Bu tərəfdən də şah Pəridux xanımı almaq istəyirdi. Div Adamzad da kəsib qalaçanın qapısını, gecə-gündüz qarovulda idi.

Siman da bu tərəfdən özünü yetirdi şəhərə. Div Adamzad Simanı görən kimi, tez gedib Pəridux xanıma muşduluğa, gözaydınlığı verdi, özü də çıxdı Simanın qabağına. Pəridux neçə vaxtdı qara geyinib oturmuşdu, gördü ki, Siman gəlir, qaranı soyunub tez gəlin paltarını geyib, özünə ziynət verib, çıxdı Simanın qabağına. İki aşiq görüşüb, öpüşdülər. Pəridux istədi çəkə Simanı mənzilinə, Siman dedi:

– Şah Dəşküvarla işim var.

Div Adamzadı Pəridux xanımın yanında qoyub, girdi şəhərə.

Bir ucdan Şah Dəşküvarın adamlarını qırıb çatdı. Çatıb vəzirə, vəziri cəhənnəmə vasil elədi, özünü yetirdi Şah Dəşküvara.

Şah Dəşküvar gördü ki, Siman gəlir, deşik axtardı girə. Siman aman verməyib, Şah Dəşküvarı öldürüb, malın camaata paylayıb, şəhərdən çıxdı. Gəlib özünü yetirdi Pəridux xanı-

ma. Div Adamzadın adaxlısını özünə verib, yol elədilər anasının yanına.

Ev tikdirib imarət saldırdılar, yeddi gün, yeddi gecə toy vurub, murad hasil elədilər.

## Ceyranın nağılı

Biri var idi, biri yox idi, günlərin bir günündə Hindistanda bir padşah var idi. Bu, çox zalım padşah idi. Özü də böyük tilsimkar idi. Dünyada padşah yox idi ki, bu Hind padşahından inciməyə.

Bu padşahın Zərğova adlı bir gözəl qızı var idi. Belə ki, bu qız üçün hər tərəfdən elçi gəlib istəyirdilər, amma padşah qızı heç kimə vermirdi.

Sənə xəbər verim Rum padşahının oğlundan.

Rum padşahının oğlu Zərğova xanımın eşqindən dəli – divanə olmuşdu. Ancaq neçə kərə elçi göndərmişdisə də, padşah qızı Zərğovanı verməyib elçini qaytarmışdı. Axırda Rum padşahının oğlu qoşun çəkib dava eləmişdi, ancaq dava ilə də Zərğovanı ala bilməmişdi.

Rum padşahının oğlu əlacsız qalıb, atasının var-yoxundan əl çəkib başlamışdı tilsim dərsi oxumağa. Nə ki, tilsim var idi öyrənəndən sonra qayıdıb gəlmişdi Hində, xəbər göndərmişdi Hind padşahına ki, Zərğova xanımı ver mənə! Verməsən, səninlə tilsim davası eləyəcəyəm. Ya gərək sən qalasan dünyada, ya da mən. Elə ki, bu xəbər gəlib çatdı, Hind padşahı gəlib gördü ki, bu çox tilsim dərsi oxuyub, bununla bacara bilməyəcək, çağırıb vəziri dedi:

– Vəzir, tədbir gör mənə! Rum padşahının oğlu Əhməd gəlib. Özü də tilsimin bütün açarlarını bilir. Əgər başlasam davaya gücüm çatmaz.



Vəzir dedi:

– Padşah sağ olsun, gəl bir dəmir sandıq qayır, qonaqlıq çağır, qonaqlığa Rum padşahının oğlu Əhmədi də çağır, ver bihuşdarı ona, sal sandığa, itir getsin.

Padşah vəzirin tədbirinə razı olub, Rum padşahının oğlu Əhmədə xəbər göndərdi ki: "razıyam, özü də bu gecə mənə qonaqdı".

Əhməd razı olub, durub gəldi Hind padşahının evinə qonaq. Bir az danışıb güləndən sonra araya süfrə gəldi. Padşah tez durub getdi aşbazın yanına, Əhmədin xörəyinə bihuşdarı töküb, qayıtdı oturdu yerində.

Xörək araya gəlib bismillah eləyən kimi Əhməd bihuş olub yıxıldı yerə. Hind padşahı o qədər yanırdı Əhmədin əlindən ki, o saat Əhmədi saldı sandığın içinə, üstəlik bir tilsim də oxuyub döndərdi tüstüyə, sandığın ağzını bağlayıb götürdü gəldi imarətinin dalında bir məndəcər var idi, həmin məndəcərin günçıxan əlində bir dərin quyu qazıyıb, sandığı salıb quyuya, quyunu da torpaqlayıb, çıxıb getdi.

Padşah həmin gün bir imarət tikdirib Zərğova xanımı köçürtdü təzə imarətə ki, quş quşluğu ilə qızı görməsin.

Bunlar burda qalsın, sənə xəbər verim Hind vilayətindən.

Hind vilayətindən Rizvan adında kasıb bir kişi olurdu. Bunlar bir ər idi, bir də ki, arvad. Rizvanın əlindən heç bir sənət gəlməzmiş, təkcə odunçuluqdan başqa. Səhər durub oduna gedərmiş, axşam olan kimi qayıdıb evə gələrmiş, az – çox qazandıqlarından yeyib, başlarını bir təhərnən dolandırarlarmış.

Bir gün Rizvan səhər durub oduna gedir. Bir şələ yığıb, götürüb gəlir bazara. Satan macalda padşahın darğası gəlib Rizvanı tutur. Odununu şələ ilə əlindən alıb, özünü də döyüb qovur.

Rizvan bir başına, bir döşünə vurub ağlaya – ağlaya gəlib padşahın elçi daşının üstə oturub gözləyir.

Qədimlərdə hər padşahın özünə görə bir elçi daşı var idi. Kimin nə dərdi olsaydı, gəlib oturardı elçi daşının üstündə, padşah xəbər göndərərdi ki, elçi gəlib. Padşah izn verəndən sonra gəlib elçi daşının üstündə oturanı aparardılar padşahın yanına.

Rizvan da elçi daşının üstündə oturmuşdu. Padşaha xəbər getdi ki, elçi daşının üstündə bir nəfər gəlib oturubdu.

Padşah dedi:

– Gedin, görün nə istəyir?

Gəlib Rizvana dedilər:

– Neyçün oturmusan elçi daşının üstündə? Diləyin nədi?

Rizvan dedi:

– Mən padşahı görmək istəyirəm.

Qayıdıb padşaha xəbər verdilər ki, elçi daşının üstündə oturan səni görmək istəyir.

Padşah dedi ki:

– Gedin çağırın!

Padşahın adamları gəlib Rizvanı götürüb, gəldilər padşahın yanına. Rizvan ədəb salamını verib dayandı.

Padşah xəbər aldı:

– Nəyə gəlmisən? Diləyin nədi?

Rizvan dedi:

– Padşah sağ olsun, bir şələ odunum var idi. Sənin dərğan tutub aldı əlimdən.

Padşah əmr verdi ki:

– Dərğanı çağırın gəlsin!

Dərğanı çağırdılar, gəldi padşahın hüzuruna. Padşah dedi:

– Bu kişinin odununu ver.

Dərğa dedi:

– Padşah sağ olsun, odunu işlətmişəm, pulu nə qədər eləyir, verim.

Rizvan dedi:



– Mən pul istəmirəm, mən öz odunumu istəyirəm.

Padşah Rizvana hər cür odun verdi, pul verdi, Rizvan almayıb dedi:

– Mənə ancaq öz odunum gərəkdi. Verməsəniz çıxıb bazara sizi biabır eləyəcəyəm.

Padşah dedi:

-Rizvan, gəl odunun adını çəkmə! Nə sənət bacarırsan verim sənə, işlə, iki o qədər qazan!

Rizvan bir qədər fikrə getdi. Haçandan – haçana başını qaldırıb, padşahın üzünə baxıb dedi:

-Padşah sağ olsun, bağbanlıq bacararam.

Padşah dedi:

Elə mənə bağban gərəkdi. Eybi yoxdu. İndi ki, ürəyindən bağbanlıq keçir, get mənim imarətimin dalında məndəcər bir yer var, o yeri verdim sənə. Amma günçıxan yerdə bir çökək məndəcər yer var, məbadə o yerə dəyəsən.

Rizvan günü səhərdən başladı bu məndəcəri belləyib bağ salmağa. Nağıllarda ay, il tez başa gələr. Çox çəkmədi, Rizvan burda bir bağ saldı, gəl görəsən... Bağı becərəndən sonra padşaha xəbər göndərdi ki, bağ hazırdı, gəlsin baxsın. Padşah vəziri, vəkili çağırıb cəmləşdilər bir yerə, durub gəldilər Rizvanın bağına tamaşa eləməyə. Padşah bağa girən kimi gördü ki, Rizvan burda bir bağ salıbdı, gəl görəsən. Bura hər cür ağacdan, güldən əkib... Bura olub bir laləzarlıq. Gül bülbülü çağırır, bənövşələr açıb, ağacdakı meyvələr dəyib, elə bil behiştin bir guşəsidi. Padşah Rizvana afərin deyib bağı dolandı, gedən macalda Rizvana bir kisə qızıl verib çıxıb getdi. Padşah bu bağı saldı öz adına.

Padşah çıxıb gedəndən sonra Rizvan bir gün əlinə bel alıb o baş, bu başa gəzirdi, birdən yadına düşdü ki, padşah ona demişdi, gün çıxan yerdə məndəcər bir yer var oranı işləmə.

Rizvan şübhələnib dedi, görəsən burda nə var ki, padşah razılıq vermir. Gərək bu məndəcərliyi qazıyam, görəm burda nə var.

Rizvan alıb əlinə beli, başladı bu məndəcər yeri belləməyə. Belləyən vaxtı gördü ki, yerin altından səs gəlir ki:

– Ey Rizvan, nə üçün məni qoymayırsan rahat yatmağa?

Rizvan bu səsi eşidən kimi qorxuya düşüb qaçdı. Axşama kimi bağa girmədi. Səhər tezdən arvadına dedi:

– Arvad, get bağa, filan məndəcərlikdə bel qoymuşam, onu götür, gəl!

Rizvanın arvadı Nisə durub gəldi bağa, həmin məndəcərlikdəki beli götürüb gəlmək istəyirdi ki, birdən yer altından səs gəldi:

-Ay Nisə qarı, ərin Rizvan niyə gəlmədi?

Belə deyəndə Nisənin ürəyi gedib dəydi yerə.

Rizvan arvadını gözlədi, gördü ki, arvadı gəlib çıxmadı. Durub ayağa çıxdı bağa. Amma qorxusundan məndəcərliyə getməyib, bir az uzaqda dayanıb, ağız dolusu çığırmağa başladı:

– Ay Nisə!.. Ay Nisə!..

Rizvan gördü ki, nə Nisə? Nisə yoxdu. Getdi fikrə. Axırda qeyrətə dolub dedi:

– Cəhənnəmə ki, gedərəm, nə olar, olar.

Rizvan durub, canını dişinə alıb özün yetirdi məndəcərliyə. Gördü ki, arvadı Nisə tirtap uzanıb.

Rizvan yeriyib irəli, Nisəni bir neçə kərə silkələyib ayıltmaq istəyirdi ki, birdən yerin altından yenə də səs gəldi. Rizvan canını dişinə alıb:

– Nə olur – olsun! Gərək bu məndəcərliyi qazıyam, görəm burda nə var.

Rizvan Nisəni ayıldıb, götürüb gəldi evinə, xəbər aldı:

– Arvad, sənə nə oldu ki, ürəyin gedib sərilmişdin yerə?



Nisə başına gələni əri Rizvana danışdı. Rizvan da başına gələni arvadı Nisəyə danışıb dedi:

– Arvad, mən gedirəm məndəcərliyi qazıyam, görəm yerin altında nə var.

Rizvan günü batırıb, beli əlinə alıb bina qoydu məndəcərliyə. Başladı torpağı yumşaldıb qazımağa. Dörd boy qazıyıb beşə çatanda dəmir sandığa rast gəldi. Tez arvadı Nisəni harayına çağırıb zor – gücnən sandığı quyudan çıxardıb, götürüb gəldi evinə, dedi:

– Arvad, qapıları bağla, açaq bu sandığı, görək içində nə var?

Nisə durub, qapı-bacanı bərk-bərk bağlayıb gəldi ərinin yanına. Rizvan bismillah deyib sandığın qapağını açan kimi tüstü evi bürüdü. Haçandan – haçana tüstü gözdən itib gedən kimi Rizvanın qabağında bir dərviş peyda oldu. Dayanıb dedi:

– Ey Rizvan, salamun əleyküm!

Rizvanın qorxudan qarnına sancı düşdü. Tez dərvişə baş əyib dedi:

– Əleyküməssəlam!

Dərviş Rizvana dedi:

– Ya gəl mənə qardaş ol, ya da səni öldürrəm.

Rizvan dedi:

– Məni nə üçün öldürürsən? Qardaş demirsən, olaq da.

Dərviş dedi:

– Rizvan, şərtim var.

Rizvan xəbər aldı:

– Başına dönüm, şərtini de görüm!

Dərviş dedi:

– Birinci şərtim budu ki, mənim sandığa nə üçün girməyimi xəbər almayasan.

Rizvan dedi:

– Baş üstə, almaram.

Dərviş dedi:

– İkinci şərtim odu ki, mən neyləsəm, nə iş görsəm, məndən xəbər almamalısan.

Rizvan dedi:

– O da baş üstə, almaram.

Dərviş dedi:

– Üçüncü şərtim odu ki, sənin arvadını hara göndərdim, başına nə gətirdim, məndən heç bir söz xəbər almayıb deməyəsən ki, filan işi niyə belə gördün?

Burada Rizvan bir az dayanıb fikrə getdi.

Dərviş xəbər aldı:

– Rizvan, nə deyirsən? Razısan ya yox?

Rizvanın çarəsi kəsilib dedi:

– Çox gözəl, razıyam.

Günorta vaxtı dərviş əl atıb, yeri qazıyıb, bir kasa qatıq çıxarıb, Rizvana göstərib xəbər aldı:

– Rizvan bu qatıq ağdı, qara?

Rizvan istədi deyə ki, qatıq ağdı, birdən dərvişin şərti yadına düşüb dedi:

– Bilmirəm.

– Mən deyirəm bu qatıq qaradı. Sən necə bilirsən?

Rizvan dedi:

– Qoy bir yaxşı-yaxşı baxım.

Rizvan boylanıb kasaya baxandan sonra dedi:

– Dərviş baba, qatıq qaradı.

Rizvan belə deyəndə dərviş dedi:

– Rizvan, mən üç günün səfərinə gedirəm. Tez gələrəm, amma mən gedib gəlincə evdən bayıra çıxma, arvadının yanına da girmə.



Rizvan baş üstə dedi. Dərviş Rizvanın evindən getmək bəhanəsilə çıxıb damda gizləndi.

Gecənin bir aləmində düşüb damdan endi həyətə, gördü ki, ər-arvad yatıblar. Dərviş enib bağa, həmin məndəcərliyə getməkdə olsun, Rizvan bu tap-tupa ayılıb gördü ki, həmin dərvişdi. Düşüb qarabaqara dərvişin dalısınca, gəlib çıxdı həmin məndəcərliyə. Özün verib ağacların dibinə gördü ki, dərviş bu məndəcərliyə üzüquylu düşüb başladı ağlamağa. Haçandan-haçana durub, əlinə bel alıb, yeri qazımağa başladı. Böyük bir daş qaldırdı, daşın altından bir quyu çıxdı, dərviş girib quyuya, haçandan-haçana quyudan çıxdı, qucağında da bir ceyran.

Dərviş ceyranın başını kəsdi, alıb dalına, götürüb gəldi, çıxıb dama, yıxılıb yatdı.

Rizvanı fikir götürüb xof apardı ki, bu necə olan işdi. İstədi durub çıxa dama, dərvişin ala başının üstünü, bu sirdən xəbərdar ola, kəsdiyi şərt yadına düşdü, dedi:

– Eybi yoxdu, gözləyim görüm bu işin axırı necə olacaq.

Səhər tezdən dərviş durub, ceyranı alıb qucağına damdan düşdü. Rizvanın arvadı Nisəyə dedi:

– Al bu ceyranı, soymamış doğra, tök qazana bişir! Amma nəbadə dadına baxasan.

Nisə dedi:

– O da mənim gözüm üstə.

Dərviş bir əfsun oxuyub qalxdı göyə. Göydən Nisəyə baxırdı ki, görək Nisə nə edir.

Nisə qollarını çırmalayıb ceyranı soymamış doğrayıb tökdü tavaya. Ocaq qalayıb başladı ceyranın ətini qovurmağa.

Dərvişin istədiyi o idi ki, ürəkli bir arvad tapa. Odu ki, qalxıb göyə, bir əfsun oxuyub oldu laçın, göydən enib yerə, Nisəyə bərk bir çarpaz qanad vurdu. Nisə qorxmayıb əlindəki kəfkiri tolazladı laçının dalınca. Kəfkir dəymədi. Dərviş gedib bir

az uzaqda cildindən çıxıb həmənki adam oldu, gəldi Nisənin yanına. Nisə də qayıdıb oturmuşdu ocaq başında, ceyranın ətini qovururdu, dərviş gəlib oturdu ocağın qırağında, Nisəyə dedi:

– Nisə, get bir nimçə gətir, bu ceyranın ətindən çəkək.

Nisə durub nimçə üçün getməkdə olsun, dərviş tavanı götürüb qoydu yerə. Qoltuğundan bir şüşə qab çıxardıb tavanın yağını töküb qaba, tavada olan əti səpələdi toz-torpağın üstə. Bu tərəfdən də Nisə əlində nimçə gəlib çıxdı. Dərviş dedi:

– Hayıf bu tavadakı ceyran ətindən. Ocaq uçdu, ət də dağıldı toz-torpağın üstünə.

Nisə dedi:

– Canın sağ olsun! Dərviş babasan, indi gedib bir alayı ceyran tapıb gətirərsən.

Dərviş durub gəldi evə, başının altına xurcun qoyub yatmaqda olsun, sənə xəbər verim Rizvandan. Rizvan bağı sulayıb qurtarıb evə gəlirdi, gördü ki, ağac dibində ocaq qurulub. Amma ki, bu ocağın qırağında o qədər ət tökülüb qalıb ki, gəl görəsən. Rizvan bərk acmışdı. Bardaş qurub ocağın qırağında, başladı bu ətdən yeməyə. Bir vədə gördü ki, qarnı şişib olub damca. Yerindən tərpənə bilməyib, yıxılıb qaldı.

Sənə xəbər verim padşahdan.

Padşah bir gün durub Rizvanın bağına gəzməyə gəldi. Girib bağa, gəzib dolandı, gördü həmişə Rizvan bunun qabağına çıxardı, amma bu dəfə çıxmadı. Tez özün yetirdi məndəcərliyə, gördü ki, həmin yerdə ki, Rum padşahının oğlu Əhmədi tilsimə salmışdı, quyu qazılıb, sandıq da yoxdu. Padşah iki əlli başına qapaz vurub oturdu ağlamağa.

Padşah burada qalsın, sənə xəbər verim vəzirdən.

Vəzir gözlədi, gördü ki, padşah gəlib çıxmadı, durub gəldi bağa. Gördü ki, padşah oturub ağacın dibində ağlayır. Vəzir xəbər aldı:



Padşah bütün əhvalatı vəzirə danışıb dedi:

– Vəzir, tədbir gör!

Vəzir dedi:

– Padşah sağ olsun, heç bir tədbiri yoxdu. Çarə səninkidi. Qızını gərək verəsən.

– Heç bu olan iş deyil. Mən qızımı əhd eləmişəm ki, heç kimə verməyəm.

Vəzir dedi:

– İndi ki, belədi, ixtiyar sənindi.

Durub gəldilər imarətlərinə. Padşah gecəni səhərə kimi yatmayıb tədbir görməkdə olsun, al xəbəri Nisə xanımdan. Nisə əri Rizvanı gözlədi, gördü ki, gəlib çıxmadı, durub çıxdı bayıra. Rizvanı bir neçə ağız çağırıb gördü ki, Rizvan səs vermədi, çıxıb bağa, o yan bu yana gəzib, gördü ki, ocaq qaladığı yerdə dağ boyda bir şey yastılanıb yatıbdı. Nisə bir qədər yeriyib irəli, gördü ki, əri Rizvandı, qarnı şişib, dönüb dama.

Nisə qorxub tez durub gəldi dərvişin yanına, gördü ki, dərviş yatıb. Nisə dərvişi silkələyib durğuzdu. Dərviş ayılıb Nisəyə bir sillə vurub dedi:

– Vay evini Allah yıxsın! Yuxu görürdüm, məni yuxudan yarımçıq ayıltdın, qoymadın yuxumu tamam görüm.

Nisə dedi:

– Nə görürdün?

Dedi:

– Kəs səsini, çəpəl! Yarımçıq yuxunu danışmazlar. Məni nə üçün yuxumdan elədin?

Nisə dedi:

– Dərviş, bizim kişinin qarnı şişib. Dur çıx bayıra, bəlkə bir çarə eləyəsən.

Nisə belə deyəndə dərviş barmağını dişləyib, tez durub çıxdı bayıra. Özünü yetirib ocağın qırağına gördü ki, Rizvanın qarnı şişib. Bildi ki, ceyran əti yeyibdi, dedi daha bundan adam olmaz. Dərviş çox peşman oldu, çünki ceyran ətini Nisə üçün saxlamışdı, olmadı. Göz gəzdirib o yan bu yana, gördü ki, yerdə iki böyük tikə ət qalıb. Tez götürüb qoydu qoltuq cibinə.

Nisə dedi:

– Mənim ərimə bir çarə!

Dərviş dedi:

– Nisə, sənin ərin Rizvana çarə olmaz. Gəl basdıraq!

Nisənin çarəsi kəsilib, qəbir qazıyıb, Rizvanı dəfn elədilər. Gecə yarısı dərviş durub gəldi qəbir üstə, açıb qəbrin ağzını, Rizvanın qarnını yarıb, həmin ceyranın ürəyini çıxardıb Rizvanın qarnından, yenə qəbrin üstünü örtüb çıxıb gəldi. Aradan bir müddət keçəndən sonra dərviş Nisəyə dedi:

– Nisə, gəl Allah yolu ilə, peyğəmbər şəriəti ilə get mənə!

Nisə razı olub kəbinini kəsdirdi. Dərviş başladı Rizvanın adından bağa qulluq eləməyə. Bir gün dərviş dedi:

– Nisə, al bu ürəknən bu əti yağda qovur.

Nisə ürəyi alıb ceyran əti ilə bərabər tökdü tavaya. Dərviş aranı xəlvət eləyib ceyranın yağından tökdü tavaya. Elə ki, xörək bişib hazır oldu, Nisə süfrəni döşəyib xörəyi çəkdi, oturub yeməyə başladılar. Nisə ac idi. Ceyranın ətini ürəknən yeyirdi. Amma dərviş tilsim oxumuşdu. Nisənin gözünə elə görsənirdi ki, guya ceyranın ətindən o da yeyir, amma dərviş yemirdi. Bir azdan sonra hər ikisi süfrədən əl çəkdi. Dərviş durub gəldi bağa işləməyə. Bunlar burda qalsınlar, sənə xəbər verim padşahdan.

Padşah öz qızının imarətini dörd tərəfdən hasara aldı ki, ins-cins qızı görməsin. Əmr verdi ki, şəhərə dərviş paltarında kim girsə, tutub damlasınlar. Qoşun əhli padşahın buyurduğunu yerinə yetirməkdə olsunlar, sənə xəbər verim Nisədən.

Nisə bir vədə gördü ki, heç doqquz ayı tamam olmamış bari-həmlin qoyub yerə, bir oğlan doğdu. Bu oğlan yarı insan, yarı ceyrandı. Amma bunda bir qaş-göz vardı ki, gəl görəsən. Baxan heyran olurdu.

Dərviş özünü yetirib Nisəyə, gördü ki, Nisə oğlan doğubdu. Amma bunun başı insan başıdı, bədəni ceyran bədəninə oxşayır. Qoltuğundan bir çubuq çıxardıb vurdu uşağa, dedi:

– Ey çəpəl, bu nə sir-sifətdi?

Çubuğu vuran kimi ceyran dönüb oldu bir gözəl oğlan. Dərviş Nisəyə dedi:

– Bu uşağın adını qoyarsan Ceyran.

Nağıllarda vaxt tez başa gələr. Ceyran böyüyüb çatdı on beş yaşına. Bu elə şücaətli pəhləvan oldu ki, gəl görəsən. Dərviş başladı Ceyrana pəhləvanlıq tərbiyəsi verməyə. Ceyran olmuşdu pəhləvan. Nisə isə baxıb oğluna fərəhlənirdi.

Bir gün dərviş fikrə gəldi ki, Zərgova xanımı ələ gətirsin. Durub manqal qoyub Ceyranın adını yazdı bir nala, bir nal da götürüb Zərgovanın adını yazıb atdı manqala. Bunları qızdırıb Ceyranın məhəbbətini saldı Zərgovanın ürəyinə.

Sənə xəbər verim kimdən, Zərgova xanımdan.

Zərgova xanım yatıb yuxuda gördü ki, on beş yaşında cavan oğlan gəlib oturdu dizinin üstündə. Bir alma verib çıxıb getdi. Zərgova səhərnən yuxudan ayılıb dəli – divanə oldu. Amma bir belə adam tapa bilmədi ki, açıb ürək sirrini deməyə. Qız günü – gündən saralıb solmağa başladı. Padşaha xəbər getdi ki, qızın Zərgova bərk naxoşdu. Padşah düşdü əl – ayağa. Adam göndərdi, təbib gəldi, nə qədər dava – dərman elədilər, çarə olmadı ki, olmadı.

Dərviş Nisəni çağırıb dedi:

– Get padşaha de ki, filan yerdə bir həkim var, o sənin qızını sağaldar. Əgər razı oldu, gəl mənə de!

Nisə durub gəldi padşahın yanına. Padşah xəbər aldı ki:

– Nə üçün gəlmisən?

Nisə dedi:

– Filan yerdə bir həkim var, o deyir ki, mən padşahın qızının dərdini taparam.

Padşah dedi:

– Get, götür gəl yanıma.

Nisə qayıdıb dərvişin yanına, dedi:

– Padşah razıdı.

Dərviş durub gəldi bazara, bir dəst Ceyran üçün həkim paltarı alıb, geyindirib Ceyranı elədi həkim, dedi:

– Burdan durub gedərsən padşahın yanına. Padşah səndən xəbər alacaq: oğlan, kimsən? Onda sən də deyərsən ki, mən həkiməm. Padşah deyəcək: oğlan, mənim qızımı neçə günə sağaldarsan? Deyərsən üç günə. Elə ki, padşah izin verdi, şərt kəsərsən ki, "gərək otaqda bir mən olam, bir də qız". Elə ki, padşah razı oldu, gedib girərsən Zərğova xanımın yanına. Daha sənin başqa şeylə işin olmasın.

Dərviş Ceyranın dərsini verib qoşdu Nisəyə. Nisə Ceyranı götürüb getdi padşahın yanına.

Padşaha xəbər getdi ki, təzə həkim gəlib.

Padşah dedi:

– Çağırın gəlsin.

Ceyranı götürüb gəldilər padşahın yanına. Padşah baxıb gördü ki, bu elə cavan şücaətli oğlandı ki, gəl görəsən. Padşah öz yanında Ceyrana yer göstərib oturdu, xəbər aldı:

– Ey oğlan, həkimsən?

Ceyran dedi:

– Həkiməm.



Padşah dedi:

– Ey oğlan, mənim qızım bir aydı ki, naxoşdu. Dünyada həkim qalmayıb çağırmamış olam. Səninlə şərt bağlayıram, sağalda bilməsən boynunu vurduraram.

Ceyran razı oldu. Padşah xəbər aldı:

– Neçə günə sağaldarsan?

Ceyran dedi:

– Üç günə. Amma ki, bir şərtim var. Gərək qızın mənzilində bir mən olam, bir də sənin qızın.

Padşah razı oldu.

Ceyranı götürüb gəldilər Zərğovanın otağına. Açıb otağın qapısını saldılar Ceyranı Zərğovanın yanına, qapını bağlayıb getdilər.

Zərğova xanım gözlərini açıb gördü ki, yuxuda gördüyü oğlandı. Tez durub ayağa "can" deyib sarıldı Ceyranın boynuna. "Can" deyib qucaqlaşdılar.

Bir səhər Zərğova xanım tezdən durub Ceyrana dedi:

– Ceyran, neçə gün qalacaqsan yanımda?

Ceyran dedi:

– Üç günüm sabah tamamdı.

Zərğova dedi:

– Bəs biz necə eləyək ki, atam məni sənə versin?

Ceyran dedi:

– Səbir elə, çarə tapılar.

Üçüncü gün padşaha xəbər gəldi ki, qızın Zərğova sağalıbdı.

Padşah şad olub dedi:

– Həkimi mənim hüzuruma gətirin!

Gəlib Ceyranı çağırdılar. Ceyran gedən macalda Zərğova ona dedi:

– Sabah günorta nar bağında məni gözlə!

Ceyran durub gəldi padşahın yanına. Padşah əmr verdi ki, xəzinənin yarısını versinlər Ceyrana. Ceyran alıb xəzinənin yarısını gedəndə, padşaha dedi:

– Əgər sabah qızını nar bağına gəzməyə göndərməsən qızın təzədən naxoşlar, daha ayılmaz, çünki ona turş meyvənin iyi dəyməlidi.

Bunu deyib, çıxıb getdi.

Dərviş oturub bağda Ceyranı gözləyirdi. Haçandan-haçana gördü ki, Ceyran gəlib çıxdı. Ceyran görən kimi xəbər aldı ki:

– Ceyran, danış görək nə oldu?

Ceyran dedi:

– Getdim, qızı sağaltdım, gəldim.

Dərviş dedi:

– Bəs qız sənə heç bir söz demədi?

Ceyran dedi:

– Yox, qız mənə heç bir söz demədi.

Dərviş işi duyub barmağını dodağının arasına alıb dinməz oturdu. Sabahısı gün Ceyran durub, gəlib anasına dedi:

– Ana, mən gedirəm. Dəyən yerim var. Axşama gələrəm.

Ceyran çıxıb gedəndə dərviş də düşdü Ceyranın dalınca. Qarabaqara gəldi nar bağına. Ceyran bir tərəfdə gizləndi, dərviş də bir tərəfdə gizlənib gözləməkdə olsun, sənə xəbər verim kimdən, Zərğova xanımdan. Zərğova xanım səhər tezdən atasına xəbər göndərdi ki, ata, həkim mənə demişdi ki, bu günkü gün mən nar bağına gəzməyə çıxım. Gərək mən də çıxam. Padşah razı olub əmr verdi ki, dükan, bazar bağlansın. Quş quşluğu ilə bayıra çıxmasın ki, Zərğova nar bağına gedəcək.

O gün bütün dükan, bazar bağlandı. Hərə girdi evinə, bayıra çıxmadı. Zərğova xanım durub gəldi nar bağına.

Al xəbəri Zərğova xanımdan.



Zərğova xanım girib nar bağına, dolanıb göz gəzdirdi, gördü ki, Ceyran dayanıb bağın başında. Zərğova qul-qaravaşlarına dedi:

– Mən gedirəm çaya tərəf. Hər kəs mənim dalımca gəlsə, boynunu vurdurram.

Zərğova bina qoydu yol getməyə. Gəlib çıxdı bağın başına. Səslədi Ceyranı. Ceyran özünü yetirdi ona.

İndi sənə xəbər verim dərvişdən.

Dərviş ağacların arasından baxırdı. Elə ki, gördü Zərğova ilə Ceyran başladılar söhbətə, bir tilsim oxuyub Ceyranı yatırtdı, Zərğovanı elədi sərçə, özü də olub tərlan, alıb Zərğovanı dimdiyinə, qalxıb göyə getməkdə olsun, sənə xəbər verim Zərğovanın qaravaşlarından.

Bunlar gün batan kimi gözləyib gördülər ki, Zərğova yoxdur, kor-peşman qayırdılar padşahın yanına, xəbər verdilər ki, Zərğova yoxdu. Padşahı od götürüb az qaldı ki, bağrı çatlasın. Tez rəmmal çağırıb dedi:

– Rəmmal, bir rəml at görək, mənim qızım Zərğovanı kim götürüb aparıb. Haraya aparıblar?

Rəmmal bir neçə rəm atıb, sonra başını bulayıb padşaha dedi:

– Padşah sağ olsun, sənin qızını Rum padşahının oğlu cadukun dərviş Əhməd aparıb. Əlanlıqda sənin qızın Rum şəhərinin günbatan elində bir şəhər var, ordadı.

Padşah iki əlli başına bir qapaz vurub, oturdu uşaq kimi ağlamağa. Haçandan-haçana ağlamağını saxlayıb, üzün tutub rəmmala, dedi:

– Rəmmal, mənim şəhərimdə elə bir oğul tapılar ki, gedib mənim qızımı Rum padşahının oğlu dərviş Əhmədin əlindən alıb, götürüb gələ?

Rəmmal kitabı açıb dedi:

– Padşah sağ olsun, Ceyran adında sənin şəhərində bir pəhləvan var. Getsə, o gedib gətirə bilər.

Padşah dedi:

– O pəhləvan harda, kimin evində olur?

Rəmmal dedi:

– Sənin Rizvan adında bir bağbanın var idi. Onun arvadı Nisənin oğludur. Çağırtdırıb göndərə bilərsən.

Padşah Ceyran üçün adam göndərməkdə olsun, al xəbəri Ceyrandan.

Ceyran bağda yatmışdı. Haçandan-haçana gördü ki, kürəklərinə bərk soyuq dəydi. Ayılıb gördü ki, Zərğova xanım yanında yoxdu.

Durub bağ-bağatı gəzib dolanıb, Zərğova xanımdan heç bir soraq tapmayıb kor-peşman qayıdıb gəldi evinə. Düşüb üzüqoylu ağlamaqda olsun, anası Nisə xəbər aldı:

– Oğul, nə üçün ağlayırsan?

Ceyran heç bir cavab vermədi.

Bu tərəfdən də padşahın adamları gəlib Nisənin evini tapdılar. Nisədən Ceyranı xəbər aldılar.

Nisə dedi:

– Neyləyirsiniz Ceyranı?

Dedilər ki:

– Padşah çağırır.

Nisə durub gəldi, Ceyrana dedi:

– Padşah səni çağırır.

Ceyran durub ayağa, aynaya baxıb gördü ki, ağlamaqdan gözləri qıpqırmızı olubdu. Su götürüb əl –üzünü yuyub düşdü gələnlərin qabağına, birbaş gəldi padşahın yanına.

Padşah, rəmmal, vəzir oturmuşdular. Ceyran görən kimi padşah Ceyrana öz yanında yer verib otuzdurdu ki:



– Ceyran, bil və agah ol! Mənim qızım Zərğova xanımı Rum padşahının oğlu dərviş Əhməd götürüb qaçıb. Əgər qızı götürüb gəlsən, verərəm sənə. Nə deyirsən? Razısan, ya yox?

Ceyran Zərğova xanımın adını eşidən kimi durub ayağa dedi:

– Gedərəm.

Padşah Ceyrana bir dəst pəhləvan paltarı, bir yeriyən at verib yola saldı.

Ceyran durub gəldi anasının yanına, halallaşıb, ata minib bina qoydu yol getməyə. Dərələrdən yel kimi, təpələrdən sel kimi, badisərsər kimi, ayaq üzəngidə, diz qabırğada, piyadasın piyada, atlısın atlı, hamını qoyub yolda, quşdan yeyin, tazıdan yüyrək, neçə mənzil yol gedib, neçə mənzil eləyib, axır gəlib çatdı qaranlıq meşəyə. Yolu itirib bilmədi ki, hayana gedə.

Ceyran gördü ki, bir cığır var. Tutub cığırı bina elədi yol getməyə. Düz bir gün, bir gecə yol gedib çatdı bir dağın döşünə. Gördü ki, bura elə bir meşədi ki, gəl görəsən. Nə cür ağac istəyirsən burda var. Hər cür meyvə istəyirsən burda var. Xülasə, hər cür güldən, lalədən, nərgizdən, min cür ətirli güllər, bülbüllər adamı heyran edir. Ceyran atını saxlayıb diqqətlə bu ağacların arasından uzaqlara baxdı, gördü ki, bir xeylaq irəlidə qaraltı görünür. Ceyran sürüb atını qaraltıya tərəf gəlib çatdı, gördü ki, burda bir koma var. Komanın qabağına yaxşı bir yarımxalça salınıb, xalçanın üstündə qoca bir pirani kişi oturubdu, saç-saqqalı dümağ, elə bil ki, eyni qardı. Qabağında manqal, dizinin üstə batman kitab.

Qoca abid Ceyranı görən kimi başını qaldırıb baxdı Ceyranın üzünə, dedi:

– Ceyran, oğul, axır ki, gəlib çıxdın!

Ceyran təəccüb elədi ki, bu mənim adımı hardan bilir?

Dedi:

– Ey dayı, mənim adımı hardan bildin?

Kişi dedi:

– Oğul, neçə ildi ki, sənin yolunu gözləyirəm. Gəl otur görək.

Ceyran enib atından, gəlib oturdu abidin yanında.

Abid dedi:

– Oğul, mən bilirəm sən hara gedirsən. Daha mənə demək lazım deyil. Sən Zərğova xanımın dalınca gedirsən. Amma çox müsibət çəkib, çox padşahlar öldürüb sonra murada çatarsan.

Ceyran dedi:

– Bəs Zərğova xanım hardadı? Mən onu necə taparam?

Abid dedi:

– Oğul, tələsmə! Bil və agah ol! Həmin dərviş ki, var idi, sənə atalıq eləyirdi, o Rum padşahının oğlu Əhməddi. O sənin ananı almışdı. Zərğova xanım bağa çıxan vaxtda tilsim gücü ilə götürüb qaçıb. İndi bu dağ ki, görürsən, orda bir qalaça var, dərviş Əhməd Zərğovanı salıb ora. Burdan durub gedərsən ora. Səni görən kimi Rum padşahının oğlu dərviş Əhməd deyər: "oğul, xoş gəlmisən". Sən nəbadə yaxınına gedəsən. Çünki o səni öldürəcək. Elə ki, səni öldürə bilmədi, tez səni salar tilsimə.

Abid durub köhnə bir sandıq açıb, sandığın içindən bir qılınc çıxardıb, Ceyrana verib dedi:

– Sən bu qılıncla həm tilsimi, həm də Rum padşahının oğlu Əhmədi öldürüb sonra muradına çata bilərsən. Bir söz də deyim. Düz get, nəbadə yollarda əylənəsən.

Abid sözünü tamam eləyib Ceyranı saldı yola.

Sənə xəbər verim kimdən, Rum padşahının oğlu Əhmədlə Zərğova xanımdan.



Rum padşahının oğlu Əhməd Zərğovanın alıb qaçıb, istədi gələ öz atasının yanına. Kitabı açıb gördü ki, bəd gəldi. Tez başa düşdü ki, Zərğova xanımı atası əlindən alacaq. Burda da başı müsibətə düşüb qalada qalacaq. Alıb Zərğovanı Rum şəhərindən qıraq bir yerdə bir qalaçaya gətirib saxladı. Amma ki, nə illah elədi, Zərğova xanım Rum padşahının oğlu dərviş Əhmədi yanına qoymadı. Dərviş Əhməd gündüzlər Zərğova xanımı zəncirdə saxlayıb öz işinə gedərdi. Axşam olan kimi şəhərə qayıdıb Zərğova xanımı zəncirdən açıb onunla məşğul olurdu.

Ceyran bir müddət yol gedib axır çıxdı həmin qalaçaya. Çatan kimi gördü ki, qalaçanın qapısında bir əjdaha var. Əjdahaya çatan kimi, əjdaha açıb ağzını istədi Ceyranı uda. Ceyran fürsəti fota verməyib, əl atdı abid verən qılınca. Çəkib qılıncı əjdahanı cəhənnəmə vasil elədi. Girib qalaçanın qapısından içəri, gördü ki, Zərğova xanım zəncirdədi. Tez qırıb zənciri, Zərğova xanımı azad elədi. Zərğova xanım Ceyranı görən kimi xəbər aldı:

– Sən necə oldu ki, gəlib buraya çıxdın?

Ceyran başına gələn müsibəti Zərğova xanıma, o da başına gələn müsibəti Ceyrana açıb nəql elədi.

Zərğova dedi:

– Ceyran, gəl qaçaq! Yoxsa Rum padşahının oğlu Əhməd gəlib bizim hər ikimizi bir yerdə görsə, səni də öldürər, məni də.

Ceyran dedi:

– Qorxma, Rum padşahının oğlu Əhmədin başına bir oyun açaram ki, heç qiyamətəcən yadından çıxmaz.

Ceyran belə deyəndə Zərğova xanım sevinib qol atdı Ceyranın boynuna, sarmaşıq kimi sarılmaqda olsunlar bir-birinə, sənə xəbər verim Rum padşahının oğlu Əhməddən.

Günbatan vaxtı Əhməd həmişəki kimi dərviş paltarında gəlib öz qalaçasına çatdı. Gördü ki, əjdahanı öldürüblər. Tez girib içəri, gördü ki, Ceyran başını qoyub Zərğova xanımın dizinin üstə yatıb.

Dərviş Əhməd Ceyranı görən kimi dedi:

– Ey mənim oğlum Ceyran, sən xoş gəlibsən!

Ceyran açıb gözlərini baxıb gördü ki, gələn Rum padşahının oğlu Əhməddi. Tez durub ayağa, əl atdı qılınca ki, vurub onu öldürsün, Əhmədin ağzından bir qucaq alov çıxıb Ceyranı bürüdü. Ceyran od tutub yanan vaxtda səs gəldi:

– Ey Ceyran, əlindəki tilsim qılıncını qan qarışıq sürt üstünə!

Ceyran tilsim qılıncını sürtdü üstünə, alov Ceyrandan rədd oldu. Bir vədə baxıb gördü ki, nə Zərğova xanım var, nə də Rum padşahının oğlu. Ceyran tez qaçıb bayıra, minib atını, bina qoydu yol getməyə.

Ceyran yel kimi atını sürüb gedirdi. Bir vədə gördü ki, Rum padşahının oğlu Əhməd alıb Zərğova xanımı, yel kimi gedir. Ceyran əlini qoyub qulağına, bir nərə çəkib dedi:

– Ey Əhməd, atanı dalına sarıyacağam.

Rum padşahının oğlu Əhməd səsə qayıdıb dala baxdı, gördü ki, gələn Ceyrandı. Tez bir tilsim oxuyub girdi quyuya.

Ceyran özünü yetirib quyunun ağzına, gördü ki, quyunun ağzında səkkiz dəyirman daşı ağırlığında bir daş var. Ha güc elədi ki, dəyirman daşını quyunun ağzından rəf edə, gücü çatmadı. Bir nərə çəkib əl atdı tilsim qılıncına, zərbnən endirdi dəyirman daşına. Dəyirman daşı parça-parça oldu. Gördü ki, bura bir dərin quyudu. Ceyran tez özünü atdı quyuya. Düşüb quyunun dibinə, gördü ki, burda bir qapı var. Girdi qapıdan içəri, gördü ki, anası Nisə çıxdı qabağına. Ceyran çəkib qılıncın, şığıdı üstünə. Arvad qaçdı, olub əjdaha gəlib durdu



Ceyranın qabağında. Ceyran bildi ki, Rum padşahının oğlu Əhməddi. Çəkib qılıncın yenə şığıdı üstünə. Əjdaha qaçıb Ceyranın qabağından indi də oldu nəhəng div, dayanıb durdu. Ceyranın qılıncından yenə səs gəldi:

– Ey Ceyran, nəbadə qurşaq yapışasan.

Ceyran çəkib qılıncı endirdi divə, div əl atıb Ceyranın biləyindən tutub, başladı sıxmağa. Ceyran da əl atıb yapışdı divin boğazından, sıxdı hulqumunu. Div başladı çapalamağa. O qədər sıxdı ki, div cəhənnəmə vasil oldu.

Ceyran divi öldürən kimi tilsim sındı. Ceyran gördü ki, bura çöllü-bəri-biyabandı. Rum padşahının oğlu təngənəfəs gəlir. Ceyran əl atıb qılınca, hücum elədi Əhmədə. Başladılar qılınc davasına. Əl atıb yapışdı Rum padşahının oğlunun yaxasından, qoydu dizinin altına, boğazın üzüb tulladı. Ayağa durub Zərğovanı axtarmağa başladı. Gördü Zərğova daldalanıb kolun dibində. Alıb Zərğovanı, basıb atın tərkinə, bina qoydu getməyə. Gəlib çatdılar Rum vilayətinə. Düşdülər karvansaraya ki, gecəni yatıb, səhər çıxıb getsinlər. Xəbər verim sənə Rum padşahının dalandarından.

Rum padşahının dalandarı karvansaranı cövlan vurdu, gördü ki, karvansaraya bir cavan oğlanla bir gözəl qız gəlibdi. Dalandar tez durub özünü yetirdi Rum padşahına, dedi:

– Ey taxtı çevrilmiş, yəhəri qanla dolmuş, nə yatıbsan? Karvansaraya bir nəfər qıznan bir pəhləvan gəlibdi gəl görəsən.

Dalandar Zərğova xanımı padşaha o qədər tərifldi ki, padşahın ağzının suyu axdı. Padşahın özü gəldi karvansaraya, gördü ki, bu qız Hind padşahının qızı Zərğovadı. Rum padşahı əqli başdan verib dedi:

– Dalandar, tədbir gör!

Dalandar dedi:

– Padşah sağ olsun, iki adam ver mənə, sənin qeyri işnən işin yoxdu.

Padşah razı olub dalandara iki pəhləvan verdi. Dalandar pəhləvanları götürüb gəldi. Gecənin bir vədəsində dalandar pəhləvanları ilə girib Ceyranın otağına, alıb Zərğovanı, götürüb gəldilər, saldılar Rum padşahının otağına.

Rum padşahı durub gecəynən Zərğova xanımın yanına gəldi. Zərğova baxıb gördü ki, bunun əlindən qurtara bilməyəcək.

Dedi:

– Ey padşah, mənə üç gün möhlət ver, qoy bir dincimi alım, üç gündən sonra mən sənin.

Rum padşahı razı oldu. Bunlar burda qalsınlar, eşit Ceyrandan.

Ceyran ayılıb gördü ki, Zərğova xanım bunun yanında yoxdu. Tez durub ayağa, minib atına, çıxdı şəhərə. O günü gəzib dolandı, Zərğovadan bir xəbər çıxmadı. Küçə ilə gedirdi, gördü ki, bir keçəl bir uşağa aşıqlarını uduzub, çürsaf eləyib aşıqları götürdü, uşaq keçələ dedi:

– Ver aşıqlarımı!

Keçəl dedi:

– Oho, sən elə bilirsən ki, mən də sənin üçün karvansaraya gələn qonağam?

Ceyran keçəldən bu sözü eşidən kimi yapışıb keçəlin qolundan çəkib bir xəlvətə, xəbər aldı:

– Ey keçəl, nə qonaqdı karvansaraya gəlib aldanıbdı?

Keçəl dedi:

– Heç nə. Bir qərib oğlan bir zənən xeylağı ilə gəlib düşmüşdülər karvansaraya. Padşahın gözü düşür qıza, gecə ilə qızı qaçırırlar.

Ceyran dedi:



– Keçəl, dediyin qız hardadı?

Keçəl dedi:

– Qarğa adamın ovcuna havayı yumurta qoymur.

Keçəl belə deyəndə Ceyran əlini salıb cibinə, bir çəngə qızıl çıxardıb basdı keçəlin ovcuna. Keçəlin gözləri çıxdı kəlləsinə, Ceyran dedi:

– O padşahın imarətində olur.

Ceyran minib atına gəldi padşahın imarətinin qabağına, bir kağız yazıb göndərdi Rum padşahına. Rum padşahı açıb kağızı oxudu, gördü ki, yazılıb: "Ey padşah, mənim adaxlımı verirsən ver, vermirsən atanı dalına səriyib torpağını torba ilə daşıtdırıram".

Rum padşahı kağızı oxuyub, qəzəblənib əmr elədi ki, qoşun tədarükdə olsun.

Vəzir, vəkil qoşun tədarükündə olub qoşun göndərdilər Ceyranın qabağına.

Ceyran sıyırıb qılıncını düşdü qoşunun canına. Qırıb qoşunu tələf elədi, durub üz qoydu Rum padşahının imarətinə. Rum padşahı da oturmuşdu taxtda, Ceyran əl atıb yapışdı padşahın boğazından, dedi:

– Ey zalım padşah, ver adaxlımı!

Padşah başladı ağız-burnunu oynatmağa. Ceyran Rum padşahının boğazını sərçə kimi üzüb, otaqları gəzdi, gördü ki, yan otaqların birində Zərğova xanım büzüşüb oturub. Ceyran alıb Zərğova xanımı, yığıb camaatı başa saldı ki, padşahı nə üçün öldürüb, sonra padşahın taxtını tapşırıb camaata, dedi:

– Kimi istəyirsiniz özününüzə padşah tikin! Daha mən getdim.

Ceyran alıb Zərğova xanımı götürüb gəldi, sağ salamat yetirdi Hind padşahına.

Hind padşahına muştuluqçu getdi ki, qızın Zərğova ilə Ceyran gəlib çıxdı. Padşah çox şad olub, məclis qurub üç gün, üç gecə şadlıq elədi.

Ceyran bir gün padşaha xəbər göndərdi ki, əhdinə vəfa eləsin.

Padşah qızı Zərğova xanımı Ceyrana vermək istəməyib vəziri çağırıb dedi:

– Mənim qızım bir padşah qızı, amma Ceyran bir gədənin biridi. Gəl razı olma ki, mən qızımı verim Ceyrana, tədbir gör!

Vəzir dedi:

– Padşah sağ olsun, qonaq çağır, tök ceyranın xörəyinə bihuşdarı, qoy bihuş olub yıxılsın, sonra götürüb atarıq bu dərələrin birinə, qurd-quş yeyər, gedər.

Padşah vəzirin tədbirinə razı olub Ceyranı günorta xörəyinə çağırdı.

Ceyran durub gəldi. Padşah keçib mətbəğə, Ceyranın xörəyinə o ki, vardı bihuşdarı tökdü. Xörəyi gətirib qoydular Ceyranın qabağına.

Ceyran xörəyi yeyən kimi getdi huşa, yıxıldı yerə. Götürüb Ceyranın qolunu bağlayıb saldılar qaranlıq otaqların birinə ki, gecə yarı götürüb atsınlar quyuya. Gecənin bir aləmində Ceyran özünə gəlib gördü ki, əl-qolu bağlanıb, özü də qaranlıq otağa salınıb. Bildi ki, ox ona hansı tərəfdən dəyib. Tez güc verib qolunun zəncirlərini qırıb atdı, durub gəldi qapıya, gördü ki, qapı bağlıdı. Bir neçə kərə qapıya təkan vurdu, axırda bir nərə çəkib qapıya elə çiyin vurdu ki, çərçivəsindən çıxardıb atdı. Çıxıb bayıra bir nərə çəkdi. Padşah nərənin zərbindən bir boy özünü atdı. Çıxıb bayıra gördü ki, nərə çəkən Ceyrandı.

Əmr verdi qoşun yığışsın. İstədilər Ceyranı tutalar. Ceyran boş əlnən gələn-gələn qoşunu boğazlayıb atırdı. Qoşun tab



gətirə bilməyib üz qoydu qaçmağa. Ceyran əl atıb möhkəm bir qılınc götürüb hücum elədi. Yapışıb padşahın biləyindən dedi:

– Ey zalım padşah, mən sənə bu qədər yaxşılıq elədim, bu yaxşılığın əvəzinə adam adamın başına bu oyunu gətirər?

Ceyran vəzirnən padşahı öldürüb, qoşunu özünə tabe eləyib, Zərğovanı tapıb, götürüb gəldi. Ceyran öz anası Nisəni götürüb yanında saxladı. Yeddi gün, yeddi gecə toy eləyib Zərğova xanımla murad hasil elədi.

Ceyran böyük ədalətnən padşahlıq elədi, camaatla yaxşı yola getdi, asudə ömür sürməyə başladılar.

## Süleymanın nağılı

Biri var idi, biri yox idi. Keçmiş zamanlarda yoxsul bir qoca kişi varmış. Bu kişinin gözünün ağı-qarası bir oğlu var imiş. Bu oğlanın adı Süleyman idi. Süleyman on beş-iyirmi yaşına çatanda ata-anası onu öyləndirmək istəyir. Ancaq oğlu razı olmur. Axırda bir təhər Süleymanı razı saldılar. Ancaq Süleyman ata-anasına dedi:

– Mənə elə bir qız alın ki, namuslu və təmiz olsun.

Ata və anası neçə qızın adın dedilər, amma Süleyman razı olmadı ki, olmadı. Axırda Süleyman ata-anasına dedi:

– Siz mənə bir qız gətirin, özüm saxlayım.

Süleymanın anası gedib bələkdə bir qız uşağı gətirib oğluna verdi. Oğlan qızı alıb ata-anasına dedi:

– Mən qızı götürüb başqa diyara gedirəm.

Ata-anası nə qədər elədilər Süleymanı saxlaya bilmədilər. Süleyman qızı götürüb yol aldı getməyə.

Süleyman çox getdi və gəlib qalın bir meşəyə çatdı. O oranı, buranı gəzib bir mağara tapdı və başladı bu mağarada olmağa. Süleyman başladı qıza qulluq etməyə. Qız on beş ya-

şına çatanda bir elə gözəl qız oldu ki, aya deyərdi, sən çıxma, mən çıxım.

Süleyman gündə gedib ov gətirərmiş, qız bişirib yeyərmişlər və belə dolanarmışlar. Bir gün qız çayda paltar yuduğu zaman üzüyü barmağından çıxıb çaya düşdü. Qız nə qədər elədi, üzüyü tapa bilmədi. Bunlar burda qalsın, sizə hardan deyim, üzükdən.

Üzük çay ilə gəlib dəryaya çıxdı. Bu zaman padşahın balıqçıları tor ilə balıq tuturmuşlar. Həmin üzük balıqçıların birinin toruna düşür. Balıqçı üzüyü gətirib padşahın oğluna verdi. Padşahın oğlu üzüyü alıb özündə saxladı. O, bir imansız qarı çağırıb həmin üzüyü ona göstərib dedi:

– Gərək bu üzüyün sahibini tapıb gətirəsən.

İmansız qarı çox gəzib axırı istədiyini tapır. Gəlib padşahın oğluna deyir. Padşahın oğlu əmr edir ki, gedib həmin qızı gətirsin. Qarı gəlib küpəsinə girib göyə qalxır və gəlib həmin meşəyə düşür. Qarı küpəni gizlədib Süleymanın yaşadığı mağaraya gəlir. Qarı mağaraya girəndə çox təəccüblənib dedi:

– Ay qarı nənə, sən buralarda nə edirsən?

Qarı gözü gör yaşı töküb dedi:

– Burdan karvan gəlib keçəndə məni burda qoyub getdilər. İndi gəzə-gəzə gəlib buraya çıxmışam, qoy buralarda sənə kömək edim.

Qız razı olub qarını qovlamır. Süleyman gəlib qızdan xəbər alır:

– Bu qarı kimdi, bura necə gəlib çıxıb?

Qız qarının başına gələni Süleymana deyir. Qız Süleymana yalvarır ki, qoy buralarda qalsın, bizə kömək etsin. Süleyman əvvəlcə razı olmur, amma qızın yalvardığını görüb razı olur. O gündən qarı başlayır burda qalmağa.



Bir gün qarı qızı çimizdirəndə başlayır yağlı dilini işə salmağa. Qarı padşahın oğlunu o qədər tərifləyir ki, axırı qız görməz-bilməz oğlana vurulur.

Vaxt o vaxt olur ki, Süleymanın iki uşağı olur, biri oğlan biri qız. Qarı buraya gələndə padşahın oğluna tapşırmışdı ki, qırx gündən sonra həmin yerə gələrsən.

Qırx gün ötüb, qırx birinci günü padşah oğlu atasından icazə alır və həmin yerə yola düşür. O, bir neçə gündən sonra həmin yerə gəlib çıxır.

Padşahın oğlu o qədər gözləyir ki, Süleyman ova gedəndən sonra gizləndiyi yerdən çıxıb mağaraya girir. Qız oğlanı görəndə qorxuya düşür, ancaq qarı oğlanı qıza tanış verir. O gündən qız başlayır öz oynaşı ilə oynamağa. Süleyman baxıb görür ki, qız buna günü-gündən pis baxır. Bir gün Süleyman öz-özü ilə fikirləşir, gərək pusub bunu biləm. O, səhərisi qarıya deyir:

– Ay qarı, nənə, mənə yeddi günlük çörək bişir, uzaq səfərə çıxacam.

Qarı sevinmiş yeddi günlük çörək bişirib bir xurcuna qablayıb ağzını bağladı. Süleyman xurcunu çiyninə alıb bir xeyli gedib gizlənir. O, xurcunu bir yerdə gizlədib mağaranın yanındakı ağaca çıxıb bacadan başladı içəri baxmağa. Birdən gördü ki, qız gedib şkafı açdı və ordan bir oğlan çıxıb qızı qucaqlayıb öpməyə başladı. Qız bir xeyli oynaşı ilə oynayıb yoruldular. Bu zaman qarı xörək gətirib stola düzdü. Oğlan, qız, qarı başladılar nahar etməyə.

Nahardan sonra Süleyman ağacdan düşüb evə girdi. Qarı ayaq səsi eşidib oğlanı yenə şkafda gizlətdi. Süleyman içəri girib stolda oturdu, qarıya dedi:

– Dörd qaba xörək çək gətir buraya.

Qarı dedi:

– Ay bala, biz üçük, nə edəcəksən birini?

Süleyman qarıya acıqlanıb dedi:

– Sənə deyirəm çək!

Qarı dörd qab xörək çəkib gətirib stolun üstünə qoydu. Süleyman gedib şkafı açıb oğlanı gətirib qızla bir otuzdurdu və başladı çörəyini yeməyə. Ancaq nə qarı, nə oğlan, nə qız tərpənmirdilər, üçü də düm ağ ağarmışdılar. Süleyman öz xörəyini yedikdən sonra qılıncını sürüyüb qarı ilə oğlanı öldürdü. Ancaq qıza bir şey etmədi.

Bunlar burda qalsın, sizə kimdən deyim padşahın özündən. Padşah o qədər gözlədi ki, oğlan gəlib çıxmadı. Axırda qırx atlı ilə gəlib həmin mağaranın ətrafında gizləndilər. Süleyman ova gedəndə padşah mağaraya girib qızla söhbətə başladı. Padşah qıza dedi:

– Nə təhər edirsən et, oğlanın əl-qolunu bağla!

Padşah öz yerinə qayıdıb atlılara tapşırdı ki, möhkəm dursunlar. Süleyman evə qayıdanda qız qabağına çörək gətirib qoydu. Süleyman çörəyini yeyəndən sonra qız gəlib onun yanında oturdu. Qız başladı xəbər almağa:

– Sənin qüvvən yeddi qat çatıyı qırarmı?

Süleyman ayağa durub qollarını yanına gətirib qıza dedi:

– Al bağla görüm!

Qız elə bunu istəyirdi. Tez çatını gətirib yeddi qatla əlini bağladı. Qız Süleymana dedi:

– Süleyman, İran padşahı öz qoşunu ilə gəldi.

Süleyman qoluna güc verib yeddi qat çatıyı qırıq-qırıq elədi.

Qız dedi:

– İndi qoy, zəncirlə bağlayım.

Tez zənciri gətirib Süleymanın qollarına beş-altı qat eləyib bağladı. Qız yenə qışqırıb dedi:

– Süleyman, İran padşahı öz qoşunu ilə gəldi.



Süleyman yenə qollarına güc verib zənciri qırdı. Qız gördü ki, Süleyman hamısını qırır. Axırda at qılından hörülmüş çatını gətirib on qat eləyib Süleymanın qollarını bağladı. Süleyman nə qədər güc verib qıra bilmədi. Qıza elə bu lazım idi, tez padşahı çağırdı. Padşah öz qırx atlısı ilə mağaraya doldular. Süleyman gördü ki, qız yenə buna xain çıxıb. O, nə qədər güc verib çatıyı qıra bilmədi. Çatı Süleymanın qollarını yarıb sümüyə dayandı. Şahın adamları Süleymanı döyüb qapıya qurşaqdan aşağı basdırdılar. Padşah başladı qızla kef çəkməyə.

Bir gün padşahla qız başqa yerə getdilər, evdə heç kəs qalmadı. Qız öz balaca qızını evə göndərib dedi:

– Bax, atan nə istəsə vermə!

Balaca qız evə gələndə atası qızı çağırdı. Qız atasına baxmayıb getdi. Bir xeyli keçəndən sonra qız balaca oğlunu göndərib tapşırdı:

– Bax, atan nə istəsə vermə!

Oğlan "yaxşı" deyib mağaraya gəldi. Süleyman öz oğlunu yanına çağırdı. Oğlan gəlib atasını qucaqladı. Süleyman öz oğlunun üz-gözündən öpüb dedi:

– Get, divardakı qılıncı mənə gətir.

Oğlan gedib ayağının altına kətil qoyub qılıncı divardan götürüb atasının yanına qayıtdı. Atası qolunu göstərib dedi:

– Gəl bu ipi kəs!

Oğlan qılıncı sürüyə-sürüyə gətirib ipi kəsdi. Süleyman oğlunun üz-gözündən öpüb dedi:

– Bax, heç kəsə demə, qoy qılınc burda qalsın!

Oğlan yenə anasının yanına qayıtdı. Axşam oldu, şahla qız evə gəldilər. Gecə Süleyman yerindən çıxıb qırx atlıdan birini öldürüb yerə girdi.

Səhərisi şaha xəbər getdi ki, bəs qoşundan biri yox olub. Şah əmr elədi meşəni gəzsinlər. Ancaq bir şey tapa bilmə-

dilər. Beləliklə, Süleyman hər gecə birini öldürdü. Şah baxıb gördü ki, bir nəfər də əsgər qalmayıb. Şah qıza dedi:

– Hazırlaş, səhər yola düşək.

Süleyman bunu bilib tez yerindən çıxdı, mağaraya girib şahla qızı öldürdü. Öz qızını qaldırıb divara elə çırpdı ki, qız divarda qaldı.

Süleyman gəlhagəl gəlib bir körpünün yanına çıxdı. Baxıb gördü ki, körpünün üstündə bir qoca durub. Süleyman gəlib qocaya salam verib xəbər aldı:

– Sən burda nə edirsən?

Qoca dedi:

– Burda göyərçin var, onu tutacağam.

Süleyman qocaya dedi:

– Qoy mən tutub sənə verim.

Qoca razı olub getdi. Süleyman bir yer düzəldib orada gizləndi. Göyərçinlər gəlib qondular və gözəl qız oldular. Göyərçinin biri o birini göndərib dedi:

– Get gör kim var, çimək.

Qızın biri gedib gəldi ki, heç kim yoxdu. Qızlar paltarlarını soyunub çimməyə getdilər. Süleyman gizləndiyi yerdən çıxıb paltarın üstündə oturdu. Qızlar gəlib gördü ki, paltarın üstündə adam oturub. Qızlardan biri dedi:

– Ey insan, qoy paltarımızı geyinək, qorxma, daha biz qaçmarıx.

Süleyman paltarı verir. Qızlar paltarı geyinib uçum deyəndə Süleyman qızın birinin biləyindən tutur. Qızın bilərziyi Süleymanın əlində qalır. Oğlan kor-peşman geri qayıdır. O, gəlib bir şəhərə çıxır. Bu şəhərdə bir otaq varmış ki, hər gecə oraya qarovul qoyanda yoxa çıxırmış. Şah Süleymanı qərib görüb oğlunu əlindən alır və deyir:

– Gərək həmin otağa girib qarovul çəkəsən.



Süleyman axşam gəlib bu otağın keşiyini çəkir. Gecənin bir vaxtında bir adam gəlib otağın ayın-oynunu oğurlamaq istəyəndə Süleyman oğrunun qolundan tutur. Oğrunun barmağındakı üzük Süleymanın əlində qalır.

Səhər açılır. Camahat gəlib görür ki, Süleyman sağdı. Süleyman oğlunu da götürüb geri qayıdanda görür ki, bir qoca kişi ağlaya-ağlaya gedir. Süleyman ondan xəbər alır:

– Ay əmi, niyə ağlayırsan?

Qoca deyir:

– Eh a bala, çayın o tayında bir qohumum var, onlara çörək aparmaq istəyirdim. Gəmiçi isə getmir, deyir ki, gəmi suyun ortasına çatanda sudan bir şey çıxıb gəmini döndərər. İndi ona görə ağlayıram.

Süleyman qocanı götürüb gəmiyə gəlir. Gəmiçiyə deyir:

– Sür gedək.

Gəmiçi getmək istəmir. Süleyman ona hədə-qorxu gələndən sonra xülasə gəmi suyun ortasında sudan bir adam çıxıb belini gəmiyə dirəyib gəmini çevirmək istəyir. Gəmi o biri taya keçir. Süleyman düşüb bir şəhərə gəlir. Bu şəhərin padşahının bir oğlu var imiş. Onu oğurlayıblarmış.

Süleyman gəlib padşaha deyir:

– Qibleyi-aləm, mən sizin oğlunuzu taparam.

O bir gecə gəlib qəbirstanda gizlənir. Bir də baxıb görür ki, bir adam gəlib əlindəki çubuqla ölü adam vurdu. Ölü adam dirildi, başladı bununla güləşməyə. Yenə həmin adam çubuqla oğlana vurdu. Həmin meyiti yerinə qoydu. Qəbirə çubuqla vurdu, qəbir örtüldü. O getmək istəyəndə Süleyman gizləndiyi yerdən çıxıb həmin adamı tutur. O, qaçmaq istəyəndə çubuq Süleymanda qalır. Süleyman çubuqla vurub padşahın oğlunu dirildir. Padşah oğlunu görəndə sevindiyindən özündən gedir.

Süleyman buradan gedib ayrı bir şəhərə gəlib çıxır. Baxıb görür ki, şəhərdə bir insan yoxdu. Oranı-buranı gəzir və bir cığır görür. Görür ki, bu cığır şəhərdən çıxıb başqa bir yerə gedir. Süleyman həmin cığırla gəlib bir evə çıxır. O, orada qapının dalında gizlənir. Bu yerdə üç göyərçin gəlib düşür. Üçü də bir gözəl qız olur. Onlar stolun qırağında oturub çörək yedikdə böyük bacıları deyir:

– Neçə il idi bir şəhərdə oğurluq edib dolanırdım. Bu gecə gedəndə bir oğlan məni tutdu. Mən qaçanda üzüyüm oğlanın əlində qaldı. Həmin oğlan burda ola bu xörəyi onunla yeyəm və ona ərə gedəm.

Sonra ortancıl qız başlayır başına gələni söyləməyə:

– Mən də neçə il idi ki, qoymurdum dənizdən gəmi keçə gedə. Bir gün yenə bir gəmi gəldi. İstədim onu da çevirəm, bu yerdə bir oğlan qolumdan yapışdı. Mən qolumu dartanda bilərziyim həmin oğlanın əlində qaldı. İndi həmin oğlan burda ola bu xörəyi onunla yeyəm və ona ərə gedəm.

Kiçik bacı başladı başına gələni söyləməyə:

– Mən də neçə il idi ki, padşahın oğlunu oğurlayıb qəbirstanda gizlətmişdim. Hər gecə gedib döyürdüm. Bir gecə yenə döydüm və geri qayıtmaq istəyəndə bir oğlan qollarımdan yapışdı. Mən dartınıb qaçanda çubuğum onda qaldı. İndi o oğlan burda ola bu xörəyi onunla yeyəm və ona ərə gedəm.

Süleyman bu vaxt gizləndiyi yerdən çıxıb deyir:

– Həmin söylədiyiniz oğlan mənəm.

O, qızlarla başlayır xörək yeməyə. Qurtarandan sonra deyir:

– Kim məni vilayətimə tez aparsa onu alacam.

Böyük qız deyir:

– Mən üç günə aparacam.

Ortancıl deyir:



– Mən bir günə aparacam.

Kiçik bacı deyir:

– Mən üç saata aparacam.

Süleyman kiçik qıza deyir:

– Tez ol məni oğlumun yanına çatdır.

Qız göyərçin olub Süleymanı da çöp edib ağzına aldı, havaya qalxdı. Süleyman gəlib o yerdə yetişdi ki, oğlu can üstədi. Oğlu öləndən sonra Süleyman oğlunu saxlayan adamları bütün qırır və qızla öz vətəninə yola düşürlər.

Süleyman gəlib görür ki, ata-anası qocalıb əldən düşüblər. Ata-ana öz oğlunu görəndə sevindiklərindən bilmədilər nə etsinlər. Süleymanın ata-anası həmin qızla Süleymana toy edirlər.

Onlar yedilər, içdilər yerə keçdilər, siz də muradınıza çatın. Göydən üç alma düşdü. Biri mənim, biri nağıl söyləyənin, biri də özümün.

## Səfeh Teymur

Əmma nağılan, əsari tutiran, məkkaru mazandaran, tərəziyə vurdum təkan, iki qoz bir kirdəkan, mənə tapılmaz bir çaxmağı yox tüfəng, çaxmağı yox tüfəngi götürdüm çıxdım ova, dovşanı elə vurdum ki, qabırğaları sındı, özünün xəbəri yox. Yapışdım dovşanın bir əlindən, bir ayağından apardım qarının yanına, dedim qarı nənə, bir qazança ver dovşanı bişirək. Qarı dedi, qadan alım, keçin o biri evə, orada iki qazança var. Biri sınıqdı, birinin altı yox. Dovşanı altı yox qazanda bişirdik, sümükləri həlmə-həl oldu, ətinin xəbəri yox. Yoldaşımız dovşanın ətini çox duzlamışdı. Üç yoldaş dovşanın ətindən o qədər yedik, dodaqlarımız şişdi, qarnımızın xəbəri yox. Dedik ay qarı nənə, susundan yandıq, bizə su. Qarı dedi keçin o biri həyətə, iki hovuz var, biri qurudu, o birinin

suyu yox. Üç yoldaş su olmadan hovuzdan o qədər içdik ki, qarnımız şişdi, dodaqlarımızın xəbəri yox. Dedik ay qarı nənə, çarıqlarımızı gətir geyək gedək. Yoldaşımızın çarığının biri tapılmadı. Səs saldıq, soraq saldıq, dedilər ki, çarığın tayı Gödərdə taxıl əkib. Üç yoldaş yollandıq getdik ora başladıq zəmini biçməyə. Gördük ki, həmin dovşanın biri qaçır. Yoldaşımızı biri çini atdı, çinin dəstəsi girdi dovşanın qarnına. Dovşan biçirdi, biz dərz bağlayırdıq. Dərzi yığıb vurduq tayaya. Yoldaşımızın biri istədi qəlyan çəkə. Qəlyanı yandıracağın taya od tutub yandı. Tayanın içindən bir palan çıxdı. Palanı yardıq hamısı yalan çıxdı.

Biri var idi, biri yox idi, bir şəhərdə tacir var idi. Bu tacirin üç oğlu var idi. İkisi ağıllı idi, biri isə səfeh idi. Səfehin adı Teymur idi. Buna səfeh Teymur deyərdilər. Günlərin bir günü tacirin arvadı ərinə deyir:

– A kişi, uşaqlarımız böyüyüb, onlara da tacirliyi öyrət, onlar da özlərinə dövlət yığsınlar.

Tacir böyük oğluna bir gəmi verib onu qiymətli malla doldurub ticarətə yola salır. Ortancıl oğlunu da böyük oğlu kimi gəmi və mal verib başqa ölkəyə ticarətə göndərir. Bunu eşidən səfeh Teymur atasının yanına gəlib deyir:

– Mənə də gəmi və dəyərli mal ver, ticarətə göndər.

Anası oğluna deyir:

– Sən alveri nə edirsən, ye-iç gəz, nə qədər atan sağdır.

Səfeh Teymur deyir:

– Yox, atam mənə də gəmi verməsə baş götürüb gedəcəyəm.

Teymurun anası ərinə deyir:

– Buna da bir şey ver, çıxıb getsin. Gələr-gələr, batar-batar.



Tacir səfeh Teymura da bir köhnə yamaqlı gəmi, ucuzlu parçadan, çitdən, bezdən bir neçə top verib onu yola salır. Teymur yelkəni çəkir, yola düşür. Az gedir, çox gedir, çatır bir cəzirəyə. Görür ki, burada adamlar ağ qum kimi şey yığırlar. Teymur xəbər alır ki, bu nədir. Cəzirə adamları deyirlər:

– Bu duzdur.

Teymur gətirdiyi parçaları duzla dəyişib gəmini doldurur və düşür yola. Az gedir, çox gedir, çıxır bir padşahın şəhərinə. Gəmidəki duzdan doldurur dəsmalın arasına və gedir satmağa. Gedir şəhərə, bazara girib duzu kimə göstərir, deyirlər ki, bizə belə duz lazım deyil. Səfeh Teymur qalır kor-peşman. O, bərk acıyır. Fikirləşir ki, gedim padşahın yanına, bir az çörək istəyim. Saraya gəlir, padşahın aşpazı rast gəlir ona. Görür ki, bu adam qəribdir. Soruşur:

– Nə istəyirsən?

Aşpaz Teymuru aşpazxanaya aparır və ona yemək verir. Səfeh Teymur başlayır yeməyə. Sonra fikirləşir ki, bu duzdan bir az töküm görüm necə olur. O, duzdan xörəyə tökür və görür ki, yemək dada gəldi. Sonra aşbaz eşiyə çıxanda qazanlara bir az duz tökür, aşbazla xudafizləşib öz gəmisinə gedir. Günorta yeməyində padşah və qızı yeməyə otururlar. Bu günü yemək onlara ləzzətli gəlir.

Padşahın qızı deyir:

– Dədə, bu günü xörək çox dadlıdır. İndiyə qədər belə yemək yeməmişəm.

Sabahı gün yenə yemək gəlir. Padşah qızı və arvadı yeməyi yemirlər, çünki ləzzət vermir onlar üçün. Padşah aşpazı çağırtdırıb deyir:

– Bu günkü yemək niyə dadsızdır. Dünən yeməyə nə qatmışdın ki, elə ləzzətli idi?

Aşpaz deyir:

– Padşah sağ olsun, həmişəki kimi bişirmişəm.

Padşah xəbər alır ki, dünən mətbəxə kim gəlmişdi.

Aşpaz dedi:

– Bir qərib oğlan gəlmişdi.

Padşah əmr edir ki, o oğlanı tapın gətirin saraya. Gedirlər Teymuru dəniz kənarından gəmidən tutub gətirirlər padşahın yanına. Qorxu düşür Teymurun canına. Padşah ondan kim olduğunu soruşur.

Teymur deyir:

– Gətirdiyim ağ torpaqdır ki, adına duz deyirlər. O yeməyi dada gətirir.

Padşah əmr edir ki, duzu gətirsinlər. Teymur dəsmaldakı duzu padşaha göstərir. Padşah yemək bişirtdirir və duz tökdürür. Görür ki, doğrudan da ləzzətlidir.

Padşah Teymura deyir:

– Nə istəyirsən sənə verək, ancaq sən o duzu bizə ver.

Teymur duzu padşaha verir. O gedir bir neçə dəfə duz gətirib duz satır şəhərdə. Səfeh Teymur padşahla yaxın olur.

Padşahın qızı deyir:

– Mən sabah gedib o gəmiyə baxmalıyam görüm ki, o nədir. Şəhərdə elə bir şey yoxdur.

Qız öz qaravaşları ilə gəmiyə tamaşa eləməyə gəlir. Teymur padşahın qızını mindirir gəmiyə. O, gəminin ipini kəsir və gəmi sahildən aralanır. Qız ağlamağa başlayır.

Teymur deyir:

– Səni suda bir az gəzdirib çıxardacağam sahilə.

O, gəminin yelkənini qaldırır. Gəmi düzəlir yola. Sabahı gün görür ki, dənizdə iki yelkən görünür. Gəlhagəl gəmi yaxınlaşanda görür ki, öz qardaşları alverdən qayıdırlar. Teymur onları görən kimi sevinir. Qardaşlar yan alırlar Teymurun gəmisinə görürlər ki, gəmidə qızıl-gümüş və bir gözəl qız oturub. İki qardaş apardıqları malı satıb kef eləyib evə boş qayıdırlar. Onların Teymura paxıllığı tutur. İki qardaş sözü bir yerə qoyub Teymuru suya atırlar. Teymur üzə bildiyinə görə çox çətinliklə sahilə çıxır.



İki qardaş gəmidəki qızıl-gümüşü öz gəmilərinə boşaldıb və qızı götürüb evə gəlirlər. Onlar gəlib çıxırlar öz şəhərlərinə. Ataları sevinir. Atası toy edib qızı böyük oğluna almaq istəyir. Bunlar burda qalsınlar, sizə kimdən xəbər verim, Səfeh Teymurdan.

Teymur az gəlir, çox gəlir, gəlib çatır öz şəhərlərinə. Şəhərdə eşidir ki, böyük qardaşı evlənir. O evə gəlir. Qardaşlar onu görcək qorxuya düşürlər. Padşahın qızı Teymuru görcək atılır onun üstünə. Teymur başına gələn hadisəni ata-anasına danışır. Tacirin oğlanlarına acığı tutur və onları evdən qovur.

Qırx gün, qırx gecə toy edib padşahın qızını Teymura alırlar. Teymur bir neçə gəmi alıb duz alveri edir, böyük tacir olur.

Onlar yeyib içdi, yerə keçdi. Göydən üç alma düşdü. Biri mənim, biri nağıl danışanın, biri də özümün.

## Yeddi dağ alması

Biri var idi, biri yox idi, günlərin birində bir padşah var idi. Bu padşahın bir qızı var idi, adı da Pərinuş idi. Pərinuş o qədər gözəl idi ki, dünyada elə gözəl qız yoxudu. Ölkələrdən yığın-yığın padşah, vəzir, tacir oğulları Pərinuş xanıma elçi göndərirdilər. Amma Pərinuş xanım heç kimə dil vermirdi.

Bir gün padşah qızı Pərinuşu çağırtdırıb xəbər aldı ki:

– Qızım, gündə filan qədər elçi gəlir, nə deyirsən? Kimi bəyənirsən, de, o adama da nigah kəsdirək.

Pərinuş dedi:

– Atayi-mehriban, mən ərə getmək istəmirəm.

Padşah dedi:

– İndi ki, belə oldu, öz ixtiyarın özündədi. Kimi istəsən ona da gedə bilərsən.

Pərinuş durub atasının yanından, gəldi öz mənzilinə, çox fikir etdi, amma ürəyinə yapışan bir adam tapa bilmədi.

Aradan bir neçə müddət keçdi. Pərinuş çox darıxmışdı, atasına bir belə kağız yazdı ki: – Atayi-mehriban, anam ölən gündən bəri sənin bağına gəzməyə getməmişəm. İzin ver, gedim bağa.

Yazıb kağızı göndərdi atasına. Padşah kağızı alıb oxudu, gördü ki, qızı Pərinuş bağa getmək istəyir. Bağban üçün xəbər göndərdi ki, "Qızım bağa gələcək, sahmana sal! Bir nəfər kişi cinsindən bağda olsa, vay sənin halına". Bağban bu xəbəri eşidən kimi düşdü əl-ayağa. Bir günortaya bağı sahmana salıb padşaha xəbər göndərdi ki, bağ hazırdı.

Pərinuş qırx qızları götürüb gəldi bağa. Pərinuş gördü ki, bağban bağı çıraqban eləyib. Burada güllər, bülbüllər, hər hansı meyvəcat istəsən. Baxdıqca adam heyran olur. Ətirli bir çəmən üstə taxt qurub, başladılar çalıb oynamağa. Yemək vaxtı çatdı, yemək yeyildi, Pərinuş yeməkdən sonra yıxılıb yatdı. Pərinuş yumşaq yataqda yatmışdı, qırx qız da yanında onun qarovulunu çəkirdi. Sənə xəbər veim kimdən, bağbanın oğlu İbrahimdən. Bağban oğlu İbrahim işdən gəlirdi, çox bərk yorğunudu. Girib bağa gördü ki, heç kəs yoxdu. Çıxıb çarhovuz üstə əl-üzünü yuyub, yıxılıb yatdı. Bir vaxtı Pərinuş yuxudan ayılıb qırx qıza dedi ki:

– Siz burada olun, mən gedim çarhovuz üstə, əl-üzümü yuyum, gəlirəm.

Qırx qız orada qaldı. Pərinuş isə kölgəliyini əlinə alıb üz qoydu çarhovuza tərəf. İstədi çıxıb əl-üzün yuya, nəfəs eşitdi. Tez dönüb bir neçə qədəm getdi, istədi qırx qızı çağıra harayına, sonra da özlüyündə dedi: – Qoy tək gedim, görüm kimdi, atamın bağında belə rahat yatıbdı.



Pərinuş özün yetirdi qaysı ağacının altına. Bir o yana, bir bu yana baxıb, gördü ki, yumşaq göy otun üstə bir oğlan yatıb, üzünə cib yaylığı salıb. Pərinuş sol əlin vurub belinə, sağ əlin uzadıb oğlanın üzündən yaylığı götürüb atdı. Görən kimi tanıdı ki, bu bağbanın oğlu İbrahimdi. İbrahim çox gözəşirin oğlanıdı. Pərinuşla da həmyaşıddı. Pərinuş dizin vurub yerə, bir xeylaq İbrahimə baxdı. Məhəbbətin saldı ürəyinə dedi: gərək İbrahimə gedəm.

Əlindəki ətirli yaylığı çəkib İbrahimin üzünə, oturdu başının üstə. İstədi oyada İbrahimi, bir az gülüb danışa, qıymadı. Bu tərəfdən də qızlar Pərinuşu çox gözlədilər, axır gördülər ki, Pərinuş gəlib çıxmadı, durdular çağırmağa. Pərinuş qızların səsini eşidən kimi, durub ayağa, qızları çağırdı. Qorxdu ki, sirri açıla. Qızlar gəlib çatdılar. Pərinuş dedi:

– Ey çəpəllər, məgər bilmirsiz ki, mən bağdayam, bu kimdi yatıbdı. İndi atam bilsə, hamınızın boynun vurdurar.

Qızların hamısı yarpaq kimi Pərinuşun qabağında əsirdilər. Pərinuş əmr verdi ki, İbrahimi götürüb aparsınlar öz otağının altında bir otaq vardı, salsınlar ora, özü İbrahimin tənbehini edəcək. Qızlar qaş qaralanı gözlədilər. Qaş qaralan kimi İbrahimi götürüb gəldilər, Pərinuşun otağının altında boş bir otaq vardı, salıb İbrahimi o otağa, çıxıb getdilər.

Pərinuş tez özünü İbrahimə yetirdi. İbrahim ayılıb gördü ki, o bağda yatmışdı, amma indi evdədi, özü də padşah qızı oturub başı üstə. İbrahimi xof götürdü, istədi Pərinuşu qoyub qaça, Pərinuş İbrahimin qabağın kəsib qoymadı qaça, dedi:

– İbrahim, qaçma, səni mən götürmüşəm bura.

İbrahim bir şey başa düşmədi, istədi gedə, Pərinuş İbrahimin qarşısına keçib, qoymadı.

İbrahim dedi:

– Xanım, mən bir bağban oğlu, sən bir şah qızı, mən hara, sən hara?

Pərinuş baxıb gördü ki, İbrahim onu sınaqdan keçirir, dedi:

– Gəl məni sınaqdan keçirmə! Göz görüb, könül sevib, atam min deyə, mən səninəm ki, sənin.

İbrahim Pərinuş xanımdan keçə bilmədi. Hər iki aşiq qol boyuna salıb, öpüşdülər. Pərinuş bütün gecəni səhərə kimi İbrahimlə bir otaqda qaldı. Səhər durub İbrahimə bir dəst paltar geydirib, pul verib göndərdi hamama. İbrahim geyinib-keçinib, gəldi Pərinuşun yanına. Pərinuş İbrahimi bu paltarda görən kimi əlin salıb boynuna, dedi:

– İbrahim, ta səbir eləyə bilmirəm, gərək bu işi tez qurtaraq.

İbrahim dedi:

– Çifayda ki, bir şey çıxmayacaq.

Pərinuş dedi:

– Ey sevgilim, nədən bir şey çıxmaz?

İbrahim dedi:

– Doğrusu qorxuram ki, atan səni mənə verməsin. Bir də işdən xəbərdar olub boynumzu vurdura.

Pərinuş dedi:

– Qorxma, mən özümü naxoşluğa vuraram. Ta o vaxta qədər ki, bütün həkimlərdən atamın əli üzüldü, sənə xəbər göndərərəm, sən gəlib atamla şərt bağlayarsan. O, şərtinin üstə duracaq. Ad olar ki, məni naxoşluqdan sən sağaldıbsan, sonra mən səninəm.

İbrahim razı oldu. Sabah olub, Pərinuş özün vurdu naxoşluğa, atası üçün xəbər göndərdi. Padşah Pərinuşun naxoş olmasın bilib, durub gəldi qızının yanına. Pərinuş atasının gəlməyini biliban, tez üzünə zəfəran çəkib, rəngini sarımtıl eləyib girdi yerinə. Padşah gəlib Pərinuşun yanına, qızın əhvalın xəbər alıb gördü ki, qızının dili, ağzı tutulub, heç danışmır. Sir-sifəti elə dönüb ki, elə bil meyitdir.



Padşah tez durub ayağa, gedib çıxdı taxtına, vəziri çağırtdırıb dedi:

– Vəzir, şəhərlərimdə nə ki həkimlər var, çağır, qızıma əlac eyləsinlər. Qızımın əhvalın çox pis görürəm.

Vəzir baş əyib getdi. Ta şəhərlərdə həkim qalmadı çağırmamış olalar, heç biri Pərinuşu sağalda bilmədi. Padşaha xəbər xəbər üstündən gedirdi ki, bəs qızın Pərinuşun əhvalı günügündən xarab olur, padşahın axırda əlacı kəsilib əmr verdi ki, hər kim qızım Pərinuşu sağaltsa, qızımın kəbinini kəsdirib həmin adama verəcəm. Əmr yazılıb divarlara vuruldu. Hər kim oxuyurdu, deyirdi ki, o qız sağalmaz, getməməyimiz yaxşıdı.

Eşit İbrahimdən. İbrahim Pərinuşdan tel alan kimi, özünü yetirdi padşahın yanına. Baş əyib salamını yerinə yetirdi. Padşah İbrahimdən xəbər aldı ki, niyə gəlmisən?

İbrahim dedi:

– Gəlmişəm qızın Pərinuşu sağaldam.

Padşah dedi:

– Çox yaxşı. Neçə günə? Nə şərtlə?

İbrahim dedi:

– İki gün möhlət ver mənə, əgər qızını sağaltsam, qızın mənimdi, sağalda bilməsəm boynumu vurdur!

Padşah razı olub İbrahimlə kağız bağlaşdılar, adam göndərdi qızının yanına. İbrahim girib Pərinuşun otağına, heç kimi özündən qeyri qoymadı qala. Qapıları bağlayıb Pərinuşla başladılar keyfə.

İki gün tamam olanda İbrahim gəldi padşahın yanına. Ədəb salamını yerinə yetirdi. Padşah İbrahimə yer göstərdi, İbrahim əyləşdi. Pərinuşu İbrahimdən xəbər aldı. İbrahim dedi:

– Pərinuş sağalıbdı.

Padşah İbrahimə inanmadı. Əmr verdi ki, İbrahimi saxlasınlar, özü durub gəldi Pərinuşun yanına, gördü Pərinuş sağalıbdı. Oturub qızı ilə danışıb, bir az da əhval tutub, lap inanıb durub gəldi vəzirin yanına, dedi:

– Vəzir, İbrahim Pərinuşu sağaldıbdı. Mənim də şərtim vardı, kim qızımı sağaltsa, qızımın kəbinini ona kəsdirib toyun edəcəyəm. Nə deyirsən, mənə bir tədbir, yoxsa qız əldən çıxar.

Vəzir gedib fikrə dedi:

– Heç əlac yoxdu. Ya Pərinuşu verməlisən, ya oğlanın başını batırmalısan.

Padşah xəbər elədi ki:

– Nə yolla?

Vəzir dedi:

– Şəhər Qəzvində yeddi dağ var. O dağların adına "Yeddi dağ" deyirlər. Göndər İbrahimi oradan alma götürə, ora gedən dala gəlməz.

Padşah razı olub, durub gəldi İbrahimin yanına, dedi:

– İbrahim, gərək mən sənin mərifətini biləm. Əgər mənə yeddi dağ almasından üç alma dərib gətirsən, qızım Pərinuşu sənə verdim, yox götürüb gələ bilməsən, mənim səninlə qohumluğum tutmaz.

İbrahim razı olub durub mürəxxəs oldu padşah qulluğundan, özün yetirdi Pərinuşa. Pərinuş İbrahimi görüb xəbər aldı ki:

– Necə gəldin?

İbrahim dedi:

– Padşah məndən Yeddi dağ alması istəyir. Bilmirəm ki. yeri hardadır.

Pərinuş çox bilən idi. Bildi ki, bu vəzirin hiyləsidir, dedi:

– Gəl getmə! Getsən qayıtmazsan. Atam səni gedərgəlməz yola göndərir.



İbrahim razı olmadı, çünki padşaha söz vermişdi, dedi:

– Yeddi dağ almasını qırx günə gərək gedib gətirəm. Pərinuş bu sözü eşidən kimi qara gözlərindən yaş axmağa başladı. Bir neçə damcı töküldü yanaqlarının üstə. İbrahim alıb Pərinuşun başını qoydu dizi üstə, dedi:

– Gəl sən qırx gün üçün darıxma, izin ver gedim.

Pərinuş razı olub İbrahimi yola saldı. İbrahim at minib üz qoydu şəhərdən çıxmağa. Az gedib, çox dayandı, neçə mənzil keçib gəlib çatdı çöllü-bərri-biyabana. İbrahim bərk yorulmuşdu, çəkib atın bir sərin bulağın üstə, yancidar elədi, özü də uzanıb dincəlməkdə olsun, bir vədə gördü ki, bir dərədən tüstü çıxıb qalxdı havaya. Tüstünün içindən bir dərviş peyda olub, gəlib dayandı İbrahimin qabağında, dedi:

– Ey İbrahim, anan matəmində otursun! Neçə vaxtdı ki, sənin yolunu gözləyirəm. Yeddi dağ alması üçün getmə!

İbrahim dedi:

– Bir başa sal məni, görüm ora necə yerdi, hardadı?

Dərvişliabas dedi:

– İbrahim, gəl şərt kəsək. Mən sənə tilsimi öyrədim, sən də o almalaran birini mənə ver!

İbrahim razı oldu. Dərvişliabas İbrahimi götürüb apardı evinə. Tilsim kitablarını açıb tökdü qabağına. İbrahimi düz bir ay ruzigar yanında saxlayıb tilsim öyrətdi. Bir ay tamam olanda Dərvişliabas İbrahimi götürüb gəldi həmən yerə, dedi:

– İbrahim, Yeddi dağ alması mənim qardaşlarımın bağındadı. Çox igidlər gedib tələf olubdu, o almadan götürüb gələ bilməyiblər. Amma sən gedib götürüb gələcəksən. Burdan quş olub uçub getməlisən. Altı dağ aşarsan, yeddinci dağın döşündə o bağı tapıb düşərsən yerə. İki ağacdan maşa düzəldib, almalardan dərib, çıxıb gəl. Qorxma ağacda almalar dil açıb deyəcəklər ki: "məni dərdilər", səs gələcək: "kim dər-

di". Deyəcək ki, "ağac ağacı dərməz". Bu kimi sözlər eşidəcəksən, qulaq asma, çıx gəl !

İbrahim tilsimi oxuyub oldu bir quş, qanad çalıb qalxdı göyə, gəlib çatdı həmən yerə. Gördü ki, bura yeddi dağın döşüdü. Amma burada bir bağ var idi ki, gəl görəsən. Girib bağa, ağacdan tez maşa düzəldib üç alma dərdi. Almalar dil açıb dedi:

– Dərdilər.

– Kim dərdi?

– Ağac.

– Ağac ağacı dərməz.

İbrahim bunların sözünə baxmadı. Quş olub qalxdı göyə. Birdən yadına düşdü ki, Dərviş üçün alma götürəcəkdi, amma alma üç idi. İbrahim göylə gedirdi, dərviş də oturub İbrahimin yolunu gözləyirdi. Bu tərəfdən İbrahim yolu kəsmə vurub, kəsmə yolla özün yetirdi şəhərə. Şəhərin qırağında cildin dəyişib özün yetirdi padşaha. Padşah gördü İbrahim gəlib çıxdı, almaları da özü ilə gətirdi. Boğazının yolu qurudu.

İbrahim almaları padşaha verib birbaş gəldi Pərinuşun yanına. İki aşiq qol-boyun olub burada qalmaqda olsunlar, eşit padşahdan. Padşah vəziri çağırtdırıb dedi:

– Vəzir, tədbir! İbrahim gəlib çıxdı, almaları da özü ilə gətirdi.

Vəzir dedi:

– Gəl, yolla İbrahimi Nil qoluna. Orada bir çay var, o çayın içində yanan əskilər var ki, gecə-gündüz əjdahalar o əskinin qarovulunu çəkir. İbrahim gedib salamat qayıtmaz.

Padşah razı olub, İbrahimi çağırtdırıb dedi:

– İbrahim, gərək Nil qoluna gedib yanan əskilərdən mənim üçün götürəsən.

İbrahim razı olub bu səfər Pərinuş xanımın yanına getməyib, girib quş cildinə, qalxdı göyə. Yetirib özünü Nilə, həmin qolu tapdı. Gördü ki, neçə parça əskidi suyun altında yanır, amma burada iki əjdaha yatıb. İbrahim yerə enib, qanadını iki dəfə suya vurdu. Üçüncüdə olub durna, dimdiyini uzadıb əskinin birini götürüb gəldi. İbrahim göylə gəlirdi, az qalmışdı öz şəhərlərinə çata. Dərvişliabas yerlə gedirdi, görüb İbrahimi, quş olub qalxdı göyə İbrahimi tuta. İbrahim baxdı dala, gördü ki, dərviş gəlir. Tez özün yetirib göydən yerə, olub bir siçan girdi bir deşiyə. Dərviş gördü ki, İbrahim oldu siçan, istədi enə yerə. İbrahim pis başlanmışdı, bildi tutulacaq, oldu tüstü çıxdı deşikdən, bir şir olub dayandı. Dərviş pələng olub gəldi İbrahimin bərabərinə. Durdular vuruşmağa. İbrahim şir cildindən çıxıb oldu bir ceyran, başladı qaçmağa, dərviş olub tazı İbrahimi tutmaq istədi. İbrahim gördü ki, tutulacaq, bir tilsim oxuyub oldu bostan tağlarında bitən qarpız-qovun. Dərviş olub bir bağban əlinə aldı bıçaq, başladı qarpız-qovun kəsməyə. İbrahim baxıb gördü ki, qoca dərviş bütün qarpızları kəsib qurtardı, tez olub quş, qalxdı göyə. Dərviş olub qırğı, başladı İbrahimi ovlamağa. İbrahim olub bir ovuc darı səpildi çölün düzünə, bir giləsini atıb kolun dibinə gizləndi.

Dərviş dedi:

– İbrahim, ölən günündü.

Dərviş olub cücəli toyuq, başladı darını dənləməyə. İbrahim bir tilsim oxuyub, oldu tülkü, çıxıb kolun dibindən yapışdı dərvişin boğazından, boğub öldürdü. İbrahim dərvişi cəhənnəmə vasil eləyib, əskini götürüb birbaş gəldi padşahın yanına.

Padşah İbrahimi görən kimi dedi:

– İbrahim əskini gətirdin?

İbrahim dedi:

– Bəli, gətirdim.

Padşah İbrahimin əlindən təngə gəlib dedi:

– Cəllad! Vurun İbrahimin boynunu!

İbrahim bu sözü eşidən kimi olub gürzə ilan, sərinib padşahın boynuna padşahı çaldı, vəziri də cəhənnəmə vasil eləyib, durub gəldi Pərinuşun yanına.

Pərinuş İbrahimi görən kimi qolun salıb boynuna dedi:

– Necə gəldin?

İbrahim bütün əhvalatı Pərinuşa danışdı. Pərinuş çox sevindi. Yeddi gün, yeddi gecə İbrahim toy eyləyib Pərinuşu aldı. İbrahim öz atasını da yanına alıb xoş gün keçirməyə başladılar.

## Nardan qızın nağılı

Qədimlərdə Qoquz adında bir padşah varmış. Belə deyirlər ki, günbatandan, günçıxana kimi nə ki, padşah var, hamısı ondan qorxarlarmış. Quş quşluğu ilə Qoquzun adını eşidəndə göydə qanad salarmış. Qoquz çox zülmkar imiş.

Qoquz padşah bir gün yatıb yuxuda görür ki, göydən bir mələkə endi, padşahın ağzına bir şillə vurub, çıxıb getdi.

Qoquz qorxudan yorğan-döşəkdən atılıb, başladı haray çəkib tir-tir əsməyə. Qoquzun yanına vəzir, vəkil yığışıb xəbər aldılar ki, nə olub? Qoquz yuxusunu danışıb əmr verdi ki, bu yuxunu yozsunlar. Vəzir, vəkil yığılıb münəccim çağırdılar, hər nə illah elədilər yuxunu yozub bir yana çıxara bilmədilər. Axırda münəccimbaşı dedi:

– Bu yuxunu yozan bir adam var.

Qoquz dedi:

– Kimdi o adam, de, bu saat çağırtdırım?

Münəccim dedi:

– Urum vilayətində bir qoca münəccim var, düz üç yüz ildir ki, ömür sürür. Bu yuxunun mənasını tapsa, o tapar, çünki belə yuxuların mənasını tapmaq bizim işimiz deyil.

Qoquz dedi:



– Vəzir, bu işi sənə həvalə edirəm. Gərək qoca münəccimi götürüb gələsən hüzuruma.

Vəzirin boğazının yolu quruyub öz-özünə dedi:

– Urum hara, bura hara? Urum burda nə gəzir?

Çarəsi kəsilib durub ayağa, arvadıynan halallaşıb bina qoydu yol getməyə. Az gedib çox dayandı, çox gedib az dayandı, nağıllarda mənzil olmaz, neçə müddət yol gedib az dayandı, nağıllarda mənzil olmaz, neçə müddət yol gedib, neçə mənzil gedib axırda gəlib çatdı Urum torpağına.

Gəzib Urum şəhərinə dolandı. Gördü ki, bir dərviş bir sandıq qoyub qabağına satır:

– Ay sandıq alan! Ay sandıq alan!... Alan alıb xeyrin görər, açıb baxan ziyan çəkər.

Vəzir dedi:

– Ey dərviş, sandığı neçiyə deyirsən?

Dərviş dedi:

– Yüz tümənə. Başıbağlı satıram.

Vəzir dedi:

– Qoy açım, baxım.

Dərviş dedi:

– Mən sandığı başıbağlı satıram, alırsan al, almırsan çıx get.

Vəzir çıxardıb yüz tümən dərvişə verdi. Sandığı alıb çıxdı bayıra, soraqlaşıb qoca münəccimin evini tapdı. Döyüb qapını içəri girdi. Gördü ki, pirani bir kişi oturub pambıq içində. Saç-saqqal ağappaq, əlində kitab, qabağında manqal.

Münəccim vəziri görən kimi dedi:

– Ey İbrahim, xoş gəlmisən. Buyur, otur!

Vəziri xof götürdü. Amma ki, dinib danışmadı. Əyləşib münəccimin yanında, istədi münəccimə deyə ki, gəlmişəm səni aparam.

Münəccim dedi:

– Səhər inşallah gedərik.

Vəzir mat qaldı. Elə ki, çay-çörək yeyib toqqalarının altını möhkəmləndirdilər, münəccim dedi:

Sən dur get, mən özüm gələrəm.

– Vəzir durub ayağa, gəldi öz mənzilinə. Götürüb sandığı bina qoydu yol getməyə. Neçə gün yol gəlib axır çatdı evinə. Arvad çıxıb qabağına dedi:

– Ay kişi, evimizə qonaq gəlib.

Vəzir girdi içəri, gördü ki, qoca münəccim gəlib. Vəzirin lap boğazının yolu qurudu. Ədəb salamını verib oturdu.

Qoca münəccim dedi:

– Dur, məni apar padşahın yanına.

Vəzir durub ayağa, qoca münəccimi götürüb gəldi Qoquzun yanına. Qoquz münəccimə yer görsədib oturtdu yanında.

Dedi:

– Ey pirani münəccimbaşı, yuxuda gördüm ki, oturmuşam çəməndə. Bir də gördüm göy guruldadı, göydən bir mələkə enib oturtdu dizimin üstə. Üzümə bir sillə vurub çıxıb getdi.

Münəccim dedi:

– Ey Qoquz şah, bil və agah ol! Çox çəkməyəcək dünyaya bir qız uşağı gələcək. O, böyüyüb on dörd yaşına çatan kimi səni öldürəcək.

Qoquz şah çox bikef olub münəccimbaşıya dedi:

– Tədbir gör! Sənə nə istəsən verərəm.

Münəccim dedi:

– Olacağa çarə yoxdu.

Münəccimbaşı belə deyəndə Qoquz şah qəzəblənib əmr verdi ki, pirani münəccimbaşının boynunu vursunlar.

Pirani münəccimbaşı bərkdən gülüb qalxdı göyə, gözdən itib getdi.



Qoquz şah əmr verdi ki, qoca münəccimbaşını tutsunlar. Heç kim tuta bilmədi. Qoca münəccim bu getməknən gəlib çıxdı öz evinə. Qoquz vəzirə əmr verdi ki:

– Tədbir gör!

Vəzir dedi:

– Bu bəladan canını qurtarmaq üçün bir yol var, o da budu ki, təzə anadan olan qız uşaqlarının boynunu vurdurasan. Bu işi elə görəsən ki, camaat səndən görməyə.

Qoquz vəzirin bu tədbirinə razı olub, bu iş üçün məvacibnən dörd nəfər cəllad tutdurdu. Bu cəlladlar başladılar doğan arvadların qız uşaqlarını beşikdən oğurlayıb öldürməyə.

Sənə kimdən xəbər verim vəzirdən.

Vəzir ki, Urum şəhərindən bir sandıq almışdı, götürüb qoymuşdu evinə. Amma bu günə kimi açıb sandığın içinə baxmamışdı ki, görsün bu sandığın içində nə var.

Bir gün evdə oturmuşdu. Birdən yadına düşdü ki, Urum şəhərində dərvişdən bir sandıq almışdı. Durub ayağa arvadına dedi:

– Arvad, Urumdan alıb gətirdiyim sandığı bəri ver, açaq, görək içində nə var.

Vəzirin arvadı durub sandığı götürüb gəldi. Vəzir durub sandığı açdı. Açan kimi sandığın içində bir nar gördü. Alıb narı əlinə, istədi uzada arvadına, nar sıçrayıb vəzirin əlindən düşdü yerə. Düşən kimi partlayıb, narın içindən on yaşında gözəl bir qız çıxıb oturdu evin küncündə. Vəzirin ürəyi gedib bir tərəfə yıxıldı. Haçannan-haçana vəzir özünə gəlib arvadına da ayıltdı, qıza yaxın gəlib xəbər aldı:

– Ay qız, sən kimsən? Bu sandığın içində neyləyirsən?

Qız dedi:

– Mən Firəng vilayəti padşahının naxırçısının qızıyam. Firəng padşahının qızı olmazdı. Mən anadan olan günü Firəng

padşahı atama xəbər göndərir ki, qızını versin mənə, qızlığa. Atam da padşahın sözündən keçə bilməyib götürüb məni verdi padşaha. Padşah məni bəsləyib düz on yaşına yetirəndən sonra mənim gözəlliyimə heyran olub, istədi məni özünə arvad eyləyə. Atamın da bu işdən acığı tutub məni elədi nar, qoydu bir sandığa, götürüb bazarda satdı, sən də məni almısan.

Vəzir dedi:

– Arvad, bizim nə qızımız, nə də oğlumuz var. Elə yaxşı oldu, götürək bunu qızlığa.

Vəzirin arvadı razı olub bu qızın adını qoydular Nardan xanım, götürüb saxladılar.

Sənə xəbər verim şəhər əhlindən.

Şəhərdə yaşayan camaat baxıb gördü ki, şəhərdə uşaq oğrusu törəyib. Yığılıb, yığışıb padşaha şikayətə getdilər.

Padşah çıxıb camaatın qabağına dedi:

– Nə üçün gəlmisiniz?

Şəhər əhli dedi ki:

Bu şəhərdə uşaq oğrusu peyda olub. Arvadlarımız qız doğan kimi gecə ilə gəlib oğurlayıb aparırlar.

Padşah şəhər əhlini rahat eləyib dedi:

– Siz gedin, uşaq oğrusunu taparam.

Şəhər əhli dağılıb getdi. Sənə xəbər verim Nardan xanımdan.

Nardan xanım böyüyüb on iki yaşa çatmışdı. Bir gün vəzirin arvadıynan hamama gedirdi. Padşah da çıxıb eyvandan baxırdı. Gördü ki, vəzirin arvadıynan bir nazənin sənəm hamama gedir.

Qoquz padşah tez vəzirdən soruşdu:

– Vəzir, sənin arvadınla hamama gedən qız kimdi?

Vəzir dedi:

– Mənim qızımdı.



Padşah dedi:

– Ey vəzir, sənin qızın haçan olubdu ki, mənim xəbərim olmayıb.

Vəzir dedi:

– On iki il bundan qabaq.

Qoquz padşah başını salıb aşağı, dınmədi.

Aradan bir neçə müddət keçəndən sonra Qoquz padşah Nardan xanımın məhəbbətini salıb ürəyində dedi:

– Necə olsa gərək qızı görəm.

Durub vəziri çağırıb dedi:

– Vəzir, bu axşam sizə gələcəyəm.

Vəzir baş əyib durub gəldi evinə, arvadına dedi:

– Arvad, Qoquz padşah bizə qonaq gələcək, axşama qonaqlığa hazırlıq gör!

Vəzirin arvadı axşama tədarük görüb, aş bişirib qazan qaynatdı. Axşam Qoquz padşah durub vəzirin evinə qonaq gəldi. Bir az şirin-şirin gülüb danışandan sonra Qoquz padşah göz gəzdirdi ki, Nardan xanımı görə. Nə illah elədi Nardan xanımı görə bilmədi. Axırda əl qabı mahnasilə durub bayıra çıxdı. Nardan xanım da vəzirin arvadıyla mətbəxdə aş bişirirdilər. Qoquz padşah mətbəx qapısında Nardan xanımı görən kimi tez əl qabını yerə qoyub qayıtdı dala. Özünü saxlaya bilməyib gəlib vəzirə dedi:

– Vəzir, mən bərk sancılanmışam, gedirəm.

Vəzir nə illah elədi ki:

– Qal, xörək ye!

Qoquz padşah qalmayıb, durub gəldi evinə. Neçə gün, neçə gecə divan işinə baxmayıb, bir yanı üstə yatıb Nardan xanımın eşqindən dəli-divanə oldu.

Bir gün vəzir durub gəldi Qoquz padşahın yanına, dedi:

– Padşah sağ olsun, neçə gündü ki, divana baxmırsan, səbəbi nədi?

Qoquz padşah dedi:

– Dərdim çoxdu.

Vəzir dedi:

– Gəl dərdini mənə de, bəlkə mən dərdinə əlac eləyəm.

Padşah dedi:

– Allahdan gizli deyil, səndən nə gizlədim? Gərək qızını verəsən mənə.

Vəzir bu sözdən başını aşağı salıb dinmədi. Ürəyindən keçirtdi ki, ay aman, bu, bizə Nardan xanımı görmək üçün gəlibmiş. Vəzir getdi fikrə.

Qoquz padşah dedi:

– Vəzir, daha səbir eləyə bilmirəm. Gərək Nardan xanımı verəsən mənə.

Vəzir dedi:

– Padşah sağ olsun, izin ver gedim qıznan məsləhətləşim, bəlkə qız razı olmadı.

Qoquz padşah izin verdi. Vəzir durub gəldi evinə, gördü ki, Nardan xanım evdə təkdi. Nardanı çağırıb dedi:

– Qızım, bizim padşaha ərə gedərsən?

Nardan xanım dedi:

– Mən ərə gedən deyiləm.

Vəzir suyu süzülə-süzülə durub gəldi Qoquz padşahın yanına. Nardan xanım necə demişdi, elə də dedi Qoquz padşaha.

Padşahı od götürüb lap dəli-divanə oldu. Gün keçdi, həftə dolandı, bir gün padşah bağda gəzib dolanırdı, gördü ki, küçədə iki uşaq (uşaqların biri keçəl idi) aşıq-aşıq oynayır. Bu vaxtı uşaqların biri başladı cığallığa. Keçəl aşığı götürüb qaçdı. O biri uşaq dedi:

– Aşığımı ver!



Keçəl dedi:

– Allah vurmuşdu səni. Mən də sənin üçün Qoquz padşah deyiləm ki, Nardan xanımın dərdindən saralıb solam, aciz qalam.

Keçəl belə deyən kimi Qoquz padşah yapışıb keçəlin biləyindən, çəkdi bağa, dedi:

– Ey vələdizna, sən nə bilirsən ki, mən Nardan xanımın eşqindən bu kökə düşmüşəm?

Keçəl dedi:

– Əvvəl qarnımı doydur, sonra deyim.

Qoquz padşah durub keçəli apardı aşpazın yanına, qarnını doydurub, götürüb gəldi otağına:

Keçəl dedi:

– Padşah sağ olsun, bir yandan Nardan xanım sənə getmək istəmir, o biri yandan da vəzir qızı sənə vermək istəmir. Sən ta ki, vəziri öldürməsən qızı ala bilməzsən.

Qoquz padşah dedi:

– Bəs necə eləyim ki, vəziri öldürüm?

Keçəl dedi:

– Mənim nənəm yaxşı xalça toxuya bilir. Sən vəziri göndər bizim evə ki, bizdən sənin üçün xalça alsın. O xalçaya gələndə mən də çıxaram dama. Evimizə girəndə başına daş salıb öldürərəm.

Padşah razı oldu. Keçələ bir qızıl verib yola saldı. Bu tərəfdən də vəziri çağırıb dedi:

– Vəzir, filan keçəlin evində bir əntiq xalça var. Gəlsənə gedib xalçaya bir baxasan. Əgər xoşuna gəlsə, elə orda pulunu ver, xalçanı al gətir.

Keçəl çıxıb damda oturmuşdu ki, gördü ki, vəzir gəlir. Tez böyük bir daş tapıb içəri girən kimi saldı vəzirin başına. Vəzir elə oradaca öldü. Götürüb vəzirin meyidini gecəynən

atdı bazarın ortasına, çıxıb gəldi. Səhərdən Qoquz padşaha xəbər getdi ki, vəzir ölüb. Padşah vəzirini kəfn-dəfn edib eləyib durub gəldi vəzirin arvadının yanına. Başsağlığı verib, bir də Nardan xanıma məhəbbətnən baxıb, çıxıb getdi.

Aradan bir müddət keçdi. Bir gecə Nardan xanım oturmuşdu evdə, bir də gördü ki, qapı döyüldü. Otağa iki adam girib dedi:

– Padşah səni çağırır.

Nardan xanım getməyib gələn elçiləri də qovub, qapıları bağlayıb oturdu içəridə.

Qoquz padşaha xəbər çatdı ki, Nardan xanım gəlmir. Padşah qəzəbləndi, əmr verdi ki, səhərnən Nardan xanımın boynu vurulsun.

Gecəni Qoquz padşah yatdı. Bu dəfə yuxuda gördü ki, göydən bir mələkə enib dəydi ürəyinin başından. Qoquz tez yuxudan ayılıb səhərə kimi yata bilmədi. Səhər divanxana vaxtı durub gəldi divanxanaya, adam göndərdi münəccim üçün. Münəccim gəldi. Qoquz padşah yuxusunu münəccimə nəql elədi.

Münəccim dedi:

– Qabaq gördüyün yuxunun mənası yavaş-yavaş yaxınlaşır, özünü gözlə!

Münəccim çıxıb gedəndən sonra Qoquz padşah qoca münəccimin dediyi sözü yadına salıb, Nardan xanımı yaddan çıxartdı. Bu tərəfdən də camaat şikayətə gəlirdilər ki, bəs arvadımız qız doğur, səhəri oğurlayırlar. Bizim səbir kasamız doldu. Qız üzünə həsrət qaldıq.

Qoquz padşah baxıb gördü ki, işlərin qabağı çox qarışıq gəlir. Birdən ağlına gəlib dedi:

– Camaat, mən baxıb görürəm ki, sizin şikayətiniz qurtaran deyil, mən də o uşaq oğrusunu tapa bilməyəcəyəm. Sabahdan başlayın bir mərtəbəli ev tikin! Pulu məndən. Arvadlarınız nə ki, qız doğdu, gətirin yığın o otağa, görək başımıza nə iş gəlir.



Camaat padşahın tədbirindən xoşlanıb günü o gün başladılar bir mərtəbəli imarət tikməyə. Çox çəkmədi ki, imarət tikilib qurtardı. Qoquz padşah xəzinədən pul ayırıb, iki dənə dayə tutub doğan arvadların qız uşaqlarını yığıb bu təzə imarətdə saxlamaqda olsun, sənə xəbər verim kimdən, Nardan xanımla Qoquz padşahdan.

Bir gün yenə də Qoquz padşahın eşqi cuşa gəldi. Durub gəlməkdə olsun Nardan xanımın yanına. Nardan xanım oturmuşdu evdə, gördü ki, Qoquz padşah gəlir, tez durub ayağa istədi çıxa bayıra. Padşah qırğı kimi alıb Nardan xanımın başının üstünü dedi:

– Nardan xanım, gəl bu daşı ətəyindən tök!

Nardan xanım baxıb gördü ki, Qoquz padşah bundan əl çəkən deyil, dedi:

– Padşah sağ olsun, bir il mənə möhlət ver! Bir ildən sonra mən sənin, sən mənim.

Qoquz padşah razı oldu, durub gəldi evinə.

İndi sənə xəbər verim Nardan xanımdan.

Nardan xanım eşitmişdi ki, bu şəhərdə uşaq oğrusu var, amma tapmayırlar.

Durub bir gecə geyinib-gecinib pəhləvan paltarında çıxdı bayıra. Gördü ki, hansı evə gedirsə, yasdı. Amma şəhərin qırağında bir ev var, burda çalğıdı, oxumadı, kefdi. Əyilib pəncərədən gördü ki, bu evin başında qoca bir kişi altında döşək, dalında balış, yorğanı da qurşağacan səriyib özünə oturubdu. Qabağında bir oğlan, bir qız, biri saz çalır, biri dəf çalır, qoca da qulaq asır. Arada da elə oxuyur ki, gəl görəsən...

Nardan xanım qapını döydü. Qapını açdılar. Nardan xanım girdi evə. Uşaq durub Nardan xanımdan xəbər aldı:

– Kimi istəyirsən?

Nardan xanım dedi:

– Allah qonağıyam. Mənə bu gecəliyə yer verin!

Nardan xanım keçıb oturdu. Uşaqlar başladılar çalmağa, qoca kişi başladı oxumağa, Nardan xanım da oturub qulaq asırdı.

Oğlan birdən dəfi vurdu yerə, qız da sazı qoyub yerə, başladılar qurşaq yapışmağa. Qız oğlanı qoyub dizinin altına başladı əzişdirməyə. Qoca gülüb qəşş elədi. Haçandan-haçana əlini atıb döşəyin altından bir çubuq götürüb uşaqları vurdu. Uşaqlar ayrılıb bir-birindən, hərəsi bir yana yıxılıb yatdılar.

Nardan xanımı fikir aldı ki, bu necə olan işidi... Qoca üzünü Nardan xanıma tutub dedi:

– Ey qonaq, xoş gəlmisən!

Nardan xanım dedi:

– Sağ olasan!

Qoca əlini uzadıb yanındakı sandığın içindən bir parça quru çörək, bir nəlbəki bal götürüb uzatdı Nardan xanıma. Nardan xanım alıb çörəknən balı qoydu qabağına, bir tikə yeyib, əlini süfrədən çəkdi.

Qoca dedi:

– Ey pəhləvan, tərsliyinə salma! Gəl otur çörəyini ye! Sənin mənim sirrimnən nə işin var?

Nardan xanım dedi:

– Ey qoca, əgər mənə sirr verməsən bu iki uşağın başın kəsib, durub gedəcəyəm.

Qoca fikrə gedib dedi:

– Ey pəhləvan, bil və agah ol, mənim bu sirrimi heç kəs bilməyir. Mən sirrimi heç kimə deməyib ürəyimdə saxladığım üçün bu kökə düşmüşəm.



Qoca yorğanı dizinin üstündən götürdü. Nardan xanım baxıb gördü ki, qocanın qıçları ta qurşağacan yoxdu. Qoca yorğanla dizini örtüb yenə dedi:

– Gəl mənim ölümümə bais olma!

Nardan dedi:

– Gərək danışasan.

Qoca dedi:

– Mən Qoquz padşahın bağbanı idim. Cavan idim, olardım on altı sinnidə. Bir gün Qoquz padşah məni Ərəbistana xurma üçün göndərdi. Mən də getdim. Gələndə bir ərəb qızı mənə aşiq oldu. Alıb ərəb qızını da özümlə gətirdim. Xurmanı Qoquz padşahın bağında əkdim. O zaman padşah hələ cavan idi. Mən pul yığdım ki, toy eləyim, ərəb qızını alım. Gördüm ki, toya qüvvəm çatmır, mən də bir xonça tutub apardım Qoquz padşah üçün, öz dərdimi açıb dedim ona.

Qoquz padşah dedi:

– Götür gəl adaxlıvu görüm necə şeydi. Özünə layiq də toy eləyim.

Mən də razı oldum. Çünki ata-babadan biz eşitmişik ki, padşah olan şəxs yerin Allahıdı. Mən də durub ərəb qızını aparıb göstərdim Qoquz padşaha. Qoquz padşah ərəb qızını görən kimi gördüm gözləri dörd oldu. Mən yenə bir şey başa düşmədim.

Mənə dedi ki:

– Bu qızın toy xərci mənim boynuma. Burax hərəmlərin yanında qalsın. Mən sənin üçün bir-iki günə toy elərəm.

Mən bu zalımı adil bilib inandım. Ərəb qızını öz əlimlə hərəmxanada qoyub gəldim. Aradan bir həftə keçəndən sonra durub padşahın yanına gəldim ki:

– Ver ərəb qızını aparım.

Padşah məni qovdu. Mən də cavandım. Səbir eləyə bilmədim, ağzımdan bir neçə pis söz çıxartdım.

Qoquz padşahın acığı tutub məni zindana saldı. Mən zindanda qaldım. Qoquz padşah da ərəb qızını istədi özünə arvad eləyə, ərəb qızı əl vermədi, nə ərəb qızı fikrindən döndü, nə də mən ərəb qızından əl çəkdim. Bir gecə ərəb qızını götürüb qaçdım. Qoquz padşah yenə də gəlib bizi tapıb ərəb qızını mənim əlimdən aldı, məni də tutub zindana saldı. Hər gecə Qoquz gələrdi yanıma, mənə deyərdi ki:

– Gəl razı ol, ərəb qızını mən alım.

Mən razı olmurdum. Zor-güc ərəb qızını Qoquz padşah özünə arvad elədi. Mən səbir eləyə bilmədim. Daha dərd ürəyimə vurdu. Bir yandan da nəmişlik iki qıçımı çolaq elədi. Qoquz padşah işi belə görüb məni açdı, buraxdı, mən də gəlib şəhərin qırağında özümə bu evi tikdim.

Bu iki uşağı da alıb saxlamışam. Bunlar çalırlar, mənim könlüm açılır, qurşağı da ona görə tutdururam ki, bəlkə böyüyüb pəhləvan olub, axırda mənim qisasımı Qoquz padşahdan alalar.

Qoca sözün tamam elədi. Nardan xanım gecəni qalıb səhərdən durub gəldi evinə.

Axşam olan kimi yenə Nardan xanım geyinib pəhləvan paltarı, düşdü bu şəhərə. O qapı mənim, bu qapı sənin, gəzib, pəncərələrdən baxıb bir təzə söz öyrənirdi. Qayıdıb evinə gələndə gördü ki, evlərin birində vaveyladı. Ana deyir "qızım", qardaş deyir "bacım", Nardan xanım səbir eləyə bilməyib girdi içəri, xəbər aldı:

– Ay ev yiyəsi, bu nə vaveyladı?

Qoca bir arvad vardı, qayıdıb dedi:

– Ey pəhləvan, sən məgər bu şəhərə təzə gəlmisən?

Nardan xanım dedi:

– Bəli, qəribəm, təzə gəlmişəm.

Arvad dedi:



– Bizim şəhərdə qız oğrusu var, qız uşağı bu gün anadan olur, səhər oğurlanır.

Nardan xanım belə eşidən kimi dayanmayıb, çıxıb getdi evinə. Gecəni yatıb səhər tezdən durub gəldi Qoquz padşahın yanına. Qoquz padşaha dedi:

– Ey padşah, eşitmişəm sənin şəhərində qız uşaqlarını oğurlayırlar. Gərək uşaq oğrusunu tapasan. Tapmasan taxtını qanla doluraram.

Qoquz padşah qəzəblənib əmr verdi ki, tutun bunu.

Belə deyəndə Nardan xanım tez çıxıb bayıra pəhləvan paltarını soyundu, öz paltarını geyindi, oturdu evində.

Gecə olan kimi durub geyindi pəhləvan paltarını, çıxdı bazara. Gəzib dolandı, gördü ki, bir yerdən işıq gəlir. Yeridi irəli gördü ki, Qoquz padşahdı, qucağında üç aylıq uşaq. Tutub uşağı aldı padşahın əlindən. Nardan xanım padşahı tanıdı, amma padşah Nardan xanımı tanımadı.

Padşah uşağı Nardan xanımın qucağına verən kimi qaçdı. Nardan xanım da uşaq qucağında qaçdı padşahın dalınca. Qoquz padşah öz adamlarına çatıb qışqırdı:

– Tutun bunu!...

Qoquz padşahın adamları hücum elədilər Nardan xanıma. Nardan xanım istədi macal eləyib uşağı yerə qoysun, əl atsın qılınca, daldan yapışıb Nardan xanımın iki qolunu möhkəm sarıyıb, götürüb saldılar dustağa. Qoquz padşah gecəynən uşaq olan mənzilə od vurub odladı. Camaatın uşaqları yanıb tələf oldu.

Qoquz padşah səhər camaatı yığıb bir yerə elan verdi ki, uşaq oğrusunu tapmışam, sabah dara çəkiləcək.

Səhər meydan salınıb dar ağacı quruldu. Nardan xanımı götürüb gəldilər dar ağacının altına. Qoquz padşah çıxıb camaatın qabağına, dedi:

– Ey camaat, siz hələ məndən narazılıq eləyirdiniz ki, uşaq oğrusunu tapmırsan. Bütün sizin qız uşaqlarınızı oğurlayan budu.

Camaat hər yerdən Nardan xanıma min təsbeh lənət oxudular. Arvadlar istədilər Nardan xanımı daşa bassınlar, amma cəlladlar qoymadı. Padşah əmr verdi ki, salsınlar ipi bu məlunun boğazına. Cəlladlar ipi hazır edib istədilər salalar Nardan xanımın boğazına, Nardan xanım tez niqabı üzündən götürüb üzünü padşaha göstərdi. Qoquz padşah Nardan xanımı tanıdı, amma əli heç bir yana çatmadı. Qoquz padşah tutduğu işdən çox peşman oldu.

Cəlladlar ipi Nardan xanımın boğazına salan kimi, bərk bir xəzri qopdu, toz, torpaqdan göz-gözü görmədi. Nardan xanım ipi atıb özünü vurdu camaatın arasına, tez aradan çıxıb qaçdı.

Çox çəkmədi xəzri dayandı. Cəlladlar baxıb gördülər ki, dara çəkilən adam qaçıb. Camaat axtarmamış yer qoymadı, amma onu tapa bilmədilər.

Xəbər verim sənə Nardan xanımdan.

Nardan qaçıb özünü saldı meşəyə. Bir neçə gün o yanda, bu yanda başını girləyib bir təhərnən meşədən çıxdı, üz qoydu getməyə. Az gedib çox dayandı, çox gedib az dayandı, gəlib çatdı Rəm şəhərinə. Girib şəhərə gördü ki, burda bir bağ var, gəl görəsən. Lalələr gül açıb bülbüllər cəh-cəh vurur, dünyada nə istəyirsən, hansı meyvəni deyirsən, bu bağdadı. Nardan xanım girib bağa meyvə dərib yedi, uzanıb reyhan güllərin yanında yatdı.

Sənə xəbər verim Rəm vilayətinin padşahının qızı Zərnigar xanımdan.

Zərnigar üçün neçə müddətdi ki, şəhərbəşəhərdən elçilər gəlirdi. Zərnigar heç kimə ərə getmirdi. Zərnigarın atası lap təngə gəlmişdi, and içmişdi ki, Zərnigarın bir də işinə qarışmasın. Odu ki, gələn elçilərin də cavabını Zərnigar verib qaytarırdı.



Bir gün Zərnigar bağa çıxıb gəzirdi, gördü ki, ağacların dibində bir cavan oğlan yatıbdı. Oturub Nardan xanımın başının üstündə, başladı Nardan xanımın üzün, gözün silib təmizləməyə.

Nardan xanım ayılıb gördü ki, başının üstündə gözəl bir qız oturub. Dodaqaltı gülüb yerindən qalxdı.

Zərnigar Nardan xanıma dedi:

– Ey oğlan, adın nədi, nəkarəsən?

Nardan xanım işi başa düşüb dedi:

– Adıma Əhməd deyərlər, özüm de Urum padşahının oğluyam.

Zərnigar dedi:

– İstədiyimi Allah yetirdi.

Zərnigar özünü saxlaya bilməyib öz ürəyindəki məhəbbəti Nardan xanıma açıb dedi:

– Ey Əhməd, sevirəm səni, gərək məni alasan.

Nardan xanımın boğazının yolu quruyub dinmədi. Zərnigar bir də məhəbbətini deyib sarıldı Nardan xanımın boynuna ki:

– Əhməd, dur gedək mənim mənzilimə.

Nardan xanım durub gəldi Zərnigarın mənzilinə, qapını bağlayıb gecəni yatdılar.

Səhər tezdən Nardan xanım ayılıb bağa çıxdı. Neçə vaxt idi ki, soyunub çimməmişdi. Öz-özünə dedi: yaxşı oldu, gedib çimərəm, sonra Allah kərimdi. Durub verdi özünə çaya. Bir o yana baxdı, bir bu yana baxdı, gördü ki, heç kim yoxdu, soyunub girdi çaya. Bu çimməkdə olsun, al xəbərin padşahın bağbanının oğlu Murtuzdan.

Murtuz gözəşirin oğlanların biriydi. Çıxıb səhər-səhər bağı gəzirdi, gördü ki, çayın içində bir süd kimi ağappaq şey görünür. Durub gəldi çaya tərəf, nə gördü...Cavan bir qız çay-

da çimir. Özün verdi irəli ki, qızın paltarını götürsün, gördü ki, yerdə oğlan paltarı var. Murtuz əl saxlayıb dayandı. Birdən Nardan xanım Murtuzu görüb dedi:

– Ey cavan, çəkil geyinəcəyəm, qoy geyinim.

Nardan belə deyəndə Murtuz çəkildi dərənin içinə. Nardan xanım alababat geyindi. Murtuz gəlib Nardan xanımın yanına, dedi:

– Ay qız, nəçisən!

Nardan əvvəl istədi Murtuza cavab verməyə. Sonra baxıb gördü ki, bu gözəşirin oğlandı. Murtuzun məhəbbətini salıb ürəyinə, yaxın gəldi Murtuza. Hər ikisi oturub çəməndə öz ürək sirlərini bir-birinə açdılar, söhbətdən sonra Nardan xanım başına gələn hekayəti başdan axıra kimi Murtuza nəql elədi.

Sənə xəbər verim kimdən, Zərnigardan.

Zərnigar xanım ayılıb gördü ki, sevgilisi Nardan xanım yanında yoxdu. Durub çıxdı bayıra, özün yetirdi bağa. Nardan xanım başıaçıq oturmuşdu, saçları anduz yarpağı kimi tökülüb çiyinlərini bürümüşdü. Zərnigar baxıb gördü ki, bağbanın oğlu Murtuz bunun bağında bir qıznan söhbətdədi. Acığı tutub qayıtdı evinə. Qaravaş göndərdi ki, Murtuzu çağıralar. Bu tərəfdən də Nardan geyinib yenə pəhləvan paltarı, Murtuzdan ayrılıb çıxdı bağdan. Qaravaş gəlib Murtuzu tutub Zərnigar xanımın yanına apardı.

Zərnigar xanım Murtuza dedi:

– Ey haramzada, mən səni bağımda nökər saxlamışam, yoxsa qızlarnan keyf çəkməyə saxlamışam?

Murtuz dedi:

– Xanım, nə qız? Mən heç bağda qız görməmişəm.

Belə deyəndə Zərnigar xanımın acığı tutub Murtuzu saldı zindana.



Nardan xanım Zərnigarın yanına gəlirdi, gördü ki, Murtuzu dustaqxanaya aparırlar. Tez özün yetirdi, Murtuzdan xəbər aldı ki:

– Səni kim tutdurub?

Murtuz dedi:

– Zərnigar xanım.

Nardan xanım özün yetirib Zərnigara dedi:

– Ey sevgilim, məni istəyirsən?

Zərnigar dedi:

– Bəli, istəyirəm.

Nardan xanım dedi:

– İndi ki, məni istəyirsən, nə desəm yerinə yetirərsənmi?

Zərnigar dedi:

– Yerinə yetirərəm. Təki sən mənə bir söz buyur.

Nardan xanım dedi:

– Ey sevgilim, gözümün işığı, Murtuzu mənə bağışla! Mən özüm onun tənbehini eləyim.

Nardan xanım belə deyəndə Zərnigar dedi:

– Ey Əhməd, get bağışladım.

Zərnigar adam göndərib Murtuzu buraxdırdı. Özləri də başladılar söhbətə. Gün batan kimi Nardan xanım durub gəldi Murtuzun yanına. Yalanbaşdan Zərnigarın başını aldadıb, tez durub gedərdi Murtuzun yanına. Gecəni səhərə kimi Murtuznan keçirərdi.

Xəbər verim sənə kimdən, Zərnigarın atasından. Zərnigarın atası padşahdı. Bir gecə durub əlqabına çıxırdı, gördü ki, qızının bağından işıq gəlir. Tez özünü yetirib bağa, gəlib çatdı Murtuzun evinə baxıb gördü ki, bağban oğlu bir qıznan yatıbdı ki, dünyada heç misli yoxdu. Gözəllikdə bəeyni Züleyxa. Padşah dayana bilməyib yıxıldı yerə.

Haçandan-haçana özünə gəlib durdu ayağa. Geri dönüb, bir neçə nəfər adam göndərdi, Nardan xanımla Murtuzu götürüb gətirtdi. Əmr verdi ki, Murtuzu salsınlar zindana, Nardan xanımı da öz otağına. Padşah necə dedi, elə də elədilər. Murtuz zindanda qalsın, al xəbəri Nardan xanımla padşahdan.

Padşah durub gəldi Nardan xanımın yanına. Nardan xanıma bir dəst zənən paltarı verib geyindirəndən sonra dedi:

– Ey taci-təxti-sərim, gəl ulduzumuzu barışdıraq.

Nardan xanım dedi:

– Bizim ulduzumuz barışan ulduz deyil.

Belə deyəndə padşah istədi güc göstərsin. Nardan xanım qalxıb padşaha bir şillə çəkdi. Padşah özündən gedib yıxıldı kənara. Ağız-burnu qan oldu. Sonra ayağa durub Nardan xanımı saldırdı zindana. Qəza işi avanda gətirdi, Nardan xanımın zindan otağı Murtuzun zindan otağının yanında oldu, arada bircə arakəsmə var idi. Nardan xanım gecəyarı durub dedi:

– Hər təhər olsa burdan qaçmalıyam.

Durub ara divarı qazmağa başladı. Haçandan-haçana bir deşik açıb keçdi o biri otağa. Gördü ki, şam işığında burda bir cavan yatıbdı.

Şamla oğlanın üzünə baxıb gördü ki, Murtuzdu. Tez Murtuzu ayıldıb dedi:

– Sən paltarını ver mənə, sən də mənimkini gey! Mən çıxım burdan, sonra səni qurtarram.

Murtuz razı oldu. Soyunub paltarını Nardan xanıma verdi. Nardan xanım da soyunub paltarını Murtuza verdi. Səhər Nardan xanım Zərnigara bir kağız yazıb göndərdi.

Zərnigar kağızı alıb oxuyub bildi ki, Əhməd (Nardan) zindandadı. Tez gəlib atasından gizlin Nardan xanımı zindandan çıxartdı. Nardan xanım zindandan çıxan kimi tez özünü yetirib evə, pəhləvan paltarını geyib qılıncı bağladı, gəlib zindanın qabağındakı zindançıları vurub öldürüb, Murtuzu götürüb apardı.



Padşaha xəbər getdi ki, təzə pəhləvan peyda olubdu, durma özünü yetir. Zindanbanları vurub öldürdü.

Padşah əmr verdi, qoşunu sel kimi tökdü meydana. Nardan xanım açıb qollarını şir kimi vurub özünü dəryayi-ləşkərə, başladı qoşunu qırmağa. Nardan xanım gələn-gələn qoşunları qırıb tökdü, əl atıb padşahı taxtdan salıb, cəhənnəmə vasil elədi. Vəziri onun yerinə padşah tikib, Zərnigar xanımın yanına gedib dedi:

– Ey Zərnigar, bil və agah ol, mən qızam.

Bütün başına gələni Zərnigara danışıb dedi:

– İndi mən gedirəm.

Zərnigar dedi:

– İndi ki, gedirsən, məni də apar.

Nardan xanım üç at götürüb Murtuz və Zərnigar ilə bina qoydu yol getməyə. Gəlib Qoquz padşahın torpağına orda ki, onu dara çəkirdilər, dayanıb meydanda bir nərə çəkdi. Qoquz padşah adam göndərdi ki, gedib görsünlər o nərə çəkən kimdi. Adam gəldi. Nardan xanım gələn adamın boynunu vurub saldı yerə.

Qoquz padşah gördü ki, gedən getdi, daha gəlmədi. Yenə adam göndərdi, Nardan xanım gələnin boynunu vurdu. Axırda padşah qəzəblənib qoşun göndərdi. Nardan xanım baxıb gördü ki, qoşun gəldi. Əl atıb qılınca vurdu özünü dəryayi-ləşkərə, qırıb qoşunu axıra çatdı. Padşah qoşun göndərdi, pəhləvan göndərdi. Nardan xanım nə ki vardı, qırıb qurtardı. Axırda Qoquz padşah meydana gəlib Nardan xanımla qılıncbaqılınc gəldi. Gördülər ki, qılıncdan bir şey çıxmadı, əl atdılar toppuza. Baxıb gördülər ki, toppuzdan da bir şey çıxmadı, başladılar güc eləməyə. əl atdılar bir-birinin kəmərlərinə.

Heç birinin bir-birinə gücü çatmadı. Axırda Nardan xanım lap təngə gəldi, əl atıb tutdu Qoquz padşahın kəmərindən, nərə çəkib götürüb çırpdı yerə. Çıxıb Qoquz padşahın sinəsinin üstə, başını kəsib keçirtdi nizənin başına.

Nardan xanım yığıb camaatı, bu padşahın necə zülmkar olub beşikdəki qız uşaqlarını oğurlayıb qırmağını, hamısını camaata nəql elədi. Camaat Qoquz padşaha lənət oxuyub, Nardan xanımı özlərinə padşah tikdilər.

Nardan xanım bir neçə gün padşahlıq eləyib Murtuzu taxtda oturdub dedi:

– Mən gedirəm beş günə gəlləm.

Nardan xanım minib ata, üz qoydu öz vətəninə sarı. Yetişib şəhərinə ata-anasını tapıb görüşəndən sonra atası qızının əhvalını xəbər aldı.

Nardan xanım başına gələni atasına danışıb dedi:

– Sən həya-abrından ötəri məni nar eləyib satdın, məni bu padşahın əlindən qurtardın, mən də gərək səni qurtaram. Nardan xanım bu şəhərin də padşahını öldürüb, qoşunlarını özünə təslim elədi, sonra öz atasını burda padşah tikib, qayıdıb gəldi Murtuzun yanına. Yeddi gün, yeddi gecə toy eləyib Murtuznan murad hasil elədilər.

### Gül ilə Sanavar

Biri var idi, biri yox idi. Günlərin bir günündə bir padişah var idi. Bu padişahın üç oğlu vardı. Günlərin bir günündə üç qardaş bir-birinə diyirlər:

– Gəlin, atamıza xəbər yollayaq ki, biz yetişmişik.

Qardaşlar bazara çıxıb üç dənə qovun alırlar. Bu üç qovunun biri lap yetişmiş, o biri miyanə, üçüncisi alababat. Bu



üç qovunu qızıl məcməyiyə qoyub ataları üçün yolladılar. Padişah qovunu görüb tez vəziri çağırtdırdı:

– Vəzir bu qovunlar nə olan işdir?

Vəzir dedi:

– Padişah sağ olsun, bu qovunları oğlanların alıb, yəni biz bu qovunlar kimi yetişmişik.

Padişah fikrə getdi.

– Eybi yoxdur, vəzir get bu saat üç dənə ox gətir, apar ver oğlanlarıma qoy nişan alsınlar, bəxtlərinə nə çıxdı onların olsun.

Səhər oldu, car çəkildi, heç kim evdən bayıra çıxmasın. Padişahın oğlanları ox atdılar. Birininki vəzirin qapısına düşdü. O birinki vəkilin qapusuna düşdü. Vəzirin qızını padişahın böyük oğlu aldı. Vəkilin ortancılı aldı.

Xəbəri sizə, padişahın kiçik oğlundan. Məlik Düçar ox atdı. Oxu gedib düşdü bir qara küllügə. Məlik Düçar onun düşdügü yerə gedib gördü ki, bir meymun qızıl zəncirə bağlanıb. Məlik Düçar meymunu açıb yola düşdü. Padişaha xəbər getdi ki, kiçik oğlunun bəxtinə bir meymun çıxıb. Padişah qəmli oldu. Əmr verdi ki, şəhərin bir qırağında ona əv versinlər. Məlik Düçar meymunu götürüb getdi. Böyük qardaşlar qırx gün, qırx gecə toy edib evləndilər.

Məlik Düçar meymunu əvinə aparıb bir tərəfdə bağladı. Gecə-gündüz ağlayırdı. Günlərin bir günündə iki qardaş bir-birinə dedi:

– Görəsən Məlik Düçar meymun ilə nə edir?

İkinci qardaş dedi:

– Gəl, Məlik Düçar üçün xəbər yollayaq ki, atamız bizdən hamam istəyir.

Bir gün Məlik Düçarı çağırtdırıb dedilər:

– Atamız bizdən hamam istiyir.

Məlik Düçar evə qayıtdı, ağlaya-ağlaya meymunun yanına gəldi. Bu meymun pərilər padişahının qızı idi. Meymun Məlik Düçarın bu halını görüb dedi:

– Mən pərilər padişahının qızıyam. Mən sənin bəxtinə çıxdım.

Məlik Düçarın gözləri işıqlandı. Meymun cilitdən çıxıb bir qız oldu.

Məlik Düçar dedi:

– Atamız bizdən bir hamam istəyir.

Pərilər qızı dedi:

– Durma, gedərsən pərilər padişahının yanına, diyərsən ki, qızı pərilər xanım deyir ki, atamdan qalan qarpuzı versin. Sora o qarpuzu götürərsən.Gün batanda yox, gün çıxan tərəfdə qarpuzı yerə vurarsan, qayıdıb dala baxmıyasan.

Məlik Düçar getdi. Ağacı yerə vurub pərilər xanımın atasından qalan qarpuzı uzatdı.

Qarpuzu alıb gün çıxan tərəfə gəldi. Qarpuzu yerə çırpıb dala baxmadan geri döndü.

Padişah səhər yuxudan durub bağa çıxdı. Bir sağa baxdı nə gördü bir hamam tikilib. Sola baxdı, nə gördü, biri də burda tikilib. Gün padişahın gözinə düşdi. Əmma gün çıxanda bir hamam tikilib ki, adamın ağlını alır. Padişah vəziri hüzüra çağırdıb dedi:

– Vəzir, bu gün gərək oğlanlarımın tikdirdigi hamamlara tamaşa edim.

Vəzir, vəkil yığışıb padişahın yanına düşüb getdilər. Padişahın böyük oğlun, sora ortancılısının hamamına gedib, axırıncısı Məlik Düçar tikdirdigi hamama gəldi. Padişah hamamın qapusuna çata-çatmiya qullar-qarabaşlar padişahı əl üstə götürüb təxtə oturdular. Padişah çimdi. Əmma bu hamam padişahın huşini aparmışdı.



Belə bir imarət xəbəri qardaşlara çatdı. "Vay dad, Məlik Düçar bizi apardı. Atamız bizim tikdirdigimiz hamamı bəgənmədi".

Ortancıl qardaş dedi:

– Gəl, bu dəfə Məlik Düçarı qonaq çağıraq. Belə diyək, guya atamız deyir ki, gərək Düçar adaxlısını da gətirsin. Onun da adaxlısı meymun olduğu üçün gəlib pərt olacaq.

Qardaşlar xəbər yolladılar Məlik Düçar üçün. Məlik Düçar pərilər xanımının yanına gəlib dedi:

– İndi atam səni qonaq çağırır, mən sənin üçün neçə edim?

Pərilər xanımı dedi:

– Al bu ağacı, get həmən küllügə, ağacı vur yerə, digilən ki, pərilər padişahının qızı, pərilər xanım deyir ki, atamdan qalan qızıl sandığı versin, ancaq dala baxmazsan.

Məlik Düçar yol elədi küllügə. Çatdı, ağacı yerə vurub dedi:

– Pərilər padişahının qızı pərilər xanım deyir ki, atamda qalan qızıl sandığı versin.

Məlik Düçar sandığı alıb gətirdi. Qız geyinib-keçinib Məlik Düçara dedi:

– İmdi gedək, al bu cildi bağla kürəkimin ortasına. Vay onda ki, qardaşların cildimi yandıralar. Onda məni dayi görməzsən.

Qardaşlar böyük qonaqlıq etmişdilər. Öz atalarını da çağırmışdılar. Məlik Düçar öz adaxlısı ilə məclisə girdilər, padişah vəzirə dedi:

– Vəzir, bu nə olan işdir? Bunun bəxtinə ki, meymun çıxmışdı.

Hamu oturdu, məclisin gözi Pərilər xanımında idi. Pərilər xanım bir pilov nimçədən götürüb qolunun içinə tökür, yarısın yeyir. Baldızdar bunu görüb, bular da dügünü qollarına

tökürlər. Xörək yeyildi, süfrə yığışdı. Böyük baldız durdu oynadı qolların tərpədəndə dügü səpələndi padişahın saqqalına. Sora Pərilər xanımı durdu oynadı, hər dəfə fırlananda yerə mirvari səpələndi. Padişah əl vurdu.

Xəbəri verim sizə qardaşlardan. Bu dəm bir manqal od qalayıb Məlik Düçarı oynatmaq bəhanəsilə dərini belindən açıb oda atdılar. Pərilər qızı vay diyib bir göyərçin oldu getdi. Gəldi bir ağac başında oturub dedi:

- Məlik Düçar, mən getdim. Dəmir hasavın ucu yeyiləndə, dəmir çarığının altı sürtüləndə məni taparsan.

Padişahın əhvalı pozuldu. Məlik Düçar o günü ağladı. Səhəri durub dəmir çarıq giyib dəmir hasa götürdü, yola düşdü.

Yol ağzında iki dev oturmuşdu. Buların atalarından bir xalça, bir papaq qalmışdı. Məlik Düçar devlərə yaxın gəlib bunların nə üstə sözdələşmələrin sordu. Divlərin birisi dedi:

– Ay insan qardaş, bizim atamızdan bir xalça qalmışdır, hər kəs onun üstə oturub deyir ki, Süleyman peyğəmbərin eşqinə, apar məni qoy filan yerdə, aparır. Bir də bu papaxdı ki, bunu da kim qoysa başına, heç kim onu görməz. Sən gəl bunu bizim aramızda böl.

Məlik Düçar dedi:

– Mən bölləm, siz bir az kənar durun, gözlərüvüzi yumun, mən bir az fikirləşim.

Divlər bir tərəfə çəkildi. Məlik Düçar xalçaya minib papağı başına qoydu:

– Süleyman peyğəmbərin eşqinə, məni apar Pərilər vilayətinə. Divlər bunu görüb, başlarına döyüb "vay insan qardaş bizi aldatdı" dedilər. Bular bir-birlərini dögməkdə olsun, sizə xəbər verim Məlik Düçardan.

Məlik Düçar həmən yerə çatdı. Şəhəri dolandı, əmma bir şey tapmadı. Günlərin bir günündə Məlik Düçar bir bağa girdi. Bir də gördü ki, üç göyərçin bir hovuz qırağına gəlib oturdu. Cilidlərin çıxarıb çimməyə məşğul idilər. Məlik Düçar Pərilər xanımı görüb tanıdı. Tez öz adaxlısının cildini oğurladı. Üç bacı çimdilər çıxdılar. Pərilər xanımı: "vay, mənim cildimi oğurladılar" – dedi.

Bacılar nə qədər gəzdilər, tapmadılar. Məlik Düçar cildi oraya atıb buların dalınca düşüb əvlərinə getdi.

Neçə gün Məlik Düçar pərilər xanımın evində qaldı.

Günlərin bir günündə pərilər xanımı anasına dedi:

– Xörəydən heç doymuram?

Anası dedi:

– Qızım, hələ əvvəlki qədər çəkirik, nə azdı, nə çox, qaydəsiylə.

Bir gün pərilər xanımı gənə taam yeyirdi. Bu doymadı, birdən qayıdıb dedi:

– Ey gözə görünməyən insan kimi sənə and verirəm dünyadə kimi sevirsən çıq aşkara.

Məlik Düçar şepkülahi başınan götürüb dedi:

– Elə mən özüməm.

– Vay dad sən bura necə gəldin?

Pərilər xanımı anasını çağırtıdırıb bütün əhvalatı danışdı, dedi:

– Atama deginən Məlik Düçar gəlib.

Anası Pərilər xanımın atasının yanına getdi, onu and verdi ki, acıqlanmasın, qızın adaxlısı Məlik Düçar gəlib qızı vermək istəmirdi. Məlik Düçarı öldürmək istiyirdi. Arvadı dedi:

– Əgər, o mənim üçün Gül ilə Sanavarın hekayəsin tapsa, mən ona qızı verrəm, tapıb gətirməsə, yox.

Anası qızının yanına gəldi. Atasının istədigi Gül ilə Sanavar nağılın Məlik Düçar gərək gülün damının üstünə qoydu.

Məlik Düçar aşağı endi. Sanavar bunu görüb dedi:

– Heyif sənnən, oğlan, bura gəldin. Mənim sirrimi heç kəs apara bilməyib. Bir çox cavanların başın kəsmişəm.

Məlik Düçar dedi:

– Sən mənə öz hikayəni nağıl elə. Sora öldürməlisən öldür məni.

Sanavar Məlik Düçarı evə gətirdi. Məlik Düçar gördü bir tərəfdə bir qızıl zəncirə it bağlanıb. O biri tərəfdə bir ceyran, araya iki nimçə aş gəldi. Sanavar aşı itin qabağına qoydu, sora itin artığını ceyranın qabağına qoydu. Ceyran yemədi. Əl çaldı bir qızıl nimçədə bir qul başı oraya gəldi. Sanavar çubuğu əlinə aldı, o qədər bunun dodaxlarına vırdı ki, ceyranın gözinən yaş damdı. Ceyran aşı yedi.

Məlik Düçar dedi:

– Bundan məni qəni et.

Sanavar sözə başdadı:

– Biz ikimiz əmi qızı, əmi oğlu idik. Günlərin bir günündə biz evləndik. Bir günləri yatmışdım, qulluqçularım mənim başımın üstə oturmuşdu. Bular özlüklərində bir-birinə deyirdilər. Heyf ağamızdan burda tək yatıb. Xanım sizə qullar ilə eyş-eşrətə məşğuldur. Əmim qızı qulluxçuları qovdu. Bir üzümə baxdı. Mən gözlərimi yumdum, sora qılıncı üç dəfə üstümə çəkdi, mən ayılmadım. Təxtinnən uzaqlaşdı, aşağı endi. Mən də durub bunun dalıncan düşdüm. Atımı minib yol elədi. Mən də təzədən bir at çıxarıb mindim, bunun dalınca yol elədim. Əmimin qızı bir qalanın qabağında düşdü, içəri girdi. Həmən bu qul ki, başını kəsib saxlamışam, orda oturmuşdu. Mənim xanımımı görüb əyağa qalxdı:

– Ey süxtə! Bu vaqta qədər hardasan? Hamı kefin çəkib.

Əmim qızı bunun əyağına düşdü. Mən səbir eliyə bilmədim. Bayıra çıxıb atları açıb bir-birinə qatdım. Atdar kişnədi, bu səsə hamı bayıra çıxdı. Mən özümü içəri atdım, bu qulu



bərzəngini öldürmək istədim. Əmim qızı içəri girdi, mənə bir sillə çəkdi. Vəfalı itim içəri girdi. Bərzənginin üstə atıb xayasınnan dutdu. Mən qılıncı qaldırıb başını kəsdim. Evə qayıtdım. Mənim əmim qızı mənə bir çubux çəkdi, məni elədi bir eşşək. Düşdüm şəhəri gəzməgə. Bir qəssab məni dutub, evinə apardı. Qəssabın bir qızı varıdı. O tilsimçi idi. Məni görən kimi atasına dedi:

– Bu ki, insandı.

Mənə bir çubux çəkdi, adam elədi. Əlimə bir çubuq verib "get" dedi:

– Həmən adamın yanına çatsan, onnan qabaq sən bu çubuqla onı vur. Mən də evə qayıtdım, əmim qızı qabağıma çıxdı. Mən bir çubux ona vurdum. Ürəgimdən gəlmədi, ceyran eləyib bir tərəfə bağlamışam. Hər gün itin artığını onun qabağına qoyuram yemir. Mən də bu başa iyirmi-otuz çubux çəkirəm, o ağlayır. Sora itin artığını yeyir. İmdi isə dəstəmazı al, başını kəsəm.

Məlik Düçar bir az fikir edib dedi:

– Mən bir söz demirəm, ancaq mənə beş dəqiqə möhlət ver ki, bayıra çıxım.

Məlik Düçar bayıra çıxdı. Şəpkülanı başına qoyub palaza minib, Süleyman peyğəmbərin eşqinə pərilər vilayətinə çatdı.

Sanavar bayra çıxdı, Məlik Düçarı gördü dedi:

– Vay! Mən bu sirri neçə ildir saxlamışam, indi faş oldu.

Sanavar belinən qılıncı çəkib ceyranı öldürdü.

Məlik Düçar taxtına çatdı, bütün gördügünü padişaha nəql elədi. Padişah qızı Məlik Düçara verdi. Məlik Düçar Pərilər xanımını atasının vilayətinə gətirib, qırx gün, qırx gecə təzədən toy etdi.

## Mərdnən Namərdin nağılı

Biri vardı, bir yoxdu, Allahdan başqa heç kim yoxdu. Günlərin bir günündə iki yoldaş olur. Birinin adı Mərd, o birinin adı Namərd. Mərdnən Namərd yoldaş olub çıxdılar səfərə. Mərd hər yerə çatırdı süfrəsin açırdı, Namərdə deyirdi:

– Buyur, çörək ye!

Namərd də Mərdnən bir yerdə çörəgini yeyirdi. Bir iki rəs Mərd buna çörək yiməgi təklif etdi. Namərd bunun çörəginən yedi, ta o çağacan, Mərdin çörəgi qurtardı. Mərd oldu Namərdə möhtac. Bir az bular yol getdilər. Mərd və Namərd bir ağacın dibində oturdular. Namərd süfrəsin açdı. Mərd yaman açmışdı, dedi Namərdə ki, bir az çörəginnən ver mənə, yaman acmışam.

Namərd dedi:

– Sol gözüvü ver, çıxardım qoyum sol cibivə, bir az çörək verim sənə, ye.

Mərd baxıb gördü ki, əgər sol gözünü verməsə, buna çörək vermiyəcək. Bu da ki acdı, heç bir yana gedə bilməyəcək. Mərd razı oldu. Namərd Mərdin sol gözünü çıxardıb qoydu sol cibinə, bir parça çörək verdi. Mərd çörəgi alıb yedi. Bunlar bir günorta yol getdilər. Namərd genə süfrəsin açıb, başladı çörək yeməgə. Mərd gördü ki, Namərd buna çörək yeməgi təklif etmir, dedi:

– Namərd qardaş, yaman acmışam. Mənə bir parça çörək.

Namərd dedi:

– Sağ gözünü ver çıxardım, qoyum sağ cibivə, bir parça çörək verim.

Mərdin əlacı kəsilib razı oldu. Namərd ayağa durub Mərdin sağ gözünü çıxartdı, qoydu sağ cibinə. Namərd Mərdə bir parça çörək verib, durub düzəldi yola.



Namərd çıxıb getməkdə olsun, xəbəri sənə kimdən verim Mərddən. Mərdin iki gözləri də yox idi. Əlin yerə sürtə-sürtə gedib çıxdı köhnə xarabalığa. Burda özinə bir yumşaq yer tapıb oturdu.

Bu burda qalmaqda olsun, xəbəri sənə kimdən verim, şirdən, pələngdən, qurtdan, tülküdən. Şir, pələng, qurt, tülkü gəlib çıxdılar bu xarabalığa. Hərəsi bir yanda oturdu. Pələng şirdən xəbər aldı ki, dünyada nə təzə xəbər var?

Şir dedi:

– Pələng qardaş, sağlığın. Hələ bir təzə xəbər yoxdu, səlamətlikdi.

Şir qurtdan soruşdu ki, qurt lələ, səndə nə təzə xəbər var? Qurt gözinin yaşını axıda-axıda dedi:

– Bazarım yaman kasatdı.

Şir dedi:

– Qurt lələ, bazarın niyə kəsatdı?

Qurt dedi:

– Bu dağı gəzirsiniz, bu dağın ətəgində bir çoban var. Bu çobanın tulası kimi tula yoxdu. Mən hər axşam gedib quzudan, qoyundan nə rastıma gəldi, çalıb-çapıb götürüb buniynən dolanırdım. Əmma isrən gündən bu çobanın bir tulası var. Nə qədər eliyirəm, çobanın qoyunlarına yaxın durum, tulanın qorxusundan heç bir iş görə bilmirəm.

Şir dedi:

– O tulanın qanı dərmandır, hər kim naxoş olsa, hər hankı naxoşluq olsa, o tulanın qanından naxoşa verən kimi, naxoş ayılar.

Mərd bu sözü yadında saxladı. Şir tülküyə dedi:

– Tülkü lələ, sən danış, görək, sənin bazarın necədi?

Tülkü dedi:

– Mənim bazarım yaxşıdı, heç bir kəsatdığım yoxdu. Bu dağı ki gəzirsiz, bu dağın o üzündə bir siçan olur. Siçan hər gün qızılları günə sərib oturur yanında. Mən də bu qızılların qarovulunu çəkərəm. Siçan da mənə çörək verər.

Mərd buların hamısın eşitdi. Səhər oldu qurt, pələng, şir, tülkü çıxıb getdilər. Mərd ayağa durub köhnə xarabalıqdan çıxdı bayıra. Gedib oturdu bir ağacın dibində. Əmma bərk acmışdı. Bu dəmdə göydə iki göyərçin qənət-qənətə verib oturdular Mərd oturan ağacın budağında. Böyük bacı kiçik bacıya dedi:

– Mərdnən Namərdin hekayəsini eşitmisən?

Dedi:

– Eşitməmişəm. Bir danışsana mənim üçün.

Dedi:

– Danışım. Günlərin bir günündə bir Mərd olur, bir Namərd. Mərdinən Namərd yol gedirlərdi. Belə oldu ki, Mərdin çörəgi yolda qurtardı. Namərdə dedi ki, bir az çörək ver mənə. Namərd Mərdin gözlərini çıxardıb ona çörək verdi. İndi budu, Mərd kor olub, qalıb burda, dadı heç bir yana çatmır.

Kiçik bacı dedi:

– Bacı, bəs bu Mərdə heç bir kömək eləmək olmaz?

Dedi:

– Olar.

Dedi:

– Ey Mərd, yatmısan ayıl, ayıqsan eşit.

Mərd baxıb gördü ki, göyərçinlər dil olub, bir balaca yerindən tərpəndi. Böyük göyərçin dedi:

– Biz ki tərpəndik, burdan – ayağımızın altınnan bir qənət düşəcək. O qənədi götür gözlərivə çəkərsən. Gözlərin olar anadangəlmə.

Göyərçinlər sözlərini deyib qənət-qənətə verib uçub getdilər. Mərd baxıb gördü ki, dizinin üstə bir şey düşdü. Əlin



yerə sürtüb qənəti tapdı. Sağ gözün çağ cibinnən çıxardıb, qoydu yerinə. Qənəti çəkdi gözlərinə, gözləri oldu anadangəlmə. Durub birbaş yol elədi gəlməyə, ta o çağacan gəlib çıxdı bir dağın təpəsinə. Gördü ki, burda bir siçan bir xeylax qızıl töküb qabağına oturub qızılların qaravolunu çəkir. Mərd əlinə bir daş alıb tolladı siçana. Siçan gördü ki, Mərd buna daş tulladı. Tez qaçıb qorxusundan girdi yuvaya. Mərd qızılları yığışdırıb birbaş başladı yol getməgə. Az gəlib çox gəlib, iynə yarım yol gəlib, gəli özün yetirdi bir dərəyə. Gördü ki, bir çoban qabağında bir sürü qoyun, yanında bir tula, dərə başı yuxarı çıxır.

Mərd dedi:

– Çoban qardaş, bu tulanı gəl sat mənə.

Çoban dedi:

– Tula-zad satan deyiləm.

Mərd çox dedi, çoban az eşitdi. Axırda bir çəngə qızıl verib tulanı bundan aldı.

Çoban yollanıb getməkdə olsun, eşit bir neçə kəlmə Mərddən. Mərd dərəbaşı aşağı endi. Tulanı ayağının altına alıb, başını kəsib qanın yığdı bir şüşəyə. Cibinə qoyub düzəldi yola.

Xəbəri sənə kimdən İstanbul padişahından. İstanbul padişahının qızı neçə ildi ki, naxoş, yorğan-döşəkdə idi. Nə qədər həkim çağırırdılar heç kəs əlac eliyə bilmirdi. Mərd özün İstanbul şəhərinə yetirib gördü ki, burda bir dəstə adam padişahın imarətinin qabağına yığışıb. Mərd bu adamlardan xəbər aldı.

– Nə olub məgər?

Burdakı adamlardan biri Mərdə dedi:

– Məgər bilmirsən, İstanbul padişahının qızı neçə ildi ki, naxoşdu?

Mərd bu adamlardan ayrılıb gedib həkimlərə layiq özünə bir dəst libas aldı; özünə ziynət verib gəldi padişahın imarətinin qabağına, dedi:

– Həkiməm.

Dedilər:

– A kişi, yazıqsan, bir belə həkimlər gəlib heç biri əlac eləmiyib, indi səni də öldürüb yollayarlar o birlərinin yanına.

Mərd dedi:

– Mən o yan-bu yan bilmirəm. Mən həkiməm ki, həkim. Gərək padişahın qızına baxam.

Dedilər ki, indi ki belədi, qoy gedək padişaha xəbər verək.

Padişaha xəbər gedib çatdı ki, bəs şəhərə təzə bir həkim gəlib. Padişah dedi ki, gedin çağırın o həkimi bura.

Gəlib Mərdi apardılar padişahın yanına. Padişah Mərdə dedi:

– Həkimsən?

Mərd dedi:

– Bəli, həkiməm.

Padişah dedi:

– Əgər qızımı sağaltsan, qızımı verəcəyəm sənə. Əgər sağalda bilməsən, sənin boynuvi vurdutduracağam.

Mərd razı oldu. Mərdi gətirdilər, apardılar padişahın qızının yanına. Mərd qızın nəbzinnən tutub yoxladı, axırda tulanın qanında bir neçə damcı suya töküb, verdi qıza. Qız içən kimi ayıldı. Padişaha xəbər getdi ki, gözlərin aydın olsun, bəs qızın sağalıb.

Padişah bu xəbəri eşidən kimi yerindən qalxıb əmr elədi ki, təbil vurulsun. Təbil vuruldu. O günü böyük bir şaddıq elədilər. Belə ki, padişah əhd eləmişdi ki, "əgər qızım sağalsa, yeddi gün yeddi gecə şəhərimdə olan bütün fəqir-füqəralara, əlsiz-ayaqsızlara plov verəcəm".

Qazan qazanların yanına düzüldü. Aşbazlar əl qolların çirməliyib dügüləri tökdülər qazanlara. Düz yeddi gün fəqir-füqəralara yemək payladılar. Padişah bu tərəfdən də əmr etdi,



öz qızının kəbinini kəsdirdi Mərdə. Mərd padişahın qızın aldı. Mərdə qırx gün qırx gecə toy eləyib qızını verdi Mərdə.

Xəbəri sənə kimnən verim Namərddən. Mərd pəncərədən baxırdı, kefi yaman kökdü. Qabağına çay, əlində qəlyan gördü ki, Namərd qardaş gəldi. Adam yolladı ki, Namərdi çağırın. Namərdi gedib çağırdılar. Namərd baxıb gördü ki, Mərd sağalıb. Dedi:

– Mərd qardaş, bu nə olan hekayətdir.

Mərd başına gələn hekayəni bir-bir Namərdə danışdı. Namərd bu sözü eşidən kimi Mərddən ayrılıb özün yetirdi həmən köhnə xarabalığa. Namərd bir yanda gizlənməgdə olsun, xəbəri sənə kimdən verim, pələngdən, şirdən, qurtdan, tülküdən. Axşam ki oldu, pələng, şir, qurt, tülkü gəldilər bu köhnə xarabalığa. Pələng şirdən xəbər aldı:

– Şir qardaş, dünyada təzə xəbər nə var, nə yox?

Şir dedi:

– Sağlıq, salamatlık. Heç bir təzə xəbər yoxdu.

Şir qurtdan xəbər aldı:

– İndi kefin necədi?

Qurt dedi:

– Bu saat kefim bərk kökdi. O çobanın yanında ki tula vardı, indi o tula yoxdu.

Mən də gündə bir qoyun gətirib asudalıqnan yeyirəm.

Daha qorxum-filanım yoxdu.

Qurt gördü ki, tülkü sımsırıxın sallayıb. Qurt dedi:

– Tülkü lələ, sənin kefin necədi?

Tülkü dedi:

– Kefim kök deyil. Onunçün ki, bazarım kasatdı.

Dedilər:

– Nə üçün?

Tülkü dedi:

– O ki siçan var idi gedib qızıllarımın qarolunu çəkərdim, indi onun qızıllarını oğurlayıblar. Onunçun kefim kök deyil, bazarım da kasaddı.

Pələng dedi:

– Burda insan var. Gəlin buranı axtaraq.

Başladılar axtarmağa. Namərdi tapdılar. Tez Namərdi parçalayıb hərəsi bir tikəsini götürüb yedi. Namərdi cəhənnəmə vasil elədilər.

## Dünya gözəli

Biri var idi, bir yox idi. Bir qoca kişi var idi. Bu qocanın üç qızı var idi. Bunların anası ölmüş idi. Atası ikinci bir arvad almışdı. Arvad bir gün ərinə deyir:

– Ya bu yetimləri tut, yada məni saxla.

Kişinin əlacı kəsilib uşaqları aparıb buraxır çölə.

Yazıq qızlar çöldə gəzirdilər. Gedib bunlar bir meşəyə çatdılar. Günü batırıb ağacda yatdılar. Səhər açıldı. Böyük bacı deyir:

– Ay bacı, tozanağa bax!

İkinci bacı deyir:

– Yəqin padişahdır.

Kiçik bacı deyir:

– Bacılı-bacılı, nə olaydı padşah məni ala idi, mən də bir oğlan doğa idim, bir oğlan doğa idim, bir kəkli olaydı, bir kəkil gümüş olaydı, alnı ay.

Ortancıl bacı deyir:

– Məni də vəzir üçün alaydılar. Mən xalça toxuyaydım, o xalçada padşahın bütün qoşunu yerləşə idi.

Böyük bacı deyir:



– Məni də nə olaydı vəkil alaydı. Mən də qoşunu üçün bir yumurta qabağında xörək verə idim.

Padşah bu sözləri eşidir və kiçik qızı özünə alır, ortancılını vəzirə, böyügini də vəkilə verir.

Günlər, aylar keçir. Kiçik qız bir oğlan doğur. Oğlanın alnı ay dişləri inci, kəkli qızıl. Bacılar tez xəbər tuturlar. Deyirlər ki, vay padşah bizi öldürər. Kiçik bacımızın dediyi doğruya çıxdı, bizimki yalana.

Böyük bacı dedi:

– Heç əlacımız yoxdur. Gəl mamaya pul verək, o bu işi düzəldər.

Bacılar mamanı çağırdılar, oğlanı aradan götürüb, onun yerinə bir küçük qoydular. Padşaha xəbər çatdı ki, arvadın bir küçik doğubdur. Padşah qəzabnak olub əmr etdi ki, aparsınlar qızı peyinlik içində basdırsınlar.

İki bacı həmən oğlanı bir sandıq içinə qoyub çaya atdılar. Padişahın bağbanı çay qırağında gəzirdi. Çayın ləpə döyənində bir sandıq gördü. Sandığı açıb içində bir oğlan uşağı gördü, alnı ay, bir kəkili qızıl, bir kəkili gümüş. Tez evə gəldi, arvadına dedi:

– Arvad, qızımız var, bu da oğul. Oğlanın adını qoydular Sabah.

Aradan bir-iki il keçdi. Bağban vəsiyyət eləyib öldü. Öləndə dedi:

– Mənim yeddi küp qızılım var, onu oğluma verin.

Bir az müddətdən bağbanın arvadı da öldü. Qaldı iki yetim. Sabah böyümüşdü, on beş yaşında idi. Atalığından qalan küpləri çıxartdı, bu qızıl ilə bir imarət tikdirdi.

Xəbəri verim sizə iki bacılardan. Bacılar gördülər ki, bəli oğlan sağdır. Mamanı tapdılar, dedilər:

– Ay ölmüş qarı! Bəs sən oğlanı öldürməmisən?

Qarı dedi:

– Çoxdan!

Böyük bacı əlini belinə verib dedi:

– Ay qoca köpək, yalan deyirsən! Budur özü sağ-salamat, gün çıxan əldə bir imarət tikib ki, padşahlara layiq. Get, bu saat onun başını batır!

Qarı bir fitnə ilə özünü Sabahın evinə saldı. Sabahın bacısı eyvanda oturmuşdu. Qarı pilləkənləri çıxdı. Qıza salam verib dedi:

– Qadan alım, keyfin necədir? Nə gözəl eviniz var? Amma heyif olsun!

Sabahın bacısı dedi:

– Nə istəyirsiniz? Bir qardaşım var. Gəldigin bəs deyil, ahu-uf da çəkirsən.

Qarı dedi:

– Qadan alsın qarı. Mən ki, bir söz diməyirəm, ancaq bu imarətin bir gülü əskikdir.

Qarı deyib çıxıb getdi. Sabah evə gəldi gördü ki, bacısı ağlayır.

Bacısınnan soruşdu:

– Bacı, neçün ağlayırsan?

Bacısı ağlaya-ağlaya dedi:

– Mən evdə idim, bir qoca qarı gəldi ki, imarətiniz gözəldir, amma heyif ki, bir bir gülü əskikdir.

Sabah bacısını qucaqladı:

– Heç fikir çəkmə, bu saat gedim gətirrəm.

Sabah atın minib yola düşdü. Bir ay yol getdi, həmən yerə çatdı. Bir dərvazadan içəri girdi. Onun qabağını bir dev kəsdirib dedi:

– Ey oğlan heyifsən getmə, sən gülü apara bilməzsən!

Sabah dedi:



– Mən gedirəm, qorxmayıram.

Dev buna qoşulub gülün dalısıncan getdi. Dev yolda buna çox köməkliklər elədi. Gülü götürüb gəldi, bacısına verdi.

İki bacı bunun gəlməsindən xəbərdar oldu. Qarıya dedilər:

– Ay yerə batmış qarı, Sabah getdi, gülü də gətirib gəlib. Özünnən başqa bir dev də götürüb gəlib. Get, bu saat onun başını batır!

Qarı yola düşdü. Gəlib həmən imarətə çatdı. Çıxdı həmən qızın yanına dedi:

– Qadan alsın nənən, bu ev, bu eşik, bu da gül. Bu dəmdəsgahın bir dünya gözəllisi əskikdir.

Qız hirsindən qarıya bir şillə vurub, pilləkanlardan itələdi və özü oturub ağladı. Qardaşı Sabah içəri gəldi, bacısının qucaqladı. Dedi:

– Nə üçün ağlayırsan, bacı?

Qız dedi:

– Qarı yenə gəlmişdi, bu dəfə onu qovladım.

Sabah dedi:

– Nə istəyirdi?

Qız dedi:

– Qarı dedi ki, bu evin, bir dünya-gözəllisi əskikdir.

Sabah dedi:

– Hələ bunun üçün ağlayırsan? Bu saat gedib gətirrəm.

Sabah atın minib həmən yerə getdi. Pərdəyi-ismət dalında dünya gözəli oturmuşdu. Sabahı görüb dedi:

– Ey oğlan, heyif səndən, özüvə yazığın gəlsin, qayıt dala.

– Yox, mən sənin üçün gəlmişəm.

Dünya gözəli dedi:

– Sən məni apara bilməzsən. Qayıt yazıqsan, yoxsa səni də o birilər kimi daşa döndürərəm.

Dünya gözəli bir tilsim oxudu, Sabah daşa dönüb yıxıldı bir yana. Axşam oldu. Dünya gözəli gülsüz yatmış idi. Gecə yuxuda gördü ki, Sabahın atası bağban, əlində bir dəyirman daşı dünya gözəlinin yuxusuna gəldi və dedi:

– Dur ayağa, mənim oğlum Sabah ilə get. O gülünü aparıb, sən də get. Yoxsa, bu dəyirman daşını salaram başına.

Dünya gözəli yuxudan diksindi. Yerindən durub Sabah durub bir çubuq çəkdi.

– Ey oğlan, mən sənin ilə gedirəm. Çünki bu gecə atanı yuxuda görmüşəm.

Hər ikisi bir ata minib yola düşdülər. Dünya gözəlini aparıb bacısının yanında qoydu. Dünya gözəli bir gün Sabaha dedi:

– Dur, bu devləri apar bazara. Padişah sənə deyəcək ki, ey oğlan, bu nədir eliyirsən, xalqa niyə əziyyət verirsən? Deyərsən ki, padşah sağ olsun, məndən soruşma, devlərdən soruş. Sora da padşah səni qonaq çağıracaq.

Sabah devləri bazara apardı. Padşaha xəbər getdi ki, bir nəfər oğlan üç dənə dev bazara düşüb aləmi viran etdi. Padşah əmr elədi ki, oğlanı çağırsınnar. Sabah padşahın hüzuruna getdi. Padşah bunun gözəlliyini görən kimi Sabaha aşiq oldu, dedi:

– Kaş bu mənim oğlum olaydı! Sora dedi:

– Ey oğlan, nəyə xəlqə əziyyət verirsən? Devlərini başlıbaşına bazara buraxmısan?

Sabah dedi:

– Padşah sağ olsun, dilsiz-ağılsız heyvandan nə gözləmək olar?

Padşah bu sözdən xoşlanıb böyük bir qonaqlıq elədi. Devləri qazannan çəkilmiş xörəklərin hamısını yedilər. Padşah xörəklərin çatmamasından xəcil oldu. Sabah ayağa qalxıb dedi:

- Padşah sağ olsun, qonaqlığım var. Süfrən də açıq olsun. İndi buyur, sən bizə qonaq ol.



Padşah o günün sabahısı bütün vəzir-vəkilini, qoşununu yığıb Sabahgilə qonaq getdi.

Sabah dünya gözəlinin yanına gedib dedi:

– Padşah gəlib, hazır elədiyin şeyi əmr elə, gedim bazardan alım.

Dünya gözəli dedi:

– Hazırdı.

Əlin uzadıb sandıqdan bir xalça çıxartdı, xalçanı saldı həyətə. Padşahın bütün əşya və cəngavərləri bu xalçanın üstünə oturdular yenə yer artıq qaldı. Dünya gözəli bir yumurta çıxartdı, başladı onun içindən xörək çəkməyə. Hamı yedi, yenə artıq qaldı.

Padşah buna çox təəccüb elədi. Bunu bilmək istəyirdi, amma danışmayırdı. Bu aralıqda pərdə quruldu, dünya gözəli pərdənin dalında oturdu. Sabahın anasını peyinlikdən çıxartdırıb, qabaqcadan müalicə edib saxlamışdı. Sora iki bacıları çağırtdı, həmən mamanı da çağırtdırdı.

Dünya gözəli dedi:

– Ey padşah, eşit və agah ol! Bax bu sənin arvadındır. Bu da sənin oğlundur ki, alın ay, dizləri inci, bir kəkli qızıl, bir kəkli gümüş. Bunu sənin öz arvadın doğub, amma bu iki bacılar mamaya pul verib səs salmışdılar ki, sənin arvadın küçük doğub. İndi al, bu sənin arvadın, bu da sənin oğlun.

Padşah ayağa qalxıb mamanı və bu iki bacının boynunu vurdurdu. Sora öz oğlunun alnından öpüb, dünya gözəlindən sox razılıq elədi.

Yeddi gün, yeddi gecə toy eləyib, dünya gözəlini Sabah üçün aldı. Özü də arvadını götürüb evə apardı.

## Üç Şahzadə

Biri var idi, biri yox idi, bir padşah var idi. Bu padşah çox pul xərcləyib oğlanlarını oxutmuşdu. Oğlanlar öz zamanlarının dərslərini rəvan eləyib elm dəryası olmuşdular. Günlərin bir günündə xəbər çıxdı ki, oğlanlar dərslərini qurtarıb gəlirlər. Di şahzadə bəzəndi, dəsgah... Oğlanlar gəldilər. Bir neçə gün keçəndən sora, padşah bir gecə böyük oğlunu yanına çağırıb, dedi:

– Oğul, daha oxuyub dərsinizi qurtardınız, elə mən də qocalmışam. İstəyirəm sabahdan padşahlığı verəm sənə, ortancıl qardaşını sənə vəzir, kiçik qardaşını da vəkil təyin eləyirəm.

Oğlan doğrudan da çox ağıllı oğlan idi, dedi ki:

– Dədə, mən təzə gəlmişəm. Bütün ömrümü qürbətdə keçirmişəm. Ona görə də camaatı, vilayəti necə dolandırmaq lazımdı, hələ bacarmaram.

Padşah oğlundan heç belə cavab gözləmirdi. Elə ki, bunu eşitdi, dedi:

– Get, ancaq qardaşlarına bu barədə neç bir söz demə!

Belə deyib oğlunu mürəxxəs elədi. Sabahı gecə ortancıl oğlunu çağırıb dedi ki:

– Oğul, istəyirəm padşahlığı verəm sənə, böyük qardaşın vəzir, kiçiyi də vəkil təyin eləyəm.

Oğlan dedi:

– Yox, bunu mən qəbul eləmərəm. Məndən böyük qardaşım var, padşahlıq ona verilməlidi. O, dura-dura mən padşah olmaram.

Padşah bunu da mürəxxəs eləyib tapşırdı ki, qardaşlarına bir söz deməsin.

Üçüncü gecə kiçik oğlunu çağırıb ona da həmən sözləri dedi, o da cavab verdi ki:



– Böyük qardaşım dura-dura mən padşahlığı qəbul eləmərəm.

Padşah bunu da mürəxxəs eləyib tapşırdı ki, qardaşlarına bu barədə heç bir söz deməsin. Qardaşlar üçü də bu işdən pəjmürdə olmuşdular. Axırda özlərini saxlaya bilməyib məsələni açdılar. Baxdılar ki, padşah üçünə də həmən sözləri deyib. Fikirləşdilər ki, indi ki biz onun sözünü rədd eləmişik, bizə bundan sora pis nəzərnən baxacaq. Yaxşısı budu ki, biz də hələlik hirsi soyuyanacan çıxaq səyahətə.

Di padşaha adam göndərdilər, padşah razılıq verdi. Tədarük görüldü, lazım olan şeylər hazırlandı, oğlanlar üçü də dədələrinin görüşünə gəldilər. Padşah böyük oğlunun alnından öpüb dedi:

– Get, oğul, ancaq yadında qalsın, qabağına çıxan qisməti təpikləmə...

Ortancıl oğlunun alnından öpüb dedi:

– Gördün ki, bir maqsuda çatacaqsan, ona çatmaq üçün tələsmə!

Kiçik oğlunun alnından öpüb dedi:

– Həmişə dara düşəndə qocaların məsləhətinə qulaq as!

Oğlanların üçü də görüşüb, atları minib yola düşdülər. Gəlib yetişdilər bir özgə padşahın vilayətinə. Bir neçə vaxt qaldılar burda, bunların kamalları şəhərdə hamını heyran elədi. Bu şöhrət axırda gedib bu məmləkətin padşahına çatdı. Padşah bunların üçünü də qonaq çağırdı. Di bir az söhbətə eləyəndən sora yemək gəldi. Padşah ayağa qalxıb dedi:

– Mən ac deyiləm, siz özünüz necə ki kefinizdi yeyin, məni bağışlayın!

Padşah bunu deyib o biri otağa keçdi. Onun məqsədi ayrı idi. O istəyirdi ki, onları tək qoyub, özü onlara tamaşa edib görsün, doğrudan necə adamlardı. Odu ki, qapının dalın-

da əyləşib onları seyr eləməyə başladı. Böyük oğlan ortadakı qızarmış quzudan bir az kəsib elə ağzına qoycaq tüpürdü yerə. O biriləri soruşdular ki:

– Nə olub!

Böyük qardaş üzünü turşudub dedi:

– Bu quzu əti deyil, it ətidi.

Padşah bunu eşidib hirsləndi ki, onlar necə cəsarət eləyib onun ətini it ətinə oxşadırlar. Elə istəyirdi ki, girib onları tutdursun, bu halda ortancıl qardaş əlini uzatdı şəraba. Şərabdan bir stəkan töküb ağzına yaxınlaşdıracaq, tüpürdü yerə.

Soruşdular:

– Nə oldu?

Dedi:

– Bu şərab deyil, insan qanıdı.

Kiçik oğlan dedi:

– Yaxşı, aşbazdan əmələ gəlmiş bicdən daha bundan artıq nə gözləmək olar ki?

Padşah bunu eşidəndə lap dəli oldu. Az qaldı ki, hirsindən bağrı çatlasın. Bir istədi ki, üçünün boynunu vurdura. Ancaq bir az fikir eləyib öz-özünə dedi:

– Yaxşısı budu, çağırım bir aşbazdan, şərabçıdan soruşum, sora.

Çağırdı aşbazı:

– De görüm, bu gün bişirdiyin quzunu haradan almışdın?

Aşpaz dedi:

– Şah sağ olsun, çoban sürüdən gətirmişdi.

Padşah əmr elədi, çoban gəldi.

– Bu quzunu haradan gətirmişdin?

– Şah sağ olsun, sürüdən.

– Çoban, bu quzudan it əti tamı gəlir, bir əməlli fikirləş!



Çoban bu sözü eşidəndə başladı yarpaq kimi tir-tir titrəməyə.

Padşah dedi:

– Qorxma, de görüm bu nə işdi?

Çoban dedi:

– Padşah sağ olsun, həmən quzu anadan olandan iki gün sora anasını qurd parçalamışdı. Biz fikirləşdik ki, ta bu böyüyüb bizə qoyun olmayacaq. Odu ki, ötürdük başına. Elə çəpindən həmən otlaqda bizim, üzdən iraq, itimiz də qancıqlamışdı. Bir gün mən gəlib gördüm ki, həmən quzu iti əmir, ta buna heç fikir vermədim. Siz indi it ətinin tamı deyəndə yadıma düşdü, o yəqin o quzu olacaq.

Padşah baxdı ki, böyük oğlanın dediyi doğru çıxdı. Onu mürəxxəs deyib çağırdı şərabçını. Soruşdu ki:

– Bugünkü şərabı hardan gətirmişdin?

– Meyxanadan, qibleyi-aləm sağ olsun!

– Bu şərab haranın üzümündəndi?

– Güllü bağın.

– Bu bağı kim saldırıb?

– Sənin rəhmətlik atan.

– Bilmirsən, o bağın yeri qabaqca nə imiş?

– Şah sağ olsun, o bağın yeri qabaqca qəbirstanlıq idi. Sənin rəhmətlik atan oranı sökdürüb üzüm bağı elədi.

Padşah baxdı ki, ortancıl oğlanın dediyi də doğru çıxdı. Öz-özünə fikirləşdi, yaxşı, bunlar doğru oldu. Amma xırdanın hökmən boynunu vurduracağam. Çünki mən heç vəchlə aşbazdan əmələ gəlmiş bic deyiləm. Atam bəlli, anam bəlli. İstədi cəlladı çağıra, sora fikirləşdi, yaxşı bunların ikisinin də sözü düz çıxdı. Bəlkə elə bu da düzdü, oldu oldu da.... Qoy bir anamdan soruşum.

Qılıncı çəkib girdi anasının yanına ki:

– Ana, düzünü de görüm, mənim atam kimdi?

Arvad dedi:

– Buy, bala, bu nə sözdü? Sənin atan bu vilayətin padşahı Aslan şah. Bu nə sözdü soruşursan?

– Yox ana, düzün deməsən, bax bu qılıncdı sənin canın. Mənə deyiblər ki, mən padşah oğlu deyiləm, aşbaz oğluyam.

Arvad gördü ki, iş xarabdı, kimsə əhvalatı bilib, ona xəbər verib. Ona görə də çar-naçar əhvalatın düzünü açıb deməyə vadar oldu. Dedi:

– Bala, indi ki, bilirsən, bil, ta Allahdan gizlin deyil, səndən nə gizlin. Mənim həmişə qızım olurdu, heç oğlum olmurdu, Aslan şah da oğlan istəyirdi. Bir gün yenə Allahın məsləhəti ilə mənim vədəm keçdi. Sancım başlayan günü şah mənə dedi ki, əgər bu dəfə də qızın olsa səni öldürəcəyəm. Işin çəpindən uşaq yenə qız oldu. Mən düşdüm qarın ağrısına. Mənim bir yaxşı dayəm var idi. Gəlib mənə dedi ki, bu gecə aşbazın bir oğlu olub, gəl uşaqları onunla dəyişdirək. Sən həmən o uşaqsan.

Padşahın daha heç bir söz deməyib çıxdı. Lap mat qalmışdı. Oğlanların dediklərinin hamısı doğru olmuşdu. Birbaş gəldi oğlanların yanına, əyləşdi, başladı söhbətə:

– Mən buna lap mat qalmışam. Siz çörək yeyəndə mən qapının deşiyindən qulaq asırdım. Sizin sözlərinizin hamısını eşitdim.

Oğlanlar qızardı.

Padşah dedi:

– Yox, qızarmayın! İş ondadı ki, dedikləriniz lap düz çıxdı. İndi mən bir şeyə mat qalmışam ki, siz bunları haradan bilirsiniz?

Böyük oğlan dedi:

– Şah sağ olsun, mən quzunun ətindən yeyəndə dedim ki, bu it ətidi. Çünki gördüm ki, bu qoyun əti tam vermir. De-



mək bu başqa heyvan olacaq. Sürüdə də itdən başqa heyvan olmaz. Odu ki, dedim bu yəqin it əti olacaq.

Padşah ortancıl dedi:

– Yaxşı, bəs sən niyə hələ nelə başından yekə qələt elədin?

Oğlan dedi:

– Şah sağ olsun, düzdü, mənim dediyim yaxşı söz deyil. Ancaq iş ondadı ki, elə deyəsən elədi ki, var. Axı hərçənd ki, biz sənə demişik ki, biz tacir oğluyuq, amma yalan demişik. Biz səndən də böyük padşahın oğluyuq. Bizim atamız gələn qonaqlarla oturar, durar, söhbət edər amma heç xörək haqqında danışmaz. Amma sənin söhbətin elə bu barədə oldu ki, ay nə bilim küftəbozbaşı belə bişirirlər, dolmanı belə bişirirlər, plovun yağını nə vaxt tökərlər, qayğanağın şirəsini nə vaxt vururlar. Mən gördüm ki, sən xörəkdən başqa heç bir söhbət eləmirsən, fikirləşdim ki, yəqin bunun aşbazla bir qarışığı var.

Gecə padşah böyük oğlanı çağırıb dedi:

– Oğlan, görürəm sən bir ağıllı, kamallı oğlansan. Mən də qocalmışam. Övlad qismindən yaxşı bir qızım var. Gəl elə onun kəbinini kəsdirdim sənə, padşahlığı da verim sənə, mən bu qoca vaxtımda bir az rahatlanım.

Oğlan məsələni qardaşlarına açdı, onlar razı olmadılar.

Böyük oğlan dedi:

– Yox, dədəm mənə deyib ki, qabağına çıxan qisməti təpikləmə!

Bu bir qismətdi ki, mənim qabağıma çıxıb. Mən qalacağam.

Atalarının sözü onların da yadlarına düşdü. Hamısı razılaşdılar. Qırx gün, qırx gecə toy elədilər, padşah qızı da, tacı da verdi oğlana. Qardaşları bununla görüşüb yola düşdülər. Bir neçə güsn gedəndən sora gəlib iki yolun ayrıcına çatdılar.

Öpüşdülər, görüşdülər, ortancıl oğlan bir yolnan, kiçik oğlan da bir getməyə başladılar. Kiçik oğlan getməkdə olsun, biz görək ortancıl oğlanın başına nə gəldi.

Ortancıl oğlan gedib, gedib bir şəhərə çatdı. Şəhərin meydançasına çatanda gördü ki, camahat yığılıb divara vurulmuş bir şəklə baxırlar. Yaxınlaşdı, baxdı ki, bir qız şəkildi. Amma qız nə qız... Elə bir qızdı, elə bir qızdı ki, yemə-içmə, xətti xalına, gül camalına tamaşa elə! Orada duranlardan birinə yanaşıb soruşdu:

– Qardaş, bu nə şəkildi?

– Yəqin ki, sən bu şəhərə təzə gəlmisən?

– Bəli.

– Bu bizim padşahın qızının şəkildi.

– Bəs bura niyə vurublar?

– Ərə vermək üçün.

Oğlan bir könüldən min könülə vuruldu bu qıza. Soruşdu ki:

– Bəs yaxşı, axı mən anlamıram, bunu bura niyə vurublar? Niyə alan yoxdu ki, belə müştəri axtarırlar?

– Yox, istəyən çoxdu. İndiyə kimi bir çox pəhləvanlar, bir çox şahzadələr gəlib bu qızı istəyiblər. Ancaq burada gizlin bir sirr var ki, o qızı istəmək üçün saraya girənlərin biri də qayıdıb eşiyə çıxmır. Bu saat bütün bu şəhər camahatı bu qıza aşiqdi. Ancaq bu işin qorxusundan bir adam cəsarət eləyib elçi göndərə bilmir.

Oğlan dedi:

– Bu qızı mən alacağam.

Kişi gülümsünüb dedi:

– Yazıqsan, oğlan! Sən yaxşı bir cavansan, özünə hayıfın gəlsin, bu sevdadan vaz keç!

Oğlan dedi:



– Yox, hər nə təhər olsa, mən gərək bu qızı alam.

Kim ona nə dedisə, beyninə girmədi. Sabahısı günü düz birbaş getdi padşahın yanına.

– Padşah sağ olsun, mən gəlmişəm sənin qızını almağa.

Padşah çox razılıqla onu qəbul elədi. Ancaq dedi ki:

– Doğrudu, axırda bir oğlan bir qızın, bir qız bir oğlanındı. O da doğrudu ki, mənim qızım mənim sözümdən çıxmaz. Ancaq mən onun sorakı bədbaxtlığına bais olmaq istəmirəm. Sən çox da mənim xoşuma gəlirsən. Bəlkə heç qızın xoşuna gəlməyəcəksən. Ya elə qız özü sənin xoşuna gəlməyəcək. Mənim şərtim budu. Səni sabah qızımnan ötürərəm bir otağa. Orada bir-iki saat bir-birinizlə söhbət edərsiz. Əgər ikiniz də bir-birinizi bəyənsəniz, ondan sora baş üstə!

Oğlan bu təklifə lap ürəkdən razı oldu. Özü də çox şad oldu. Daha bundan yaxşı nə ola bilər ki?..

Sabahısı oğlanı gətirdilər qızın otağına. Qız nə qız, huri mələk. Şəkildəkindən beş qat gözəl, şəhla gözlü, şirin sözlü, hilal qaşlı, balınc döşlü, fındıq burunlu, açıq alınlı, güləbətin ətəyi, dili bal pətəyi, dişləri siçan dişi kimi, ta nə deyim, gəl məni gör, dərdimdən öl...

Oğlan huş-bihuş yerində dayandı. Nazənin məxmər döşəyin üstündən qalxıb süd kimi ayaqlarını fərşin üstünə basa-basa oğlana tərəf gəlməyə başladı. Oğlan ta lap özünü itirdi. Elə handa-handaydı ki, yıxılsan, şümşad qollar Hindistan ilanı kimi dolandı oğlanın boynuna. Oğlan ayıldı, tez dala çəkildi, qız irəlilədi. Qız güclə onu qucaqlamaq istəyirdi. Oğlanın gözləri kəlləsinə çıxmışdı. Elə az qalırdı ki, qucaqlayıb o gülab süzülən dodaqlardan doyunca özünə sirab eləsin, birdən atasının sözü yadına düşdü: "Gördün ki, bir məqsuda çatacaqsan, ona çatmaq üçün tələsmə"!...

Oğlan elə bil ki, yuxudan ayıldı. İlan vurmuş adamlar kimi yerindən tullanıb, dala qaçdı. Qız qovdu, oğlan qaçdı, qız qovdu, oğlan qaçdı, axırda oğlan gördü ki, yox, bunun əlindən qurtarmayacaq, özün vurdu qapıya, qapı da bağlı. Çəkildi dala, qız hən-hün eləyib bunu tutuncan oğlan qapıya bir təpik çəkdi, qapı sındı. Oğlan bayıra tullandı. Baxdı ki, əlində yalın qılınc bir adam orda hazır durub, yıxılıb özündən getdi.

Bu əhvalatdan üç gün keçmiş oğlan yuxudan ayılıb özünü ipək yorğan-döşəkdə gördü. Yanında da bir çox dava-dərman var idi. Baxdı ki, başı yaman ağrıyır. Əlini atdı başına, gördü ki, başını səritdiyib bağlayıblar. Lap məhətdəl qaldı. Bu vaxtı bir də nə gördü? Qız barmaqlarının ucunda yavaş-yavaş girdi evə. Daha bu halı necə ki, lazımdı deyə bilmirəm. Həftə keçdi, gün keçdi, oğlan yaxşı oldu. Ta bir adama ki, öz məşuqəsi dava-dərman verə, bir naxoş ki, öz yari-nazəninin əlindən dərman içə, əlbət ki, sağalar. İndi yavaş-yavaş oğlan başlamışdı gəzməyə.

Bir gün yenə oğlan qızla oturmuşdular bağda, padşah gəldi bunların yanına. Oğlan ondan soruşdu:

– Şah sağ olsun, mən axı bir şeyə məhətdəl qalmışam. Mən yıxılan günü, əlində qılınc qapıda durub məni qorxudan kim idi.

Padşah gülüb dedi:

– Mən qızımı bir halal süd əmmiş, namuslu adama ərə vermək istəyirdim. Ona görə də belə götürmüşdüm, kim mənim qızımı gəlib istəyirdisə, mən onu salırdım qızımın yanına. Özüm də əlimdə qılınc qapının deşiyindən baxırdım. Qıza da tapşırmışdım ki, oğlanla mazaq eləyib onu dingildətsin, necə ki, sən özün də bunu gördün. Elə ki, qız belə eləyirdi, oğlanın əlbəhəl halı dəyişib ayrı fikirlərə düşürdü. Əlbəhəl namussuz adam olduğunu bilirdim. Mən də əlimdəki qılıncla başın bədənindən ayırıb, yer üzünü belənçik nakəslərdən təmizləyirdim. Amma sən doğrudan da halal süd əmmiş adamsan. Çünki qız nə qədər sənə soxulsa, sən qaçdın.



Oğlan dedi:

– Çünki mənim atam mənə vəsiyyət eləyib ki, "elə ki, gördün bir məqsuda çatacaqsan, ona çatmaq üçün tələsmə".

Padşah toy eləyib qızı verdi ona, padşahlığı da ona tapşırıb qoca günlərində hərəmxanasına çəkildi. Bu da burda öz keyfində olsun, biz görək oğlan nə oldu.

Kiçik oğlan gedib-gedib şəhərə yetişdi. Bir gün şəhəri gəzə-gəzə lap çıxdı qırağa. Qabağına bir gözəl dam-daş çıxdı. Evin pəncərəsindən bir qız baxırdı ki, getmə gözümdən, gedərəm özümdən. Oğlan bir ürəkdən min ürəyə qıza elə vuruldu ki, heç Məcnun da bu boyda vurulmamışdı. Axşamacan qaldı orda. Gecə düşdüyü hücrədəki yoldaşın dərdini açdı. O adam əhvalatı buna danışdı.

Deməginən bu qız padşahın qızı imiş. Padşah onu kimə vermək istəyibsə qız getməyib, ona görə də padşah onu dədə malından məhrum eləyib, evindən qovub. O da həmən o dam-daşı tikdirib, özün də tilsimbənd eləyib oturdub orda. İndi o tilsimi açmağa nə qədər pəhləvanlar gəlibsə, düşüb qalıblar orada.

Oğlan dedi:

– Mən o qızı alacağam.

Səhər getdi padşahın yanına. Padşah onu lap yaxşı, ürəyi istəyən kimi qəbul eləyib dərdini soruşdu, oğlan öz fikrini dedi.

Padşah dedi:

– Mən lap ürəkdən buna şadam. Ancaq, vallah, onun ixtiyarı mənim əlimdə deyil. O olub bir çəpəl sehrkun.

Oğlan dedi:

– Mən onun tilsimini sındıraram. Ancaq necə ki, sən onun atası, başının sahibi, əvvəl sənin yanına gəlmişəm.

Oğlan ordan çıxıb soraqlaşdı, öyrəndi, bu şəhərdə lap qoca bir adam tapıb onun yanına getdi. Qoca ona dedi:

– Bala, o tilsimi sındırmaq üçün bircə yol var. O da budu ki, qızın iki qarabaşı var. Bunlar həftədə bir gün gəlib bazardan lazım olan şey-şüy alıb aparırlar. O qarabaşlardan birini gərək pul gücünə aldadıb tilsimin sirrini öyrənəsən.

Oğlan gedib kəsdi bazarın yolunun üstünü. Qızları axır ki aldadıb, tilsimin sirrini öyrəndi. Sabahısı gedib padşaha məlum elədi ki, mən bu gün tilsimi sındıracağam.

Bunu deyib üz qoydu şəhərin qırağına, qızın dam-daşına tərəf. Şəhərin əhalisi əhvalatı eşidib yığışdılar bura. Oğlan altdan geyinib üstdən qıfıllandı, iki şaqqa ət götürüb girdi evə. Baxdı ki, qarabaşların dediyi kimi ətin bir parçasın aslana, o birini qaplana atdı, ayaq qoydu pilləkana. Qapıdan keçəndə göydən asılmış sehirli qılınc aşağı endi. Tez yanındakı divarda duran düyməni basdı. Qılınc sındı, düşdü yerə. Girdi evə. Baxdı ki, hər tərəf od alıb yanır. Odun içindən də bir əjdaha buna həmlə eləyir. Qızların öyrətdiyi kimi özün atdı əjdahanın üstünə. Yapışıb boğazında onu boğdu. Hər tərəfi tüstü bürüdü. Tilsim sındı. Camahat çöldə durub oğlana heyfsilənirdilər. Camahatdan bir gurultu qopdu ki, nə təhər. Qız düşdü, gəldi atasının bərabərinə. Onun əlindən öpüb dedi:

– Ata, sən məni yoldan keçənə vermək istəyirdin, mən də buna razı deyildim.

İndi, bu oğlan, deyəsən, elə mən axtardığımdı. Sən izn versən, mən bu oğlana üç sual verərəm, cavablarını qaytara bilə, gedərəm buna.

Padşah razı oldu. Qız oğlana dedi:

– İndi get, mənim sorğularımı gözlə!

Sabahısı gün qız oğlana bir zümrüd göndərdi. Oğlan getdi bazara, bir dənə zəbərcəd alıb qoydu bunun yanına, qaytardı dala. O biri gün qız oğlana bir dənə almaz göndərdi. Oğlan almazı bir daş altdan, bir daş üstdən qoyub əzdi, bir dəsmala bağlayıb qaytardı dala. Üçüncü gün qız oğlana bir brilyant göndərdi. Oğlan gedib bazara, ondan da qiymətli brilyant göndərdi. Oğlan gedib bazara, ondan da qiymətli brilyant aldı, iki dənə də yaqut, hamısını bir yerdə göndərdi qıza.



Qız atasına xəbər göndərdi ki, oğlan suallara cavab verib. Kəbin kəsildi, toy oldu. Elə ki, toy qurtardı, padşah oğlanı da, qızı da yanına çağırıb soruşdu.

– Yaxşı, iş qurtardı, indi sən mənə de görüm, bu tilsimi necə sındırdın?

Oğlan dedi:

– Mənə atam tapşırmışdı ki, çətinliyə düşəndə qoca adamların məsləhətinə qulaq as! Odu ki, mən də bir qoca tapıb onun məsləhətiynən tilsimi sındırdım.

Padşah üzünü qızına tutub dedi:

– Bəs sən nə sual verdin, o sənə cavab verdi?

Qız dedi:

– Mən birinci dəfə ona bir dənə zümrüd göndərdim ki, mən atam-anam üçün zümrüd kimi bahalıyam, sən məni ala bilməzsən.

Oğlan dedi:

– Mən sənin fikrini anladım. Odu ki, bir dənə zəbərcəd alıb göndərdim ki, çox da qoltuqların şişməsin. Elə mən də atam-anam üçün zəbərcad kimi qiymətliyəm.

Qız dedi:

– Mən ikinci dəfə bir almaz göndərib dedim ki, mən almaz kimi bərkəm, sən mənim arzularımı yerinə yetirə bilməzsən.

Oğlan dedi:

– Mən başa düşdüm, ona görə də almazı əzib sənə göndərdim ki, əgər sənin arzuların hadağadan çıxsa, o arzuları mən beləcə əzərəm.

Qız dedi:

– Sora mən bir dənə brilyant göndərdim ki, mən brilyant kimi gözələm.

Oğlan dedi:

– Mən başa düşdüm. Odu ki, ondan qiymətli bir brilyant alıb sənə göndərdim ki, elə mən də gözələm. Ancaq yanına da iki yaqut qoydum ki, indi gör bizim kimi gözəldən iki dənə yaqut kimi oğlan dünyaya gəlsə, nə qiyamət olar...

Padşah bunların ağıl-dərrakəsini görüb yavaşca durdu ayağa, tacı götürüb qoydu oğlanın başına.

Qardaşlar bir neçə ildən sora birləşib getdilər atalarının yanına. Ataları böyük dəsgahla onların qabağına gedib gətirdi evə. Əhvalatı bilәndən sora onların alnından öpüb dedi:

– Mən onda qəsdən elə elədim ki, siz çıxıb, gedib özünüzə çörək axtarasınız.

Çünki öz əli ilə qazanmayıb ata malına göz dikənlər axırda bədbəxt olarlar.

## Hazarandastan bülbülü

Biri var idi, biri yox idi. Bir padşah var idi. Bu padşahın bir bağı var idi ki, ruzigarın gözü belə bir bağ görməmişdi. Gül gülü çağırır, içindən göz yaşı kimi çeşmələr axırdı. Bağın içində padşah dünyanın hər tərəfindən cürbəcür ağaclar gətirdib əkdirmişdi. Qərəz, nə deyim, bağda can dərmanı desəydin vardı. Bu bağın şöhrəti bütün ətrafa yayılmışdı. Dünyanın hər tərəfindən dəstə-dəstə adamlar bu bağın tamaşasına gəlirdi.



Bir gün yenə şəhərdən üç nəfər bu bağı görməyə gəlmişdi. Padşahnan bağı gəzdilər, dolandılar. Bağın qapısından eşiyə çıxanda, qonaqlardan biri bir ah çəkib dedi:

– Çox gözəl bağdı, amma heyf ki, Hazarandastan gülüynən Hazarandastan bülbülü bu bağda yoxdu.

İkinci qonaq bir ah çəkib dedi:

– Çox gözəl bağdı, amma heyif ki, Bili-Bilqeyyis xanım burda deyil.

Üçüncü qonaq da eləcə bir ah çəkib dedi:

– Çox gözəl bağdı, amma heyif ki, Süleymani-ərəbat bu bağın içində deyil.

Qonaqlar getdilər, padşah düşdü fikrə, vəzir diqqətnən baxıb gördü ki, padşah çox fikirdədi, dedi:

– Padşah sağ olsun, nə oldu fikrə getdin?

Padşah dedi:

– Vəzir, qonaqların sözü məni fikrə saldı. Hər nə təhər olsa, gərək Hazarandastan bülbülü, Hazarandastan gülü, Bili-Bilqeyis xanım, bir də Süleymani-ərəbat bu bağa gətirilə.

Vəzir dedi:

– Padşah sağ olsun, burda nə var ki, səni fikrə salır? Şükür olsun üç oğlun var. Çağır, əmr elə, gedib gətirsinlər. Bəs onlar nə vaxt sənə lazım olacaqlar?

Padşah gördü ki, vəzir doğru deyir. Onun doğrudan da üç oğlu vardı. Əmr elədi çağırdılar. Elə ki, oğlanların üçü də gəldi padşahın bərabərinə, padşah dedi:

– Oğlanlarım, mənim bağım misli görülməmiş bir bağdı. Amma dörd dənə əskiyi var, onlar da: Hazarandastan bülbülü, Hazarandastan gülü, Bili-Bilqeyis xanım, bir də ki, Süleymani-ərəbatdı. Bilmirəm, göy göbəyini yerə dayasa da, gərək onları gətirəsiz.

Oğlanlar atalarının əlindən öpüb atlarını minib, öpüşüb ayrıldılar.

O biri qardaşlar getməkdə olsunlar, sizə kimdən deyim, kiçik qardaşdan. Bu kiçik qardaş bir neçə gün yol gedəndən sora gəlib bir şəhərə yetişdi. Bir evin qabağında atdan düşüb gördü ki, bir qoca kişi dayanıb qapıda, dedi:

– Qoca, qəribəm, yol adamıyam, bu gecə məni qonaq saxlarsanmı?

Qoca:

– Niyə saxlamıram, bala?! Qonaq Allah qonağıdı.

Ev yiyəsi qoca, gün keçirmiş, dünyanın isti-soyuğun görüb, acı-şirinin dadmış bir adamdı. Gecə söhbət vaxtı oğlanın Süleymani-ərəbatından ötrü bura gəldiyini bilib dedi:

– Bala, sən gəl bu sevdadan əl çək! Çox igidlər, çox pəhləvanlar bunun üçün gedib, bir də dala qayıtmayıblar. Hələ sənin dimdiyinin sarısı heç getməyib, ağzından hələ süd qorxusu gəlir.

Oğlan dedi:

– Yox, dədəmə söz vermişəm, gərək eləyəm.

Onda qoca dedi:

– Oğlan, indi ki belə oldu, qoy sənə deyim. O at hər gün bir çeşmə var, gəlib o çeşmədən su içir. Onu ancaq orda tutmaq olar. Ancaq o çeşmənin yanına getmək üçün gərək yeddi dənə odlu dərədən keçəsən. Oğlan hər şeyi ondan öyrənib səhər atı mindi. Yola düşəndə qoca dedi:

– Çeşmənin başında bir ağac var. Çıxıb həmən ağacda gizlənərsən. Sübhi-sadıx zamanı bir sürü at gələcək, cəhd eləyib kəməndi qabaqdakı atın boynuna sal, özün də tez denən "at, Süleyman peyğəmbər eşqinə dayan!". Əgər elə deməsən, at səni də, ağacı da yerindən oynadıb həlak edər. Elə ki, mindin ata, dala baxmadan dördəmiyə çap! Daldan çoxlu



səslər gələcək ki, "ay tutun, ay vurun!" Nəbadə dönüb dala baxasan, baxsan daş olarsan.

Oğlan atı sürdü, az getdi, çox getdi, bir də gördü ki, uzaqdan işıq gəlir. Yaxınlaşdıqca işıq yekəldi, elə oldu ki, elə bil uzaqda məşəl yanır. Bir az gedəndən sora baxdı ki, qabaqdakı işıq qocanın dediyi odlu dərədi. Dərənin istisi oğlanı təngişdirməyə başladı. Ancaq buna fikir verməyib yoluna davam elədi. Getdi yetişdi odlu dərənin başına. Dərə nə dərə, elə bil ki, Allah cəhənnəmi bura köçürdüb.

Oğlan baxmayıb özün vurdu odun içinə. Dərədən çıxanda göy guruldadı, sümsürük oynadı, bir gurultu qopdu ki, həmli arvad olsa, qorxudan uşaq salardı. Oğlan qocanın dediyinə əməl eləyib, heç bir tərəfə baxmayıb, özünü ikinci dərəyə vurdu. Belə-belə dərələrin yeddisini də keçib çıxdı bir düzəngaha. Bir qədər atı sürəndən sora gəlib bir çəmənzara çatdı. Çəmənin ortasında uca bir ağac var idi. Ağacın altından bir çeşmə çıxıb abi-zəmzəm suyu kimi axırdı. Oğlan baxdı ki, elə qocanın dediyi yerdi ki, var. Atdan düşdü, əyləşib çəmənin başında bir az toqqasının altını bərkidəndən sora, çıxıb ağacda oturub gözləməyə başladı.

Səhərə yaxın bir də gördü ki, budu yer titrədi, göy şaqqıldadı, sümsürük oynadı, təpənin dalından bir dəstə at çıxdı. Atlar üz qoydular çeşməyə tərəf gəlməyə. Oğlan yerin möhkəmlədib kəməndi hazırladı. Atlar gəlib çeşməyə çatdılar. Oğlan baxdı qabaqdakı ata, gördü doğrudan da at bir atdı ki, Qırat onun yanında bir pula dəyməz.

Oğlan kəməndi atdı atın boynuna. At iki əlləri üstündə qalxdı göyə, oğlanı çəkdi, oğlan düz düşdü onun belinə. At bir də qalxdı ki, onu vursun yerə, oğlan dedi:

– Ay at, Süleyman peyğəmbər eşqinə dayan!..

At Süleyman peyğəmbərin adını eşitcək dayandı. Oğlan onu dəhnəliçov vurub başın döndərdi. Daldan nə qədər qışqırtı, bağırtı gəldisə oğlan dönüb baxmadı, birbaşa atı sürdü. Beş günə gəldiyini iki saatda keçib qocanın olduğu şəhərə çatdı. Oradan keçib birbaş yola düzəldi. Gəldi həmən üç yolun ayrıcına yetişdi. Daşın altına baxıb gördü ki, üzük ordadı. Bildi ki, hələ qardaşları qayıtmayıblar. Odu ki, üz qoydu ortancıl qardaşının getdiyi yola. Günə bir mənzil gəlib çatdı bir şəhərə. Şəhərin qırağında düşüb atın tükündən bir az çəkdi, cilovun başına dolayıb ötürdü, özü girdi şəhərə, baxdı ki, möhkəm acıb, dedi: gedib bir çörək yeyim. Bu fikirnən gəlib bir aşbaz dükanına girdi. Əyləşib xörək istədi. Aşbaz şəyirdi xörək gətirəndə oğlan gördü ki, öz qardaşıdı, soruşdu:

– Bəs qardaş, bu nə hal?

Qardaşı dedi:

– Qardaş işim tutmadı, heç birin tapa bilmədim. Axırda aşbazxana sahibinə yataq pulu verə bilmədiyimə görə, indi məni burda şəyird işlədir.

Oğlan onun borcunu verib aşbazdan aldı, şəhərdən də ona bir at aldı, sora lazım olan başqa şeylər alıb şəhərin qırağına gəldilər. Oğlan cibindən Süleyman – ərabatın tükünü çıxardıb tutuzdurdu. Süleyman-ərabat badi-sərsər kimi gəldi. Hər iki qardaş mindi, sürüb birbaş çatdılar üç yolun ayrıcına. Daşın altına baxıb gördülər ki, üzük hələ də ordadı. Kiçik qardaş ortancıla dedi:

– Qardaş, sən qal burda, mən gedim böyük qardaşımızın dalıncan.

Ortancıl qardaş orda qaldı, bizim bu kiçik yola düzəldi. Az getdi, çox getdi, gəlib bir şəhərə çatdı. Baxdı ki, böyük bir qəsr var. Bu qəsrin balaxanasında bir qız oturub ki, gözəlliyi göylərdən bac istəyir. Amma qəsrin qabağında bir dəstə fəhlə



palçıq ayaqlayır. Oğlan yanaşdı fəhlələrə ki, soruşsun görsün bu balaxanadakı qız kimdi. Bir də nə gördü?! Böyük qardaşı fəhlə paltarında qıçlarını da çirməyib burda palçıq ayaqlayır. Buna görəndə oğlanın az qaldı ki, ruhu bədənindən uçsun, dedi:

– Qardaş, bu nə haldı?

Qardaşı dedi:

– Qardaş, bu qızı ki, görürsən, bu Bili-Bilqeyis xanımdı. Hazarandastan gülü ilə Hazarandastan bülbülü də ondadı. Bu palçıq ayaqlayanlar da ki, hərəsi bir padşahın oğludu. Gəliblər ki, onu alsınlar. O da hər gələnnən güləşib yıxıb, hər yıxılana da beləcə ömrünün axırınacan burda palçıq ayaqlatdırır.

Oğlan dedi:

– Qorxma qardaş, bu saat onun saçlarını əlimə dolaram.

Başını yuxarıya qaldırıb dedi:

– Qız, düş aşağı!

Qız dedi:

– Nə istəyirsən?

Oğlan dedi:

– Sənnən güləşmək istəyirəm.

Qız gülüb dedi:

– Bir baxginən bu palçıq ayaqlayan adamlara. Bunlar hərəsi bir pəhləvandı. İndi burda palçıq ayaqlayırlar. Mənim sənə yazığım gəlir. Sən yaxşı bir oğlansan, özünü bədbəxt eləmə, çıx get!

Oğlan dedi:

– Uzun danışmağın yeri yoxdu. Bunları da görürəm, səni də, düş gəl yerə!

Qız dedi:

– Get oğlan, sənin ağzından hələ süd qoxusu gəlir. Anan yazıqdı, sənin hələ bələnməli vaxtındı, get, özünü bədnam eləmə!

Oğlan dedi:

– Sənin cənginə indiyə kimi görünür ki, pəhləvan düşməyib, indi məndən gözün qorxduğuna görə, aşağı düşə bilmirsən.

Qız hirsləndi:

– Oğlan, mən sənə qıymırdım, sənə yazığım gəlirdi. İndi ki, sən belə danışdın, çox yaxşı güləşək. Ancaq bir şərtnən. Sən məni yıxa bilsən, ixtiyar sənindi, nə istəyirsən elə, mən səni yıxdım başını kəsəcəyəm.

Oğlan dedi:

– Mən razıyam, şərtin gözüm üstə.

Meydan sulandı, süpürüldü, küstü başlandı. Üç gün, üç gecə güləşdilər. Oğlan axırda canın dişinə yığıb bir tilişdirmə vurub qızın arxasın qoydu yerə.

Qız dedi:

– İxtiyar sənindi, öldürə bilərsən.

Oğlan əlini onun dalına vurdu. Qız oğlan palçıq ayaqlayanların hamısını azad elədi. Hazarandastan gülünü, Hazarandastan bülbülünü, Bili-Bilqeys xanımı, bir də ki, qardaşını götürüb yola düşdü. Günə bir mənzil gəlib çatdılar üç yolun ayrıcına, gördülər ortancıl qardaş orda bunların yolunu gözləyir. Çadırlar quruldu, qazanlar asıldı, yedilər, içdilər, hərə öz çadırına yatmağa getdi. Gecə nə ortancıl qardaşın, nə də böyük qardaşın gözünə yuxu getmədi. Onlar bilmirdilər ki, atalarının yanına nə üznən çıxacaqlar. Gecənin bir vaxtı böyük qardaş durub getdi ortancıl qardaşın yanına. Bir az götür-qoy eləyəndən sora bu qərara gəldilər ki, qardaşlarının əl-ayağını bağlayıb salsınlar quyuya. Onun gətirdiyi bütün bu şeyləri aparıb öz adlarından versinlər padşaha.

Oğlan şirin yuxuda yatmışdı. Deyərlər ki, səhərin yuxusu ölümdən betərdi. Qardaşlar onun əl-ayağını kəndirnən bərk sa-



rıyıb gətirib Yusif kimi bir quyuya saldılar. Səhər tezdən bütün qəflə-qatırı yükləyib hazırladılar. Bili-Bilqeyis xanım soruşdu:

– Bəs oğlan hanı?

Qardaşlar dedilər ki, o gecəynən atalarına muştuluq aparıb.

Hər şeyi hazırladılar, amma nə qədər elədilərsə Süleymani-ərəbat onlara baş vermədi ki, vermədi. Axırda gördülər ki, tuta bilməyəcəklər, onu çar-naçar buraxıb atların içindən bir yaxşı at seçdilər. Süleymani-ərabtsız yola düşdülər. Gəlib yetişdilər atalarının hüzuruna. Ataları şeyləri görüb çox sevindi. Kiçik oğlunu soruşdu, dedilər:

– O heç bir şey gətirə bilməmişdi, ona görə də üzüqara olduğundan sənin yanına gələ bilmədi.

Əlqərəz, padşahı aldatdılar. O da bunların dediklərinə inandı. Bili-Bilqeyis xanım üçün məxsusi bir otaq ayırdılar, yaşamağa başladılar.

Onlar öz yaşamaqlarında olsunlar, sənə kimdən xəbər verim, kiçik oğlandan.

Bir vaxt səhərin yeli onun burnuna dəyəndə, ayılıb gördü ki, bir quyunun içindədi. Qardaşlarının xəyanətini başa düşdü, dedi:

– Hey gidi dünya, mən onlara nə elədim, onlar mənə nə elədilər...

Ancaq gecdi. Əlləşdi ki, birtəhər quyudan çıxsın, ancaq quyu çox dərindi, heç bir dənə ayaq yerisi yoxdu. Odu ki, çıxa bilmədi.

Yadınızdadırmı Süleyman-ərəbat onlara baş verməyib burda qalmışdı, öz sahibini axtarırdı. Qoxuluya-qoxuluya gəlib quyunun başına çatdı. Gördü ki, oğlan quyudadı. Gedib yaxındakı ağaclardan bir az meyvədən-zaddan ağzına yığıb gətirib quyuya saldı. At həmişə belə eləyirdi, gecələr də quyunun başında yatırdı.

Bir gün bir karvan gəlib burda düşdü. Baxdılar ki, quyunun başında yaxşı bir at var. İstədilər onu tutsunlar. Nə qədər elədilərsə, at baş verməyib elə quyunun ətrafında dolanırdı. Axırda dedilər ki, qoy görək bu quyuda nə sirr var ki, bu at burdan o yana getmir. Quyuya səslədilər. Oğlan ordan səs verdi. Qərəz, oğlanı quyudan çıxartdılar, əhval-pürsanlıq elədilər, o da açıb bütün başına gələnləri danışdı, sora onnlara razılıq eləyib Süleymani-ərabatın üstünə süvar oldu, üz qoydu öz şəhərlərinə. Gəlib şəhərin qırağında atdan düşdü, tükündən bir az çəkib cibinə qoydu, cilovun boynuna dolayıb, ötürdü. Gedib bir aşbaza şəyird oldu.

Bu burada işləməyində olsun. Bir gün padşah adam göndərdi Bili-Bilqeyis xanıma ki, hazırlaşsın, onu alır böyük oğluna. Bili-Bilqeyis xanım padşahla heç görüşməmişdi. Hazarandastan bülbülüynən gülü də vermirdi. Çəkilib öz otağında qara geyinib yasa batmışdı. Padşahın sifarişinə cavab göndərdi ki, mənim nişanlım hələ gəlməyib, kim məni almaq istəyirsə, gərək məni yıxa, sora ala.

Padşah oğluna əmr elədi ki, onu yıxsın.

Oğlan onun gücünü bilirdi, bilirdi ki, onu yıxmaq bunun xörəyi deyil. Odu ki, özünü vurdu naxoşluğa. Oğlanın bu naxoşluğu çox uzun çəkdi. Padşah vəzirdən soruşdu:

– Vəzir, bu məsələdən ağlın nə kəsir?

Vəzir dedi:

– Şah sağ olsun, sənin oğlun məhəbbətin gücündən naxoşlayıb, toy olmayınca o sağalmayacaq.

Padşah əmr elədi, toy tədarükü başlandı. Bili-Bilqeyis xanım gördü ki, işi zorla başladılar, öz ürəyində dedi:

– Yaxşı, mən də özüm bilərəm nə edərəm.

Bəli, toy quruldu, carçılar car çəkdi, qonaqlar çağırıldı, gəldi toyun axırıncı günü ki, gəlin gedəcəkdi, atlılar atlandı, at



çapmağa başladılar. Padşah da öz əyan – əşrəfiynən oturub tamaşa eləyirdilər. Bili-Bilqeyis xanım pəncərədən baxırdı.

Aşbaz bizim oğlanı dükanda qoyub at çapmağa getmişdi. Elə ki, o getdi, oğlan durdu ayağa, atın tükünü çıxardıb tutuzdurdu. At hazır oldu, ayaq rikabə, diz qabırğaya, yatdı atın boynuna, badi – sərsər kimi özünü vurdu çapışanların arasına. Padşah bir də gördü ki, budu bir oğlan gəlir, bir at minib, bir at minib ki, daha nə deyim. At yernən, göynən əlləşir. Oğlan bir o yana çapdı, bir bu yana çapdı, bir məhmizdə bütün çapışanları keçdi... Üçüncü dəfədə padşahın böyük oğlunun boynunu vurdu, qaçdı.

Padşah nərə çəkdi ki:

– Amandı, tutun, kim tutsa varımın yarısını ona verəcəyəm.

Atlılar düşdülər oğlanın dalına, oğlan gördü budu bütün pəhləvanlar gəlir. Hərçəndi ki, o, onların heç birindən qorxmurdu, amma bildi ki, dayanıb dava eləsə onu tanıyacaqlar, odu ki, üzün ata tutub dedi:

– Süleyman eşqinə, at məni götür!

Elə söz ağızdan qurtarmamışdı ki, at iki əlləri üstündə qalxdı göydə ucadan bir kişnədi, elə götürdülər ki, elə bil ox yayından çıxıb, bir göz qırpımında gözdən itdi. Toy yasa döndü. Hər şey qara boyandı. Bütün şəhər qırx gün əza saxladı. Amma Bili-Bilqeyis oğlanı tanımışdı. İndi daha lap arxayınlaşmışdı ki, oğlan sağdı, özü də burdadı.

Bu işdən düz bir il keçdi. Elə həmişə aşbaz heyfsilənib deyərdi:

– Köpəkoğlu ölmüş hardansa gəlib toyu yas elədi. Amma oğlan da əntiqə oğlandı ha... Adamın heç dilindən gəlmir ki, ona qarğış eləsin.

Oğlan da həmişə cavabında deyərdi:

– Vay köpəkoğlu, amma heyif ki, mən getməmişdim görəm.

Atalar yaxşı deyiblər ki, "ölən elə öldüyü yerdə qalar". Odu ki, indi də bir neçə vaxt qara-mara söz bağlayandan sora böyük oğlan yavaş-yavaş yaddan çıxdı.

Padşah Bili-Bilqeyis xanıma sifariş göndərdi ki, əl-ayağını sazlasın, onu kəbinini kəsdirib ortancıl oğluna.

Bəli, yenə tədarük görüldü, qazanlar asıldı, düyülər salındı suya. Toy başlandı. Ancaq Bili-Bilqeyis xanım bu dəfə arxayındı. O yəqin eləmişdi ki, oğlan buradadı.

Bəli, at çapılan gün yenə oğlan, əvvəl dediyimiz kimi, aşbaz gedəndən sora dükanı bağlayıb şəhərin qırağına çıxdı, atın tükün tutuzdurdu. At hazır oldu, qıçın aşırdı atın belinə, özünü vurdu çapanların içinə. Camahat hən-hün eləyib onu tutunca, o, ortancıl oğlanın da boynunu vurub, atı sürdü düz padşahın qabağına. Atdan düşüb dayandı şahın bərabərində. Padşah gördü öz oğludu. Qolun onun boynuna salıb dedi:

– Oğul, bu nə işdi gördün?

Oğlan dedi:

– Ata, yoldaşına xəyanət eləyənin cəzası belə olmadı, əgərçi o qardaş da olsa.

Padşah təəccübündən dedi:

– Necə? Bu nə sözdü?

Oğlan bütün əhvalatı bizim bildiyimiz kimi, danışdı. Hamı onu haqlı gördü. Yas təzədən toya döndü. Qırx gün, qırx gecə toy eləyib, Bili-Bilqeyis xanımı kiçik oğlana aldılar. Bağın düz ortasında bir qəsr tikdirib onları ora köçürdülər. Hazarandastan gülü bir tərəfdə, Hazarandastan bülbülü bir tərəfdə, Süleymani – ərəbat bir tərəfdə, Bili-Bilqeyis xanımnan oğlan da onların arasında... Bəh-bəh, keçmə bu bağın ləzzətindən.



Onlar yedilər, içdilər, yerə keçdilər. Siz də yeyin, için mətləbinizə yetişin! Göydən üç alma düşdü, biri mənim, biri nağıl deyənin, biri də özümün, siz sağ, mən də salamat.

## Keçəllə Tacir

Günlərin bir günündə bir nəfər kasıb kişi olur. Bu kişinin gözünün ağ-qarası keçəl bir oğlu varmış. Keçəl bayırda başqa uşaqlar kimi oynamağı çox sevirdi, amma tacir uşaqları keçəli öz aralarına buraxmırdılar. Bir gen keçəlin atası səhər tezdən işə getmişdi. Novruz qabağı idi, havalar da qızmışdı. Keçəl evdən bayıra çıxıb gördü ki, uşaqlar əl-əlvan geyinib oynayırlar. Keçəl bunlara qoşuldu, amma uşaqlar qoymayıb, bir ağızdan dedilər:

Keçəl-keçəl daz eylər,
Yuvada pərvaz eylər.
Minər qamış altına,
Sağsağana göz eylər.

Keçəlin acığı tutub evə gəldi, gördü ki, anası evdə təkdi.

Keçəl dedi:

– Ana, nə bişirirsən?

Anası dedi:

– İki ovuc arpa unumuz qalmışdı, umac bişirirəm.

Keçəl bərk acmışdı, dinməz oturub əvin bir küncündə anasını gözlədi ki, bir parça çörək alıb yesin. Amma çörəkləri yoxdu, günorta idi, keçəlin atası işdən gəldi. Gördü ki, atası iki parça quru çörək, bir az da xırda parça dəsmalından çıxarıb atdı süfrəyə.

Keçəl bərk acmışdı, tez çörəgi bir parçasını götürüb gördü ki, çörək çox qurudu. Keçəlin dişini sındırdı. Keçəl üzün atasına tutub dedi:

– Ata, bu çörəyi sənə kim verib?

Atası dedi:

– İki gündür ki, tacirbaşı Əlixanın çörəkçi dükanında odun yarmışdım, tacir bu çörəkləri mənə verdi.

Keçəl umaca dayanmadı, tez yarım çörəgi qoltuğuna vurub getdi tacirin qapısına. Gördü ki, tacirin oğlu qapıda oynıyır, bir quru çörəyə baxdı, bir də tacirin oğluna. Keçəlin dişi də sınmışdı, Allah deyib quru çörəgi vurdu tacirin oğlunun başına.

Tacirin oğlunun başından qan axa-axa getdi atasının yanına. Tacir oğlunun başının yarılmış görüb dedi:

– Oğlum, səni kim vurub?

Dedi:

– Keçəl vurubdu.

Tacir qəzəblənib adam göndərdi keçəlin dalısıncan. Eşit keçəldən.

Keçəl tacirin oğlunun başını yaran kimi özün yetirdi evlərinə. Anasına dedi:

– Naxoşam, yer sal.

Keçəl yatmaqda olsun. Tacirin adamları gəlib çıxdı. Keçəl gördü ki, tacirin adamları gəlir, özün vurdu naxoşluğa. Keçəlin atası tacirin adamlarının qabağına çıxıb dedi:

– Niyə gəlmisiz?

Dedi:

– Oğlun keçəl, tacirin oğlunun başını yarıb. Gərək keçəli aparaq tacirin yanına.

Dedi:

– Oğlum naxoşdur.

Tacirin adamları içəri girib gördülər ki, keçəl həqiqətən də naxoşdur, zarıltısından qulaq tutulur. Gedib tacirə xəbər verdilər, tacir əmr verdi ki, gərək gətirəsiz.



Tacirin adamları gəldi keçəlin yanına. Dedilər, səni tacirbaşı çağırır. Gərək gedəsən.

Keçəl dedi:

– Məndə hal yoxdur tacirin yanına gedəm, əgər ona çox lazımam, qoy özü yanıma gəlsin.

Xəbər çatdı tacirə ki, keçəl belə deyir. Tacirbaşı qəzəblənib ayağa durdu. İstədi ki, keçəli tutdursun, axırda əlacı kəsilib özü piyada keçəlin yanına gəldi.

Keçəl gördü ki, tacir gəlir, saldı özünü naxoşduğa.

Dedi:

– Ana, gələn tacirbaşıdırsa, xahiş elə iki barmaqilə alt dodağımla üst dodağıma vursun.

Tacir təəccüb elədi, axırda əlacı kəsilib keçəlin ağzına iki barmağilə bərk vurdu, keçəl sınıq dişini saxlamışdı, tez yerə atıb bağırdı:

– Vay-vay, tacir dişimi qırdı.

Tacir baxıb gördü ki, keçəl bunu çox incidəcək.

Dedi:

– Keçəl, bu gün oğlumun başını niyə vurub yarıbsan?

Keçəl dedi:

– Mən yarmamışam.

Tacir dedi:

– Yalan demə.

Keçəl baxıb gördü ki, tacir bundan əl çəkmiyəcək, tez başını yorğanın altınnan çıxarıb dedi:

– Tacirbaşı, mənim atam sənin dükanında işləyir? Mən yolnan gəlirdim, sizin evinizin qabağında atama rast gəldim, özüm də bərk acmışdım, atamdan çörək istədim. Atam da səndən aldığı çörəgi mənə verdi, çörəgi dişimə vurdum. Çörək o qədər quru idi ki, dişimi sındırıb, əlimdən tollanıb yarısı atamın gözünü çıxartdı, bir parası da oğluvun başına

dəydi. İndi mən səndən iki qabaq dişimi istəyirəm. Əgər verməsən divana, şikayətə gedəcəyəm.

Tacir baxıb gördü ki, keçəlin qabaq dişi düşüb. Bu tərəfdən də keçəlin atası gözünü bağlayıb. Keçəl dedi:

– Mən səndən şikayətə gedəcəyəm.

Tacir əlini cibinə salıb bir beşlik keçəlin ovcuna basıb durub getmək istədi. Keçəl dedi:

– Bəs atamın gözünün cəriməsi?

Tacir dedi:

– Sabah görüşərik.

Tacirbaşı getdi. Keçəl durdu, beşliyi verdi atasına, dedi:

– Ata gözüvü bağla, sabah səni divana aparacağam.

Eşit tacirdən. Tacir evinə getmişdi, amma yarı canı keçəlin yanında idi ki, səhər şikayətə getməsin. Keçəl gecəni yatıb səhər tezdən durub gəldi tacirin dükanına. Dedi:

– Nə deyirsən, atamın gözünün cəriməsini vermirsən, gedirəm divana.

Tacir dedi:

– Mənə bu günü də möhlət ver. Sabah atovun xəcalətindən çıxaram.

Keçəl pazı olub gəldi evnə.

Taciri fikir götürmüşdü. Bu dəm qoca bir qarı gəlib tacirdən pul istədi. Tacir acıqlanıb qarını qovdu.

Qarı dedi:

– Mənim üstümə çığırınca, keçəllə bacar.

Tacir dedi:

– Qarı nənə, sən yol göstər, keçəli yox eliyim. Nə istəsən sənə verrəm.

Qarı dedi:

– Qadavı alım, yatmağa yerim, yeməyə çörəyim yoxdur.

Tacir dedi:



– Mənim boynuma, sən tədbir gör.

Qarı dedi:

– Keçəl bu axşam damda yatacaq, gecə adam göndər, yorğan-döşəginən oğurrasunlar, sora başını tez batıra bilərsən.

Tacir qarıdan razı qalıb dedi:

– Al bu nişanəni get bizə, deginən tacir deyir qonağım gələcəkdir, hazırlıq görsünlər.

Qarı atdana-atdana getdi tacirin əvinə xəbərə.

Axşam tacir dükanını bağlayıb evinə gəldi. Qarı üçün ambarda yatmağa yer düzəltdi. Tacir öz keyfinə məşğul olub, gecə yarıdan keçəndən sora üç nəfər öz adamlarından keçəlçün göndərdi. Keçəl damda yatmadı. Tacirin adamları keçəlin yerini tapdılar. Keçəli yorğana səriyib birbaş apardılar tacirin yanına. Tacirin ürəgi keçəlin əlindən yanıqlı idi. Gələn kimi keçələ bir bərk təpik vurdu, keçəl işdən xəbərdar idi, amma dinmirdi. Tacir əmr elədi ki, keçəli öz yatan evinə qoysunlar. Səhər tezdən yorğan qarışıq ölənə qədər döysünlər. Keçəl tacirin dediklərini eşidirdi, tez tacirin nökərləri keçəli apardılar tacirin otağına.

Tacir soyunub yatana qədər keçələ o qədər təpik vurdu ki, keçəlin anadan əmdiyi süd burnundan gəldi. Axırda tacir yorulub yatdı. Keçəl taciri yuxuya verib özün bayıra atdı. Gördü ki, tacir yatıbdı, tez kilimi yerə salıb taciri kilimə sarıdı, bərk-bərk bağlayıb uzatdı evin bir küncünə. Özünü bayıra atıb, nökərlərin bir dəst paltarını geyib tacirin qızılın doldurdu cibinə, aşağa düşüb nökərləri ayıltdı:

– Tacir əmr eləyir ki, keçəlin başının iyindən yata bilmir, hələ bu saat keçəli döyüb ölürsünlər.

Nökərlər keçəlin yerinə öz ağalarını çəkdilər həyətə, o ki var vurdular. Amma tacirin naləsi göyə çıxırdı. Qarı gördü ki, döyülən keçəl döyül, tacirdi, dedi:

– Bəs keçəl hanı?

Nökərlər dedi:

– Palaz arasındakı keçəldi.

Qarı nökərləri qoymadı. Palazı açıb gördülər ki, döyülən tacirdi. Amma tacir yarımcandı. Nökərlər baxıb gördülər ki, işin üstü açılsa, iş yavalaşacaq, tacirin əl-ayağını bağlayıb atdılar çaya.

Keçəl tez özünü atasına yetirib ağır yüklərini yığıb gecəynən başqa şəhərə qaçdılar. Tacirdən götürdükləri pulu oturub rahat yedilər.

Onlar yeyib kef çəkdilər. Siz də var olun.

## Şamdanun nağılından bir parça

Günnərün bir günində Yemən vilayətində bir padşah vardi. Munun hər nə qızı olseydi öldütdirərdi. Qız tayfasını gözi götirməzdi. Bir gün arvadi hamilə idi.

Padşah didi: “Arvad, əgər bir də qız doğson, sənün özüvi öldürtdirəcegəm”. Vaxt oldi, doğmağ zamanında arvadun qızi oldi.

Arvad yalvardi momiyə ki, bu sirri heş kes bilməsün, apar uşaği saxla, padşa diyərüg ki, uşağ öli oldi. Moma uşaği götirib apardi öyünə. Padşa xəbər vərdilər ki, uşağ öli oldi. Moma başdadi qızi besdemegə. Qız gəldi, yetişdi om beş-on alti yaşına. Qız bilirdi ki, o, padşaun qızıdu, ama anasi una tapşırmışdi ki, heş kesə sirri demə.

Günnərün bir günində padşa oa gedirdi. Camat da küçələrə, damlara yığılıb padşa tamaşa eliyirdilər. Qız da atasıni heç görməmişdi.

Padşa atun üstində sağında vəziri, solında vəkili cəlalnan gedə-gedə oyan-buyana baxırdi.



Bir öyün qabağınnan keçəndə, damun üstində gözi bir qıza sataşdi, bir göüldən min göülə qıza aşiğ oldi. Qapıni nişanniyib getdi oa. Odan qeydənnən sora çağırdi arvadıni ki, arvad sənün oğlun olmır, mən ölənmeg istirəm. Arvad didi ki, ixtiyar səndədü. Çünki padşa idi, ona söz diyə bilmezdi....

## Çoban Məhəmmədin nağılından bir parça

Belə rəvayət edillər ki, çün günnərin bir günində bir Məhəmməd addi qoççağ oğlan var idi. Munun bir popaği varmış ki, yeddi qoyın dərisinnən; bir çuxasi varmış ki, əlli yeddi yerdən yamaği var imiş.

Günnərin bir günü şərdən çıxıb gedətdi ki, özünə bir parça çöreg qazansun. Yorılıb bir qəbristanda oturatdi.

Amma eşit əmi qızi və əmi oğlınnan. Bular bu şərdə olırdılar. Gün o gündən ki, əmi qızi əmoğlına diyətdi ki, əxşəm mən səni qəbristanda gözdiyədəm, gəl qaçağ. Qızın əmsi oğlının da adi Məhəmməd imiş. Qız əmsi oğlınnan qabağ ata minib qəbristana yavuğlaşatdi. Taki bu qız Məhəmmədi çağırat, çoban Məhəmməd durad, gedəd qızın bərabərinə. Şəbuzülmət, göz-gözi görmiyətdi. Qız əmisi oğlının əvəzinə, Məhəmməd alat tərkinə. Bir baş şərdən çıxad. Taki özini şərə yavuğ bir şərə yetirətdilər; qız səhər görətdi ki, bəli, əmsi oğli dögür; danışmiyib ürəyində diyətdi ki, bu çıxıb bəxtimə. Şərin bir ağaşdığında qız ati saxliyətdi, Məhəmmədə pul vərib diyətdi ki, get öy al və özüvə paltar al. Məhəmməd şərə girətdi, özinə bir des paltar və mülk alatdi. Gəlib qızi həmin mülkə qoyatdi. Bular bırda durdılar yaşamağa.

## Nağıl

Bir quş vardi, quş getdi bir kolun dibində otdi. Yoşana dedi ki: – "Cu-cu, gəl, məi təmizzə!" Dedi ki: – "Təmizdiyə dögəm məm səni".

Dedi: – "Gedərəm, diərəm eşşəyə, gələr, yiər səi". Getdi, eşşəyə dedi ki: – "O kolun dibində yoşan var, ged oyi ye!"

Eşşək diədi ki: – "Gedə dögəm"

Dedi: – "Gedərəm, diərəm canavara, gələr səi yiyər". Dedi ki: – "Get deginən!" Getdi dedi ki, canavara: – "Orda bir eşşək var, get, oyi ye!"

Dedi: – "Var, it get bırdan, gedərəm, qoyun – quzi yiyərəm; eşşək əti nöş yiyədəm?"

Dedi: – "Gedərəm, itə diərəm, gələr səi öldürər". Gedib itə diəd: – "Get, canavari öldür!"

İt deyib ki: – "Gedə dögəm".

Gedərəm, diərəm atıcıya, gələr quyruğun atar. Atıcı deyib ki: – "Gedib pambığ ataram, mən itin quyruğın atmanam".

Deyib ki: – " Gedərəm, diərəm siçana, gələr yayun kəsər".

Gəlib deyib siçana. Siçan deyib ki: – "Gedə dögəm, gedərəm qəysi-kişmiş torbalarını gəsərəm, yiyədəm".

Deyir ki: – "Gedərəm diərəm pişigə, gələr səi yiyər". Gəlir, pişigə diən təki". Ged siçayi ye", pişik gedib siçayi yeməgə. Siçan pişigə deyib ki: – "Yemə məi, gedərəm atıcının yayın kəsərəm". Siçan gedir atıcının yayın kəsməyə.

Atıcı deyir: – "Başua dönüm, yayımi kəsmə! Gedərəm itün quyruğını ataram".

Atıci gedir quyrığın atmağa. İt də deyib ki: – "Atma quyrığmi, gedərəm canavari öldürrəm". Gedir canavari öldürməyə.

Canavar deyib ki: – "Öldirmə məi, gedərəm eşşəyi yiərəm". Canavar da gedib eşşəyi yeməgə.



Eşşəg də deyib ki: – "Yemə məi, gedərəm yiyərəm o yoşayi". Eşşək də gedir o yoşayi yeməgə.

Yoşan da deyir: – "Ay quş, gəl səi təmizziyim, məi yemə də!"

## Şa İsmayıl nağılından bir parça

Şa İsmayıl Məhəmməd şahun oğliydi. Məhəmməd şamuni apardi, qoydi məkdəbə. Vaxd oldi, dərsi tamam elədi, apardi, qoydi oni bir pəlvannığ meşği almağa.

Pəlvannığ meşğinnən qurtarannan sora atasınnan at, qılınc, qalxan isdədi ki:

- Oa gedəcəgəm.

Atasi neçə at gətdi, heç biri on ilqabında davam gətirmədi. Dönüb sora dedi ki: – "İlxıda bir qəmər day var. Qəmər dayi gətirün!"

Qəmər dayi gətdilər, Yər əsbabi basıb üssünə mötəbər tapqırın bərkizib, öz səlahın da gətirib üssünə, bir neçə atdiynən oa çıxmağda olsun.

Düşdilər yola, gəzdilər, dolandılar, düşdilər axşama. Dayi şərə qayıda bilmədilər. Gördilər bir böyüg oba var. Vərdilər özlərin obıya. Əmr vərdi yanındakı yoldaşlarına ki: – "Həröüz bir qapıya gedün!"; özi də bir oba böügünün qapısına düşdü. Oba böügünün bir qızi vardi. Qızın adi Gülzar xanım idi. Orda bu eşq yetirdi Gülzar xanıma. İkisi, qıznan oğlan, üzüglərini bir-birinə vərdilər. Sabah olan kimi, şərlərinə gəlməgdə olsunnar. Gələn kimi Şa İsmayıl özin saldi noxoşdığa. Atasi, nə ki həkim vardi, yığdi gətdi malic eləsün. Heç biri malic eliyə bilmədi. Sorışdılar ki, İsmayıl, sən noxoşduğun nödi ki, bu həkimlər malic eliyə bilmədi.

İsmayıl dedi ki: – "Qızzan başqa heş noxoşdığım yoxdu. O qızın dərdinnən mən bu halətə düşmişəm". Atasi cuğabında dedi ki; – "Qıza elçi göndərrəm, vərər, allam". Onın elçisi gəlməgdə olsın qız yiyəsinin yanna. Qız yiyəsi cuğab vərdi ki: – "Bir həfdeyəcən mənə vaxd vər!"

Bir həftəni Məhəmməd şadan möhlət alannan sora, bu, sərkar qaçmağda olsun öz vilayətinə, qızi da özi ilə apardi. Bu xəbəri Məhəmməd şa xabar vərdilər. Şa İsmayıl həmən qəmər qti minib, oriyəcən sürdi, gəldi obiyə. Gördi ki, oba köçüb, kəkliglər yurdun yerində otdir. Baxdi kəkliglərin otdamağına, təbi gəlib Gülzar xanmun daliycə görək nə dedi:

Yar yuan əllərün güdməz xinəsi,
Qırmızi .......... var, məxmər sinəsi,
Çimənnig olaği, quzey binəsi,
Oxır-oxır, gəlir səsi kəkligün.

Axşam olcağ qaçar, gedər binayə,
Sabah olcağın yığılıb gəlir günayə,
Ala qaytan keçib çarpaz sinayə,
Oxır-oxır, gəlir səsi kəkligün.

İki gözəl bir-birinən bəhs eylər,
Əvvəlün toy bayram, axırın yas eylər,
Oxır-oxır, qayalarda səs eylər,
Oxır-oxır, gəlir səsi kəkligün.

Kəkliglərdən mua bir xabar olmadi, yuaş-yuaş sürib atıni köçin irziynən...



## "KOROĞLU" DASTANINDAN PARÇALAR

### Koroğluynan Aypara

Koroğlu oturub mağarada dəlilərdən küsmüşdü. Bu tərəfdən də Eyvazı gözləyirdi ki, Eyvaz gələ. Eyvaz gəlib çıxmadı. Koroğlu çox darıxıb durub gəldi Qıratın yanına, sazını kök eləyib görək nə dedi:

Qurban olum qara telə,
Eyvazı yolladım gələ,
Al yanağı döndü gülə,
Qoçum Eyvazım gəlmədi.

Havalarda uçan durna,
Qanadları burma-burma,
Həm dəf çaldım, həm də zurna,
Qoçum Eyvazım gəlmədi.

Göy üzündə vardı ulduz,
Hər dəlimə aldım bir qız,
İstər gəlin, istərsə qız
Qoçum Eyvazım gəlmədi.

Gedibən halallaşmadı,
Dedim getmə, barışmadı,
Qoç işinə qarışmadı,
Qoçum Eyvazım gəlmədi.

Gedin deyin o cavana,
Gül çiçəyi qıydı cana,
Nöş gəlmədin sən bu yana,
Qoçum Eyvazım gəlmədi.

Qoçum Eyvaz, qoçum Eyvaz,
Getdin, könül oldu nasaz,
Divandasan mənə sən yaz,
Qoçum Eyvazım gəlmədi.

Koroğlu ağlayırdı. Elə bu dəmdə Eyvaz özünü Koroğluya yetirdi. Koroğlu qolunu saldı Eyvazın boynuna, öpüşdülər. Səhəri günü Koroğlu Qıratı Eyvaza tapşırıb aşıq paltarı geydi, sazını qoltuğuna vurub çıxıb getdi.

Koroğlu bir neçə mənzil yol gedib, gəlib çatdı İstanbul şəhərinə. İndi gəlin xəbəri İstanbul paşasının qızı Aypara xanımnan verim. Aypara xanım əmisi oğlu Osmana adaxlı idi.

Aypara bilirdi ki, atası Xəlil paşaynan Koroğlunun arası yoxdu. Aypara xanım eşitmişdi ki, Koroğlu çox şücaətli adamdı. Pis məqamda olsa da düşmənə boyun əyən deyil. O, çox tələsirdi ki, Koroğlunu görə.

Bir gün Aypara eyvanda gəzinirdi, bu dəmdə Koroğlu aşıq paltarında gəlib eyvanın qabağından keçdi. Aypara xanım gördü ki, keçən oğlan çox gözəl, möhkəm adama oxşayır.

Ayparanın qulluqçusu dedi:

– Xanım, bu Koroğludu!

Aypara xanım dedi:

– Koroğlu atamın qorxusundan bu tərəflərə gəlib çıxmaz.

Qulluqçusuynan xanımın sözü çəp düşdü.

Aypara xanım dedi:

– İndi ki belədi, get çağır onu, görək kimdi?

Qulluqçusunun adı Sənəmdi. Aşağı düşüb Koroğlunu çağırdı. Koroğlu gəlib dayandı eyvanın qabağında, gördü ki, iki qız yan-yana durub, bir-birindən gözəl.

Aypara xanım xəbər aldı ki kimsən?

Koroğlu sazını sinəsinə basıb dedi:



Birisinin ayağında məsti var,
Birisinin can alma qəsdi var,
Koroğlunun bu yerlərdə əsri var,
Koroğluyam, gəldim mən bac almağa.

Sənəm Aypara xanıma dedi:

– Gördün Koroğludu!

Aypara xanım saçın saz eləyib görək nə dedi:

Koroğlu gəzdirir qolunda laçın,
Sədası gələndə düşmənnər, qaçın,
Görməmişəm doqquz hörük mən saçın,
Hanı Qıratın, gəldin bac almağa!

Koroğlu:

Koroğlu küsəndə meydan eliyir.
Buraxıb Qıratın sazın köklüyür,
Dəliləri Çənlibeldə bəsliyir,
Koroğluyam, gəldim mən bac almağa!

Aypara xanım dedi:

– Sən Koroğlu deyilsən. Əgər Koroğlusansa de görüm onun ən yaxın dəliləri kimlərdi?

Cavabında Koroğlu dedi:

Bir dəlim vardı ki, adıdı Eyvaz,
Sağında, solunda düşməni saymaz.
Uzağa getsə də o mənsiz durmaz,
Koroğluyam, gəldim mən bac almağa!

Aypara xanım Eyvazın adını eşidib yəqin etdi ki, Koroğludu. Bu tərəfdən də Koroğlu hörüyünü Ayparaya görsətdi. Aypara xanım Koroğlunu tanıyıb, əmisi oğlu Osmanın məhəbbətini ürəyindən çıxartdı. Bir könüldən min könülə vurulub özünü ona nişan verdi:

Adımdı Aypara, nəslim duduman,
Yaşıl çimən, axar sular, şux orman.

Atam Xəlil paşa, adaxlım Osman
Hayıfsan, ay oğlan görəllər səni.

Koroğlu:

Adındı Aypara, nəslin duduman,
Ay qız, sənin adaxlındı Osman,
Mən gəlmişəm alım burda qana-qan,
Verib mənə nişan dəlilər səni.

Aypara:

Dəlilərin nolur burda olaydı,
El-obanı çalıb-çapıb soyaydı,
Ayparaynan baş yastığa qoyaydı
Heyifsan, ay oğlan görəllər səni.

Koroğlu bir az da irəli gəlib Aypara xanımı təpədən dırnağa kimi süzdü, sazı döşünə basıb görək nə dedi:

Mən gedəndə burda tikdirdim qala,
Koroğlu dönübdü bu bürcü ala,
Koroğlu boynuna qulac qol sala,
Nişan verib mənə dəlilər səni.

Koroğlu sözünü tamam elədi. Eyvana çıxıb Aypara xanımla qol qola verib girdilər otağa. Koroğlu burda bur neçə gün qalıb Ayparaynan keyf çəkməkdə olsun, sizə deyim Sənəmdən.

Sənəmin gözü Koroğluya düşmüşdü. Bir gün girəvə tapıb təklikdə Koroğluya dedi:

– Gəl baş yastıq olaq.

Koroğlu iki barmağıynan Sənəmin ağzından bir sillə vurdu. Sənəmin ağzı, burnu qanla doldu. Sənəm gəlib bulağa əl-üzünü yudu, tez özünü yetirdi Osmanın yanına. Çatcağın ona dedi:

– Bəylik taxtın yıxılıb; anan qara geysin, nə durmusan. Aypara Koroğluya aşiq olub. Bu saat onun yanındadı.



Osmanın əhvalı dəyişdi. O, bir tərəfdən qorxuya düşdü, o biri tərəfdən də qeyrət hissi onu boğdu. Osman at minib, qoşun götürüb Koroğlunun üstünə yeridi.

İndi eşit Ayparaynan Koroğludan.

Koroğluynan Aypara xanım oturmuşdular eyvanda. Çay içib söhbət eləyirdilər. Birdən Koroğlunun gözü sataşdı yola, gördü ki, Osman atdılarnan ona sarı gəlir. Tez sazı döşünə basıb dedi:

Düşdü üzüyümün qaşı,
Olmamışdım mən heç naşı.
Sağ buraxdım qarabaşı,
Çənlibeldə Eyvaz qaldı.

Bu sözdən Aypara bir şey başa düşmədi.

Xəbər aldı ki: – nə olub?

Koroğlu dedi:

Nə təmizdi üzü ayın,
Yoxdu Rum elində tayın,
Sənəm çıxdı bizə xayın,
Dörd yanımı düşmən aldı.

Aypara bu sözü eşidən kimi Koroğlu baxan tərəfə baxıb gördü ki, Osman qoşunnan gəlir. Üzün tutub Koroğluya dedi:

– Doğrudu, gəlirlər. Amma məəttəl qalmışam ki, Sənəm bizi nə üçün satıb.

Koroğlu Sənəmnən olan əhvalatı Ayparaya danışdı.

Aypara dedi:

– İndi ki, məni bu qədər sevib vəfalı çıxıbsan, gəl mən səni davazsız-şavasız buradan qutarım.

Koroğlu dedi:

– Mən gərək meydanda cövlan vuram. Osmana qan ağladam.

Aypara xanım yalvarıb qoymadı. Durub gəldilər evə. Aypara xanım Koroğluya bir dəst arvad paltarı geyindirib bu biri qapıdan yola saldı. Koroğlu arvad paltarında çıxıb yolun bir tərəfində gizlənməkdə olsun, sizə deyim Osmandan. Osmangil bu tərəfdən gəlib çatdılar Ayparanın eyvanının qabağına. Eyvanı dövrəyə alıb dayanmışdılar ki, Koroğlu səsinin nazik yerinə salıb qışqıra-qışqıra atılıb üz qoydu Osmanın qoşununa sarı.

Osman xəbər aldı ki, ay qarı, nə üçün qışqırırsan?

Koroğlu dedi:

– Necə qışqırmayım, Koroğlunun yeddi min yeddi yüz yetmiş yeddi dəlisi Xəlil paşanın evini alt-üst elədilər.

Koroğlu bunu deyib gözdən itdi, dərəyə çəkilib əlini belinə qoyub dayandı. Osman əmr verdi ki, qoşun əmisinə köməyə qayıtsın. Qoşun qayıdanda əl atıb atdarın birinin cilovuna, çəkdi dərəyə. Atdını boğub atını aldı. Qılıncını bağlayıb belinə, gözlədi. Bu tərəfdən qoşun gözdən itib getdi. O biri tərəfdən də tək qalan Osman özünü yetirdi Ayparanın qapısına. Qapını döydü. Aypara xanım qapını açmadı. Bu dəmdə Koroğlu Osmana özünü yetirdi. Osmanın qolun bağlayıb atdı bir yana. Aypara xanım eyvandan baxırdı. Bunu görüb Koroğluya dedi:

– At quyuya!

Koroğlu Osmanı yernən sürüyə -sürüyə götürüb saldı dərin bir quyuya. Ağzına da bir dəyirman daşı çevirib çıxıb getdi Ayparanın yanına. Oturub keyfə başladılar.

Dəlilər Koroğlunun yadından çıxmışdı. Koroğlu ikinci gün Ayparanı götürüb keçdi başqa bir yerə. Xəlil paşa işdən xəbərdar olub Koroğlunun dalısıncan adam saldı. Bu tərəfdən də Sənəm Koroğlunun dalısıncan gəzirdi. Koroğluynan Ayparanı tapa bilmədilər. Xəlil paşanın ovqatı təlx olub elan verdirdi ki, kim Koroğlunun yerini desə bir kisə qızıl verəcəyəm.



Koroğlu dəlilərdən düz bir ildi ki, ayrılmışdı. Ayparadan bir oğlu olmuşdu.

Dəlilər çox gözlədilər. Doqquz ay başa çatandan sonra Eyvaz dedi:

– Dəlilər, gərək gedək Koroğlunun dalısıycan. Çünki Koroğlu bizdən çox ayrı düşsəydi bir ay düşərdi. Amma doqquz aydı ki, ondan xəbər yoxdu. Gəlin üç aylıq yolu bir aya başa vurub gedək Koroğlunun dalısıycan. Dəlilər razı olub Qıratı da özləriynən götürüb getdilər.

Dəlilər oba-oba, şəhər şəhər gəzib Koroğlunu axtarırdılar.

Dəlilər gəzməkdə olsun, xəbər verək Xəlil paşadan. Xəlil paşa elan verdirmişdi ki, kim Koroğlunun yerini bilib desə bir kisə qızıl verəcək.

Sənəm Koroğlunun əlindən yanıqlıydı. Özlüyündə and içdi ki, harda olsa Koroğlunu tapacam. Düşüb oba-oba onu gəzdi.

İndi xəbər verək Koroğludan.

Koroğluda bir xasiyyət vardı, həmişə işi bərkə düşəndə, ya pis yuxu görəndə çıxıb hündür bir yerdə namaz qılardı. Koroğlu dəliləri yuxuda görüb, əhvalı bir az dəyişmişdi. Qalaçanın təpəsinə çıxıb namaz qılırdı. Sənəm də el-obanı gəzib gəlib çıxmışdı bura. Birdən gördü ki, ucadan səs gəlir. Sənəm yeridi irəli, gəlib yetişdi qalaçaya, baxıb diqqət etdi ki, Koroğlu burdadı. Ayparanın da qucağında uşaq eyvanda gəzişir. Tez özünü Xəlil paşaya yetirib dedi:

– Koroğlunun yerini tapmışam. Qızın Aypara xanım da onun yanındadı.

Xəlil paşa əmr verdi ki, qoşun hazır olsun. Qoşun hazır oldu. Sənəm qoşunu birbaş götürüb çıxartdı Koroğlu olan yerə. Sənəm qoşuna sərkərdəlik edib qoşunu dağın döşündə gizlətdi. Gecədən xeyli keçmişdi ki, Sənəm qoşunu götürüb gəldi Koroğlunun qalaçasına. Sənəm kəmənd atıb düşdü həyətə.

Qapını açıb qoşunu çəkdi irəli. Eyvana çıxıb gördü ki, Koroğlu Aypara xanımnan yatıb. Uşağı da qoyublar özlərindən bir az aralı. Əmr verib tez Koroğlunun, Ayparanın əl-ayağını bağlatdı. Bir vədə Koroğlu uşağın səsinə ayılıb gördü ki, düşmən dörd tərəfi alıb. Burda bir qapaqapdı ki, gəl görəsən.

Koroğlu bir uşağa, bir də Ayparaya baxıb dedi:

Dərələrdə ucalıbdı bol qamış,
Qamışı qırmağa gəlibdi camış,
Biz yatmışıq, Sənəm çoxdan oyaqmış,
Oyan, qollarımı Sənəm bağladı.

Aypara xanım səsə ayıldı. Amma yuxuluydu. Oturub yerinin içində baxırdı, bilmirdi ki, nə olub. İstədi gözlərini ova ki, yuxusu qaçsın, gördü qolları bağlıdı. Koroğlu alıb dübarə dedi:

Düşmən gəlib dörd tərəfim bağladı,
Koroğlunun ürəyini dağladı.
Bu məclisdə Koroğlu ağladı,
Ayıl, qollarımı Sənəm bağladı.

Koroğlu dartınıb qollarını açdı, oğlunun qoluna bir bazu bənd bağladı. Sənəm Aypara xanımı, Koroğlunu, bir də uşağı götürüb qatdı qoşunun qabağına. Üz qoydular Xəlil paşanın imarətinə sarı. Sənəmgil yolda Koroğlunun uşağını bir daşın dibinə qoyub çıxıb getdilər.

Xəlil paşaya xəbər çatdı ki, Koroğlu tutulubdu. Paşa əmr elədi ki, Koroğlunu aparıb salsınlar quyuya. Qızı Ayparanı da zindana saldırdı. Koroğlunu gətirib bir dərin quyuya saldılar.

Sizə xəbər verək bir qarıdan. Yaxınlarda bir qarı özünə ev tikmişdi, həyətində toyuq-cücə saxlamaqla məşğul olurdu. Qarının bir iti var idi. İt təzəcə doğmuşdu. İt bir gün bir çaqqal səsi eşidir, çıxıb üz qoyur səsə tərəf. Gəlib bir daşın dibində ay yarımlıq bir oğlan uşağı tapır. İtin uşağa yazığı gəlir. İstəyir onu aparsın, görür ki, uşaq acdı. Başlayır uşağa süd



verməyə. Bir neçə gün it bu uşağı burda öz südü ilə saxlayır. Qarı itdən şəklənir. Bir gün itin dalısıncan düşüb gəlib çıxır həmin daşın dibinə. Görür ki, daşın dibində bələkli bir uşaq var, it onu əmizdirir. Qarı tez uşağı götürüb evinə gəlir. Başlayır uşağı saxlamağa.

Sizə deyək Koroğlunun dəlilərindən. Dəlilər gəlib çatmışdılar İstanbula. Qıratda bir xasiyyət vardı ki, Koroğlu hansı dəlikli daşda olsaydı iynən gəlib onu tapardı. Eyvaz Qıratı buraxmışdı qabağa. Qırat gəlib özünü yetirdi Aypara xanımın eyvanına. Buranı dolanıb iylədi. Sonra özünü yetirdi bir quyunun ağzına. Ayaqlarını döydü yerə. Eyvaz bildi ki, Koroğlu burdadı. Səs verdi. Koroğlu səsdən bildi ki, dəliləridi, dedi:

– Kəmənd atın.

Dəliləri kəmənd atıb Koroğlunu quyudan çıxartdılar. Aldı, Koroğlu:

Dəlilərlə barışanda Koroğlu,
Yedirdər onlara nabatnan noğlu,
Səhərsi kəsdirər yüz əlli toğlu,
Ayparam qalıbdı düşmən əlində.

Səməndin qolunda qızıl bazubənd,
Xəlil paşa bürcdən asılsın gərək.
Qıymayın əldə qala bir aylıq Səmənd,
Ayparam qalıbdı düşmən əlində.

Hindidən Rumatək salaram soraq,
Dəlilərim olur Qırat tək qovraq,
Yıxıban Xəlili bu eldən qovaq
Ayparam qalıbdı düşmən əlində.

Koroğlu sözünü tamam elədi. Qıratı çəkib ayaq qoydu üzəngiyə, dəlilərə dedi:

– Gəlin dalımcan.

Onlar atlarını sürüb yetirdilər şəhərə. Xəlil paşanın nə ki qoşunu vardı, hamısını qırıb çatdılar başa. Koroğlu Xəlil paşanı öz əliynən öldürüb əmr verdi ki, Sənəmi tapsınlar. Özü də Ayparanı axtarmağa getdi.

Koroğlu Ayparanı tapdı. Onlar bir-birinə sarıldı. Koroğlu Sənəmi xəbər aldı.

Aypara xanım ağladı. Koroğlu bildi ki, Sənəm yox olub, çox heyifsiləndi. Dəlilər axtardılar, Sənəmi tapa bilmədilər.

Koroğlu dəlilərini yığıb şadlıq məclisi qurdu. Dəlilərnən bir yerdə üç gün, üç gecə keyf çəkdilər. Siz də burda kefdə, damaqda olun.

## Koroğluynan Bəylər

Koroğlu bir gün dəlilərinə deyir:

– Dəlilərim, mənim səfərim var.

Dəlilər deyir:

– Hara gedirsən?

Koroğlu deyir:

– Nə işinizə, budu bu xəncəri də asıram divardan, hərgah xəncərin ucundan qan damsa məni ölmüş bilin.

Koroğlu Qıratını minib bir neçə mənzil yol gedəndən sonra gəlib çatdı bir çəməngaha. Gördü burda bir bağ var gəl görəsən. Dünyada hər cür ağacdan olan bu laləzar bağda gül bülbülü, bülbül gülü çağırır. Bənövşələr açıb, ağaclar yarpaqlanıb.

Koroğlu bu bağı dolana-dolana diqqətnən tamaşa eləyirdi. Bir də gördü bağın içində ceyran misallı bir qız sallana-sallana yüz naz qəmzə ilə bağı seyr edir. Qız nə qız. Qaşlar qara, gözlər qara, baldan şirin ləbləri, sinəsi Şahdağın qarı kimi ağ, məmələri köynəyin altından şamama kimi baş veribdi.



Koroğlu qızda bu gözəlliyi görən kimi çaşıb qaldı, özözünə dedi: "Ey dili qafil, dünyada belə də gözəl varmış". Bunun üstən alıb sinə sazın görək nə dedi:

Açılıb bağında lalə, nərgizlər,
Qönçəsin iyləyib, gülün dərərlər,
Alıb onu ipək üstə sərəllər,
Gözəl qız, gəl mənə, mən alım səni.

Koroğlu belə deyəndə qızın gözləri xumarlandı, qıyqacı Koroğluya baxdı. Qız belə baxanda Koroğlu sözünü davam etdi:

Qurban olum qara gözün məstinə,
Nə durubsan bu canımın qəstinə,
Əlim vurum tər məmənin üstünə,
Gözəl qız, gəl mənə, mən alım səni.

Koroğlu der: gəzmə ahı-zarınan,
Gül-bülbülü oynatma sən xarınan,
Qonuşginən mənim təkin yarınan
Gözəl qız, gəl mənə, mən alım səni.

Koroğlu özünü nişan verən kimi qız Koroğlunu tanıdı. Bu da var ki, Cəlil paşanın qızı Dinməz xanım öz qardaşı oğlu Bəylərə nişanlı idi. Dinməz xanım həm də Koroğlunun Cəlil paşaynan arasının yoxluğunu eşitmişdi. Bunu da bilirdi ki, dəfələrnən Koroğlu Bəyləri özünə dəli aparmaq istəyib, amma gücü çatmayıb.

Dinməz xanım Koroğlunu görən kimi tanıyıb, bir sehr – cadu oxuyub, Koroğlunu saldı tilsimə, əl-ayağını bağlayıb, tez atasına xəbər göndərdi ki, bəs durmasın gəlsin.

Cəlil paşa adam göndərib, Koroğlunu tutub saldırdı zindana.

Koroğlu zindanda qalmaqda olsun, al xəbəri Dəli Həsənnən.

Dəli Həsən gecə-gündüz yatmayıb Koroğlunun yolunu gözləyirdi, bir də gördü ki, xəncərin ucundan qan damır, tez dəliləri çağırıb dedi:

– Amandı, dəlilər, Koroğlu zindandadı, gərək tez dadına yetişək.

Dəlilər heç biri yerindən tərpənməyəndə, Dəli Həsən bir də səsləndi.

Bu belə deyəndə Eyvaz dedi:

– Haçana kimi biz Koroğlunu ölümdən qurtaraq, canı çıxsın tək getməsin.

Eyvaz belə deyəndə Dəli Həsən Ərəbatı minib, bina qoydu yol getməyə. Neçə mənzil yol gedib, gəlib çatdı bir şəhərin kənarına, gördü bir qarı yerdən çöp yığır.

Dəli Həsən xəbər aldı:

– Qarı nənə yerdən yığdığın nədi?

Qarı dedi:

– Qadovu alsın qarı, çör-çöp yığıram.

Dəli Həsən dedi:

– Qarı nənə çör nədi, çöp nədi?

Qarı dedi:

– Çör yerə uzanan, çöp də dik dayanandı.

Dəli Həsən dedi:

– Qarı nənə, nə oxuyursan?

Qarı dedi:

– Ay oğul, açıl başımnan.

Dəli Həsən dedi:

– Sən de, mən sənin dərdinə əlac eləyim.



Qarı:

– Ay oğul, Koroğlu deyilən bir nəfəri Cəlil paşa tutub salıb zindana. Sabah boynu vurulacaq, onunçün ah-zar edirəm.

Dəli Həsən bunu eşidən kimi:

– Nə dedin, qarı nənə? O zindanı mənə göstər.

Qarı zindanı Dəli Həsənə göstərdi. Dəli Həsən zindana tərəf getməkdə olsun, sənə Koroğludan deyim.

Koroğlu zindanda oturub dəlilərinin yolunu gözləyir, ah-nalə içində onları harayına çağırırdı. Dəli Həsən də bu tərəfdən gəlib çatdı zindana. Zindanın dal tərəfindən dama çıxıb, Koroğlunu görmək istədi. Gördü Koroğlu sazı əlinə alıb dəlilərini haraya çağırmaqdadı.

Dəli Həsən dinməyib Koroğlunun sözlərinə qulaq asmaqda olsun, görək Koroğlu nə dedi:

Koroğluyam, salınmışam zindana,
Bütün dəlilərim yanımda gərək.
Sorağım düşübdü bu gün hər yana,
Bütün dəlilərim yanımda gərək.

Gömgöy çəmənlərdə otlayır quzu,
Qara zindan qoymur görüm ulduzu.
Çağırram imdada iyid Murtuzu,
Dəmirçioğlu bu gün yanımda gərək.

Axıtdılar bəylər, xanlar qanımı,
Zindan üzgün etdi şirin canımı,
Apara bilmədim Dinməz xanımı,
Eyvaz balam bu gün yanımda gərək.

Koroğlu belə deyəndə Dəli Həsən dedi:

– Ey dad, ardıycan gələn mən, heç mənim adımı çəkmir.

Dəli Həsən acıq eyləyib getmək istəyirdi ki, Koroğlu sözünə davam etdi:

Mərd iyidlər, mərd olarlar davaya,
Mərdin başı düşər qala qovğaya,
Xəbər çatsın Çənlidəki halaya,
Halaypozan qoçum, yanımda gərək.

Qıratıma daha yetə bilmədim,
Şirin canı ona qıya bilmədim,
Dinməz təki yara çata bilmədim,
Dəli Həsən bu gün yanımda gərək.

Koroğlu sözün tamam elədi.

Dəli Həsən atılıb damdan yerə düşdü. Özünü zindançının üstünə atıb onu öldürdü. Zindanın qapısını qırıb Koroğlunu zindandan çıxartdı.

Koroğlu zindandan çıxıb, tez özünü yetirdi Dinməz xanıma. Dinməz xanım eyvanda dayanmışdı. Koroğlunu görən kimi bir cadu oxuyub onu saldı tilsimə.

Koroğlu baxıb gördü ki, yeriyə bilmir. Əl atıb sazına Dinməz xanıma dedi:

Uca dağların başında,
Ləpə-ləpə qar görünür,
Mənim bu sınıq könlümə,
Qara gözlü yar görünür.

Dinməz xanım heç dillənməz,
Tamam tarı-mar görünür,
Pəri, sənnən heç əylənməz
Dünya başa dar görünür.



Uca-uca qarlı dağlar,
Könlüm intizar görünür.
Açılmaz heç güllü bağlar,
Dinməz xanım xar görünür.

Dəli Həsən baxıb gördü ki, Koroğlu canından ötrü yalvarır. Öz-özünə dedi: "İyit də bir qaşıq qannan ötrü yalvarармı?"

Koroğlu dedi:

Uca-uca dağ başından,
Yenib gəldim, gözəl yarım.
Vurulmuşam yay qaşından
Əsir düşdüm, gözəl yarım!

Qara qaşın yaydı sənin,
Gül camalın aydı sənin,
İşin ahnan vaydı sənin,
Əsir düşdüm, gözəl yarım!

Koroğlu yarı dinməzdi,
Dinməz xanım lap dinməzdi,
Yarım gülüb danışmazdı,
Əsir düşdüm, gözəl yarım.

Dinməz xanım işi belə görəndə, Koroğlunu tilsimdən çıxartdı. Bu tərəfdən də Dəli Həsən Dinməz xanımı götürüb qaçdı.

İndi sənə xəbəri Bəylərdən verim.

Bəylərə xəbər getdi ki, Koroğlu Dinməz xanımı götürüb qaçdı. Bəylər qılınc bağlayıb, yüyürüb çatdı Koroğluya.

Koroğlu gördü Bəylər gəlir, tez sarı kürkünü çəkib əyninə, uzun bığlarını sallayıb, üz-gözünü torpağa sürtdü, belini qoz eləyib oturdu yerdə.

Bəylər gəlib çatdı Koroğlunun yanına, onu tanımadı. Bəylər keçib getmək istəyirdi ki, Koroğlu özünü silkələyib bir nərə çəkdi, Bəylər nərəni eşidən kimi dala baxdı. Bəylər gördü ki, bu, Koroğlu deyil, yenə getdi. Bir neçə qədəm getmişdi, Koroğlu yenə bir nərə çəkdi. Bəylər dala dönüb yapışdı Koroğludan, istədi onun başını kəsə, Koroğlu aldı, görək nə dedi:

İstəyirsən sən alasan canımı,
Bəylər bəyi, qoç Koroğlu deyiləm,
Keçib gedən gördüm Dinməz xanımı,
Bəylər bəyi, qoç Koroğlu deyiləm.

Bəylər dedi:

– Koroğlusan. Kəsəcəyəm başını.

Koroğlu dedi:

– İzn ver, birin də deyim.

Koroğlu:

Salmaginən bu işi gəl əngələ,
Bəylər bəyi, qoç Koroğlu deyiləm.
Nə çıxıbsan mənlə qılınc-xəncələ,
Bəylər bəyi, qoç Koroğlu deyiləm.

Adam odu, şirin dilnən dindirən,
Bəylər bəyi, qoç Koroğlu deyiləm.
Gəl sən olma mən yazığı öldürən,
Bəylər bəyi, qoç Koroğlu deyiləm.

Bəylər Koroğlunu buraxdı. Koroğlu qaçıb çıxdı bir dağın başına. Tez soyunub paltarını dəyişdi. Elə bir nərə çəkdi ki, Bəylər qorxub geri döndü, gördü ki, Koroğludu.

Koroğlu Bəylərə dedi:

– Bəylər, gəl mənə dəli ol, Dinməz xanımı sənə verim.

Bəylər dedi:



– Olmaram. Gəl döyüşək.

Belə deyəndə Koroğlu sazı alıb, görək Bəylərə neçə hərbə-zorba gəldi.

Koroğluyam, heç vaxt qorxmaram hərbdən,
Hərifsənsə əgər, bu meydana gəl.
Əvvəl xəncəlnən, sora çənginən
Hərifsənsə əgər, bu meydana gəl.

Aldı Bəylər:

Nə çıxıban ucalarda durmusan,
İyidsənsə enib bu meydana gəl.
Yazıq-yazıq sən boynunu burubsan,
İyidsənsə enib bu meydana gəl.

Koroğlu:

Dov edibən neçələrin dindirrəm,
Düşmənləri şad eliyib güldürrəm,
Enib para-para səni öldürrəm,
Hərifsənsə əgər, bu meydana gəl.

Aldı Bəylər:

Arzu-kamı qoyma şirin canımda,
Öldürməyə cuş eləyib qanımda
Dəlilərin yığılıb durub yanımda,
Hərif isən durub tək meydana gəl!

Koroğlu:

Bəylər bəyi, mənə dəli olginən,
Dinməz xanım yenə qoy sənin olsun.
Qəbul elə mənə dəli olginən,
Toy eləyim Dinməz qoy sənin olsun.

Bilirsənmi qoç Koroğlu zorunnan,
Azmaginən haqqın doğru yolunnan,
Müjdə verim sənə dinməz toyunnan,
Sən dəli ol, Dinməz qoy sənin olsun.

Koroğlu der qismət haqqı yazımdı
Tozlu meydan, tacı-taxtım, tacımdı,
Bunu bil ki, Dinməz mənim bacımdı,
Sən dəli ol, Dinməz qoy sənin olsun.

Koroğlu sözün tamamladı. Bəylər baxıb gördü ki, dəlilər də gəlib yetişdi, razı olmasa Dinməz xanım əlinnən çıxacaq. Əlacı kəsilib razı oldu.

Koroğlu Bəyləri qatdı dəlilərinə. Çənlibeldə yeddi gün, yeddi gecə toy elədi. Dinməz xanımı verdi Bəylərə.



## QEYD VƏ İZAHLAR

**Atalar sözləri.** T.Səlimov-Şağaninin "Abşeron folklorundan seçmələr" (Bakı: Elm, 1994) və "Türkan" (Bakı: YNE, 2001) kitablarından götürülmüşdür.

**Tapmacalar.** M.Ş.Şirəliyevin "Bakı dialekti" (Bakı: Elm, 1957) və T.Səlimov-Şağaninin "Türkan" (Bakı: YNE, 2001) kitablarından götürülmüşdür.

**Alqışlar. Qarğışlar.** T.Səlimov-Şağaninin "Abşeron folklorundan seçmələr" (Bakı: Elm, 1994) və M.Ş.Şirəliyevin "Bakı dialekti" (Bakı: Elm, 1957)kitablarından götürülmüşdür.

**Salamlar, qarşilamalar, sağollaşmalar, müraciətlər, andiçmələr, oxşamalar, idiomlar**. M.Ş.Şirəliyevin "Bakı dialekti" (Bakı: Elm, 1957) və T.Səlimov-Şağaninin "Abşeron folklorundan seçmələr" (Bakı: Elm, 1994) kitablarından götürülmüşdür.

**Əmək nəğmələri.** T.Səlimov-Şağaninin "Şağan" (Bakı: Elm, 1998) kitabından götürülmüşdür.

**Bayatılar.** T.Səlimov-Şağaninin "Abşeron folklorundan seçmələr" (Bakı: Elm, 1994) və və "Türkan" (Bakı: YNE, 2001) kitablarından götürülmüşdür.

**Mərasim folkloru.** Bu bölməyə daxil edilən materiallar V.Nəbioğlunun "Maştağa" (Bakı: Azərb.Milli Ensiklopediya, ) və Qılman İlkinin "Bakı və bakılılar" (Bakı: Zaman, 1998) kitablarından götürülmüşdür.

**Lirik parçalar, mərasim nəğmələri, qayınana-gəlin sözləri.** T.S.Şağaninin "Abşeron folklorundan seçmələr" (Bakı: Elm, 1994) və "Türkan" (Bakı:YNE, 2001) kitablarından götürülmüşdür.

**Mahnılar. *"Qız ilə oğlanın söhbəti"*** – M. Ş. Şirəliyevin "Bakı dialekti" (Bakı: Elm, 1957) kitabından götürülmüşdür.

**Şikəstələr.** Cəfər Bünyadzadənin "Kəşkül və yaxud nəğmələr məcmuəsi" (Nəğmə və şikəstə) (Bakı: Səda, 1919) kitabından götürülmüşdür.

**Mərsiyələr.** Əli Əkbərin Şümirə müraciəti adlanan bu mərsiyə T.S.Şağani tərəfindən Bakının Qala kəndində qeydə alınmış və toplayıcının "Abşeron folklorundan seçmələr" (Bakı: Elm, 1994) kitabına salınmışdır.

**Uşaq folkloru.** ***Laylalar.*** T.S.Şağaninin "Abşeron folklorundan seçmələr" (Bakı: Elm, 1994) kitabından götürülmüşdür.

***Nazlamalar.*** T.S.Şağaninin "Abşeron folklorundan seçmələr" (Bakı: Elm, 1994) kitabından götürülmüşdür.

***Oyunlar.*** T.Səlimov Şağaninin "Oyunlar və əyləncələr də bir tarixdir" (Bakı: Gənclik, 1993) kitabindan götürülmüşdür.

**Əfsanə və rəvayətlər.** ***"Bibiheybət", "Qız qalası"*** əfsanələri Azərbaycan folkloru antologiyasının II kitabından (Bakı: AEA nəşriyyatı, 1968) götürülmüşdür..

**Pirlər, ziyarətgahlar.** Bakı və ətrafının pirləri və ziyarətgahları barədə məlumat M.Nemətin "Azərbaycanda pirlər" (Bakı: Azərnəşr, 1992) və T.Səlimov-Şağaninin qeyd olunan kitablarından götürülmüşdür.

**Qaravəllilər.** M.Ş.Şirəliyevin "Bakı dialekti" (Bakı: Elm, 1957) kitabından götürülmüşdür.

**Lətifələr. Məzəli əhvalatlar.** T.Səlimov-Şağaninin "Abşeron folklorundan seçmələr" (Bakı: Elm, 1994)

**Nağıllar.** ***Qaraqaşın nağılı*** – söyləyəni Mələknisə Kazım qızı, Bakı, 60 yaşında, savadsız, toplayanı Ə.H.Tahirov, 1935. Bu nağıl "Azərbaycan nağılları" (5 cilddə, 1-ci cild, Bakı: Çıraq, 2004) kitabına salınmışdır.

***Simanın nağılı, Yeddi dağ alması*** – AMEA Nizami adına Ədəbiyyat İnstitutunun folklor şöbəsinin arxivi, Bakı, 1936. Bu nağıl "Azərbaycan nağılları" (5 cilddə, 1-ci cild, Bakı: Çıraq, 2004) kitabına salınmışdır.

***Ceyranın nağılı, Nardan qızın nağılı*** – söyləyəni Ruqiyyə Rza qızı, 42 yaşında, Bakı, toplayanı Ə.H.Tahirov, 1936. "Azərbaycan nağılları" (5 cilddə, 1-ci cild, Bakı: Çıraq, 2004) kitabına salınmışdır.



***Gül ilə Sanavar, Mərdnən Namərdin nağılı*** – söyləyəni Fatma Nəsir qızı, Bakı, Nardaran kəndi, toplayanı Ə.H.Tahirov, 1934. "Azərbaycan nağılları" (5 cilddə, 1-ci cild, Bakı: Çıraq, 2004) kitabına salınmışdır.

***Dünya gözəli*** – söyləyəni Həbib, toplayanı Ə.H.Tahirov, Bakı Buzovna kəndi, 1933. "Azərbaycan nağılları" (5 cilddə, 1-ci cild, Bakı: Şərq– Qərb, 2005) kitabına salınmışdır.

***Üç şahzadə Hazaran dastan bülbülü*** – söyləyəni Baxşəli Sultanov, toplayanı M.H.Təhmasib, Bakı, 1934. "Azərbaycan nağılları" (5 cilddə, 1-ci cild, Bakı: Şərq– Qərb, 2005) kitabına salınmışdır.

***Keçəllə Tacir*** – söyləyəni Mahmud Əzim oğlu, toplayanı Ə.H.Tahirov, Bakı Binəqədi kəndi, 1936, "Azərbaycan nağılları" (5 cilddə, 1-ci cild, Bakı: Şərq– Qərb, 2005) kitabına salınmışdır.

***Süleymanın nağılı*** – söyləyəni Xədicə xanım, 73 yaşlı, Bakı şəhəri, Bülbülə kənd sakini. 1973. İlk dəfə çap olunur.

***Səfeh Teymur*** – söyləyəni Cəfərov Cəfər, 75 yaşında, Bakı şəhəri, Ramana kəndi, 1973. İlk dəfə çap olunur.

***Şamdanun nağılından bir parça, Çoban Məhəmmədin nağılından bir parça, Nağıl, Şa İsmayıl nağılından bir parça*** – M. Ş. Şirəliyevin "Bakı dialekti" (Bakı: Elm, 1957) kitabından götürülmüşdür.

**"Koroğlu" dastanından parçalar.** ***"Koroğluynan Bəylər"*** – AMEA Folklor İnstitutunun elmi arxivi, söyləyəni Əliş Səməd, toplayanı Ə.H.Tahirov, Bakı, 1936, qovluq № 726. "Koroğlu" (Bakı: Lider, 2005, 552 s. mətni hazırlayıb tərtib edənlə İ.Abbaslı, B.Abdulla) kitabına salınmışdır.

***"Koroğluynan Aypara"*** – AMEA Folklor İnstitutunun elmi arxivi, söyləyəni Aşıq Cahangir, toplayanı Ə.H.Tahirov, Bakı, Saray kəndi 20 iyun 1936, qovluq №726. "Koroğlu" (Bakı: Lider, 2005, 552 s. mətni hazırlayıb tərtib edənlə İ.Abbaslı, B.Abdulla) kitabına salınmışdır.

## BAŞLIQLAR

**Tərtibçilərdən** .......... **3**
**Atalar sözləri** .......... **5**
**Tapmacalar** .......... **28**
**Alqışlar. Qarğışlar** .......... **31**
**Salamlar, qarşılamalar, sağollaşmalar, andiçmələr, oxşamalar, idiomlar** .......... **36**
**Əmək nəğmələri** .......... **40**
**Bayatılar** .......... **41**
**Mərasim folkloru** .......... **50**
**Lirik parçalar, mərasim nəğmələri, qayınana-gəlin sözləri** .......... **68**
**Mahnılar** .......... **82**
**Şikəstələr** .......... **85**
**Mərsiyələr** .......... **85**
**Uşaq folkloru** .......... **86**
**Əfsanə və rəvayətlər** .......... **96**
**Pirlər, ziyarətgahlar** .......... **99**
**Qaravəllilər.** .......... **112**
**Lətifələr. Məzəli əhvalatlar** .......... **113**
**Nağıllar**
Qaraqaşın nağılı .......... 121
Simanın nağılı .......... 141
Ceyranın nağılı .......... 178
Süleymanın nağılı .......... 203
Səfeh Teymur .......... 211
Yeddi dağ alması .......... 215
Nardan qızın nağılı .......... 224
Gül ilə Sanavar .......... 244
Mərdnən Namərdin nağılı .......... 252
Dünya gözəli .......... 258
Üç şahzadə .......... 264
Hazarandastan bülbülü .......... 276
Keçəllə Tacir .......... 287
Şamdanın nağılından bir parça .......... 292
Çoban Məhəmmədin nağılından bir parça .......... 293
Nağıl .......... 294
Şa İsmayıl nağılından bir parça .......... 295
**"Koroğlu" dastanından parçalar** .......... **297**
**Qeyd və izahlar** .......... **315**

**Bakı folklor örnəkləri, 1-ci kitab,**
Bakı, "Elm və təhsil", 2015.

Nəşriyyat direktoru:
**Prof. Nadir Məmmədli**

Nəşriyyat redaktoru:
**V.Əsgərova**

Kompyuterdə yığanlar:
**S.Cəfərli**
**Ş.Haqverdiyeva**

Korrektorlar:
**A.Hüseynova**
**N.Məmmədova**

Kompyuter tərtibçisi və
texniki redaktoru:
**Aygün Balayeva**

Kağız formatı: 60/84 1/32
Mətbəə kağızı: №1
Həcmi: 320 səh.
Tirajı: 300

Kitab Azərbaycan MEA Folklor İnstitutunun
Kompyuter Mərkəzində yığılmış, səhifələnmiş,
"Elm və təhsil" NPM-də hazır deopozitivlərdən
ofset üsulu ilə çap olunmuşdur.